Cəlal Qasımov

# CÜMHURİYYƏTİN TƏHLÜKƏSİZLİK ORQANLARI

(1918-1920)

Bakı-2018

*"Müsəlman Şərqində ilk demokratik cümhuriyyətin məhz Azərbaycan torpağında yaranması xalqımızın o dövrdə və o illər ərəfəsində – XIX əsrin sonunda və XX əsrin əvvəllərində milli müstəqillik, azadlıq duyğuları ilə yaşaması ilə bağlıdır. O illərdə xalqımızın qabaqcıl şəxsiyyətləri, mütəfəkkir adamları, ziyalıları xalqımızda milli azadlıq, milli müstəqillik duyğularını gücləndirmiş, milli dirçəliş, milli oyanış əhval-ruhiyyəsi yaymış və bunların hamısı məntiqi olaraq Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmışdır".*

***Heydər Əliyev***
***Azərbaycan xalqının Ümummilli Lideri***



*"Azərbaycan o ölkələrdəndir ki, hələ yüz il bundan əvvəl ən ülvi demokratik dəyərləri nəinki bəyan edib, öz praktiki fəaliyyətində onları təmin edib. Bugünkü Azərbaycan, müstəqil Azərbaycan Azərbaycan Xalq Cümhuriyyətinin varisidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin bütün demokratik ənənələrinə sadiqik və bu ənənələri yaşadırıq… Biz Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini çox düzgün təhlil etməliyik. Bu müsbət və çətin məqamları gizlətməməliyik".*

***İlham Əliyev,***
***Azərbaycan Respublikasının Prezidenti***



Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi

**Elmi redaktoru və ön sözün müəllifi:**
Musa Qasımlı,
*AMEA-nın müxbir üzvü, professor*

**Rəyçilər:**
Ədalət Qasımov, *tarix üzrə elmlər doktoru*
Kamran İsmayılov, *tarix üzrə fəlsəfə doktoru*

**Redaktor:**
Aqşin Məmmədov, *filologiya üzrə fəlsəfə doktoru*

**Dizayner:**
İntiqam Məhəmmədli

**Cəlal Qasımov. Cümhuriyyətin təhlükəsizlik orqanları (1918-1920). Bakı: ____, 2018, ___səh.**

Geniş oxucu kütləsinə təqdim olunan bu kitabda Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik orqanlarının - Müdafiə Nazirliyinin tərkibində Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin, bir qədər sonra Əksinqilabla Mübarizə Təşkilatının təsis edilməsi, həmin təhlükəsizlik orqanlarının hansı zərurətdən yaradılması, süqutu, əməkdaşlarının taleyi və digər bu kimi məsələlər dövrün mətbuat orqanları və arxiv materialları əsasında tədqiq edilmişdir. Monoqrafiyada Əksinqilabla Mübarizə Təşkilatı rəhbərlərindən Məmmədbağır Şeyxzamanlı, Əli Razi Şamçızadə, Mahmud Səfikürdiski, Məmmədtağı Dadaşov kimi əməkdaşların sonrakı taleyi də tədqiqatın predmetinə çevrilmişdir.

ISBN____________

# MÜNDƏRİCAT

**Ön söz. Məxfi qurumun açıq tarixi haqqında qiymətli əsər**
*(M.Qasımlı)* ........ 13

**Giriş** ........ 18

**I fəsil. Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik orqanlarının yaradılması və fəaliyyəti** ........ 37

I.1. Cümhuriyyətin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət ........ 39

I.2. Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin yaradılması ........ 48

**II fəsil. Əksinqilabla Mübarizə Təşkilatı Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil təhlükəsizlik orqanı kimi** ........ 61

II.1. Əksinqilabla Mübarizə Təşkilatının yaradılması və onun kadr siyasəti ........ 63

II.2. Əksinqilabla Mübarizə Təşkilatının fəaliyyət istiqamətləri ........ 70

**III fəsil. Əksinqilabla Mübarizə Təşkilatının ləğv edilməsinin səbəbləri** ........ 75

**IV fəsil. Azərbaycan Xalq Cümhuriyyəti təhlükəsizlik orqanlarının əməkdaşlarının taleyi** ........ 81

IV.1. Mahmud Səfikürdiskiyə qarşı ittihamlar ........ 107

IV. 2. Əli Razi Şamçızadəyə qarşı ittihamlar ........................................... 112
IV. 3. Məmmədtağı Dadaşova qarşı ittihamlar ..................................... 129
IV. 4. Eyni gündə oxunmuş üç hökm ...................................................... 135
IV. 5. Həbsxanada ölən adam.................................................................... 142
IV. 6. L.Beriya Əksinqilabla Mübarizə Təşkilatında ............................. 149

**Əlavələr** .................................................................................................. 155

**İstifadə olunmuş ədəbiyyat** . ................................................................... 167

## Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2018-ci il may ayının 28-də Müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi tamam olur.

Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır.

XIX əsrin birinci yarısından etibarən maarifçilik ideyalarının yayılması ilə Azərbaycanda baş vermiş köklü ictimai-siyasi və mədəni dəyişikliklər yeni tipli teatrın, məktəbin və mətbuatın yaranmasını təmin etməklə milli özünüdərkin gerçəkləşməsi üçün zəmin hazırladı. Abbasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə ilə başlayan bu yolu yeni tarixi mərhələdə Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Əli bəy Hüseynzadə və digər görkəmli şəxsiyyətlər davam etdirərək milli məfkurənin təşəkkülü və inkişafına mühüm təsir göstərirdilər. Həmin dövrdə güclü sahibkarlar təbəqəsinin formalaşdığı neft şəhəri Bakı eyni zamanda milli ruhlu ziyalılar nəslinin yetişdiyi ictimai-siyasi fikir mərkəzinə çevrilmişdi. Rusiyanın Dövlət dumalarına və Müəssislər Məclisinə seçilmiş azərbaycanlılar müstəmləkədən azad, demokratik dövlət sistemi yaratmağa hazır idilər.

Bununla yanaşı, Rusiyada çarizmin süqutundan sonra bolşeviklərin hakimiyyəti ələ keçirməsi ilə keçmiş imperiya ərazisində mürəkkəb geosiyasi vəziyyət yaranmışdı. Dünyanın aparıcı dövlətlərinin Bakı neftinə marağının siyasi çarpışmaları daha da gərginləşdirdiyi belə bir

şəraitdə Azərbaycanın tərəqqipərvər siyasi elitası müstəqil milli dövlətçiliyin yaradılması naminə birləşdi.

1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal Bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni imkanlarının ən son həddində çalışaraq şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi, Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü.

Mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi ortadan qaldırdı. Cümhuriyyət parlamentinin il yarımlıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verdi. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra Azərbaycanın bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını aldı.

Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa

da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. Azərbaycan xalqı ötən dövr ərzində milli dövlətçilik atributlarının bir çoxunu qoruyub saxlaya bildi. Ümummilli lider Heydər Əliyevin respublikada uğurla gerçəkləşdirdiyi siyasət xalqımızın tarixi-mədəni yaddaşını özünə qaytararaq milli mənlik şüurunu inkişaf etdirdi, azərbaycançılıq məfkurəsi işığında müstəqillik arzularının güclənməsi və yaxın gələcəkdə yenidən həqiqətə çevrilməsinə zəmin yaratdı.

1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, milli dövlətçilik salnaməsini müstəsna dərəcədə zənginləşdirmiş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin layiqincə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubileyi respublikada dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin yaranmasının 100 illik yubileyi münasibətilə xüsusi iclasın keçirilməsi tövsiyə edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 may 2017-ci il.**

## 2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

1918-ci il mayın 28-də Azərbaycan xalqının həyatında misilsiz hadisə baş vermiş, Müsəlman Şərqində ilk parlamentli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdur. Cəmi iki ilə yaxın yaşamış Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə milli dövlətçilik tarixində silinməz izlər qoymuş, xalqın qəlbində azadlıq və istiqlal duyğularını gücləndirməklə respublikanın gələcək müstəqilliyi üçün etibarlı zəmin hazırlamışdır.

2018-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü tamam olur. Bu əlamətdar hadisənin dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli 2867 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmışdır. Bu tədbirlərlə yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

2018-ci il Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 10 yanvar 2018-ci il.**

# ÖN SÖZ
## Məxfi qurumun açıq tarixi haqqında qiymətli əsər

Bütün Müsəlman Şərqində ilk parlamentli respublika qurmaqla, müsəlman xalqlarına respublika məfkurəsini gətirməklə, imperiyanın zülmündən qurtulmaqla onlara müstəmləkəçilikdən xilas olmağın yolunu göstərməklə, Avropanın bir çox ölkələrindən əvvəl qadınlara seçib-seçilmək hüququnu verməklə dünya demokratiyasına böyük töhfə vermiş Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev milli tariximizə xüsusi qayğı və hörmət əlaməti olaraq Cümhuriyyətin 100 illiyi ilə bağlı 2017-ci il 16 may tarixində müvafiq sərəncam imzalamış[1], digər bir sərəncamı ilə 2018-ci ili "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan etmişdir.[2] Böyük tarixi, ictimai-siyasi və mənəvi-psixoloji əhəmiyyət daşıyan bu sərəncamlardan irəli gələn məsələlərin yerinə yetirilməsi həm XX əsrdə Azərbaycanın birinci müstəqillik tarixinin öyrənilməsinə marağı artırmaqla tarixşünaslıq nöqteyi-nəzərindən böyük elmi-nəzəri əhəmiyyət kəsb edir, həm də milli-mənəvi önəm daşımaqla gənc nəsildə müstəqil dövlətçilik duyğularını və milli tarixinə sahib çıxmaq hisslərini gücləndirir.

Heç kəsə sirr deyildir ki, təlatümlərlə dolu bəşər tarixinin müxtəlif mərhələlərində qədim dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı öz istiqlalına doğru keşməkeşli və çətin yol keçsə də, onun taleyində XX əsrdə baş vermiş hadisələr müstəsna yer tutur. Çünki məhz həmin əsrdə Azərbaycan xalqı əvvəlki dövrlərdə böyük və mürəkkəb tarixi təkamül nəticəsində formalaşmış milli istiqlal ideyasını həyata keçirərək Müsəlman Şərqində ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyətini yaratmış, lakin bolşevik işğalı nəticəsində 1920-ci ildə dövlət müstəqilliyini itirsə də, keçən əsrin 90-cı illərinin başlanğıcında yenidən bərpa etmişdir.

---

1 "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 16.05.2017. // "Azərbaycan" qəzeti, 17.05.2017.

2 "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.10.01.2018.// "Azərbaycan" qəzeti, 11.01.2018.

Cümhuriyyət dövrü Azərbaycan xalqının şərəfli tarixinin ən mühüm səhifələrindən biridir. Heydər Əliyev həmin dövr haqqında deyirdi: **"Bu gün biz Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasını və iki illik fəaliyyətini təmin edənlərin hamısını böyük minnətdarlıq hissi ilə yad edirik. Onlar həqiqətən vətəndaşlıq şücaəti göstəriblər, həqiqətən öz xalqı, milləti qarşısında böyük qəhrəmanlıq göstəriblər. Xalq Cümhuriyyətinin yaradıcıları – Məmmədəmin Rəsulzadə, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Nəsib bəy Usubbəyov, Həsən bəy Ağayev, Xalq Cümhuriyyətinin ilk Milli Şurasının bütün üzvləri, Xalq Cümhuriyyəti hökumətinin üzvləri Azərbaycan xalqı qarşısında böyük xidmətlər göstəriblər. Xalqımız onların xidmətlərini bu gün minnətdarlıq hissi il yad edir. Onların gördüyü işlər və əziz xatirələri Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır".**[3]

Məlum olduğu kimi, Cümhuriyyət tarixinin sistemli şəkildə araşdırılmasında Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyi ilə bağlı olaraq Azərbaycan Respublikasının Prezidenti, Ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında", "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illiyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında" və "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş ümumrespublika mərasiminin keçirilməsi haqqında" sərəncamları mühüm rol oynamışdır.[4] Məhz həmin sənədlərdə nəzərdə tutulmuş məsələlərin yerinə yetirilməsi nəticəsində Cümhuriyyət dövrü tarixinə həsr olunmuş ciddi, əhatəli və dərin elmi-tədqiqat işləri aparıldı, qiymətli əsərlər yazıldı, xarici siyasət sənədləri, Cümhuriyyət parlamentinin stenoqramları və s.

3 Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. On beşinci kitab, s. 167

4 "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 30.01.1998. // "Azərbaycan" qəzeti, 01.02.1998; "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 22.02.1998. // "Azərbaycan" qəzeti, 24.02.1998; "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş ümumrespublika mərasiminin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 24.05.1998. // "Azərbaycan" qəzeti, 26. 05.1998.

nəşr edildi. Görülən işlər, heç şübhəsiz, böyük əhəmiyyət daşısa da, tədqiq edilməsini gözləyən problemlər hələ də qalmaqdadır. Həmin problemlərdən biri Cümhuriyyətin xüsusi xidmət orqanının yaradılması və fəaliyyətidir.

Məlum olduğu kimi, vətənpərvər Azərbaycan ziyalılarının, ictimai və dövlət xadimlərinin səyi ilə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik təsisatları arasında təhlükəsizlik qurumları xüsusi yer tutmuşdur. Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi və dövlətçiliyinin möhkəmləndirilməsi uğrunda mübarizə aparan təhlükəsizlik orqanlarının xidmətini yüksək qiymətləndirən Ümummilli lider Heydər Əliyev deyirdi: **"Xalq Cümhuriyyəti zamanı Azərbaycanın təhlükəsizlik orqanları gənc, müstəqil dövlətimizə, dövlətçiliyimizin möhkəmləndirilməsinə öz layiqli töhfələrini vermişdir".** [5]

İndiyədək Cümhuriyyət tarixinə dair çoxlu araşdırmalar aparılsa da, təhlükəsizlik orqanlarının yaradılması və fəaliyyəti xüsusi tədqiqat obyekti olmadığından elmi aktuallıq və praktiki əhəmiyyət daşıyır. Bu baxımdan professor Cəlal Qasımovun böyük zəhmət hesabına apardığı araşdırmalar nəticəsində yazdığı əsəri diqqəti xüsusilə cəlb edir. Əsərdə qədim Romadan qədim Çinə qədər, qədim Şərqdən ABŞ-da F.D.Ruzveltin dövründə "milli təhlükəsizlik" anlayışının təsdiqlənməsi zamanına qədər xüsusi xidmət qurumlarının dövlətlərin və dövlətçiliyin tarixində oynadıqları rol, istifadə etdikləri üsul və vasitələr məntiqi ardıcıllıqla ümumi şəkildə şərh və təhlil olunur. Monoqrafiyada XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiyada yaranmış ictimai-siyasi şərait və bununla bağlı Azərbaycanda gedən proseslər, Cümhuriyyətin yaranmasına gətirib çıxaran yol və müstəqillik əldə etmiş gənc Azərbaycan dövlətinin xüsusi xidmət orqanlarının yaradılması və inkişafı, eləcə də süqutunun səbəbləri məsələləri tədqiq edilmişdir. Müəllif haqlı olaraq qeyd edir ki, Manna, Atropatena, Albaniya, Atabəylər, Səfəvilər, eləcə də xanlıqlar dövründə təhlükəsizlik məsələləri

5 Qasımov C. Azərbaycanın təhlükəsizlik orqanları: tarix və müasirlik. // "Xalq qəzeti", 18 mart 2016-cı il

daim diqqət mərkəzində olsa da, məhz Cümhuriyyət dövründə bu qurumların yaradılması sivil dünyanın prinsiplərinə uyğun həyata keçirilmişdir. Belə ki, 1919-cu ilin martında Müdafiə Nazirliyinin tərkibində Kəşfiyyat və əks-kəşfiyyat bölməsi və sonralar Əksinqilabla Mübarizə Təşkilatı yaradılmışdır. Cümhuriyyətin təsisatları sırasında məxsusi yer tutmuş Əksinqilabla Mübarizə Təşkilatının tarixi, yaradılma səbəbləri, süqutu, əməkdaşlarının taleyi bu kitabın ana xəttini təşkil edir. Müəllif düzgün olaraq qeyd edir ki, erməni terroru və separatizmi, bolşevik və Denikin təhdidi qarşısında Xalq Cümhuriyyətinin müqavimət göstərməsi gələcək nəsillər üçün bir örnək, bir ilham mənbəyidir. Qeyd etmək lazımdır ki, uzun müddət müxtəlif müzakirələrə səbəb olmuş Əksinqilabla Mübarizə Təşkilatında Lavrenti Beriyanın fəaliyyətinin araşdırılması, o dövrün siyasi hərəkatlarının aşkar və gizli qarşıdurmasının incə məqamları fonunda ona bənzər şəxslərin fəaliyyəti ilə bağlı məsələlərin üzə çıxarılması bütövlükdə ümumi ictimai-siyasi şəraiti dərindən dərk etməyə imkan verir. Xüsusən sovet dövründə xüsusi xidmət orqanlarının tutduğu yerin və oynadığı rolun nədən ibarət olması, antimilli ünsürlərin, ilk növbədə ermənilərin sovet təhlükəsizlik orqanlarında uzun müddət çoxluq təşkil etmələri və nəticə etibarilə bu orqanların milli ziyalılara, milli ruha düşmən kəsilməsi, Fövqəladə Komissiya, Xalq Daxili İşlər Komissarlığı kimi anlayışların kütləvi repressiya, zorakılıq və istila rəmzlərinə çevrilməsi, Cümhuriyyət dövrü xüsusi xidmət orqanlarının fəaliyyətinin müstəsna tarixi əhəmiyyət daşıdığı şəksizdir.

Kitabda Əksinqilabla Mübarizə Təşkilatı rəhbərlərinin sonrakı taleyinin tədqiq edilməsi də uğurludur. Xüsusən, Əli Razi Şamçızadə, Mahmud Səfikürdiski, Məmmədtağı Dadaşov kimi dövlət xadimlərinin taleyinə dair materiallar gələcək nəsillər və Cümhuriyyət tarixinin araşdırmaçıları üçün həm ciddi və həm də etibarlı mənbə rolunu oynayır. Əksinqilabla Mübarizə Təşkilatı ilə əlaqədar bir sıra arxiv materiallarının əsərdə verilməsi kitabın tarixi-faktoloji əhəmiyyətini daha da artırır.

Monoqrafiyanın strukturu düzgün olub qarşıya qoyulan məqsədə nail olmağa imkan vermişdir. Məsələlərin qoyuluşu və onlara yanaşma doğru, şərhi, təhlili, tənqidi təhlili ardıcıl və məntiqi, üslubu və dili səlis və rəvandır.

Hesab edirəm ki, professor C.Qasımov bu əsəri ilə həm Azərbaycan tarixşünaslığını zənginləşdirmiş, həm də ölkəmizin təhsil sistemi üçün praktiki əhəmiyyəti olan bir vəzifəni uğurla yerinə yetirmişdir. Oxucuların mühakiməsinə verilən bu əsərin Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının müdavimləri və bütövlükdə Azərbaycanın xüsusi xidmət orqanlarının tarixi ilə maraqlanan şəxslər üçün faydalı olacağına inanıram.

**Musa Qasımlı,**
**AMEA-nın müxbir üzvü,**
**professor**

## Giriş

Tarixin bütün dövrlərində təhlükəsizliyin təminatı məsələsi aktual olmuş, cəmiyyətin iqtisadi, ictimai-siyasi inkişaf səviyyəsinə uyğun olaraq təkamül yolu keçmiş, özünün müasir vəziyyətinə çatmışdır. Təhlükəsizlik orqanlarının tarixi ayrı-ayrı xalqların və dövlətlərin keçdiyi tarixi inkişaf yolu ilə sıx bağlı olduğundan onun öyrənilməsi olduqca vacib və aktual bir məsələdir. Bu sahənin tədqiqinin zəruriliyini şərtləndirən amillərdən biri də xalqların tarixinin mükəmməl və hərtərəfli öyrənilməsi ilə bağlıdır. Problem Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir. Çünki sovetlər dönəmində təhlükəsizlik orqanlarının fəaliyyəti ictimaiyyətdən, xüsusilə də Azərbaycan ictimaiyyətindən gizli saxlanılmışdır.

Xalqımızın bu dövrdə keçdiyi yol və tutduğu mövqe, eləcə də apardığı mübarizə ciddi təhriflərə məruz qalmışdır. Bir çox hallarda isə ən uzaq tariximiz belə marksizm-leninizm prinsiplərinə və metodologiyasına uyğunlaşdırılaraq birqütblü, sinfi, partiyalı mövqedən öyrənilmişdir. Hətta xalq üçün böyük və önəmli işlər görən tarixi şəxsiyyətlərin bəziləri “Vətən xaini”, “xalq düşməni” adlandırılmışdır. Daha doğrusu, hər şey xalqın fonunda partiyanın, bolşevizmin maraqlarına və prinsiplərinə xidmətə yönəldilmişdir.

Sirr deyildir ki, Azərbaycan müstəqilliyə nail olduğu ilk gündən dövlətin təhlükəsizliyinin təşkili, xüsusi xidmət orqanlarının yenidən qurulması, ixtisaslı kadrların hazırlanması ilə bağlı təhsil şəbəkəsinin yaradılması, dünya təhlükəsizlik sisteminə inteqrasiya istiqamətində tədbirlərin həyata keçirilməsi dövlət quruculuğunun mühüm vəzifələrinə çevrilmişdir.

Müstəqil Azərbaycanın təhlükəsizliyinin təminatı sahəsində əldə edilən nailiyyətlərlə ötən tarixi təcrübə arasındakı irslə varislik əlaqəsini, eləcə də milli təhlükəsizlik strategiyasının qlobal təhlükəsizliklə vəhdətini üzə çıxarmaq respublikanın xüsusi xidmət orqanlarının XX və XXI əsrin əvvəllərindəki tarixinin ümumiləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Müasir dünyanı gərginlikdə saxlayan beynəlxalq terrorizmə və onun tərkib hissəsi olan erməni terrorizminə qarşı hər bir insanın

sayıq olması nöqteyi-nəzərindən də problem olduqca aktualdır. XIX əsrdən etibarən gündən-günə artan və 11 sentyabr 2001-ci il tarixli terror hadisəsi ilə bəşəri faciə səviyyəsinə qədər yüksələn terrorizmlə mübarizə indi dünya ictimaiyyətini, eləcə də aparıcı dövlətləri narahat edən bir nömrəli problemə çevrilmişdir. Bəşəriyyəti vahiməyə salan terrorizm Azərbaycandan da yan keçməmiş, ermənilərin törətdiyi qanlı terror aksiyaları nəticəsində minlərlə insan həlak olmuş, maddi-mənəvi zərbələr almış, ən başlıcası isə dövlətçiliyimizin tarixi və taleyi təhlükə altında qalmışdır. Ona görə də Azərbaycanın dövlətçiliyi əleyhinə yönələn hər bir təxribat-pozuculuq aksiyasının qarşısının alınması milli təhlükəsizlik orqanlarında çalışacaq yüksək ixtisaslı peşəkar əməliyyatçı kadrların hazırlanması işinin keyfiyyətcə daha da yüksəldilməsini tələb edir. Hesab edirik ki, bu kitab yalnız cümhuriyyət dövrünün təhlükəsizlik orqanlarının deyil, bütövlükdə təhlükəsizlik orqanlarımızın keçdiyi tarixi inkişaf yolunu öyrənmək baxımından da əhəmiyyətlidir.

Monoqrafiya Azərbaycan Xalq Cümhuriyyəti (AXC) dövründə demokratik əsasları qoyulan, sovet hakimiyyətinin gəlişi ilə milli maraqların nəzərə alınmadığı bir mərhələyə daxil olan, dövlət müstəqilliyinin bərpası ilə keyfiyyətcə yeni mərhələyə - dünya təhlükəsizlik sisteminə inteqrasiya dövrünə qədəm qoyan Azərbaycanın təhlükəsizlik orqanlarının tarixinin inkişaf dinamikasını araşdırmaq nöqteyi-nəzərdən də əhəmiyyətlidir. Bu kitab 1918-1920-ci illərdə AXC-nin təhlükəsizlik orqanlarının təsis edilməsi, fəaliyyəti, Azərbaycan xalqına qarşı törədilən qırğınların, təxribatların əleyhinə tədbirlərin hazırlanması və həyata keçirilməsi, bolşevik agentlərinin bu orqanlara yeridilməsi və s. ilə bağlı problemləri elmi dövriyyəyə ilk dəfə cəlb edilən arxiv materialları əsasında yazılmışdır.

Monoqrafiya cümhuriyyət dövrünün təhlükəsizlik orqanlarının tarixini öyrənməyi və tədqiq etməyi qarşısına məqsəd qoysa da, sovet siyasi sisteminin hökm sürdüyü dövrdə xüsusi xidmət orqanlarının fəaliyyətində inkaredilməz müsbət cəhətlərlə yanaşı, Azərbaycan xalqının başına gətirilən faciələrdə bu orqanların rolunu təhlil etmək, faktları obyektiv dəyərləndirmək baxımından da əhəmiyyətlidir. Azərbaycan Respublikasının müxtəlif arxivlərində bu günə

qədər işıq üzü görməyən sənədlərin aşkarlanması və geniş oxucu kütləsinin ixtiyarına verilməsi respublikanın hər bir vətəndaşının tarixi olduğu kimi, obyektiv şəkildə öyrənməsi, bugünkü reallıqları qiymətləndirməsi üçün dəyərlidir. Təsadüfi deyildir ki, bununla bağlı Ümummilli lider Heydər Əliyev demişdir: "**XX əsr xalqımız üçün müsibətli əsr olubdur. Gərək onu doğru-düzgün, nə cür, necə olubdursa, elə də yazaq. Bunların hamısı xalqımızın özünü tanıması, həm də bugünkü siyasətimiz üçün vacibdir".**[1]

Məhz tarixin olduğu kimi dərki şəxsiyyəti formalaşdırır, onda hadisələri düzgün dəyərləndirmək və proqnozlaşdırmaq bacarığı aşılayır, milli və beynəlxalq maraqların uzlaşdırılması kimi vacib keyfiyyətin formalaşdırılmasını təmin edir, eyni zamanda xalqın özünüdərkinə köməklik göstərir. Tarixlə çağdaş zaman, ənənə ilə müasirlik, irslə varis arasında əlaqə də məhz bu zaman yaranır. Bu əlaqələrin möhkəmləndirilməsində təhlükəsizlik orqanlarının da rolu az deyil.

Təhlükəsizlik orqanları yalnız aid olduğu dövlətin və xalqın deyil, məsələyə qlobal yanaşılarsa, bəşəriyyətin təhlükəsizliyi üçün məsuliyyət daşıyır. Təhlükəsizlik orqanlarında çalışan hər bir əməkdaşla yanaşı, cəmiyyətin hər bir üzvünün dünyanın təhlükəsizliyinin təmin edilməsində öz məsuliyyətini dərk etməsi və ayıq olması zəruridir. Bugünkü beynəlxalq terrorizmə qarşı birgə mübarizə ehtiyacı da bunu təsdiq edir.

Təhlükəsizliyin təminatında dövlətlərin rolu müstəsna əhəmiyyətə malikdir. Təsadüfi deyildir ki, təhlükəsizliyin konstitusion təminatçısı hər bir ölkədə dövlət və onun başçısıdır. Təhlükəsizliyin təmin edilməsinin səviyyəsi məhz dövlətin və dövlət rəhbərinin bu prosesi necə təşkil etməsindən və onun icrasına nəzarətindən asılıdır. Dövlət ictimai həyatın müxtəlif sferaları, komponentləri arasında əlaqə yaradır, onların fəaliyyətinin uzlaşdırılmasına nəzarət edir, bunun nəticəsində ölkənin təhlükəsizliyinə təminat verə bilən və kompleks xarakter daşıyan milli təhlükəsizlik sistemi yaranır.

Kökləri tarixin dərinliyində olsa da, "milli təhlükəsizlik" bir istilah, bir termin kimi ilk dəfə 1904-cü ildə Prezident T.Ruzveltin

1 "Azərbaycan" qəzeti, 4 fevral 1997-ci il

ABŞ Konqresinə göndərdiyi məktubda işlədilmişdir. Şübhəsiz ki, bəşəriyyət yarandığı gündən təhlükəsizlik məsələsi mağara adamından sivil insana, qədim qəbilə və tayfadan dövlətə və cəmiyyətə qədər hamını düşündürmüşdür.

Məlumdur ki, təhlükəsizliyin təminat dinamikası müəyyən təkamül yolu keçmişdir. Müasir tədqiqatlar əsaslı şəkildə sübut edir ki, təhlükəsizliyin təminatı məsələsi bir vəzifə olaraq ilk dəfə Şərqdə qoyulmuşdur. Qədim dövrlərdə təhlükəsizliyin təminatı işində məxfiliyin qorunmasına da xüsusi diqqət yetirilirdi. Bizim eradan əvvəl Sirakuza hökmdarları başqa yerə məlumat göndərəndə belə bir metoddan istifadə edirdilər. Çaparın başını qırxdırır, informasiyanı ora yazır və tüklənənə qədər gözləyir, sonra isə həmin ünvana göndərirdilər. Beləliklə də, informasiya sızımının qarşısı alınır, məxfilik prinsiplərinə əməl edilirdi.

Bütövlükdə götürdükdə məlumatların gizli şəkildə çatdırılması istiqamətində təhlükəsizliyin təminatı ilə məşğul olan qurumlar müxtəlif vasitələrdən istifadə etmişlər. Məsələn, Çində məxfi məlumatı gizlətmək üçün ipək parça zolaqlarını kürələr şəklində yumurlayaraq üstünü mum ilə örtürmüşlər. Məlumatı aparan informasiya daşıyıcısı bu cür hazırlanmış kürələri udaraq ünvana çatdırar və məxfiliyi qoruyarmış.

Qədim Romada məxfi məlumatı digər yazılar üzərində sətirlər arasında meyvə şirəsi, süd və s. vasitəsilə yazırdılar. XVI əsrdə italiyalı alim Covanni Porta məxfi yazını bərk bişirilmiş yumurtanın içərisində gizlətməyi bacarmışdır. Belə ki, o, 28 qram *(1 unsiya)* zəyi yarım litr (1 pinta) sirkə ilə qarışdıraraq xüsusi mürəkkəb düzəltmiş, bu mürəkkəblə yumurtanın qabığı üzərinə yazı yazmış və həmin yazı qabıqdan keçərək yumurtanın zülalı üzərinə hopmuşdur. İnformasiyanı əldə etmək üçün sadəcə yumurtanın qabığını soymaq lazım idi.

Görünməyən mürəkkəblərlə yazma texnologiyasından ilk dəfə eramızın birinci əsrində istifadə olunmuşdur. O zaman bəzi bitkilərin süd şirəsindən istifadə edərək gizli yazı yazırmışlar. Şirə quruduqdan sonra o görünməz olur. Şirənin tərkibində karbon olduğundan yazı cüzi qızdırıldıqda o, tünd rəng alır və oxunur. Bu üsuldan yaxın tarixdə də istifadə olunmuşdur. Belə ki, Rusiyada XX əsrin əvvəllərində

inqilabçılar, o cümlədən V.İ.Lenin də öz əsərlərini yazmaq üçün süddən istifadə etmişdir. Yeri gəlmişkən qeyd etməliyik ki, bu üsulla yazı texnologiyası Azərbaycan yazıçısı İsmayıl Şıxlının "Dəli Kür" romanında *(eləcə də eyni adlı filmdə)* əks olunmuşdur. Belə ki, Qori Seminariyasında oxuyan tələbələr inqilabi fikirləri Quran kitabının səhifələrinə südlə yazır və oxuyurdular.

XVII-XVIII əsrlərdə artıq əksər ölkələrdə "qara kabinet" adlanan xüsusi dövlət orqanları fəaliyyət göstərirdi. Bu strukturlar məxfi yazışmaların tutulması, nəzarət və senzura məqsədilə poçt ilə göndərilən məktubların açılıb oxunması, yoxlanılması və şifrlərin açılması ilə məşğul olurdular. Qeyd edilməlidir ki, bu strukturların tərkibinə riyaziyyatçılar və dilçilərlə yanaşı kimyaçılar da daxil edilirdilər. Çünki həmin dövrdə görünməyən mürəkkəblərdən fəal surətdə istifadə olunurdu.

Təbii ki, elm, texnologiya inkişaf etdikcə mikrofotoqrafiya texnologiyası standart çap vərəqlərinin, sxemlərin və çertyojların adi mətbəə nöqtəsi ölçüsündə mikrofotoşəklinin çəkilməsinə imkan verirdi. Belə yolla hazırlanmış bir və ya bir neçə mikrofotonöqtə adi mətbəə nöqtəsi kimi məktublara yapışdırılır və ötürülürdü. Adi mətbəə nöqtəsinə oxşayan belə mikrofotoşəkilləri tapmaq və aşkar etmək olduqca çətin idi. Bu texnologiya çox böyük həcmli informasiyanı, o cümlədən sxemləri və çertyojları ötürməyə imkan verirdi.

ABŞ dövləti rəqiblərinin bu sahədəki nailiyyətlərini nəzərə alaraq sadə və zərərsiz məlumatların *(şahmat oyunu gedişləri, toxum təlimatları, şəkillər və s.)* bu üsulla ötürülməsinə qadağalar qoymuşdu. Yaponiyanın hücumundan sonra ABŞ 15 min əməkdaşı olan senzura təşkilatı yaratdı. Bu qurum hər gün milyona yaxın məktub yoxlayır, sonsuz sayda telefon danışıqlarına qulaq asır, filmlərə, qəzetlərə, jurnallara və s. nəzarət edirdi.

Deyilənlərdən aydın olur ki, stenoqrafik üsul və vasitələrdən bütün ölkələrin kəşfiyyat orqanları (xüsusilə də müasir dövrdə) geniş şəkildə istifadə etmişlər.

Qədim zamanlarda Çin hökmdarları kəşfiyyatdan dövlət idarəetməsində bir silah kimi istifadə edirdilər. Eradan əvvəl VI-V əsrlərdə yaşamış qədim Çin sərkərdəsi və hərb nəzəriyyəçisi Sunszı

özünün "Pin-fa" *("Hərb sənəti")* traktatında kəşfiyyatın xüsusi əhəmiyyətini vurğulayaraq yazırdı: **"Əgər sən öz gücünü və düşməninin gücünü bilirsənsə, onda yüz döyüşdən belə qorxmaya bilərsən. Əgər sən öz gücünə bələdsən, lakin düşməninin gücünü bilmirsənsə, onda hər bir qələbədən sonra səni bir məğlubiyyət gözləyir. Əgər sən nə öz gücünü, nə də düşməninin gücünü bilmirsənsə, onda həmişə müharibələri uduzacaq axmaqsan"**[2].

Miladdan əvvəl Romada da təhlükəsizlik məsələsinə üstünlük verilirdi. Romanın dövlət və siyasi xadimi Yuli Sezar *(eradan əvvəl 58-51-ci illərdə)* Qalliya yürüşləri zamanı çox güclü kəşfiyyat qrupu yaratmışdı. Lakin Romanın hökmdarı olduqdan sonra o, kəşfiyyatdan demək olar ki, imtina etdi və nəticədə "**L.Kassi və Y.Bruttun başçılığı ilə edilən qəsd nəticəsində Romada senatın iclasında öldürüldü".**[3] Y.Sezardan sonra hakimiyyətə gələnlər onun bu səhvini təkrar etmədilər. Tiberi *(14-37)* və Domisian *(81-96)* kimi tiranlar sayca bir orduya bərabər gizli agentlər saxlayırdılar. Romada onları "delyator" *(informator)* adlandırırdılar. V əsrdə yaşamış tarixçi Prokopi qədim dövrlərdə təhlükəsizlik xidməti barədə yazırdı ki, hökmdarlar saraylarında bir neçə adam saxlayır və lazım gəldikdə məlumat toplamaq üçün əcnəbi ölkələrə səfərə göndərirdilər.[4]

Buradan belə nəticə çıxmasın ki, təhlükəsizliyə önəm verən dövlətlər işi birtərəfli aparmış, üstünlüyü kəşfiyyata vermişlər. Şübhəsiz ki, əks-kəşfiyyat işini düzgün qurmadan düzgün kəşfiyyat *(və ya əksinə)* aparmaq olmazdı. Daxili sabitliyi və təhlükəsizliyi təmin etmədən, dövlətə qarşı yönəlmiş xarici təhdidlərin, təxribat-pozuculuq əməllərinin qarşısını almadan başqa dövlətə qarşı iş aparmaq da mümkün deyildi. Elə ona görə də, dövlət başçıları ölkədəki ictimai-siyasi vəziyyəti daim öz nəzarətində saxlamış, təhlükəsizliyi təmin etmək üçün müvafiq tədbirlər görmüş, əldə edilmiş informasiyaları təhlil etmiş və qabaqlayıcı tədbirlər nəticəsində təhlükəni aradan qaldırmağa çalışmışlar.

Şərqdə kəşfiyyat və əks-kəşfiyyat işində tacirlərdən, səyyahlardan, sufilərdən, dərvişlərdən və s. geniş istifadə edilir və onlar "casus"

2 Полмер Н., Аллен Т. Энциклопедия шпионажа. М., 1997.

3 Azərbaycan Sovet Eensiklopediyası. 10 cilddə. 5-ci cild. Bakı, 1981, s.167.

4 Черняк Е.Б. Пять столетий тайной войны. М., 1991.

adlandırılırdılar. Səlcuq hökmdarlarının sarayında baş vəzir olan Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk "Siyasətnamə" əsərində göstərirdi ki, **"həmişə hər tərəfə sövdagər, səyyah, sufi, əttar, dərviş libasında casuslar göndərilməlidir; bunlar eşitdiklərini xəbər verməlidirlər, beləliklə, heç bir şey gizli qalmamalıdır; bir iş baş versə, yenidən baş qaldırsa, vaxtında tədbir görülsün".**[5]

Ölkə daxilində baş verəcək hadisələrin qarşısını almaq üçün də bu fəaliyyət növündən geniş istifadə edilirdi. **"Çox vaxt olub ki, valilər, iqtidarlar, məmurlar və əmirlər qiyam fikrinə düşmüş, şaha qarşı üsyan xəyalında olmuşlar, lakin casus gəlib şaha xəbər verdikdən sonra şah vaxtında atını minərək hücuma keçmiş, qəflətən onların başı üstünü alaraq həbs etmiş, arzularını puça çıxarmışdır".**[6]

Bütün bunlar həmişə belə olmamış, bəzən bunun əksi də baş vermişdir. Məsələn, səlcuqlar İranı, Əfqanıstanı, Mesopotamiyanı, Şərqi Anadolunu, Cənubi Azərbaycanı, Suriyanı qısa bir müddətdə fəth etmiş və bu ərazilərdə öz dövlət təsisatlarını qurmuşlar. Lakin səlcuqlar bu əraziləri zəbt etdikdən sonra mövcud dövlət quruluşunu olduğu kimi saxlamamış, oralarda müəyyən uğurlu və ya uğursuz dəyişikliklər və islahatlar da aparmışlar. Belə uğursuz dəyişikliklərdən biri on dəftərdən *(nazirlikdən)* ibarət olan və dövlət strukturunda olduqca mühüm əhəmiyyət kəsb edən "sahibi xəbər"in və "sahibi hərs"in ləğv olunması idi. Səlcuqların böyük vəziri Nizamülmülk *(1018-1092)* bu məsələyə belə aydınlıq gətirirdi: **"Əbülfəzl Sigizi sultani-şəhid Alp Arslana dedi: Nə üçün sahibi-xəbər saxlamırsan? Sultan cavabında dedi: Sənin qəsdin odur ki, mənim mülkümü dağıdasan və mənim tərəfdarlarımı qaçırdasan. Əbülfəzl soruşdu: Nə üçün? Sultan dedi: Əgər mən sahibi-xəbər təyin edərsəm, mənim dostlarım mənə etimad etdiklərinə görə sahibi-xəbərə etina etməz və rüşvət verməzlər, amma düşmanlarım onunla dost olub ona pul verərlər; ona görə həmişə düşmandan dostluq, dostlardan düşmanlıq xəbəri gətirər"**.[7]

Göründüyü kimi, ləğv edilən dəftərlər sahibi-xəbər və sahibi-

5 Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı, 1987, s. 79.

6 Yenə orada.

7 Xuluflu V. Səlcuq dövlətinin daxili quruluşuna dair. Bakı, 1930, s.12.

hərsdir, yəni kəşfiyyat və polisdir. Akademik Bartolda görə, "casusluq sistemi vəhşilərə xoş gəlməmişdir". Bartoldun bu fikrinə etiraz edən professor V.Xuluflu göstərirdi ki, Bartold "vəhşilər xoşlanmadılar" deyirsə də, bu fikirlər qısa bir müddətə aiddir. Çünki səlcuqlar müəyyən bir müddətdən sonra tərəqqi etdilər, yüksəldilər, o vaxtın mədəni adamı oldular.[8]

Maraqlıdır ki, "sahibi-xəbər"in və "sahibi-hərs"in ləğv edilməsinə ilk etiraz edən siyasət işini dərindən bilən böyük vəzir Nizamülmülk olmuşdur. O, bu qurumların dövlətin maraqlarının qorunmasındakı rolunu yüksək qiymətləndirirdi. Bu məsələnin əhəmiyyətini nəzərə alaraq, Nizamülmülkün "sahibi-xəbər" və "sahibi-hərs"lə bağlı fikirlərini burada olduğu kimi verməyi məqsədəuyğun hesab edirik: **"Hər tərəfə həmişə casuslar getməlidir: tacirlərin yollarına və səyyahların yanına getməlidir. Sufilər, dərman satanlar və dərvişlərdən, xülasə, hər nə eşitsələr, xəbər gətirməlidirlər. Ta ki heç bir əhvalat gizlin qalmasın, əgər bir hadisə olsa və təzəcə baş verərsə, vaxtlı-vaxtında qabağı alınsın. Amma çox vaxt olubdur ki, valilər və maqtələr, qəza məmurları və əmirlər üsyan etmiş və müxalifət göstərmişlər və padşahlara qarşı pis rəftar etmişlər. Amma casuslar vaxtında xəbər versələr, padşah vaxtında lazımi sərəncam çəkər və onların məqsədləri də batil olar".**



*Orta əsrlərdə Müsəlman Şərqində kəşfiyyat və əks-kəşfiyyat işində dərvişlərdən də geniş istifadə olunmuşdur.*

Nizamülmülk "sahibi-hərs"in əhəmiyyətini isə belə qiymətləndirirdi: **"Əmiri-hərsə qus, ələm və nevbət vəzifəsi verildiyindən, əhali**

8 Yenə orada, s.13.

**padşahdan artıq ondan qorxur və ona görə də bu iş təşkil olunub və nüfuz da qazanmışdır. Ən azı 50 nəfər çubdar (zopaçı) olmalıdır. Bunlar daima dərgahda hazır durmalıdır. Bunlardan iyirmisinin zopası qızıldan, iyirmisininki gümüşdən, onunku da ağacdan olmalıdır. Əmiri-hərs həmişə ehtiyatlı və tədarüklü olmalıdır. Əgər bu işi bacarıb yerinə yetirməzsə, onda əvəzinə başqası təyin edilməlidir”**[9].

Doğrudur, Alp Arslanın ləğv etdiyi dəftərlər, o cümlədən sahibi-xəbər və sahibi-hərs, yəni kəşfiyyat və polis onun oğlu Məlik şah tərəfindən yenidən bərpa edildi və Səlcuq dövlətinin qüdrəti bir qədər də artdı. Lakin Məlik şahın ölümündən sonra Səlcuq dövləti övladları tərəfindən parçalandı (*əslində parçalanma zəif də olsa, Məlik şahın dövründə də müşahidə olunurdu* – **C.Q.**). Göründüyü kimi, təhlükəsizlik məsələsi o qədər ciddi bir məsələ idi ki, ona önəm verməyən dövlət və ya dövlət başçısı faciə ilə üzbəüz qalırdı.

Monqolların hökmranlığı dövründə daxili təhlükəsizliyi təmin etmək və ya müharibələrdə qalib gəlmək üçün astroloji göstəricilərə də önəm verilirdi. Məsələn, Hülakü xan Bağdad üzərinə hücum etməzdən əvvəl münəccimlərdən Hüsaməddinə belə bir göstəriş vermişdi ki, göy cisimlərinin bu hücumun nəticələri ilə bağlı düzülüşünü öyrənsin.[10]

Təhlükəsizliyin təminatı məqsədi ilə göy cisimlərinə müraciət qədim dövrlərdə Yaponiyada da geniş yayılmışdı. Lakin sonradan onlar da informatorlara daha çox etibar etməyə başladılar.

Böyük sərkərdə və dövlət başçısı Əmir Teymur bildirirdi ki, **“Səltənət işlərində, hərbi qulluqçularla, rəiyyətlə bağlı məsələlərdə yalnız başqalarının sözlərinə və əməllərinə baxıb, ölçü götürmək olmaz. Vəzirlər, əmirlər bir adam haqqında yaxşı-yaman söz söyləmiş olsalar, onları dinləmək lazımdır, lakin ölçü götürəndə tələsmək olmaz, çatdırılan söz sınanmalı, yoxlanılmalı, həqiqət ortaya gətirilməlidir”.**[11]

Əmir Teymur özünə yaxın bildiyi adamlarla diqqətli davranır və onları da daima nəzarətdə saxlayırdı. O göstərirdi: **“Özümün məxsusi**

9 Yenə orada, s. 8.
10 Nəsirəddin T. Əxlaqi-nasiri. Bakı, 1989.
11 Əmir Teymurun vəsiyyətləri. Bakı, 1991, s. 63.

**həmsöhbətlərimdən bir neçə nəfəri vəzirlərimlə əmirlərimin casusları imişlər**".[12]

Məmləkət daxilindəki ictimai-siyasi vəziyyətə nəzarəti öz əlində saxlamaq məqsədi ilə Əmir Teymur göstəriş verirdi: "**Hər bir sərhəddə, vilayətdə, şəhərdə və qoşunda olayları qələmə alan katiblər təyin eləməli ki, həmin katiblər hakimlər haqqında, rəiyyət, hərbçilər şəhərin vəziyyəti və xətti-hərəkət barəsində mənə xəbər çatdırsınlar, yabancı qoşunlar, kənardan gələn və kənara çıxan mal-dövlət, xaricdən gələn və xaricə yollanan adamlar, ayrı-ayrı məmləkətlərdən gələn karvanlar və hökmdarlar barəsindəki məlumatları, qonşu padşahlar, onların söz-söhbəti, əməlləri və uzaq-uzaq ölkələrdən mənim dərgahıma üz tutan üləma, fazil adamlar haqqındakı təfsilatlı məlumatları doğru–düzgünlüklə yazıb mənə versinlər. Əgər bunun əleyhinə getmiş olsaydılar, olub-keçən vaqeələri yazmasaydılar, yazıçının məlumatı yazacaq barmaqları kəsilməli idi. Hərbi sirləri gizlətmək naminə yazdığı məlumata özgə libas geyindirərək yalan yazan məmurun əli kəsilməli idi. Yalan məlumatı kimisə töhmətləmək məqsədiylə, yaxud kiməsə qərəzlə yazmış adam qətl olunmalı idi. Və həmçinin əmr elədim ki, yazılan məlumatları günbəgün, həftəbəhəftə, aybaay gətirib mənə çatdırsınlar**"[13].

Göründüyü kimi, Əmir Teymur artıq dövrü üçün müasir olan təhlükəsizlik sistemi yaratmışdı. Lakin bu sistem daha çox dəqiq və qərəzsiz informasiya toplamaq və onu çatdırmaqla məhdudlaşırdı. Burada maraqlı olan məqam ondan ibarətdir ki, Əmir Teymur informasiyanın dəqiqliyini yoxlamaq üçün bir neçə yerdən məlumat almağa üstünlük verirdi. Bundan başqa, o, kəşfiyyatdan da geniş istifadə edir və xarici dövlətlərdəki ictimai-siyasi vəziyyəti dərindən öyrənirdi. Böyük sərkərdə ölkəni idarə etməkdə bu məlumatlardan lazımınca yararlana bilirdi. Hətta əldə etdiyi məlumatlar ona imkan verirdi ki, yürüşlər nəticəsində ən qüdrətli dövlətləri belə məğlub edə bilsin.

Mənbələrin verdiyi məlumatlara söykənərək deyə bilərik ki, XV əsrin kəşfiyyatçılarından bunlar tələb olunurdu:

12 Yenə orada.
13 Yenə orada, s. 93-94.

- *casusun işlədiyi ölkənin dilini bilmək;*
- *fəaliyyət göstərdiyi ölkənin tarixini və adət-ənənələrini bilmək;*
- *səyahət təcrübəsinə malik olmaq;*
- *məlumat almanın müxtəlif yollarını bilmək.*

Bundan başqa, kəşfiyyatçıdan iti ağıl, hiyləgərlik, cəldlik, düzlük, mənəvi təmizlik və s. şəxsi keyfiyyətlər də tələb olunurdu. Kəşfiyyatçıların bir-birini tanımaması da əsas və ümdə şərtlərdən biri idi.

Kəşfiyyat və əks-kəşfiyyat işi Səfəvilər dövründə özünün yeni mərhələsinə qədəm qoydu. Təsadüfi deyildir ki, bəzi tədqiqatçı alimlər "Səfəvilər dövlətinin gizli xidmət idarəsinin fəaliyyətini ÇK-nın (*Fövqəladə Komissiya nəzərdə tutulur* – **C.Q.**) işi ilə müqayisə edirdilər".[14] Belə müqayisə qüsurludur və təəssüf ki, tədqiqatçı həmin gizli xidmət idarəsinin adını çəkmir. Fikrimizcə, həmin təhlükəsizlik orqanı "Qorçi" təşkilatıdır. "Qorumaq, qoruyucu, qoruyan, mühafizə edən" mənasında işlədilən *qorçi* sözü XIV-XVIII əsrlərdə Azərbaycanda xüsusi mühafizə dəstələrinin döyüşçüsü, saray və ya əyalət qvardiyaçısı *(mühafizəçisi)* anlamında işlədilib. Qorçi dəstələri əsasən azərbaycanlılardan *(qızılbaşlardan, əfşarlardan və s.)* təşkil olunurdu. Əvvəlki illərlə müqayisədə XVI əsrin əvvəllərindən başlayaraq qorçilərin səlahiyyətləri daha da artırıldı. Qorçilər qorçibaşlarına tabe idi. Maraqlıdır ki, **"ümumdövlət qorçibaşlarından başqa ayrı-ayrı əyalətlərin** *(bəylərbəyliklərin)* **və qızılbaş tayfalarının öz qorçibaşısı var idi".[15]**

XVI əsrdə *qorçibaşı* vəzifəsinə təyin edilən qızılbaş əmirləri Səfəvilər dövlətində ən mötəbər şəxslərdən biri hesab olunurdu. I Şah İsmayıl hakimiyyətinin *(1501-1524)* ilk illərində məşhur əmirlərdən Durmuş xan Şamlu və Dədə bəy Zülqədər qorçibaşı olmuşlar. I Təhmasib dövründə *(1524-1576)* qorçibaşı mühüm dövlət vəzifəsi idi. Bu zaman qorçibaşı vəzifəsinə əsasən əfşar tayfasından olan əmirlər təyin edilirdi. Belə ki, I Təhmasibin ən məşhur qorçibaşısı Sevindik bəy Əfşar idi. Qorçibaşı XVIII əsrə qədər yüksək hərbi vəzifə olmuşdur.[16]

Qorçilərin özlərinə məxsus geyimləri də olmuşdur. Qorçilərin əsas

14 Solak-zadə M. Tarix. Bakı, 1992, s. 3.
15 Məmmədova Ş. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s. 51.
16 Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, 1965.

fərqləndirici əlamətləri uzun bığ saxlamaları idi. Onlar, adətən, qılınc, balta, ox, xəncər və qalxanla silahlanırdılar. Ayrı-ayrı qorçi dəstələri əsasən müəyyən bir tayfanın nümayəndələrindən təşkil edilir, onun və ya ərazinin adı ilə adlanırdı *(məsələn, Naxçıvan qorçiləri, Şamlu qorçiləri, Əfşar qorçiləri və s.)*. Səfəvilər dövründə müxtəlif vəzifə daşıyan qorçilər *(məsələn, ox və kaman qorçiləri, qılınc qorçiləri, hərəmxana qorçiləri və s.)* var idi.[17]

Səfəvilərin ən etibar etdiyi mühafizə dəstəsi qorçilər idi. Ona görə də, xüsusi şəxslərin mühafizəsi zamanı onlardan istifadə olunurdu. Səfəvi hökmdarları ən təhlükəli cinayətkarların mühafizəsini də qorçilərə tapşırırdılar. "**Osmanlı sultanı I Süleymanın oğlu Bayəzid 1559-cu ildə I Şah Təhmasib tərəfindən həbs edilib dövlətxananın bir hücrəsində saxlanılırdı. Bu vaxt onun mühafizəsi bir dəstə qorçiyə tapşırılmışdı".**[18]

Təxribatçılarla, dini təfriqə yayanlarla, şiə, eləcə də sünni məzhəbini uca tutaraq digəri əleyhinə əks-təbliğat aparanlarla, hər hansı bir xəlifənin əleyhinə danışanlarla mübarizə aparmaq səlahiyyətləri də qorçilərə həvalə edilmişdi. Belə ki, II Şah İsmayıl qorçi dəstəsinə məscidə getmək və xəlifələr əleyhinə lənətlər yağdıran, dini təfriqələr yayan müsəlmanları cəzalandırmaq əmri vermişdi. Məsciddə Əlinin düşmənlərini əbədi lənətləyən dərvişlərdən biri qorçi dəstəsi tərəfindən cəzalandırılmışdı. Bu metod əks tərəfə də tətbiq edilirdi.

Maraqlıdır ki, tayfalar arasında münaqişə salmağa çalışan və ya hər hansı bir tayfanı təhqir edənlər arasında qorçibaşları olanda onların özləri də cəzalandırılırdı. Belə ki, 1574-cü ildə qorçibaşı Əhməd bəy əfşar tayfası əleyhinə kobud sözlər dediyi üçün tutulub "Ələmut" qalasına salınmışdı.[19] Bu fakt təsdiq edir ki, qorçilərə səlahiyyətlər verilsə də, səlahiyyət həddini aşmağa icazə verilmirdi.

Göründüyü kimi, artıq orta əsrlərdə kəşfiyyat və əks-kəşfiyyat işi dövlətin qarşısında duran mühüm bir vəzifəyə çevrilmişdi. Həm də bu proses yalnız Şərqdə deyil, dünyanın hər yerində gedirdi. Tədqiqatçı-alim Y.B.Çernyak yazır ki, ingilis kralı VII Henrinin məxfi xidmətində çalışan adamlar 4 qrupa bölünmüşdülər:

17 Azərbaycan SSR EA-nın Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). Bakı, 1966, № 4.

18 Məmmədova Ş. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991, s. 51.

19 Yenə orada, s. 50.

***Birinci qrup*** – gizli agentlər. Onlar, adətən, rezidentlər, yəni cəmiyyətin nisbətən yüksək pilləsində duran adamlar idi.

***İkinci qrup*** – informatorlar idi.

***Üçüncü qrup*** – peşəkar kəşfiyyatçılardan ibarət idi. Onlar sistematik olaraq müəyyən adamları izləməli və lazım olduqda onları oğurlamalı idilər.

***Dördüncü qrup*** – peşəkar casuslar idilər.[20]

Kəşfiyyatın və əks-kəşfiyyatın funksiyaları şəraitdən asılı olaraq tez-tez dəyişirdi. Dövlətlər arasında diplomatik və ticari əlaqələr olmadıqda belə kəşfiyyatçılar sadəcə məxfi siyasi məlumat deyil, həm də bu və ya digər ölkə haqqında coğrafi, iqtisadi məlumatlar əldə etməyə çalışırdılar. O dövrlərdə kəşfiyyatçı səfir, konsul, tacir, səyyah, jurnalist, coğrafiyaşünas-alim, etnoqraf və ya iqtisadçının öhdəsində olan vəzifələri həyata keçirirdi.[21]

XVI əsrdə xarici ölkələrdə daimi səfir saxlamaq sistemi yarandı. Səfirliklər kəşfiyyatın, eyni zamanda əks-kəşfiyyatın mərkəzinə çevrildi, həm daxili, həm də xarici təhdidlərin qarşısının alınmasında mühüm rol oynadı. İngiltərə kraliçası I Yelizavetanın hakimiyyəti illərində (1558-1603) xarici kəşfiyyata daha çox üstünlük verilirdi. Onun yaratdığı təhlükəsizlik sistemi nəticəsində İngiltərə güclü mərkəzləşmiş dövlətə çevrildi.[22]

Rusiyada isə güclü mərkəzi hakimiyyət yaratmaq üçün 1565-ci ildə Moskva knyazı İvan Qroznı tərəfindən "opriçnina" siyasəti həyata keçirildi. "Opriçnik"lərin əsas missiyası hakimiyyətə qarşı çıxanları nəzarət altında saxlamaq və zərərsizləşdirməkdən ibarət idi. 7 il əhalini xof və qorxu içərisində yaşadan "opriçnina" 1572-ci ildə ləğv olundu. Qroznıdan sonrakı knyazların dövründə də təhlükəsizlik orqanları yaradıldı. Ancaq tarix səhnəsində elə bir mühüm yer tuta bilmədiklərindən tezliklə bağlandı.[23]

Rusiyada siyasi cinayətkarlarla mübarizə aparan digər təşkilat XVII əsrin sonunda I Pyotr tərəfindən yaradılmışdı. "Priobrajenski prikaz"

20 Черняк Е.Б. Пять столетий тайной войны. М., 1991.

21 Yenə orada

22 Полмер Н., Аллен Т. Энциклопедия шпионажа. М., 1997.

23 Гордиевский Э. КГБ история внешнеполитических операций от Ленина до Горбачева. Нота Бене, 1992.

adlanan bu təşkilat əhali arasında qorxu və hüquqsuzluq atmosferi yaratsa da, qısa bir müddətdən sonra özünü doğrultmadığına görə ləğv olundu.[24]

Rusiyada Dekabristlər hərəkatının gücləndiyi dövrdə - 1825-ci ildə I Nikolay *(1825-1855)* imperiya dəftərxanası nəzdində yeni siyasi polisin III şöbəsini yaratdı. Cəmi 16 nəfərdən ibarət olan bu şöbə ictimai fikrin inkişafına nəzarət edir və inqilabi ideyaların genişlənməsinə imkan vermirdi. Əməkdaşları ağ əlcək və göy yapıncı geyən həmin şöbənin informatorlar şəbəkəsi və jandarm korpusu var idi. Jandarm korpusu dövlət təhlükəsizliyini qoruyurdu. I Nikolayın ölümündən sonra bu aparatın əməkdaşlarının sayı 24-ə çatdırıldı. Yarıtmaz fəaliyyətinə görə 1880-ci ildə III şöbə buraxıldı. Onun yerinə “Dövlət polis departamenti” yaradıldı. 1883-cü ildə isə adı dəyişdirilərək “Polis departamenti” adlandırıldı və dövlətin təhlükəsizliyini qorumaq funksiyası ona həvalə edildi. Sonralar isə Polis departamenti “Mühafizə” *(“Oxranka”)* sistemi adlandırıldı. “Mühafizə” xarici diplomatik kodları və şifrləri açan ilk kəşfiyyat xidməti oldu. II Nikolayın hakimiyyəti dövründə diplomatik poçtun tutulması, açılması və şifrinin oxunması sahəsində Rusiya aparıcı yer tuturdu. Birinci Dünya müharibəsinə qədər Almaniya, İngiltərə və ABŞ-ın belə xidməti yox idi.[25]

Bu sahədə Rusiyanın yeganə rəqibi Fransa idi. Fransa “Syurte” xidməti diplomatik poçtun açılması ilə məşğul olurdu. XIX əsrin əvvəlində Fransada Napoleon Bonapart ilk növbədə məktubları prelustrasiya etmək üçün məxfi xidmət yaratmışdı.

Diplomatik poçtun gizli açılması və yoxlanılması get-gedə daha da genişləndi. Hətta Böyük Britaniyada bu xidməti həyata keçirən idarə də təsis edildi. Orada London polisinin tərkibində daxili və xarici terrorçularla mübarizə üçün xüsusi şöbə yaradılmışdı.[26]

Rus xarici kəşfiyyatı ümumən zəif təşkil olunsa da, gələcəkdə sovet kəşfiyyatı üçün bünövrə rolunu oynadı. Fevral inqilabından sonra bolşeviklərin əlinə keçən “Mühafizə” xidmətinin arxivləri açılarkən məlum oldu ki, Rusiya Sosial Demokrat Fəhlə Partiyasına onlar öz agentlərini hələ 1903-cü ildən etibarən daxil etmişdilər. Göründüyü

24 Yenə orada.
25 Черняк Е.Б. Пять столетий тайной войны. М., 1991.
26 Полмер Н., Аллен Т. Энциклопедия шпионажа. М., 1997.

kimi, təhlükəsizlik orqanları getdikcə daha da təkmilləşir və öz funksiyalarını müəyyənləşdirirdilər.

1917-ci il dekabrın 20-də sovet xüsusi xidmət orqanı olan Ümumrusiya Fövqəladə Komissiyası *(ÜFK)* yaradıldı. 1991-ci ilə qədər müxtəlif adlar altında fəaliyyət göstərən bu qurum 6 may 1991-ci ildən Ümumittifaq Respublikaları statuslu RSFSR Dövlət Təhlükəsizlik Komitəsi, 1991-ci il noyabrın 26-dan isə RSFSR Federal Təhlükəsizlik Agentliyi adlanmağa başlandı.[27] Bu qurum 1991-ci il dekabrın 3-də Respublikalararası Təhlükəsizlik Xidməti və Mərkəzi Kəşfiyyat Xidməti *(hazırda Rusiya Federasiyası Xarici Kəşfiyyat Xidməti)* adlandırıldı.

1992-ci il yanvarın 24-də Federal Təhlükəsizlik Agentliyinin və Respublikalararası Təhlükəsizlik Xidmətinin bazası əsasında Rusiya Federasiyasının Təhlükəsizlik Nazirliyi yaradıldı. 1993-cü il dekabrın 21-də Rusiya Federasiyasının Təhlükəsizlik Nazirliyi ləğv edildi. Bu xüsusi xidmət orqanı Rusiya Federasiyasının Federal Əks-kəşfiyyat Xidməti adlanmağa başladı.

Hazırda Rusiyada aşağıdakı xüsusi xidmət orqanları fəaliyyət göstərir:

- *Xarici Kəşfiyyat Xidməti (XKX),*
- *Federal Təhlükəsizlik Xidməti,*
- *Baş Kəşfiyyat İdarəsi,*
- *Hökumət Rabitəsi Federal Agentliyi,*
- *Federal Sərhəd Xidməti.*

Dünyada bir çox xüsusi xidmət orqanları mövcuddur. Onlardan biri də İran İslam Respublikasının təhlükəsizlik orqanlarıdır. İranda ilk kəşfiyyat və əks-kəşfiyyat xidməti XX əsrin əvvəllərində – 1905-1911-ci illərdə yaranmağa və formalaşmağa başlamışdır. İranda baş verən inqilablar və üsyanlar burada xüsusi xidmət orqanlarının inkişafına, kadr potensialının genişləndirilməsinə təkan verdi. 1922-ci ildə İran ordusunun tərkibində hərbi və siyasi məlumatlar toplayan "II şöbə", 1927-ci ildə Xarici İşlər Nazirliyinin tərkibində "Məlumat bürosu", bir qədər sonra isə Daxili İşlər Nazirliyinin tərkibində "Xarici şöbə" yaradıldı. Bu şöbənin əsas məqsədi diplomatik nümayəndəliklər və əcnəbilər üzrə iş aparmaqdan ibarət idi.

27 Воронцов С.А. Спецслужбы России. Ростов-на-Дону, 2006, с. 394.

İkinci Dünya müharibəsinin əvvəllərində İranın bəzi xüsusi xidmət orqanları öz fəaliyyətlərini dayandırsalar da, 1942-ci ildə onlar öz fəaliyyətlərini yenidən bərpa etdilər. 1956-cı ildə İranın İnformasiya Nazirliyi – SAVAK *(Saziman-e amniyyat-e və ettelat-e Keşfər)* yaradıldı. 1979-cu il fevralın 5-də bu qurumun buraxılması barədə qərar qəbul edildi. Buna baxmayaraq, SAVAK-ın bəzi struktur bölmələri fəaliyyətini davam etdirirdi. Həmin ilin iyununda SAVAK-ın və gizli şiə təşkilatının bazası əsasında İran İslam Respublikasının – islam rejiminin maraqlarının təminatçısı olan SAVAMA *(Saziman-e amniyyat-e və ettelat-e millət-e İran)* yaradıldı. 1980-ci ildə SAVAMA-nın adı dəyişdirildi və Baş nazir yanında "Təhqiqatlar və Məlumat İdarəsi" adlandırıldı. İslam inqilabından sonra bu rejimin müdafiəçisi kimi 1979-cu ilin may ayında İslam İnqilab Keşikçiləri Korpusu *(İİKK, farsca SEPAH)* yaradıldı. Bu qurum İslam İnqilab Şurasına tabe edildi.

Hazırda İranda aşağıdakı xüsusi xidmət orqanları mövcuddur:

- *İnformasiya Nazirliyi,*
- *Birləşmiş Xüsusi Əməliyyatlar Komitəsi,*
- *Kəşfiyyat və Təhlükəsizlik Nazirliyi,*
- *İslam İnqilab Keşikçiləri Korpusu,*
- *Hərbi kəşfiyyat.*

Bu qurumların hər birinin müvafiq struktur bölmələri vardır.

Deyilənlərdən aydın görünür ki, dövlət meydana gəldikdən və müəyyən inkişaf yolu keçdikdən sonra təhlükəsizlik problemi dövlət rəhbərlərinin daima diqqət mərkəzində olmuşdur.

Qeyd olunduğu kimi, zəngin irsə malik olan Azərbaycanın xüsusi xidmət orqanlarının tarixi də çox qədim dövrlərdən başlayır. Tarixi faktlar göstərir ki, istər Manna, Atropatena, Albaniya, Atabəylər, Səfəvilər, istərsə də xanlıqlar dövründə təhlükəsizlik məsələsi hökmdarların daim diqqət mərkəzində olmuşdur. Lakin ilk demokratik dövlət olan AXC dövründə belə bir qurum rəsmi dövlət qərarı ilə yaradılmışdı. Bütövlükdə Azərbaycanın xüsusi xidmət orqanları üç tarixi mərhələdən keçmişdir: **Birinci mərhələ** AXC dövrünü (1918-1920), **ikinci mərhələ** sovet dövrünü (1920-1991), **üçüncü mərhələ** isə müstəqil Azərbaycan Respublikası dövrünü əhatə edir.

Azərbaycan xüsusi xidmət orqanlarının 80 illik yubileyində etdiyi çıxışında Heydər Əliyev hər üç mərhələyə toxunaraq bildirirdi: **"Xalq Cümhuriyyəti zamanı Azərbaycanın təhlükəsizlik orqanları gənc müstəqil dövlətimizə xidmət etmişdir. Sonrakı 70 il ərzində Azərbaycan təhlükəsizlik orqanları sovet hakimiyyətinə, kommunist ideologiyasına xidmət etmiş, Sovet İttifaqının təhlükəsizlik orqanlarının tərkib hissəsi olaraq onların siyasətini və əməli tədbirlərini həyata keçirməklə məşğul olmuşdur. Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra respublikamızın dövlət orqanlarının müstəqil fəaliyyət göstərməsi prosesində Azərbaycan təhlükəsizlik orqanları da öz yerini tapmışdır".** Bu mərhələlərin hər biri özünəməxsus xarakterik xüsusiyyətlərə malikdir.

**1. Azərbaycanda istiqlal mübarizəsi və AXC dövründə təhlükəsizlik orqanları.** Bu dövr Cümhuriyyətə qədərki və Cümhuriyyət dövründəki milli intibah, milli müstəqillik və istiqlal mübarizəsi ilə xarakterizə olunur. Əsrlərlə xalqın mənəvi-psixoloji enerjisini hərəkətə gətirən, onu müstəqilliyə və istiqlal mübarizəsinə hazırlayan proses XX əsrin əvvəllərinədək daha çox ədəbi-bədii həyatda, milli hərəkatda, əsrin birinci onilliyindən sonra isə cəmiyyətdə və ictimai-siyasi həyatda vüsət aldı. Ədəbi-bədii həyatda milli müstəqilliyə doğru meylin üç istiqaməti müşahidə olunurdu: türkləşmək, islamlaşmaq, müasirləşmək *(avropalaşmaq)*. Özünə qədər bir çoxlarının parçaladığı və hər hissəsini ayrılıqda götürdüyü bu formula türkoloq alim və mütəfəkkir şəxsiyyət olan Əli bəy Hüseynzadə vəhdətdə, bütövlükdə yanaşdı. Eyni zamanda inandırdı ki, "türkləşmək, islamlaşmaq və müasirləşmək" düsturundan (formulundan) kənarda türk xalqlarının müstəqilliyi və istiqlaliyyəti yoxdur. Bu ideyanı M.Ə.Rəsulzadə daha da inkişaf etdirərək həyata keçirdi. AXC-nin fəlsəfi-nəzəri dövlətçilik konsepsiyası və milli rəmzi də bu vahid formuldakı üç mənbə və üç tərkib hissədən doğdu. Bu formul özünün ən bariz ifadəsini milli bayraqda və dövlətin digər atributlarında tapdı. Qısa müddət yaşamasına baxmayaraq AXC dövlətin və xalqın təhlükəsizliyini təmin etmək məqsədi ilə həm Hərbi Nazirlikdə *(Kəşfiyyat və əks-kəşfiyyat bölməsi)*, həm də ayrıca bir qurum

kimi *(Əksinqilabla Mübarizə Təşkilatı)* təhlükəsizlik orqanı yarada bildi. Ölkənin milli maraqlarının, "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideologiyasının təhlükəsizliyinin keşiyində dayanan AXC-nin xüsusi xidmət orqanlarının fəaliyyətinə bolşevik işğalı son qoydu.

**2. Sovet dövrünün təhlükəsizlik orqanları.** Sovet dövrü "türkləşmək, islamlaşmaq və müasirləşmək" ideologiyasının rəsmi dövlət səviyyəsində dağıdılması, parçalanması və məhv edilməsi cəhdi ilə xarakterizə olunur. "Türkləşmək" pantürkizm, panturanizm, "islamlaşmaq" panislamizm kimi yozuldu və mürtəce bir ideologiya kimi yasaq edildi. "Müasirləşmək" isə sovetləşmək (beynəlmiləlçilik) məzmunu ehtiva etməyə başladı. Bolşevik işğalı nəticəsində AXC Azərbaycan Sovet Sosialist Respublikası ilə əvəz olundu. Say etibarilə adında bir söz udan Azərbaycan xalqı mahiyyət etibarı ilə müstəqilliyini, milli-mənəvi, əxlaqi dəyərlərini, dövlət atributlarını itirdi. "Azərbaycan Xalq Cümhuriyyəti" adlı bir dövlətdən "Azərbaycan SSR" adlı bir maket qaldı. Milli düşüncəli şəxslər, Azərbaycanın müstəqillik və istiqlaliyyətini bərpa etmək istəyənlər repressiyalara, təqib və təzyiqlərə məruz qaldılar. Azərbaycanda və SSRİ-nin bütün bölgələrində bu repressiyaların həyata keçirilməsində və baş tutmasında FK *(Fövqəladə Komissiya)*, DSİ *(Dövlət Siyasi İdarəsi)* və XDİK *(Xalq Daxili İşlər Komissarlığı)* mühüm rol oynadı. Stalinizmdən sonrakı mərhələdə tədricən də olsa, milli dəyərlərin və yaddaşa dəyən zədələrin bərpası prosesi başlandı. "Vətən xaini", "xalq düşməni" elan edilərək güllələnənlərin və sürgün edilənlərin bir çoxu bəraət aldı. Milli istiqlal uğrunda mübarizə yenidən canlandı. 1960-cı illərdən etibarən Azərbaycan xalqı özündə təpər və cəsarət tapdı. Müstəqillik uğrunda mübarizə leqal formalardan müxtəlif qeyri-leqal formalaradək davam etdi və özünün zirvə məqamına meydan hərəkatında çatdı. Heydər Əliyevin milli-mənəvi dəyərlər sahəsində həyata keçirdiyi tədbirlər Azərbaycanın gələcək istiqlalı üçün təməllər hazırladı. Ümummilli lider Heydər Əliyevin də dediyi kimi, sovet dövründə xüsusi xidmət orqanları bolşeviklərin və Sovet imperiyasının maraqlarının müdafiəçisi olmuşdu. Sovet çe-

kistləri imperiyanın çirkin maraqlarına "sədaqətlə" xidmət etdiyindən 1920-1950-ci illərdə milyonlarla sovet vətəndaşının həyatına son qoymuşlar.

**3. Müstəqil Azərbaycan Respublikasının təhlükəsizlik orqanları.** Xalq Cümhuriyyətinin mənəvi varisi olan Azərbaycan xalqı 1991-ci ildə yenidən öz müstəqilliyini bərpa etdi. Yenidən "türkləşmək, islamlaşmaq, müasirləşmək" formulu bərpa olundu. Azərbaycan Respublikası müstəqil dövlət kimi fəaliyyət göstərməyə başladı. 1991-ci il noyabr ayının 1-dən fəaliyyətə başlayan Milli Təhlükəsizlik Nazirliyi xalqın, dövlətin və dövlətçiliyin, başqa sözlə, müstəqil Azərbaycan Respublikasının milli maraqlarına xidmət edən bir qurum kimi formalaşdı. Bu qurumun formalaşmasında, onun struktur bölmələrinin təkmilləşdirilməsində Ulu öndər Heydər Əliyevin böyük rolu olmuşdur.

# I FƏSİL.
## Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik orqanlarının yaradılması və fəaliyyəti

XX əsrdə Azərbaycan xalqı öz müstəqilliyini iki dəfə elan etdi. Hər iki müstəqilliyə aparan yol soyqırımından, qətliamdan keçdi. Birinciyə Mart, ikinciyə isə 20 Yanvar qırğınından keçib gəldik.

## I. 1. Cümhuriyyətin yaranması ərəfəsində Azərbaycanda ictimai-siyasi vəziyyət

Birinci Dünya müharibəsinin əsas iştirakçılarından olan Rusiyada sürətlə dərinləşən iqtisadi, siyasi və hərbi böhran, orduda artan fərarilik Romanovlar sülaləsini müharibədən çıxmaq haqda düşünməyə vadar etdi, rus-alman sövdələşməsi zərurətini yaratdı. İngiltərə kəşfiyyat idarəsinin gizli danışıqlar haqqında məlumatı Böyük Britaniyanı narahat etməyə bilməzdi. Çünki Rusiyanın müharibədən çıxması Almaniyanı iki cəbhədə müharibədən xilas edər, hərbi qüvvələrini şərq cəbhəsindən qərb cəbhəsinə çəkməklə İngiltərənin vəziyyətini ağırlaşdırardı. İngiltərənin müharibədən çıxmamaq haqqında təklifi II Nikolay tərəfindən rədd edildikdən sonra Romanovlar sülaləsinin çürüyən daxili dayaqları ilə yanaşı beynəlxalq dəstəyi də itdi və sülalənin devrilməsi qarşısıalınmaz oldu. Beləliklə də, 1917-ci ilin fevral hadisəsi Romanovlar sülaləsinin hakimiyyətinə son qoydu. Millətlərin öz müqəddəratını təyin etmələri üçün əlverişli imkan yarandı.



*Məmmədəmin Rəsulzadə*

Rusiyada ikihakimiyyətlilik hökm sürməyə başladı. Müvəqqəti hökumətin 6 mart 1917-ci il tarixli müraciəti demokratik azadlıqlar vəd edir, ölkədə yeni idarəetmə formasını müəyyən etməli olan Müəssislər Məclisinin çağırılmasını zəruri edirdi. Fevral inqilabından sonra Azərbaycanda milli azadlıq hərəkatı da yeni mərhələyə daxil oldu. Bakıda leqal fəaliyyətə başlayan "Müsavat", Gəncədə "Federalistlər", İrəvanda "İrşad" və s. partiyalardan heç biri milli-azadlıq hərəkatına rəhbərliyi bir əldə cəmləşdirmək gücündə deyildi. Qüvvələrin birləşdirilməsi məqsədi ilə ictimai qruplar arasında 29 mart 1917-ci il tarixdə yaradılmış Bakı Müsəlman İctimai Təşkilatının Müvəqqəti Komitəsi *(sədr M.H.Hacınski, müavin*

*M.Ə.Rəsulzadə)* xalqı ümummilli məqsədlər ətrafında cəmləşdirmək uğrunda mübarizədə təşəbbüsü ələ aldı. Məhz Müvəqqəti Komitənin qətiyyəti sayəsində çağırılmış Ümumqafqaz Müsəlmanlarının Qurultayında demokratik düşüncə sahibləri Azərbaycan milli azadlıq hərəkatının siyasi proqramının qəbul edilməsinə müvəffəq oldular. Müsəlman xalqlarının, o cümlədən Azərbaycanın milli-ərazi və idarəçilik maraqlarını təsbit edən həmin proqram 1-11 may tarixlərində keçirilən Ümumrusiya Müsəlmanlarının I Qurultayında daha da inkişaf etdirildi. M.Ə.Rəsulzadənin bu xüsusda 271 səsə qarşı 446 səslə qəbul edilən qətnaməsi Azərbaycan milli azadlıq hərəkatının qələbəsi idi.

Müvəqqəti hökumətin beynəlxalq maraqlara xidmət edən "müharibəni axıra qədər davam etdirmək" haqqında bəyanatı ölkədəki böhranı daha da kəskinləşdirdi. O, bu bəyanat ilə xarici dayaqlarını qoruyub saxlamağa çalışsa da, daxili siyasi-iqtisadi proseslərin əsirinə çevrildi. Davam etməkdə olan Birinci Dünya müharibəsi isə nəinki Rusiyada, eləcə də müharibəyə qoşulan dövlətlərin hamısında böhranı gündən-günə dərinləşdirir və Rusiya iqtidarının məhvini yaxınlaşdırırdı. 1917-ci ilin payızına qədərki müddətdə müharibənin davam etdirilməsində maraqlı olan İngiltərə və Fransanın mövqeyində də müharibəyə münasibətdə dəyişiklik yarandı. Vahid cəbhədə müharibəyə can atan Almaniya isə Rusiyadakı siyasi proseslərə təsir etmək, hətta maliyyə vəsaiti sərf etməkdən də çəkinmirdi. Daxili və beynəlxalq amillərlə şərtlənən 1917-ci il Oktyabr hadisəsi ilə bütün Rusiyada, o cümlədən Azərbaycanda ictimai-siyasi proseslər yeni dövrə qədəm qoydu.

Beləliklə, "**1917-ci il inqilabı məhkum siniflərə hürriyyət, məhkum millətlərə muxtariyyət verəcəkdi**"[28] inamı özünü doğrultmadı. 1917-ci il noyabrın 2-də S.Şaumyan başda olmaqla Bakı Soveti yaradıldı. Bakı neftinə can atan bolşevik hakimiyyətinə qarşı Tiflisdəki amerikan, ingilis və fransız nümayəndəlikləri Cənubi Qafqaz idarəçiliyini bir araya gətirdilər. 1917-ci il noyabrın 14-də Zaqafqaziya Komissarlığı təsis edildi.

1918-ci il fevralın 10-da Zaqafqaziya Komissarlığını Zaqafqaziya Seymi əvəz etdi. Seymdə Cənubi Qafqazdan Ümumrusiya Müəssislər

28 Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s. 26.

Məclisinə seçilmiş siyasi partiyaların nümayəndələri təmsil olunmuşdular. Bunlardan 32 nəfəri menşevik, 30 nəfəri "Müsavat", 27 nəfəri daşnak və 19 nəfəri eser partiyasının nümayəndəsi idi. Müsəlman ittihadçılar, gürcü milli demokratlar və sosialist federalistlər, menşevik hümmətçilər də Seymdə təmsil olunmuşdular. Zaqafqaziya Seymində Azərbaycandakı siyasi partiyaların 44 nümayəndəsi təmsil olunurdu. Seymin ilk iclasında Rusiya hərbi hissələrinin Cənubi Qafqazdan çıxarılması məsələsi irəli sürüldü.

Seymin nümayəndələri Cənubi Qafqazın ümumi mövqeyindən deyil, yaranmış şəraitdə daha çox öz millətlərinin milli mənafelərindən çıxış edir, özlərinin müstəqilliyinin elan edilməsi barədə müzakirələr aparırdılar. Brest müqaviləsindən sonra Cənubi Qafqazda yaranmış vəziyyətdən istifadə edən erməni-rus hərbi birləşmələri Azərbaycan türklərinə qarşı soyqırımına başladılar.

Mart qırğınlarına münasibətini bildirən N.Nərimanov ermənilərin vəhşiliklərini belə xarakterizə edirdi: "**Müsəlman hətta bolşevik olsaydı belə, ona aman vermirdilər. Daşnaklar deyirdilər: "Biz heç bir bolşevik tanımırıq, təkcə elə müsəlman olmağı kifayətdir". Onlar kefi istədikləri adamı öldürür, evləri dağıdır, xaraba qoyurdular… Bolşevizm bayrağı altında daşnaklar müsəlmanlara qarşı hər cür vəhşiliyə yol verirdilər. Nəinki kişilərə, hətta hamilə qadınlara da rəhm etmirdilər".**[29] Mart hadisələrindən dəhşətə gələn M.Ə.Rəsulzadə 10 min günahsız müsəlmanın öldürüldüyünü yazır[30] və bu soyqırımı siyasətinin mahiyyətini "Unudulmuş faciə" adlı məqaləsində belə qiymətləndirirdi: **"Həqiqətdir ki, martın 18-dən 20-nə qədər Bakı-türk demokratiyasının qafasında partladılan toplar, müsəlmanlar haqqında görülən müzalim Azərbaycan fikrini daşıyanı, muxtariyyat və istiqlal əqidəsi ilə pərvərdə olan vücudları məhv etmək üçün idi".**[31]

1918-ci ilin martında Bakıda erməni daşnak və bolşevik qüvvələrinin törətdiyi qırğınlara Zaqafqaziya Seyminin erməni və gürcü nümayəndələri biganəlik və etinasızlıq göstərərək bu faciələri qiymətləndirmədilər. Ermənilərin törətdiyi bu vəhşiliklərə qiymət verilməməsi Seymin müsəlman fraksiyasını narazı saldı və onların

29 Nərimanov N. Məqalələr və məktublar. M., 1925. s. 6.
30 Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990, s. 33.
31 "İstiqlal" qəzeti, 31 mart 1919-cu il

Osmanlı dövlətinə maraq və meylini daha da artırdı.

Azərbaycan fraksiyasının təzyiqi altında aprelin 20-də C.Oegeçkorinin rəhbərlik etdiyi Zaqafqaziya hökuməti istefa verdi. Zaqafqaziya Seymi həmin gün yeni tərkibdə Zaqafqaziya hökumətini təsdiq etdi. Seymin daha yaşaya bilməyəcəyini görən gürcülər mayın 26-da özlərinin müstəqilliyini elan etdilər. Bundan iki gün sonra, mayın 28-də Azərbaycan Milli Şurası İstiqlal Bəyannaməsini açıqladı:

1. "**Azərbaycan tamhüquqlu və müstəqil dövlətdir. Zaqafqaziyanın cənub və şərq hissələrindən ibarətdir. Ali hakimiyyət Azərbaycan xalqına məxsusdur.**

**2. Müstəqil Azərbaycanın siyasi quruluş forması Xalq Cümhuriyyətidir.**

**3. Azərbaycan Xalq Cümhuriyyəti beynəlxalq birliyin bütün üzvləri ilə, xüsusən həmsərhəd xalqlar və dövlətlərlə dostluq əlaqələri yaradacaq.**

**4. Azərbaycan Xalq Cümhuriyyəti öz sərhədləri daxilində milliyyətindən, dinindən, ictimai vəziyyəti və cinsindən asılı olmayaraq bütün vətəndaşlarına tam vətəndaşlıq və siyasi hüquqlar verir.**

**5. Azərbaycan Xalq Cümhuriyyəti onun ərazisində yaşayan bütün xalqların sərbəst inkişafına şərait yaradacaq.**

**6. Məclisi-müəssisanın çağırılmasına qədər Azərbaycanda ali hakimiyyət xalqın səsvermə yolu ilə seçdiyi Milli Şura və Milli Şuranın qarşısında cavabdeh olan müvəqqəti hökumət sayılır".**[32]

Elə həmin gün Milli Şura Fətəli xan Xoyskiyə *(1875-1920)* müvəqqəti hökuməti təşkil etmək tapşırığı verdi. O, müvəqqəti hökumətin tərkibini aşağıdakı şəkildə Milli Şuraya təqdim etdi: 1. Nazirlər Şurasının sədri və daxili işlər naziri - F.Xoyski *(bitərəf),* 2. Hərbi nazir - Xosrovpaşa bəy Sultanov *("Müsavat"),* 3. Xarici işlər naziri - Məmmədhəsən Hacınski *("Müsavat"),* 4. Maliyyə və xalq maarifi naziri - Nəsib bəy Yusifbəyli *("Müsavat"),* 5. Ədliyyə naziri - Xəlil bəy Xasməmmədov *("Müsavat"),* 6. Ticarət və sənaye naziri - Məmmədyusif Cəfərov *(bitərəf, sonra "Müsavat"),* 7. Əkinçilik və əmlak naziri - Əkbərağa Şeyxülislamov *("Hümmət"),* 8. Yollar, poçt və teleqraf naziri – Xudadatbəy Məlikaslanov *(bitərəf),* 9. Dövlət nəzarəti naziri - Camo bəy Hacınski *(sosialist).* Beləliklə, ümumtürk

32 Azərbaycan Respublikası MAİ, f. 970, siy. 1, iş 4, v. 1-2.

və ümumislam dünyasında ilk dəfə olaraq Azərbaycanda müstəqil, demokratik respublika üsuli-idarəsi bərqərar oldu.

M.Ə.Rəsulzadə müstəqilliyin Azərbaycana nə verdiyini "Əsrimizin Səyavuşu" əsərində belə xarakterizə edirdi: **"28 may" Azərbaycanda yaşayan bütün millətlərə eyni dərəcədə azadlıq və bərabərlik verdi: "Hər şeydən əvvəl, Azərbaycan Respublikasının əsas idarəsi bütün vətəndaşların bərabər bir hüquqla yaşaması üzərində qurulmuşdu. Burada hər bir insanın möhtərəm şəxs, Azərbaycan vətəndaşı olduğu üçün hüququ qorunurdu. Erkək-qadın, müsəlman-xristian, cins və milliyyət fərqi gözləmədən, zəngin-fəqir, müdir-işçi, torpaq sahibi-günəmuzdçu, öyrətmən-tələbə, möhtərəm-cahil, sinif, məslək, təbəqə, rütbə, məqam, nəsil, bilgi imtiyazı aramadan bütün vətəndaşlar məmləkət idarəsində iştirak edir, qanun alan quruluşlara girmək haqqına dəxi sahib idilər. Burada bir sinif digər sinfə hakim deyildi. İnsan nə varına görə haqlı, nə də yoxsulluğuna görə haqsız göründü. Bunun kimi ona nə yoxsulluğu üçün sayğı edilir, nə zənginliyi üçün aşağılanırdı... Burada misli Avropada tətbiq olunmayan həqiqi bir xalq cümhuriyyəti qurulmuşdu"**[33]. Sadalanan bu xüsusiyyətlər dövlətin bütün strukturlarında, eyni zamanda parlamentdə də mövcud idi.

**Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920-ci illər)**




33 Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Ankara, 1989, s. 44-45.

1918-ci il iyunun 16-da milli hökumət Tiflisdən Gəncəyə köçərək, oranı özünün müvəqqəti paytaxtına çevirdi. Gəncəyə gəliş o qədər də maneəsiz olmadı. Milli Şuradan kənarda qalmış bəzi qüvvələr hökumətin demokratik, inqilabi əhvali-ruhiyyəli şəxslərdən təşkil olunmasından narazı idilər. Azərbaycanın Türkiyəyə ilhaq edilməsi tərəfdarı olan bu dairələr Milli Şuraya qarşı fəal kampaniyaya başlayaraq Qafqaz İslam Ordusunun komandanı Nuru Paşanı da öz tərəflərinə çəkmək istəyirdilər. Lakin Nuru Paşa özünün yalnız əsgər olduğunu və siyasi məsələlərə müdaxilə etməyəcəyini bildirdi. Belə bir vəziyyətdə M.Ə.Rəsulzadənin tutduğu prinsipial və düzgün mövqe Azərbaycan istiqlaliyyətinin başı üzərini almış təhlükəni sovuşdurmağa imkan verdi. Bir il sonra M.Ə.Rəsulzadə bu hadisəni xatırlayaraq deyirdi: **"Bizə dedilər ki, türkləri tənqid etmək olmaz, çünki onlar bura bizi idarə etməyə yox, bir əsgər kimi xalqı müdafiə etməyə gəlmişdilər. Bu, doğrudur. Lakin o da doğrudur ki, bizim öz içərimizdə elə bəylər və ağalar var idi ki, onlar burada İstanbulun ağalıq etməsini tələb edirdilər".**[34]

Azərbaycanın vəziyyətini gərginləşdirən amillərdən biri də Sovet Rusiyası ilə Almaniya arasında 1918-ci ilin martında imzalanmış Brest-Litovsk müqaviləsinə həmin ilin avqustun 27-də edilən əlavə idi[35]. Əlavənin 14-cü maddəsi birbaşa Azərbaycanla bağlı idi. Qafqaz İslam Ordusunu Bakıya buraxmamaq məqsədilə orada göstərilirdi ki, Almaniya Türkiyənin Bakı, Şamaxı və Quba mahallarının müəyyən olunmuş sərhədlərinə keçməsinə mane olacaq. Bunun müqabilində Rusiya imkan daxilində Bakı əyalətində neft və neft məhsulları çıxarılmasına şərait yaradacaq və çıxarılan məhsulun dörddə biri Almaniyaya veriləcəkdir.

Azərbaycan hökuməti bu müqaviləyə kəskin etirazını bildirərək göstərirdi ki, "Bakısız Azərbaycan - başsız bədəndir". Əhməd bəy Ağaoğlu da almanları Azərbaycanı "bir bidon kerasinə" satmaqda ittiham edirdi.

Türkiyənin hərbi hissələrinin köməyi ilə Azərbaycan ordusu *(Qafqaz İslam Ordusu)* sentyabrın 15-də Bakıya daxil oldu. Bakı uğrunda gedən döyüşlərdə mindən çox türk əsgəri şəhid oldu.

34 Azərbaycan Respublikası MAİ, f. 894, iş 148, v. 10.

35 Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. II hissə (1917-ci il noyabr – 1918-ci il noyabr). Bakı, 2001, s. 234-244.

Bakının azad edilməsində türk ordusunun göstərdiyi xidmətləri yüksək qiymətləndirən Fətəli xan Xoyski Qafqaz İslam Ordusunun komandanı Nuru Paşaya yazırdı: **"Təhti komandanızda olan cəsur türk əsgərlərimiz tərəfindən Azərbaycanın paytaxtı Bakının düşməndən xilas edildiyi münasibəti ilə millətin Zati-aliyi-həmiyyət pərvəranələrizə və dünyanın ən nəcib əsgəri olan türk oğullarına minnətdar olduğumuzu ərz etməklə iftixar edirəm, Əfəndim".**[36] Hökumətin ən zəruri addımlarından biri də milli ordunun yaradılması oldu. 1918-ci il oktyabrın 23-də yeni əsasda Hərbi Nazirlik təsis edildi. Nazirlər Şurasının sədri Fətəli xan Xoyski hərbi nazir, tam artilleriya generalı S.Mehmandarov isə hərbi nazirin müavini təyin edildi. Nazir müavini S.Mehmandarov 1918-ci il noyabrın 15-də verdiyi əmrində ordu quruculuğuna xüsusi diqqət yetirir və "**bütün səviyyədə olan rəisləri əsas diqqətini qoşunlarda təlim və tərbiyəyə, onlarda möhkəm intizam aşılanmasına, işə məsuliyyət və məhəbbət hisslərinin, xidməti mülkiyyətə marağın oyadılmasına, qanun-qaydaya riayət edilməsinə və nəhayət, tabeçilikdə olanlara qayğıkeş və mehriban münasibət göstərilməsinə çağırırdı".**[37] Başqa bir əmrində isə o, Azərbaycan ordusunun yaradılması və formalaşdırılmasında əsas məqsədin nədən ibarət olduğunu açıqlayırdı: **"Azərbaycan qoşunları heç bir təcavüzkar məqsəd güdmür. O, yalnız dövlət sərhədinin müdafiəsi, dövlət daxilində qanun-qaydanın qorunması, mümkün ola biləcək anarxiyanın aradan qaldırılması, bandaların soyğunçu basqınlarına son qoyulması məqsədi ilə yaradılmış və yaradılmaqdadır"**[38]. Ordu quruculuğuna bu tələblərlə yanaşan



*Fətəli xan Xoyski*

36 "Azərbaycan" qəzeti, 3 oktyabr 1918-ci il
37 "Azərbaycan" qəzeti (rus dilində), 18 noyabr 1918-ci il
38 Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 2, iş 49, v. 23.

S.Mehmandarovun rəhbərliyi altında Bakıda qısa müddətdə Hərbi Nazirliyin aparatı yaradıldı.

Bakı azad edildikdən sonra dinc dövlət quruculuğu dövrü uzun sürmədi. Osmanlı müharibədə məğlub olub Mudros barışığı ilə ordu hissələrini Bakıdan çıxardıqdan sonra general Tomson başda olmaqla müttəfiq qoşunları gəldi.

Müdaxiləçilərin istiqlalımıza düşmən münasibət bəsləmələrinə baxmayaraq, beş aylıq fasilədən sonra Milli Şura çətinliklə toplaşaraq 1918-ci il noyabrın 19-da parlament yaratmaq haqqında qanun qəbul etdi. Bu qanunla yaranmış fövqəladə vəziyyətlə əlaqədar olaraq Müəssislər Məclisinin çağırılması mümkün olmadığı üçün Milli Şuranın ümumdövlət qanunvericilik orqanına – Azərbaycan parlamentinə çevrilməsi qərara alındı. Qanuna müvafiq olaraq birpalatalı parlament 120 nəfərdən ibarət olmalı idi. Bu qanunu düşmənçiliklə qarşılayan qeyri-millət nümayəndələri siyasi vəziyyəti daha da gərginləşdirdilər. Yalnız Azərbaycan hökumətinin düzgün və çevik siyasəti, general Tomsonu inandıra bildi ki, Azərbaycan hökuməti Bakıda ciddi siyasi qüvvədir və onunla dialoq zəruridir. Bütün danışıqlar nəticəsində Tomson parlamentin açılışına mane olmayacağını bildirdi. Azərbaycan parlamentinin açılışı ərəfəsində Üzeyir Hacıbəyov yazırdı: **"Gözlər var ki, dünənə qədər əsir olan bir milləti bu gün sərbəst görmək istəmir, qulaqlar var ki, lal edilmiş bir dilin söz söyləməsini eşitmək istəmir, qəlblər var ki, bir əsrdən məhkum qalan millətin bu gün hakim deyil, yalnız müstəqil və azad olmasını qəbul etmək istəmir**"[39].

Böyük çətinliklərə baxmayaraq, 1918-ci il dekabrın 7-də parlamentin açılışı ölkənin istər daxili, istərsə də beynəlxalq həyatında çox mühüm hadisə oldu. Fətəli xan Xoyski hakimiyyəti parlamentə təhvil verdi. Qısa müddətdə parlament Azərbaycanın siyasi, iqtisadi və mədəni həyatı ilə bağlı xeyli tədbirlər həyata keçirdi.

1918-ci il dekabrın 15-də isə türk qoşunları Azərbaycandan çıxarıldı. Həmin ilin sonundan başlayaraq Hərbi Nazirliyin rəhbərliyində və strukturunda müəyyən dəyişikliklər edildi. Nazirlər Şurasının 25 dekabr 1918-ci il tarixli qərarı ilə artilleriya generalı Səməd bəy Mehmandarov hərbi nazir, 29 dekabr tarixli qərarı ilə general Əliağa

39 "Azərbaycan" qəzeti, 5 dekabr 1918-ci il.

Şıxlinski nazir müavini təyin edildi. Yüksək hərbi biliyə və təcrübəyə malik olan generallar Azərbaycanın müstəqilliyini, dövlətçiliyini möhkəmləndirmək və ərazi bütövlüyünü təmin etmək məqsədi ilə ordunun formalaşdırılması istiqamətində mühüm və təxirəsalınmaz işlər görməyə başladılar.



***Azərbaycan Xalq Cümhuriyyəti ordusunun zabitləri. Gəncə, 1918-ci il***

Bütün bunlarla yanaşı, 1919-cu il yanvar ayının 22-də müttəfiq qoşunların baş komandanı general C.Milton Bakıya gəldi. Ertəsi gün o, Azərbaycanın Nazirlər Şurasının sədri F.Xoyski ilə görüşdə bildirdi ki, ingilis hökuməti Azərbaycan hökumətini yeganə qanuni hakimiyyət kimi tanıyır, müttəfiq qoşunların komandanlığı ona yardım göstərərək, "yeni yaranmış dövlətin daxili işlərinə heç zaman qarışmayacaq". C.Miltonun bəyanatı 1919-cu ilin yanvarında L.Biçeraxov tərəfindən Azərbaycanda hakimiyyəti zorla ələ keçirmək məqsədi güdən "Qafqaz-Xəzər hökuməti" adlı qanunsuz hökumətin taleyini həll etmiş oldu. Artıq fevral ayının 28-də Azərbaycan hökuməti müttəfiqlərin komandanlığına nota verib L.Biçeraxov dəstələrinin 24 saat müddətində Bakıdan çıxarılmasını və erməni silahlı qüvvələrinin buraxılmasını tələb etdi. Azərbaycan hökumətinin bu tələbinə ingilislər müsbət cavab verdilər.

Aydındır ki, Azərbaycan parlamentinin ilk tədbirlərindən biri 1919-cu il yanvar ayının 8-də Fransaya - Paris Sülh Konfransına səlahiyyətli nümayəndələrin göndərilməsi oldu. Digər tədbir isə aprel ayının 25-də Tiflisdə respublikalar arasında siyasi, iqtisadi, maliyyə məsələlərini nizama salmaq və həmçinin sərhədlər məsələsindəki münaqişələri həll etmək üçün Qafqaz Konfransının çağrılması oldu. Lakin Denikinin Dağıstana basqını və Ermənistanın digər iki Qafqaz respublikasından fərqli olaraq ərazi münaqişələrini həll etməyə çalışmaması konfransa öz işini başa çatdırmağa imkan vermədi.

## I.2. Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin yaradılması

AXC öz müstəqilliyini elan etdikdən sonra dövlətin və dövlətçiliyin təhlükəsizliyini təmin etmək, yəni onu daxili və xarici təhdidlərdən qorumaq, baş verə biləcək terror-təxribat aksiyalarının qarşısını almaq, pozucu qüvvələri zərərsizləşdirmək üçün müstəqil xüsusi xidmət orqanının yaradılmasına böyük ehtiyac var idi. Daha doğrusu, Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş qüvvələrin *(denikinçilərin, ingilislərin, bolşeviklərin, ermənilərin və s.)* təxribat-pozuculuq fəaliyyətləri təhlükəsizlik orqanlarının yaradılmasının zəruriliyinin qaçılmaz olduğunu göstərirdi. Lakin öz müstəqilliyini yenicə elan etmiş AXC-nin maddi imkanları, kadr potensialı, hələlik müvəqqəti paytaxt seçdikləri Gəncədə oturmaları və Bakıya daxil ola bilməmələri, mükəmməl təhlükəsizlik orqanı yaratmaq üçün ənənənin olmaması belə bir həyati əhəmiyyətə malik olan addımın reallaşmasına çətinlik törədirdi. Bütün çətinliklərə baxmayaraq, Azərbaycan hökuməti Müdafiə Nazirliyinin nəzdində xüsusi xidmət orqanlarının funksiyalarını həyata keçirən bir bölmə yaratdı. "Kəşfiyyat və əks-kəşfiyyat" adlanan həmin qurumun nə zaman yaradılması barədə konkret məlumat olmasa da, mövcud arxiv materialları həmin bölmənin 1918-ci ildə yaradılması barədə mülahizə yürütməyə əsas verir. Həmin bölmə Müdafiə Nazirliyi təsis edildiyi dövrdən, daha dəqiq desək, S.Mehmandarov nazirlikdə rəhbər vəzifəyə təyin edildikdən bir qədər sonra yaradılmışdı. Bunu deməyə əsas verən amillərdən biri Müdafiə Nazirliyinin başında duran rəhbərlərin böyük təcrübəyə malik olmaları və əvvəllər xidmət etdikləri Çar Rusiyasının, eləcə də dünyanın müxtəlif güc strukturlarının işlərindən xəbərdar



***General-leytenant Məmməd bəy Sulkeviç***

olmaları və əldə olunmuş arxiv materiallarıdır. Belə ki, hərbi nazir S.Mehmandarov 1919-cu il 29 mart tarixli 156 saylı əmrində göstərirdi ki, 19 aprel 1917-ci ildə baş parutçik rütbəsi almış Ağalarova Nazirlər Şurasının sədri Fətəli xan Xoyskinin 7 saylı sərancamı ilə 28 avqust 1918-ci ildə Əks-kəşfiyyat bölməsinin rəisi vəzifəsini müvəqqəti icra etmək tapşırılmışdır.[40]

Maraqlıdır ki, 1918-ci il noyabrın 15-də təsis edilən Ümumi Qərargahın tərkibinə daxil olan 8 şöbədən biri General-kvartirmeyster şöbəsi adlanırdı.[41] 1919-cu ilin mart ayının birinci yarısına kimi Ümumi Qərargahın tərkibinə daxil olan General-kvartirmeyster şöbəsinin rəisi vəzifəsini müvəqqəti olaraq Vasili Nikolayeviç Sokolov icra etmişdi.[42] Kəşfiyyat və əks-kəşfiyyat bölməsi General-kvartirmeyster şöbəsinin strukturu daxilində fəaliyyət göstərirdi. Əks-kəşfiyyat bölməsi 1918-ci il 28 avqust tarixindən əvvəl yaradılmışdı. Fikrimizcə, bu bölmənin tarixi General-kvartirmeyster şöbəsinin yarandığı dövrə təsadüf edir.

Göründüyü kimi, ilk xüsusi xidmət orqanı hələ 1918-ci ildən mövcud olmuşdur. Lakin AXC-nin xüsusi xidmət orqanlarının təşəkkül dövrü 1919-cu ilə təsadüf edir. Bu, ölkədə nisbi sabitliyin yaradılması, dövlət idarəçilik aparatlarının düzgün təşkili və ordu quruculuğu sahəsində həyata keçirilən islahatlarla bağlı idi.

Milli orduda aparılan dəyişikliklərə uyğun olaraq 10 yanvar 1919-cu ildə Hərbi Nazirlikdə hərbi qanunvericilik və hərbi idarəetmə sahəsində müəyyən əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi və müvafiq qərarların qəbul edilməsi məqsədilə Müvəqqəti Hərbi Şura yaradıldı. Bu şuranın tərkibinə General-kvartirmeyster şöbəsinin rəisi də daxil edildi. Azərbaycanın milli ordusunun tədricən güclənməsinə və təkmilləşməsinə baxmayaraq, gözlənilən təxribatların və təhdidlərin qarşısının alınması, düşmənin casusluq fəaliyyətinin aşkarlanması, ən başlıcası müstəqilliyimizi, eləcə də dövlətçiliyimizi qorumaq üçün güclü və peşəkar xüsusi xidmət orqanlarına, eyni zamanda Azərbaycanın müxtəlif bölgələrində onun struktur bölmələrinin yaradılmasına ehtiyacı gündən-günə artırırdı. Bunun vacibliyini ilk gündən dərk edən Azərbaycanın hökumət rəhbərləri təhlükəsizlik orqanlarının

40 Azərbaycan Respublikası MAİ, f. 898, siy. 2, iş. 5, v. 101
41 Адрес-календар Азербайджанской Республики. Баку, 1920, с. 27.
42 Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 1, iş 1, v. 43.

struktur bölmələrinin təkmilləşdirilməsinə və genişləndirilməsinə çalışır və bu istiqamətdə əməli fəaliyyət göstərirdilər. Belə əməli fəaliyyətin məntiqi nəticəsi kimi Gəncə şəhərində Azərbaycan Ordusu Baş Qərargahının General-kvartirmeyster şöbəsinin Kəşfiyyat bölməsi rəisinin 1919-cu il yanvarın 28-də General-kvartirmeysterə göndərdiyi məktub xüsusi maraq doğurur: **"Əks- kəşfiyyat bölməsi üçün 7 ştatı təqdim edir və məruzə edirəm ki, hələlik aşağıda adı çəkilən şəhər, dəmiryolu stansiyası və yerlərdə: Bakıda, Şuşada, Ağdamda, Qazaxda, Gəncədə və s. agent məntəqələrinin yaradılması məqsədəuyğundur".**[43]

Buradan aydın olur ki, artıq dövlət təhlükəsizlik sistemi tədricən genişləndirilir və mümkün vasitələrlə inkişaf etdirilirdi. Düşmənin Azərbaycandakı maraqlarını, çirkin siyasətini, eləcə də ölkədəki gərginliyi nəzərə alan AXC-nin parlamenti 1919-cu il fevralın 25-də "Hərbi Nazirliyin ştatları haqqında" qanun qəbul etdi. General-kvartirmeyster idarəsi yanında Əks-kəşfiyyat bölməsinin yaradılması da həmin ştatda öz təsdiqini tapdı.

Ordunun təlim-tərbiyəsini, döyüş hazırlığını, təsərrüfat və təminat qayğılarını daha da gücləndirmək məqsədi ilə 26 mart 1919-cu ildə Ərkani-hərb *(Baş qərargah)* təsis edildi. S.Mehmandarovun fikrincə, indiyədək belə bir qurumun yaradılmamasının əsas səbəbi yüksək hazırlıqlı kadrların olmaması ilə bağlı idi. S.Mehmandarovun dəvəti ilə Krımdan gəlmiş, milliyyətcə tatar olan general-leytenant Məmməd bəy Aleksandroviç Sulkeviç *(əsl adı Maçeybəy idi –* **C.Q.**) martın 26-dan etibarən 147 saylı əmrlə Ərkani-hərbin rəisi kimi fəaliyyətə başlamış hesab edildi. Artıq 1919-cu ilin martında Hərbi Nazirliyin strukturu yeni formada dəyişdirilməyə başlandı.

General Mehmandarov Nazirlər Şurasına ünvanladığı məktubda Ərkani-hərbin struktur məsələlərinə toxunur və göstərirdi ki, bu hərbi qurumun içərisində üç şöbənin – General-kvartirmeyster, Topoqrafiya və Hərbi daşınmaların olması məqsədəuyğundur. Adları çəkilən şöbələrdən birinci ikisi Ümumi Qərargahın tərkibindən çıxarılaraq Ərkani-hərbə birləşdirildi.[44] Bütün bunlar Azərbaycan

43 Yenə orada, f. 2898, siy. 1, iş. 1, v. 7.
44 Yenə orada, f. 894, siy. 1, iş 3, v. 31.

ordusunun güclənməsinə və mövcud təhdidlərin, eyni zamanda casusluq fəaliyyətinin qarşısının alınmasına xidmət edirdi.

## Azərbaycanlılara qarşı ermənilərin törətdiyi soyqırımlar (1918-1920-ci illər)




Daxili və xarici təxribatçılarla mübarizəni gücləndirmək məqsədi ilə 1919-cu il mart ayının 28-də Səməd bəy Mehmandarovun və Məmməd bəy Sulkeviçin birgə imzaladıqları 157 saylı əmrdə göstərilirdi ki, mart ayının 26-da Hərbi Nazirlikdə Baş Qərargahın Baş İdarəsi yaradılıb (əvvəllər Gəncə şəhərində olan bu idarə 1919-cu ilin iyul ayının 1-də Bakı şəhərində – Krasnovodsk və Merkuri küçələrinin kəsişdiyi yerdəki binada *(indiki S.Vurğun küçəsi və Azərbaycan prospekti)*[45] yerləşdirildi). Həmin idarənin strukturuna daxil olan şöbələrdən biri General-kvartirmeyster adlanırdı. Bu şöbə aşağıdakı bölmələrdən təşkil olundu:

1. ***Əməliyyat-səfərbərlik,***
2. ***Nizami-hesabat,***

45 Yenə orada, f. 2898, siy. 2, iş 38, v. 20.

***3. Kəşfiyyat və əks-kəşfiyyat,***
***4. Rabitə xidməti.***[46]

Hərbi nazir S.Mehmandarov aprel ayının 2-də AXC Nazirlər Şurasının sədrinə məruzəsində qeyd edirdi ki, kəşfiyyat və əks-kəşfiyyatın əsas vəzifəsi **"düşmən haqqında mümkün olan məlumatları toplamaq, xaricdə hərbi agenturalar yaratmaq, ölkənin daxilində isə casusluğa qarşı mübarizə aparmaqdan ibarətdir".**[47] S.Mehmandarovun məruzəsindən və bölmənin adından da aydın olur ki, bu qurum öz üzərinə həm kəşfiyyat, həm də əks-kəşfiyyat funksiyasını götürmüş və hər iki işi paralel aparmışdı. Lakin hərbi idarə çərçivəsində işləyən bu struktur öz işini dövlət təhlükəsizliyinin yalnız hərbi cəhətləri ilə məhdudlaşdırırdı.

"Kəşfiyyat və əks-kəşfiyyat"ın Hərbi Nazirlikdə yalnız bir bölmə olaraq fəaliyyət göstərməsi, eləcə də bu sahə üzrə peşəkar mütəxəssislərin, savadlı kadrların olduqca azlıq təşkil etməsi ictimai-siyasi həyatın bir çox sahələrində olduğu kimi əks-kəşfiyyat işini də genişləndirməyə və inkişaf etdirməyə nəinki imkan vermirdi, hətta mane olurdu. Çətinlik törədən amillərdən biri də bu bölmənin əməkdaşlarının sayca az olması idi. Belə ki, bu bölmənin ştatına uyğun olaraq onlar sayca 28 nəfər – bunlardan 1 nəfər rəis, 2 nəfər rəis köməkçisi, 2 nəfər kargüzar, 23 nəfər isə agent *(əməkdaş)* olmalı idi.[48] Lakin bölmə kadrlarla tam komplektləşdirilmədiyindən bəzi vakant yerlər də qalmışdı. Azərbaycana marağın artdığı, müstəqilliyinin təhlükə altında olduğu bir dövrdə belə bir qurumla hərbi nazir S.Mehmandarovun dediyi kimi, böyük işlər görmək və ölkənin hərbi təhlükəsizliyini təmin etmək olduqca çətin idi.

Azərbaycanı işğal etmək və ya özünə tabe etdirmək istəyən qüvvələrin, xüsusilə denikinçilərin 1919-cu ilin aprel ayında Dağıstana və Gürcüstana hücumu Zaqafqaziya, eyni zamanda Azərbaycan üçün də təhlükəli idi. Vəziyyətin ciddiliyini görən Azərbaycanın Xarici İşlər Nazirliyi denikinçilərin Dağıstana qarşı yürütdükləri irtica hərəkətlərini pisləyərək ingilis komandanlığından həmin işğalçı ordunun Dağıstanın hüdudlarından kənara çıxarılması üçün qəti və təcili tədbirlər görməsini tələb etdi. Denikin ordusunun Petrovsk *(indiki Mahaçqala)* və

46 Yenə orada, f. 894, siy. 1, iş. 4, v. 12.
47 Yenə orada, f. 894, siy. 1, iş. 26, v. 3.
48 Yenə orada, f. 2898, siy. 1, iş 3, v. 10.

Dərbəndi işğal etməsinin AXC üçün ciddi təhlükə olduğunu nəzərə alan Azərbaycan parlamenti 1919-cu il mayın 26-da və iyunun 5-də fövqəladə iclas çağırdı. Həmin iclaslarda Azərbaycanın sərhədlərində yaranmış real təhlükə geniş müzakirə olundu.

Azərbaycan hökumətinin atdığı cəsarətli addımlar Osmanlı dövləti ilə bağlanan Mudros müqaviləsinə əsasən Bakıya gəlmiş müttəfiq qoşunlarının komandanlığını da qətiyyətli olmağa vadar etdi. Bütün bunlara baxmayaraq, Denikin 1828-ci ildə Rusiya və İran dövlətləri arasında bağlanmış məlum Türkmənçay müqaviləsinin 8-ci bəndini əsas tutaraq bildirirdi ki, müqaviləyə əsasən yalnız Rusiyanın Xəzər dənizində hərbi donanma saxlamaq hüququ vardır. Ona görə də Azərbaycan donanmasının üçrəngli milli dövlət bayrağı altında Xəzər dənizində üzməsi yolverilməzdir.

Bununla əlaqədar Azərbaycanın Xarici İşlər Nazirliyi göndərdiyi notada həmin fikrin əsassız olduğuna belə aydınlıq gətirirdi: "**1828-ci il Türkmənçay müqaviləsi Rusiya ilə İran arasında bağlanmışdır və Azərbaycan üçün heç bir qüvvəyə malik deyildir. Nəzərinizə çatdırmağı lazım bilirəm ki, Azərbaycan donanması indiyə qədər olduğu kimi bundan sonra da öz milli bayrağı altında üzəcəkdir".**

Denikin bəyanatlarından birində Azərbaycana münasibətini gizlətmir və açıq şəkildə bildirirdi: **"Cənubi Rusiya silahlı qüvvələrinin komandanı Azərbaycanı Rusiyadan ayrılmış hesab etmir. O, Azərbaycanı müstəqil dövlət kimi yalnız Rusiyanın ali hakimiyyətini tanıyandan sonra qəbul edəcəkdir".** Çar generalının riyakarlığını duyan N.Yusifbəyli qeyd edirdi: **"Onların planları məlumdur, bu planların hamısı imperialist məqsədi güdür… Onlar Zaqafqaziya respublikalarını özlərinə tabe etmək, Azərbaycanı əsarət altına almaq istəyirlər…".**

Azərbaycan hökumətinin notalarına məhəl qoymayan denikinçi zabitlər Çar Rusiyasının mundirində Bakının küçələrini dolaşır, Denikinin xeyrinə təbliğatlar aparır (xüsusilə də ruslar arasında), ağqvardiyaçıları müdafiə edən könüllü ordunun sıralarını genişləndirir, təxribat törətmək və hərbi sirləri öyrənmək məqsədi ilə yenicə yaranmaqda olan Azərbaycan ordusunun tərkibinə daxil olurdular. "Belə şəxslərin simasında Denikin Azərbaycanda güclü casus bazasına malik idi. Denikinin tərəfdarları Bakıda gizli silah bazaları da yaradırdılar. Belə bazalardan biri Balaxanı və Krasnovodsk küçələrinin tinindəki

evin zirzəmisində tapılmışdı. Burada çoxlu sayda tüfəng, qumbara, patron və s. aşkara çıxarılmışdı".[49] Bu isə gərginliyi daha da artırırdı. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində müəyyən edilmişdi ki, həmin zabitlərin böyük əksəriyyəti Azərbaycan ordusunun hərbi sirlərini Denikinə verir. Belə ki, 1919-cu ilin aprelində Bakıda Denikin kəşfiyyatının rəisi, Baş Qərargahın zabiti Çernışov Azərbaycanın xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən həbs edilərkən (*sonra o, ingilislərin təzyiqi ilə azadlığa buraxıldı –* **C.Q.**) onun Azərbaycanın milli ordusunda Denikinin casusu kimi fəaliyyət göstərdiyi sübuta yetirilmişdi. Eyni zamanda əməliyyat tədbirləri nəticəsində Denikinin casus şəbəkəsində təmsil olunanların bir qisminin ingilis kəşfiyyatına da işləməsi müəyyən edilmişdi. Çernışovun yaşadığı mənzildə Azərbaycanın xüsusi xidmət orqanları tərəfindən aparılan axtarış zamanı Denikin kəşfiyyatının sxemi, onun tapşırıqları, məqsədi və proqramı, eyni zamanda gizli bolşevik təşkilatının işi, Azərbaycan ordusunun vəziyyəti barədə Denikinə ünvanlanmış çoxlu sayda məlumatlar tapılmışdı.[50] Bütövlükdə denikinçiləri Azərbaycanla bağlı aşağıdakı məsələlər maraqlandırırdı: silahlı qüvvələr, onların tərkibi, yerləşdiyi ərazi, silahla təchizatı, geyimi, nizam-intizamı, sosial təminatı, döyüş və material ehtiyatları, hərbi xarakterli tədbirlər, ictimai rəy, xalqın "Vahid və bölünməz Rusiya" məsələsinə münasibəti, müxalifətin və hökumətin fəaliyyətinə, denikinçilərə qarşı mübarizə məsələlərinə münasibət və s.



***General Səməd bəy Mehmandarov***

Bu cinayətkar qrupun fəaliyyəti ifşa edildikdən sonra Azərbaycan parlamenti 1919-cu il fevralın 26-da denikinçilərin dövlət işində və hərbi sahədə xidmət göstərmələrini qadağan etdi. Hərbi nazirin əmri ilə bir neçə hərbçi denikinçilərlə əlaqə saxladıqlarına və

49 Süleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı, 1998, s. 416.
50 Qoca E. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920). Bakı, 2000, s. 28-29.

məlumatları onlara ötürdüklərinə görə ordu sıralarından xaric edildi. **"İlkin yoxlamalar göstərdi ki, bu zabitlərin xeyli hissəsi general Denikinə rəğbətlə yanaşır, hətta onun xeyrinə Azərbaycanda casusluqla məşğuldurlar. Azərbaycan ordusunda Denikinin casusluq fəaliyyəti aşkarlandı, rus zabitlərinin xeyli hissəsi milli ordudan xaric olunub Azərbaycandan sürgün edildilər".**[51]

Azərbaycan hökumətinin ciddi cəhdlərindən sonra 1919-cu il martın 1-də könüllü ordunun qoşun hissələri də Azərbaycandan çıxarıldı. Lakin Denikin təhlükəsi hələ də mövcud idi. Yaranmış təhlükə ilə əlaqədar Azərbaycan və Gürcüstan arasında iyunun 16-da Tiflisdə hərbi-müdafiə sahəsində müqavilə imzalandı və həmin ayın 27-də hər iki ölkənin parlamentində təsdiq edildi. Bu pakta görə, Denikin təcavüzünə məruz qalan tərəf müttəfiqindən silah-sursat və hərbi yardım ala bilərdi.

Bu paktdan bir qədər sonra Gürcüstan Azərbaycana silah-sursatla yardım etməyə və onun müəyyən hissəsini satmağa başladı. Tam artilleriya generalı Səməd bəy Mehmandarov 1919-cu ilin sentyabrında imzaladığı 421 saylı əmrində göstərirdi: **"Bizim üçün böyük əhəmiyyətə malik olan müxtəlif predmetlər, silahlar və başqa hərbi əmlak əldə etmək üçün mən Gürcüstan Respublikasının Tiflis şəhərinə Baş Artilleriya İdarəsinin rəisi, general-mayor Murad Gəray bəy Tlexasın rəhbərliyi altında komissiya göndərmişdim. Bir sıra ciddi çətinliklərə baxmayaraq, qısa müddət ərzində, olduqca sərfəli qiymətlərlə Bakıda və Gəncədə qiymətli əmlak kütləsi quraşdırılmış və gətirilmişdi. Əldə edilmiş predmetlərin əksəriyyəti təzə, istifadə olunmuşları isə tam yararlı haldadır".**[52]

Həmin hərbi-müdafiə müqaviləsinin 10-cu bəndinə əsasən, Ermənistan da iki həftə ərzində onlara qoşula bilərdi. Lakin ermənilər Denikinlə gizli ittifaqa girdi və təcavüzkar siyasətlərini həyata keçirmək üçün ağqvardiyaçılardan xeyli silah-sursat ələ keçirdilər. Azərbaycan-Gürcüstan paktı ilə iki ölkə arasında münasibətlərin normal məcraya düşməsi və əlaqələrin inkişafı üçün münasib şərait yarandı. Denikinçilər bundan sonra da Azərbaycanın dövlətçiliyinə və ərazi bütövlüyünə qarşı qəsdlər törətməyə can atsalar da, buna nail ola bilmədilər.

51 Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990, s. 62-63.
52 Azərbaycan Respublikası MAİ, f. 2900, siy. 7, v.1, 7.

Əks-kəşfiyyat xidmətinin fəaliyyətində hakimiyyətə can atan bolşevizmlə mübarizə də əsas yerlərdən birini tuturdu. Rusiyada bolşevik hökumətinin getdikcə güclənməsi onların Bakıda, Gəncədə, eləcə də Azərbaycanın digər bölgələrində dövlət əleyhinə fəallığını artırmışdı. Əks-kəşfiyyat bölməsinin əməkdaşları Azərbaycan silahlı qüvvələrinin sıralarına soxulmağa çalışan bolşeviklərə qarşı mübarizəni gücləndirsələr də, bu işin öhdəsindən layiqincə gələ bilmirdilər. Bu barədə S.Mehmandarov yazırdı: **"Hərbi əks-kəşfiyyatın başlıca vəzifəsi dövlət daxilində hərbi casuslarla mübarizədir. Bolşevizmlə mübarizə ümumxalq işi olduğundan bir hərbi idarə onun öhdəsindən layiqincə gələ bilməz. Rus ordusunun dairə qərargahlarının əks-kəşfiyyat təcrübəsi göstərirdi ki, hətta xeyli pul buraxıldıqda belə təcrübəli icraçılar və axtarışla əlaqədar xüsusi bacarığa malik işçilər olmadan bu cür mürəkkəb və incə işi qaydaya salmaq hərbi idarənin hünəri deyil".**[53] Buna görə S.Mehmandarov bolşevizmlə mübarizədə "yerli şəraiti yaxşı bilən və kifayət qədər hazırlığı olan agentlərə (*Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin əməkdaşları nəzərdə tutulur* – **C.Q.**) kömək üçün Bakı axtarış polisinin də bu işə cəlb olunmasını" məqsədəuyğun hesab edirdi.

Daha sonra general yazırdı: **"Baş Qərargahın fəaliyyət təcrübəsi göstərdi ki, daxili təsərrüfat məsələləri, xidmətlər, qoşunların məişət və xidmət tələbatının təmin edilməsi ilə bərabər cari qayğılarla birlikdə müharibəyə hazırlıq mülahizələrinə dair məsələləri eyni idarədə cəmləşdirmək qeyri-mümkündür. Baş Qərargahın işlə yüklənməsi qoşunların döyüş hazırlığı ilə bağlı bir çox təxirəsalınmaz məsələlərin yerinə yetirilməsini ləngidir. Baş Qərargahın bölmələrinin onun tabeçiliyindən çıxarılması isə lazımi hazırlıq keçmiş şəxslərin Hərbi Nazirliyin ixtiyarına verilməsini çətinləşdirdi. General-leytenant Məmməd bəy Sulkeviçin Baş Qərargaha gəlişindən sonra Baş Qərargahın Baş İdarəsinin yaradılması ona həvalə edildi. Üç bölmədən ibarət, mövcud General-kvartirmeyster şöbəsinin həmin idarəyə daxil edilməsi mümkündür…".**[54]

S.Mehmandarovu Azərbaycan xüsusi xidmət orqanlarının inkişaf etdirilməsi çox düşündürürdü. O, "respublikada müxtəlif hakimiyyət institutlarını, o cümlədən XİN, DİN və Hərbi Nazirliyi işə cəlb etməklə

53 Yenə orada, f. 2894, siy. 1, iş 26, v. 4.
54 Yenə orada, v. 4.

kəşfiyyat sisteminin"[55] formalaşdırılmasına çalışırdı. Bu məqsədlə o, müvafiq plan da təklif etmişdi. Bu plana əsasən, təhlükəsizlik orqanlarının fəaliyyəti iki yerə ayrılırdı:

*a) kəşfiyyat,*

*b) əks-kəşfiyyat.*

S.Mehmandarov kəşfiyyat işini bir qədər geniş planda nəzərdə tutmuşdu. Belə ki, onun fikrincə, Hərbiyyə Nazirliyinin, Xarici İşlər Nazirliyinin və Sərhəd Xidmətinin strukturunda kəşfiyyat işi ilə məşğul olan müvafiq bölmələr *(hərbi attaşe, səfirliklər, həmsərhəd ərazilər)* yaradılmalı, əks-kəşfiyyat işi ilə isə Daxili İşlər Nazirliyi məşğul olmalı idi. Kəşfiyyat və əks- kəşfiyyat qurumları Dövlət Müdafiə Komitəsinə tabe edilməli idi.

Səməd bəy Meymandarov təhlükəsizlik işi ilə məşğul olan ayrıca bir qurumun yaradılması fikrindən uzaq idi. O, bu işlə mövcud olan üç orqanın məşğul olmasının tərəfdarı kimi çıxış edirdi. Təhlükəsizlik məsələləri ilə bağlı S.Mehmandarovun planları həyata keçməsə də, bu həyati əhəmiyyətə malik məsələ dövlət rəhbərlərinin daim diqqət mərkəzində idi.

**S.Mehmandarovun təklifinə əsasən AXC-nin təhlükəsizlik orqanlarının strukturu**




Azərbaycanda bolşevizmin təbliği və genişlənməsindən narahat olan S.Mehmandarov daxili işlər naziri N.Yusifbəyova yazırdı:

55 Cəfərov M. Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanları. Bakı, 1997, s. 5.

**"Bakıda bolşevik istiqamətli, özü də təəssüf ki, müsəlmanlardan ibarət bir qrup şəxs bolşevik ideyalarını yaymaq üçün bütün vasitələrlə kazarmalara girmək istəyirlər. Bakıda olan hissə, xüsusən də piyada qoşunları hələ lazımınca hərbi təlim almayıblar, nizam-intizam möhkəm deyil. Ona görə də mən bunların Bakıya gəlməsini istəmirdim. Bu gəncləri bolşeviklərin dağıdıcı təbliğatından qorumaq və qoşun yerləşən əraziyə kənar şəxslərin buraxılmaması məqsədilə polis nəzarətinin qurulması üçün sərəncam verməyinizi xahiş edirəm".**[56]

Azərbaycanda genişlənən bolşevizm təbliğatı Baş Qərargah rəisi M.Sulkeviçi də narahat etdiyindən mümkün müdaxilənin qarşısını almaq məqsədilə 1919-cu il 6 aprel tarixdə qarnizon rəislərinə belə bir göstəriş vermişdi: "Agentlərin verdiyi məlumatlara görə, bolşevik təşkilatları öz nümayəndələrinin Zaqafqaziya dəmir yolunun Qısanka stansiyasında keçirdiyi qurultayından sonra aşağıdakı qərara gəlmişlər:

1. **"Könüllülərin Şimali Qafqaza hücumu ilə əlaqədar olaraq hərbi hissə və əhali arasında kommunizm təbliğatını gücləndirmək, onların ədəbiyyatla təminatı məsələsini Bakı təşkilatına həvalə etmək.**
2. **Azərbaycan hökumətini əksinqilabi (bəy, mülkədar hökuməti) kimi təqdim edən qüvvələr tərəfindən gənc əsgərlərin aqrar sahəyə cəlb edilməsi ilə əlaqədar təbliğatına qarşı əhali arasında əks təbliğat aparmaq.**
3. **Qoşunlar arasında təbliğat aparmaq məqsədi ilə xüsusi təşkilat yaratmaq.**

**Bu barədə qoşunlarda aparılan bolşevik təbliğatının müşahidəsi üçün bütün tədbirlərin görülməsini, vəzifəsi yalnız casusluqla deyil, eyni zamanda bolşevik təbliğatı ilə mübarizə olan Baş Qərargahın əks-kəşfiyyat bölməsinin işinin yüngülləşdirilməsi məqsədilə bütün baş verənlərlə əlaqədar mənə məlumat çatdırılmasını xahiş edirəm".**[57]

Hərbi Nazirliyin rəhbərliyi Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin əldə etdiyi məlumatlara böyük diqqətlə yanaşırdı. Bu bölmə ölkədəki hərbi vəziyyəti nəzarətdə saxlamaq, mümkün təxribat-pozuculuq hallarının qarşısını almaq məqsədilə rəhbərliyi məlumatlandırmaq

56 Azərbaycan Respublikası MAİ, f. 894, siy. 10, iş 96, v. 30.
57 Yenə orada, f. 1046, siy. 2, iş 38, v. 22.

üçün yerlərdəki hərbi qurumlarla da lazımi ünsiyyət yaratmağa çalışır və onların vasitəsi ilə müəyyən informasiyalar əldə edirdilər. Bu da bölmədəki kadrların azlığı probleminin aradan qaldırılmasına, kəşfiyyat və əks-kəşfiyyat işinin düzgün qurulmasına kömək edirdi.

AXC-nin həmsərhəd ölkələrdə olan diplomatik nümayəndələri də əldə etdikləri əməliyyat xarakterli məlumatları bəzən birbaşa, çox vaxt isə Xarici İşlər Nazirliyi vasitəsilə Hərbi Nazirliyə göndərirdi.

Hərbi Nazirlikdən Xarici İşlər Nazirliyinə ünvanlanmış məktubda iki nazirlik arasında bu sahədə əməkdaşlıq aydın görünür: **"...Xarici işlər nazirinə. Mümkün düşmənlər, həmçinin müxtəlif siyasi cərəyanlar haqqında** *(bolşeviklər)* **məlumatların cəmləşməsi üçün bütün alınmış informasiyaların Baş Qərargaha ötürülməsinə etiraz etməməyinizi xahiş edirəm... Baş Qərargahı ən çox maraqlandıran məsələlər bizimlə həmsərhəd olan dövlətlərin qoşunlarının cəmləşməsi, yerdəyişməsi, sayı, komanda heyəti, təchizatı, qidalanması, əhvali-ruhiyyəsi, sanitar vəziyyəti və sairədir. Baş Qərargah öz növbəsində onun ixtiyarında olan və Xarici İşlər Nazirliyinin səlahiyyətlərinə aid olan məlumatları sizə göndərəcəkdir ki, qarşılıqlı informasiya əsasında bizim qonşulara aid olan məsələlər daha dəqiq işıqlandırılsın".**[58]

Belə qarşılıqlı əməkdaşlıq nəticəsində Azərbaycanın xüsusi xidmət orqanları Ermənistanın Bakıdakı diplomatik nümayəndələrinin əksəriyyətinin hərbçilərdən ibarət olduğunu aşkarlamışdı. Bu da beynəlxalq normalara zidd olduğundan Azərbaycan hökuməti Ermənistanın Bakıdakı diplomatik nümayəndəliyində hərbi attaşe vəzifəsinin təsis edilməsinə icazə vermirdi. Şübhəsiz ki, ermənilər attaşenin yaradılmasına nail olmaqla Azərbaycanda hərbi-siyasi vəziyyəti öyrənməyə cəhd edirdilər.

İngilislərin Azərbaycanda yeritdiyi ikili siyasət də S.Mehmandarovu razı salmırdı. Məsələn, ingilis kapitanı Dellinin şimal sərhədində Denikinin nümayəndəsi ilə gizli görüşü və kəşfiyyat xarakterli məlumatlar toplaması hərbi naziri hiddətləndirdiyindən Nazirlər Şurasına yazırdı: "**Tiflisdən qayıdan kimi mən təltif edildiyim I və II dərəcəli müqəddəs Mixail və müqəddəs Georgi ingilis ordenini sizə göndərəcəyəm** *(onların I dərəcəlisini talan vaxtı bolşeviklər almışdılar)*. **II dərəcəlisini isə xahiş edirəm ingilislərə qaytarasınız və bildirəsiniz ki, bunu gəzdirmək istəmirəm, çünki mən onları**

58 Yenə orada, f. 970, siy. 1, iş 96, v. 37.

**Azərbaycanın düşməni sayıram**".[59]

Hərbi Nazirliyin, eləcə də onun Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin həyata keçirdiyi tədbirlərə baxmayaraq, Azərbaycanda ictimai-siyasi vəziyyət yenə də gərgin olaraq qalmaqda idi. Bu vəziyyət Azərbaycan hökumətindən ciddi tədbirlərin həyata keçirilməsini tələb edirdi. Azərbaycan hökuməti, eləcə də Hərbi Nazirliyin rəhbərləri mövcud vəziyyətdən çıxış yolunu daha çox Hərbi Nazirliyin struktur bölmələrində dəyişikliklər aparmaqda, ordu quruculuğunu gücləndirməkdə görürdülər. Belə struktur dəyişiklikləri Baş Qərargah İdarəsində də aparılırdı. Belə ki, S.Mehmandarovun 1920-ci il 17 fevral tarixli 105 saylı əmri ilə M.Sulkeviç tutduğu vəzifədən *(bütövlükdə isə ordu sıralarından)* uzaqlaşdırıldı və onun vəzifəsi general-mayor Həbib bəy Səlimova həvalə edildi. H.Səlimov milli ordunun struktur bölmələrinə yenidən baxdı və ciddi dəyişikliklərlə yeni bir layihə hazırlayıb Nazirlər Şurasına təqdim etdi. 1920-ci il mart ayının 1-dən etibarən həmin layihənin həyata keçirilməsinə Nazirlər Şurası razılıq verdi. Hərbi nazirin martın 2-də imzaladığı əmrlə təsdiq edilmiş strukturun icrasına başlanıldı. Həmin əmrə əsasən, Ümumi Qərargahla Ərkani-hərb bir qərargah adı altında birləşərək "Azərbaycan ordusunun qərargahı ümumisi" adlandırıldı və bu quruma rəhbərlik general-mayor Həbib bəy Səlimova həvalə olundu. "Azərbaycan ordusunun qərargahı ümumisi"nə bir neçə idarə daxil idi. Bunlardan biri də General-kvartirmeyster idarəsi adlanırdı. Bu idarəyə polkovnik Karqaleteli rəhbərlik edirdi. Karqaletelinin rəhbərlik etdiyi idarədə aşağıdakı bölmələr fəaliyyət göstərirdi:

1. **Əməliyyat-kəşfiyyat bölməsi** (rəisi polkovnik Hacıbəylinski).
2. **Səfərbərlik bölməsi və məhəlli qoşunlar şöbəsi** *(rəisi polkovnik Seyfulin).*
3. **Nizami və ümumi bölmə** *(rəisi polkovnik-leytenant Maqrubov).*
4. **Hərbi əlaqələr** *(daşınmalar)* **bölməsi** *(rəisi rotmistr Xudaverdov).*
5. **Rabitə komandası.**[60]

Hərbi Nazirlikdə struktur dəyişikliklərinin və işdə müəyyən önəmli nəticələrin əldə edilməsinə baxmayaraq, bolşevik çevrilişi bu nazirliyin, o cümlədən Kəşfiyyat və əks-kəşfiyyat bölməsinin də fəaliyyətinə son qoydu.

59 Süleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı, 1998, s. 264.
60 Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 39, v. 109-112.

# II FƏSİL.
## Əksinqilabla Mübarizə Təşkilatı Azərbaycan Xalq Cümhuriyyətinin müstəqil təhlükəsizlik orqanı kimi

## II.1. Əksinqilabla Mübarizə Təşkilatının yaradılması və onun kadr siyasəti

Ölkədəki ictimai-siyasi vəziyyətin gərginliyini nəzərə alaraq tərkibinə Nazirlər Şurasının sədri, hərbi, xarici işlər, yollar və ədliyyə nazirləri daxil olmaqla 1919-cu il iyunun 9-da Dövlət Müdafiə Komitəsinin (DMK) yaradılması barədə qərar qəbul edildi. Xüsusi səlahiyyətlərə malik olan DMK ölkədə ümumi hərbi səfərbərlik keçirmək, hərbi və müharibə vəziyyəti elan etmək, xüsusi könüllü dəstələr yaratmaq, ölkənin təhlükəsizliyi ilə bağlı məsələlərin müzakirəsini aparmaq, müvafiq qərarlar qəbul etmək, qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetirilməsi məqsədi ilə yeni strukturlar yaratmaq və s. hüquqlara malik olan bir qurum idi.[61] DMK ortaya çıxan fövqəladə məsələləri həll etməli və qəbul edilmiş qərarların icrasını təmin etməli idi. DMK-nın iclasları onun üzvlərindən üç nəfərin iştirak etdiyi şəraitdə hüquqi səlahiyyətli hesab olunurdu. İclasa rəhbərliyi Nazirlər Şurasının sədri edirdi. O, iclasda iştirak etmədiyi təqdirdə DMK-nın istənilən üzvünə sədrlik səlahiyyəti tapşırıla bilərdi.[62]



*Əksinqilabla Mübarizə Təşkilatının rəisi Nağı bəy Şeyxzamanlı*

1919-cu il iyunun 11-də DMK Azərbaycanın bütün ərazisində hərbi vəziyyət elan etdi və aşağıdakı məzmunda qərar verdi: **"... Azərbaycan dövlətinə qarşı qiyam, dövləti xəyanət, parlament və hökumət üzvlərinin həyatına qəsd, hərbi hissələrə basqın, hakimiyyət orqanlarına silahlı müqavimət, vəzifəli şəxslər öz xidməti vəzifələrini yerinə yetirərkən onlara sui-qəsd, dəmir yollarının,**

61 Azərbaycan Respublikası MAİ, f. 970, siy. 1, iş 166, v. 24.
62 Yenə orada, f. 2894, siy. 1, iş 35, v. 32.

**körpülərin və bu kimi mühüm dövlət əhəmiyyəti olan tikili və qurğuların xarab edilməsi, hərbi xidmətdə olan rütbəli şəxslər haqqında açıq şəkildə təbliğat və ədəbiyyatların yayılmasında günahkar bilinənlər müharibə dövrünün qanunlarına uyğun olaraq cəzalandırılmalıdır. Xüsusi icazə olmadan siyasi xarakterli kütləvi mitinq və küçə yürüşləri təşkil etmək, odlu silah, hərbi sursat saxlamaq, satmaq və gəzdirmək qadağandır. Şaiyələr yayan, millətlərarası ədavəti qızışdıran, ərzaq və ilkin tələbat mallarını artıq qiymətə satan və digər bu kimi təxribat xarakterli hərəkətlər edən şəxslər inzibati qaydada məsuliyyətə cəlb olunmalıdır”.**[63]

Ölkədə hərbi, ictimai-siyasi vəziyyətin gərgin və kənar müdaxilənin real olduğu, Denikin ordularının, erməni separatçılarının, riyakar ingilislərin, eyni zamanda bolşeviklərin Azərbaycanın əleyhinə işlədiyi bir vaxtda müstəqil təhlükəsizlik orqanına xüsusi ehtiyac duyulurdu. Bunu nəzərə alan Azərbaycan parlamenti 1919-cu il iyunun 11-də DMK yanında Əksinqilabla Mübarizə Təşkilatının *(ƏMT)* yaradılması barədə qərar qəbul etdi. DMK-nın sədri Nəsib bəy Yusifbəyli tərəfindən 1919-cu il iyunun 13-də imzalanmış bir sənəddə göstərilirdi: **“Mirfəttah Musəvi cənablarına! Dövlət Müdafiə Komitəsinin sənə cariyə haziranın** *(iyun ayı nəzərdə tutulur –* **C.Q.***)* **11-ci günü vaqe olan iclasında zati aliniz müqabil kəşfiyyat müdirliyinə təyin edilmiş Məhəmmədbağır Şeyxzamanlı cənablarına müavin təyin olunursunuz. Məzkur komitənin qərardadı bərai-məlumat şərh edilir, əfəndim. Dövlət Müdafiə Komitəsinin sədri Yusifbəyli”**[64].



*Əksinqilabla Mübarizə Təşkilatının möhürü*

Vaxtilə ƏMT-nin rəisi olmuş Nağı bəy Şeyxzamanlı *(1883-1967)* 1964-cü ildə İstanbulda çap etdirdiyi “Azərbaycanın istiqlal

63 Yenə orada, f. 1051, siy. 1, iş 2, v. 39-40.

64 Yenə orada, f. 2894, siy. 1, iş 26, v. 3-5.

mücadiləsinin xatirələri" kitabında belə bir təşkilatın yaradılmasının səbəblərini aşağıdakı kimi izah edirdi: **"Əksinqilabla Mübarizə Təşkilatının yaradılmasına səbəb cümhuriyyətimizin ilk illərində çar generalı Denikinin mütəmadi olaraq bizi təhdid etməsi, tez-tez hüquqlarımızı zorlaması və müxtəlif hadisələr törətməsi olmuşdur. Ona görə də hökumətimiz Əksinqilabla Mübarizə Təşkilatının layihəsini hazırlayıb parlamentə təqdim etdi. Layihə məclisdə böyük səs çoxluğu ilə qəbul olundu".**[65] Daha sonra Nağı bəy Şeyxzamanlı göstərirdi ki, bolşeviklər Qafqazda general Denikin ordusunu darmadağın etdikdən sonra artıq bizim üçün ağqvardiyaçı təhlükəsi qalmamışdı. Ancaq Denikinin yerinə arxasını Rusiyanın mərkəzi olan Moskvaya dayayan bolşeviklər kimi bir təhlükəli qüvvə də var idi. Artıq biz də fəaliyyətimizi bolşeviklər əleyhinə çevirmişdik. Əslində bolşevizmlə mübarizə bu tarixdən çox-çox əvvəl başlanmışdı.

Təşkilatın fəaliyyətinin birinci ayında aparatda 19 nəfər çalışırdı. Onların 3-ü baş agent, 16-sı isə agent vəzifəsini tuturdu. Bir qədər sonra ƏMT-nin əməliyyat heyəti 27 nəfərə çatdı. Onlardan 2 nəfəri baş agent, 25 nəfəri isə agent vəzifəsini tutdu. Eyni zamanda, Bakıda ƏMT-nin 8 rayon bölməsi yaradıldı[66] və təşkilatın strukturu formalaşdırıldı.

ƏMT-nin Əsasnaməsinə uyğun olaraq Azərbaycan dövlətçiliyinə qarşı təxribat və terror aksiyaları keçirmək cəhdlərində, dövlət əhəmiyyətli obyektlərə, eləcə də hakimiyyətə qarşı silahlı müqavimət göstərməkdə, casusluqda və s. şübhəli bilinən şəxslərin həbsi zamanı yerli polis və əlaqədar orqanların nümayəndələri də dəvət olunurdu. Həbs olunanlar haqqında qərarın surəti cəzaçəkmə yerinə, prokurora, dairə məhkəməsinə və Bakı rayonunun general-qubernatoruna göndərilirdi. Həbs olunanların cinayəti sübuta yetirilməyəndə onlar bir aydan gec olmayaraq azad edilməli idi. Zərurət yarandıqda bu müddət yalnız general-qubernatorun göstərişi ilə üç aya qədər uzadıla bilərdi. Lakin həbs olunan şəxs 24 saatdan gec olmayaraq Əks-kəşfiyyat bölməsinin rəisi və ya onun köməkçisinin yanına gətirilməli idi. Əgər həbs olunan şəxs uzaqda olardısa, bu vaxt ƏMT rəislərinin yanına gətirilməsi üçün yerli şəraitə uyğun olan müddətə qədər

65 Şeyxzamanlı N. Azərbaycanın istiqlal mücadiləsinin xatirələri. İstanbul, 1964, s. 86.
66 Qoca E. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920). Bakı, 2000, s. 68.

uzadıla bilərdi.[67]

Əks-kəşfiyyat bölməsinin rəisi və ya onun köməkçisi tutulan şəxsin gətirilməsindən 24 saatdan gec olmayaraq məhbusu dindirməli, onun həbsdən azad olunması və ya saxlanılması barədə qərar qəbul etməli və ya aidiyyəti qurumlar qarşısında vəsatətin qaldırılmasına nail olmalı idi.

ƏMT-nin başlıca vəzifələri əsasən aşağıdakılardan ibarət idi:

- *dövlət quruluşunun devrilməsinə yönəlmiş, əhali arasında şifahi və ya mətbuat vasitəsilə hökumətə zidd təşviqat aparan şəxslərin müəyyən edilməsi;*
- *hökumətin fəaliyyəti və hərbi hissələrin əməliyyatlarına, milli təhlükəsizliyə dair yalan məlumat və şaiyələr yayanların, əhalinin ayrı-ayrı sinifləri arasında milli münaqişələr yaradanların aşkarlanması;*
- *hakimiyyət dairələrinin xüsusi icazəsi olmadan təşkil edilmiş, siyasi xarakter daşıyan hər cür toplantı və iclasların təşkilatçılarının müəyyən edilməsi;*
- *hər növdən olan odlu silah, döyüş sursatı və partlayıcı maddələrin anbar və gizli saxlanma yerlərinin aşkar olunması;*
- *şübhəli şəxsləri ilkin həbs etmək hüququna malik olması və s.*

ƏMT-nin kadr tərkibi müxtəlif partiya və millətlərin nümayəndələrindən ibarət idi. Belə ki, **“təşkilatda çalışacaq şəxslərin üçdə ikisi “Müsavat” firqəsindən, üçdə biri isə sosialist “Hümmət” Partiyasından olmalı idi. Təşkilatın sədri müsavatçı, müavini isə “Hümmət” Partiyasından olmalı idi**”[68].

ƏMT-yə xidmətə əvvəlcə partiya prinsipinə – “Müsavat” və “Hümmət” partiyalarının təqdimatlarına görə, sonralar isə namizədləri şəxsi keyfiyyətlərinə, vətənə sədaqətinə, intellektual düşüncə tərzinə görə qəbul edirdilər. İlk vaxtlar “Müsavat” əks-kəşfiyyatına bolşevik partiyasından da daxil olanlar var idi. Bolşeviklərin Mərkəzi Komitəsi (MK) ƏMT-nin işindən xəbərdar olmaq, orada gedən prosesləri dərindən izləmək məqsədi ilə təşkilatda işləmək üçün bir sıra partiya üzvlərinin və ya onlara yaxın olan şəxslərin namizədliyini irəli sürmüşdü. AXC əks- kəşfiyyatçılarının çoxu, bir qayda olaraq,

67 Qasımov C. Əksinqilabla Mübarizə Təşkilatı və siyasi repressiya. Bakı, 1997, s. 108-109.
68 Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, s. 172

"Müsavat" Partiyasına sədaqətli adamlar idilər. Onlar iş prosesində öz təyinatlarını tamamilə doğrultdular. AK(b)P MK-dan olan yoldaşlarının hər bir hərəkətinə göz qoyur və bu məqsədlə hər bolşevikə bir əks-kəşfiyyatçı "Müsavat" üzvü təhkim edirdilər... AK (b) P MK-nın gizli qərarı ilə "Müsavat "əks-kəşfiyyatına 17 nəfər daxil oldu. Əks- kəşfiyyatda hümmətçi bolşevikləri tək, müsavatçıları isə cüt rəqəmlə nömrələyirdilər.[69]


عكس انقلاب ايله
مبارزه تشكيلاتى مديرينك
ادارەسى
۱۹........................ «......»
نومرو ..............
باكو.

***Əksinqilabla Mübarizə Təşkilatının blankı***

Yeri gəlmişkən qeyd edək ki, ƏMT-yə qəbul zamanı əməkdaşlar xüsusi yoxlamadan keçmədən *(çox vaxt hər hansı bir şəxsin təqdimatı və ya zəmanəti kifayət edirdi –* **C.Q.**) işə götürülürdü. Məsələn, işə götürülməsi ilə əlaqədar Mirzəbaba Sadıqov tərəfindən yazılmış xahişnamənin üzərində ƏMT-nin rəisi N.Şeyxzamanlı belə bir dərkənar qoymuşdu: **"1919-cu il sentyabrın 10-dan işə götürülsün".** Maraqlıdır ki, həmin dərkənarda konkret olaraq gün göstərilir və elə həmin gün də namizədi işə götürürdülər. Əmrdə oxuyuruq: **"Mirzəbaba Sadıqov 10 sentyabr 1919-cu ildən Əksinqilabla Mübarizə Təşkilatının agenti təyin edilsin".**[70]

ƏMT-nin əməliyyat heyəti ştata uyğun olaraq agent və baş agent vəzifələrindən ibarət idi. Araşdırmaların məntiqi nəticəsi kimi deyə bilərik ki, ƏMT-nin fəaliyyət göstərdiyi 1919-cu il iyunun 11-dən 1920-ci il martın 6-dək olan dövrdə təşkilatda yüzdən çox əməkdaş olmuşdu. Azərbaycanın milli təhlükəsizliyini müdafiə edən bu təşkilatda 6-7 millətin nümayəndəsi işləyirdi. Təəccüblüdür ki, Azərbaycanın bütün dövlət strukturlarına, hətta Milli Məclisə soxulmağı bacaran ermənilərin təhlükəsizlik orqanlarında nümayəndələri yox idi.

DMK-nın sədri Nəsib bəy Yusifbəylinin əmri ilə ƏMT-nin ilk rəisi "Müsavat" Partiyası və AXC parlamentinin üzvü Məmmədbağır

69 Cəfərov M. ADR-in xüsusi xidmət orqanları. Bakı, 1997. s.17.
70 DTX-nin arxivi. M.Sadıqovun istintaq qovluğu, PR- 39509.

Saleh oğlu Şeyxzamanlı *(1880-1920),* onun müavini isə "Hümmət" Partiyasının üzvü Mirfəttah Musəvi təyin edilmişdi. Lakin M.Şeyxzamanlı Milli Məclisin üzvü olduğuna *(o, parlamentdə aqrar komissiyada fəaliyyət göstərirdi –* **C.Q.**) görə avqustun 20-də öz ərizəsinə əsasən tutduğu vəzifədən azad olunmuş və onun yerinə qardaşı Nağı bəy Şeyxzamanlı təyin edilmişdi. N.Şeyxzamanlı yazır ki, Nəsib bəy Yusifbəyli mənə müraciətlə bildirdi: **"Nağı bəy, Əksinqilabla Mübarizə Təşkilatını qurduq. Səni bu idarəyə rəis təyin etmək istəyirəm. Razısanmı?"** Mən işlərimə heç kimin müdaxilə etməməsi şərti ilə razılıq verdim".[71] Həmin söhbət zamanı Nəsib bəy Yusifbəyli bu təşkilatın Daxili İşlər Nazirliyinə deyil, Baş nazirə tabe olacağını bildirmişdi.



***Əksinqilabla Mübarizə Təşkilatının rəisi Məmmədbağır Şeyxzamanlı***

Bu təşkilatın rəis müavini hümmətçi Mirfəttah Musəvi 1919-cu il sentyabrın 5-də qətlə yetirildi və onun yerinə noyabrın 15-də Mahmud Səfikürdiski təyin olundu.

Denikinçilərin 1919-cu ilin payızında həm şimaldan, həm də dənizdən ehtimal olunan hücumunun qarşısını almaq, Bakının müdafiəsini təşkil etmək üçün S.Mehmandarovun təklifi ilə DMK 13 sentyabr 1919-cu ildə keçirdiyi iclasında böyük əhəmiyyətə malik olan hərbi struktur - Bakı İstehkamat hissəsini *(Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonunu)* yaratdı. DMK-nın qəbul etdiyi qərara əsasən, Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonunun rəisi vəzifəsi təsis olundu, şəhərin hərbi general-qubernatoru vəzifəsi ona birləşdi və Bakı rəisliyi ərazisi ona tabe edildi[72]. 1919-cu il oktyabrın 26-da ƏMT də Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonuna tabe edildi.

71 Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, s. 171-172.
72 Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 21, v. 53.

DMK-nın işlər müdiri Q.Qasımbəyov ƏMT-yə göndərdiyi məktubunda bildirirdi ki, bütün yerli orqanlar, keşikçi və axtarış polisi, eyni zamanda ƏMT Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonuna tabe olmalıdır.[73] Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonunun rəisi isə Murad Girey Tlexas təyin edildi. Beləliklə də, ƏMT Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonunun tabeçiliyi altında fəaliyyətini davam etdirdi. Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonu və onun struktur bölmələri yalnız denikinçilərə deyil, eyni zamanda erməni-bolşevik təcavüzünə qarşı da mübarizə aparırdı. General-mayor Tlexas 28 fevral 1920-ci ildə göstərirdi ki, siyasi mənsubiyyətindən asılı olmayaraq dövlət və ictimaiyyət üçün təhlükə yaradan bolşeviklərin şəhərdən çıxarılması məqsədi ilə qətiyyətli tədbirlər görülür[74].

**Əksinqilabla Mübarizə Təşkilatının 1919-cu ilin oktyabr ayından sonrakı aparat strukturu**




73 "Azərbaycan" qəzeti, 30 oktyabr 1919-cu il.
74 Azərbaycan Respublikası MAİ, f. 894, siy. 7, iş 18, v. 11.

Dövlətin təhlükəsizliyi ilə məşğul olan belə bir qurumda (ƏMT-də) müxtəlif partiyaların, xüsusilə də hakimiyyətdə iddialı olan hümmətçilərin və müxtəlif əqidə sahiblərinin təmsil olunması doğru hal hesab edilə bilməzdi. Elə bu səbəbdən də bolşevik istilasının gücləndiyi dövrdə bu təşkilat onun ağrısını yaşamalı oldu. Bütün bunlara baxmayaraq, ƏMT-nin əməkdaşlarının böyük əksəriyyəti Azərbaycanın müstəqilliyinin və dövlətçiliyinin möhkəmləndirilməsi, düşmən qüvvələrin aşkarlanması, xarici təhdidlərin qarşısının alınması istiqamətində xeyli işlər gördü.

## II.2. Əksinqilabla Mübarizə Təşkilatının fəaliyyət istiqamətləri

ƏMT-nin fəaliyyət istiqamətləri müxtəlif sahələrdə olmuş və bu özünün hüquqi əsasını "Azərbaycan Respublikasının əks-kəşfiyyat xidmətinin məmurlarının hüquq və vəzifələri barədə Əsasnamə"də tapmışdı. Bu əsasnamə ƏMT Bakı Möhkəmləndirilmiş Müdafiə Rayonuna tabe etdirildikdən sonra qəbul edilmişdi. Təşkilatın əməkdaşları casusların və onların təşkilatlarının, həmçinin öz fəaliyyəti ilə Azərbaycana düşmənçilik mövqeyində duran, dövlət hakimiyyətinə qarşı qiyamda, xəyanətdə iştirak edən, vəzifəli şəxslərin həyat və azadlıqlarına qəsd edən, hakimiyyətə, eləcə də hərbi vəzifəlilərə, hərbi qurumlara, hərbi hissələrə hücum edən və ya silahlı müqavimət göstərən şəxslərin aşkarlanması, sərnişin gəmilərinin qəbulu, sənədlərin yoxlanılması, şübhəli şəxslərin saxlanılması, ictimai-siyasi vəziyyətə nəzarət və s. bu kimi digər funksiyaları yerinə yetirirdi.

Sonralar Azərbaycan Dövlət Siyasi İdarəsi (DSİ) tərəfindən ƏMT-nin əməkdaşı olmaqda təqsirli hesab edilərək həbs olunan Sadıqov Mirzəbaba Kəlbəli oğlu 1932-ci il iyulun 5-də verdiyi ifadəsində ƏMT-dəki işini belə xarakterizə edirdi: **"Müsavat" əks-kəşfiyyatına 1919-cu ildə daxil olmuşam. Məni kiçik agent vəzifəsinə təyin etmişdilər. Mənim vəzifəmə sərnişin gəmilərinin qəbulu, sənədlərin yoxlanılması, qaçaqmalın müsadirə edilməsi, məktubların alınması, şübhəli şəxslərin saxlanılması və s. daxil idi".**[75]

Yeri gəlmişkən qeyd edək ki, Bakıda 1919-cu il sentyabrın 1-də hərbi liman yaradılmışdı. Gediş-gəlişə nəzarət – sənədlərin yoxlanılması, qaçaqmalçılıqla mübarizə, şübhəli şəxslərin saxlanılması, məktubların

75 DTX-nin arxivi. M.Sadıqovun istintaq qovluğu, PR-39509.

alınması və s. ƏMT-yə həvalə edilmişdi.

Nağı bəy öz xatirələrində yazırdı ki, müşahidə zamanı rus millətindən olan bir nəfər həbs edilir və ondan bağlama götürülür. Məlum olur ki, bağlamada olanlar casus materiallarıdır. Denikin casusu yüzbaşı Starkov Azərbaycanın Baş Qərargahı ilə bağlı qiymətli materiallar və sənədlər toplaya bilmişdi. Starkov izahatında göstərir ki, bu sənədi hərbi nazir general-leytenant Mehmandarovun nəvəsinin mürəbbiyəsi vasitəsi ilə ələ keçirib. Lakin ƏMT əməkdaşları əməliyyat-təhqiqat işləri aparmış və müəyyənləşdirmişdilər ki, materiallar və sənədlər başqa yolla ələ keçirilmiş, daha doğrusu, Starkov izi itirmək üçün bu əfsanəni özü uydurmuşdu.[76]

AXC-nin təhlükəsizlik orqanlarının əsas vəzifələrindən biri də ölkədəki silahlı qruplaşmaların ləğvi, həmin qüvvələrdə, eləcə də əhalidə olan qanunsuz silahların yığılması və müsadirə edilməsi idi. ƏMT-nin əməkdaşı Əli Razi Şamçızadə Salyandan ƏMT-nin rəisinə ünvanladığı məruzədə ermənilərdən yığılmış 12 tüfəng və 565 ədəd fişəngin pristava verildiyini qeyd edirdi. Eyni zamanda o, götürülən silahların pristav tərəfindən qeydiyyata alınmadığından ortada itəcəyini və ya hökumətə çatmayacağını da narahatlıqla yazırdı.

ƏMT yalnız mövcud dövrdə və şəraitdə deyil, əvvəllər də Azərbaycan xalqına qarşı cinayət törətmiş şəxsləri məsuliyyətə cəlb edir və onların Azərbaycan xalqı üçün nə qədər təhlükəli olduqlarını nəzərdən qaçırmırdı. ƏMT rəisinin 1919-cu il sentyabrın 20-də DMK-nın sədrinə ünvanladığı məktubda göstərilirdi: **"Mənə çatan məlumatlara görə, Gəncə həbsxanasında saxlanılan qatı cinayətkar Stepan Lalayev öz həmfikirləri ilə birlikdə həbsxanadan qaçmağa hazırlaşır. Bu məsələnin qarşısı həbsxanada olan zəif nəzarət ucbatından alına bilməz".**[77] Nağı bəy Şeyxzamanlı "Azərbaycanın istiqlal mücadiləsinin xatirələri" kitabında yazırdı ki, Azərbaycanın polis qüvvələri Bakıda 1918-ci ilin mart ayında 10 min məsum türkün qanını tökən qatil bolşevik Stepan Şaumyan ilə birlikdə fəaliyyət göstərmiş bakılı erməni milyonçusu Lalayevi də həbs etmiş və mühakiməsi olmadan Gəncə həbsxanasına göndərmişdi. O, orada mühakiməsini və edamını gözləyərkən ölmüşdü.[78] Daşnak Lalayev mart qırğınlarında fəal

76 Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, s. 120-125.
77 Azərbaycan Respublikası MAİ, f. 1052, siy. 2, iş 4, v. 8.
78 Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, s. 167.

iştirak edən, azərbaycanlılara qarşı soyqırımı siyasəti yeridənlər arasında həbs olunan yeganə erməni deyildi. Onların arasında mart qırğınının təşkilatçılarından olan, azərbaycanlılara divan tutmaqdan başqa, onların var-dövlətini talayan və Tiflisdə özünə ev, eyni zamanda dükan alan Melik Qaykasov da var idi.

Ermənilər müntəzəm olaraq müxtəlif qüvvələrlə əlaqəyə girərək Azərbaycan əleyhinə iş aparır, bu istiqamətdə hətta arvadlarından da istifadə etməkdən çəkinmirdilər. Bununla bağlı arxiv materiallarında bir sıra məlumatlar mövcuddur. Belə ki, ƏMT əməkdaşının DMK-nın sədrinə ünvanladığı 7 avqust 1919-cu il tarixli sənəddə olduqca mühüm məlumatlar əldə edirik. Həmin sənəddə oxuyuruq: "...İngilis polkovniklərindən biri müntəzəm olaraq doktor Zaxaryanın arvadı ilə ünsiyyətdədir. Onlar Azərbaycanın bütün bölgələrinə birgə səfərlər edirlər. Bu qadın çox geniş əlaqələrə malik şübhəli şəxsdir".[79]

Azərbaycanda terror-təxribat hadisələri törədən, onun dövlətçiliyinə zərbə vuran ermənilərin bir çoxu ƏMT-nin əməkdaşları tərəfindən həbs edilərək zərərsizləşdirilmişdi. Erməni siyasi təşkilatları, silahlı dəstələri və terrorçu daşnak qrupları AXC dövründə də Azərbaycanın müstəqilliyinə qarşı təxribatlar törətdiyindən xüsusi xidmət orqanları onlara qarşı mübarizə aparmaq məcburiyyətində olmuşdu. Ermənilər bu çirkin niyyətlərini həyata keçirmək və ölkədəki sabitliyi pozmaq məqsədi ilə müxtəlif yerlərdə toplantılar keçirərək Azərbaycan əleyhinə iş aparırdılar. Ona görə də ermənilərin bu çirkin fəaliyyətləri ƏMT-nin daim maraq dairəsində olmuşdu. **"Maraqlıdır ki, Denikin ordusunun Azərbaycana qarşı təxribatı ilə əlaqədar təşkilat tərəfindən** (*ƏMT nəzərdə tutulur –* **C.Q.**) **saxlanılmış və həbs edilmiş şəxslərin əksəriyyəti ermənilər idi. Bunun üçün həbs edilənlərin siyahısına nəzər salmaq kifayətdir: Qriqori Babayants, Andrey Balayants, Danil Musaelyants, Ağacan Avakyants, Sərkis Melikyants, Georgi Melik-Qayakasov, David Abramyans, Soqomon Balayants, Sergey Arzumanyants, Petros Sarkisyants, Martiros Mirzoyants, Baqret Ohancanyan, İvan Avanesov, Mixail Ter-Zaxarov və başqaları"**[80].

Denikinçilər müxtəlif vasitələrlə Azərbaycanda gedən prosesləri öyrənir və yəqin ki, hücum etmək üçün münasib vaxt, məqam gözləyirdilər. O da maraqlıdır ki, həmin məlumatların əksəriyyəti

79 Azərbaycan Respublikası MAİ, f. 1052, siy. 2, iş 4.
80 Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001, s. 80.

ermənilər tərəfindən verilirdi. Başında azərbaycanlıların qanına susamış erməni millətçisi Şaumyan dayanan ermənilərin isə bolşeviklərə necə işləmələrini sübut etməyə ehtiyac yoxdur. Bu, bir daha göstərir ki, ermənilər xarakterlərinə uyğun olaraq "bəlkə də, qaytardılar" deyə həm ömrünün son günlərini yaşayan Çar Rusiyasına – denikinçilərə, həm də bolşeviklərə yaltaqlanır, "kim kimə üstün gələr, mən də tərəfdarıyam" prinsipinə uyğun hərəkət edirdilər.

Məlumdur ki, keçən əsrin 20-ci illərinin əvvəllərində bolşeviklər daha da fəallaşmış, ayrı-ayrı yerlərdə gizli yığıncaqlar keçirmiş və Demokratik Respublika əleyhinə müxtəlif məzmunlu təbliğatlar aparmışlar. ƏMT, eləcə də Balaxanı-Sabunçu rayon bölməsi öz işini həm də bu istiqamətdə qurmuşdu. Həmin bölmədən ƏMT rəhbərliyinə göndərilən raportdan məlumdur ki, 3 fevral 1920-ci ildə Sabunçudakı fəhlə klubunda keçirilən iclasda Aleksandr Kostinski belə bir məsələ qaldırmışdır: **"İndiki hökumət bizə lazım deyil. Bu yaxınlarda bolşeviklər gələcək, biz onda öz gücümüzü göstərəcəyik".** Həmin bölmə bolşeviklərin hansı istiqamətlərdən Azərbaycana hücum edəcəklərini də müəyyənləşdirə bilmişdi: **"1920-ci ilin fevralın 24-də Sabunçudakı fəhlə klubunda fəhlələrin gizli yığıncağında bildirilmişdi ki, bolşeviklərin üç – Krasnovodsk, Həştərxan və Rostov istiqamətlərindən gəlməsi gözlənilir. Ona görə də yatmamalı, ayıq olmalı və hakimiyyəti ələ almalıyıq".**[81]

Göründüyü kimi, Azərbaycan milli dövlətçiliyinə qarşı ermənilərdən başqa digər daha qorxulu qüvvə bolşeviklər idi. 1919-cu ilin sonlarından etibarən Bakıda bolşeviklərin Azərbaycan dövlətçiliyi əleyhinə fəaliyyəti daha da gücləndi. Nəsib bəy Yusifbəyli bolşevik təbliğatlarının qarşısını almaq məqsədi ilə 1919-cu il noyabrın 23-də bolşevik yönümlü nəşrlərin dayandırılması haqqında bütün mətbəələrdən iltizam alınması barədə göstəriş verərək bildirdi ki, tapşırığı yerinə yetirməyən mətbəələr müsadirə ediləcək, sahibləri isə həbs olunacaqdır. Lakin bütün bunlara baxmayaraq boşeviklər yalnız mülki əhali və əsgərlər arasında deyil, hüquq-mühafizə orqanları işçiləri arasında da təbliğat apararaq onları öz tərəflərinə çəkməyə çalışırdılar.

Bolşeviklər hakimiyyətə yiyələnmək üçün cəlbedici təbliğat vasitəsilə yanaşı terrora da əl atırdılar. Bu baxımdan hərbi nazir S.Mehmandarova qarşı törədilən, lakin baş tutmayan qəsd xüsusilə maraqlıdır.

81 DTX-nin arxivi. M. Dadaşovun istintaq qovluğu, PR-38062.

N.Şeyxzamanlı "Biz və onlar" əsərində bu hadisə barədə belə yazırdı: **"Onun (*S.Mehmandarov nəzərdə tutulur* – C.Q.) parlamentdəki əsgərlərimiz haqqında söylədiyi qiymətli sözlərdən və bir də şahidi olduğum hadisədən bəhs edirəm. Səməd Paşanın maşınının içərisində Səməd Paşa və ağ rusların rəsmi nümayəndəsi 2 polkovnik hərbiyyə nəzarətinə yaxınlaşırdı. Bu vaxt 3 bolşevik tərəfindən maşına bomba atılır, heç kəsə xəsarət dəymir".**[82]

Əsasnamədə göstərilən vəzifələrdən başqa ƏMT DMK-nın rəsmi tapşırıqlarını da icra edirdi. Məsələn, N.Yusifbəylinin tapşırığı ilə ingilis komandanlığı altında olan könüllülər ordusunun tərkibində 134 nəfər zabitin olduğu müəyyənləşdirilmiş və DMK sədrinə məruzə edilmişdi.

Kəşfiyyat və hərbi kəşfiyyatla bağlı məsələlər ƏMT-nin funksiyasına aid olmasa da, təşkilatın əməkdaşları tərəfindən əldə edilmiş əməliyyat əhəmiyyəti kəsb edən məxfi məlumatlar DMK-ya, Hərbi Nazirliyə, bəzən isə Daxili İşlər Nazirliyinə göndərilirdi. ƏMT rəhbərliyi güc strukturları ilə birgə fəaliyyət göstərir və onun *(ƏMT-nin)* funksiyasına aid olan materialları həmin orqanlar təhlükəsizlik xidmətinə göndərirdi. ƏMT də öz növbəsində əldə etdiyi məlumatları Hərbi Nazirliyə ünvanlayırdı. 1919-cu il 13 iyul tarixli 165 saylı məktubunda ƏMT-nin rəisi Məmmədbağır Şeyxzamanlı Hərbi Nazirliyə yazırdı: **"Məktubla bərabər 2 səhra telefonunu göndərir və alınması barədə yazılı qəbz verməyinizi xahiş edirəm. Onu da əlavə edirəm ki, Xırdalan kəndində 1 yeşik əl qumbarası var və mən onu nazirlik tərəfindən ezam olunmuş mütəxəssisə təhvil verə bilərəm. Xahiş edirəm sonuncu barədə məlumat verəsiniz".**[83]

Qarşılıqlı şəkildə həyata keçirilən bu tipli informasiya mübadiləsi yalnız Hərbi Nazirliklə deyil, eyni zamanda Xarici İşlər Nazirliyi, Gömrük və digər orqanlarla da aparılırdı.

ƏMT-nin əsasnaməsi, eləcə də bu təşkilatın əsas mübarizə istiqamətləri göstərir ki, qısa bir müddətdə fəaliyyət göstərməsinə baxmayaraq, AXC-nin bu xüsusi xidmət orqanı dövlətin əleyhinə yönəldilmiş hər cür qüvvələrə qarşı axıradək, fasiləsiz mübarizə aparmışdır.

---

82 Nağı Şeyxzamanlının xatirələri. Bakı 1997. s. 138.
83 Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 26, v. 31.

# III FƏSİL.

## Əksinqilabla Mübarizə Təşkilatının ləğv edilməsinin səbəbləri

Bolşeviklərin fəaliyyəti 1920-ci ilin əvvəllərindən yeni vüsət aldı. AXC-nin hüquq-mühafizə və xüsusi xidmət orqanları bütün səylərini bolşevizmlə mübarizəyə yönəltsələr də, vəziyyət gündən-günə gərginləşirdi. Vəziyyətin gərginliyinə baxmayaraq, nə qədər qəribə də olsa, Nazirlər Şurası 1920-ci il martın 6-da ƏMT-nin ləğv edilməsi barədə qərar qəbul etdi.

Belə bir addımın atılmasının əsas səbəbi bu orqanın fəaliyyətinin ümumilikdə istənilən nəticəni verməməsi, dövrü üçün müasir hesab edilən texniki təminatın zəifliyi, yaxud olmaması, əməkdaşların bir çoxunun təhsilinin, intellektual səviyyələrinin, siyasi savadlarının, eləcə də peşəkarlıqlarının aşağı olması, obyektiv və subyektiv səbəblərdən işin öhdəsindən lazımınca gələ bilməməsi idi. Heç təsadüfi deyildir ki, əməkdaşların bəziləri adi fəhləlikdən bu orqana götürülmüşdü.[84] Buna görə də onlar əməliyyat işlərini lazımi səviyyədə mənimsəyə və apara bilmirdilər.

Ədalət naminə demək lazımdır ki, bunların arasında bir neçə dil bilən, yüksək yazı mədəniyyətinə və intellektual düşüncəyə malik olan, siyasi prosesləri diqqətlə izləyən və proqnozlaşdırmağı bacaran adamlar da var idi. Məsələn, 1919-cu il noyabrın 4-də Kladbişenski küçəsi, ev 5-də yaşayan Əbdülrəhim Hüseynov tərəfindən ƏMT-nin rəisinə ünvanlanmış məktubda bildirilirdi: **“Sizin rəhbərlik etdiyiniz təşkilatda mənə uyğun iş yeri verməyinizi xahiş edirəm. Onu da nəzərinizə çatdırmağı lazım bilirəm ki, 7 sinif gimnaziya təhsili almışam”.**

Görkəmli mollanəsrəddinçi şair Əli Razi Şamçızadə ƏMT-nin rəisinə yazırdı: **“Əksinqilabla Mübarizə Təşkilatı idarəsində bir vəzifə ifa etmək arzusunda olduğumdan zati alilərindən rica və esteda ediyorum. Təhte idarənizdə olan təşkilatda bəndənizə münasib bildiyiniz bir qulluq verəsiniz. Vətən və millət üçün hər bir ağır qulluq və fədakarlıqlar olsa da buyurduğunuz vəzifəmi vacibincə ifa etməkdə kəndimi** *(Vətənə)* **məsud və bəxtiyar görəmindən sanıram. Burasını də ərz etmək ki, rusca, tatarca dillərə bələd olmaqdan ziyadə, ermənicə də bir az bilirəm. Əlavə farsca və türkcə mükəmməl və düzgün, imla və inşadan təhsilim də var!**

84 Azərbaycan Respublikası MAİ, f. 1052, siy. 1, iş 2, v. 1-3.

**Bağiye cəvabe alilərinə müntəzirəm kəlam ehtiramı ilə! Əli Razi Şamçızadə".** Lakin çox təəssüf ki, ƏMT-də belə intellektual düşüncəyə və müstəqil fikir yürütmək, analitik təhlillər aparmaq qabiliyyətinə malik olan ziyalılar olduqca az idi.

Bu təşkilatın tezliklə bağlanmasına səbəb olan amillərdən biri də DMK-nın və digər aidiyyəti təşkilatların kəşfiyyatla əks-kəşfiyyat işi arasında əlaqəni lazımi səviyyədə qura bilməməsi idi.

Şübhəsiz ki, bu təşkilatın qapanmasının əsas səbəblərindən biri də ƏMT-də aparılan kadr siyasəti ilə bağlı idi. Bəzi əməkdaşlar müxalifətdə olan partiyalarının maraqlarına uyğun olaraq, onların tapşırıqlarına əsasən səhlənkarlıq və sabotajlıq edərək işi pozur, bəzisi isə rəhbərliyi xəbərdar etmədən *(L.P.Beriya kimi)* günlərlə işə çıxmırdı. Məsələn, "Hümmət" Partiyasının təqdimatı ilə işə götürülən, bir qədər sonra Senzura şöbəsinin rəisi işləyən Lavrenti Beriya ƏMT tərəfindən "bolşeviklərin təqib olunmasını" bəhanə gətirərək özbaşına Tiflisə getmiş və bir daha geri qayıtmamışdı.[85]

Bundan başqa, sosial demokratlardan, hümmətçilərdən təyin olunmuş kadrlar əldə etdikləri informasiyaları bolşeviklərə ötürür və nəzərdə tutulan əməliyyat tədbirlərinin yüksək səviyyədə həyata keçirilməsinə imkan vermirdilər. Belə ki, "Hümmət" Partiyasının təqdimatına əsasən ƏMT-yə işə götürülən L.P.Beriya haqqında belə fikirlər də mövcuddur ki, o, 1919-cu ildə AXC-yə qarşı üç dövlətə – İngiltərə, Almaniya və Sovet Rusiyasına casusluq edirdi. ƏMT-nin əməkdaşlarından olan Qasım İsmayılov, Mirfəttah Musəvi, Müzəffər Nərimanov və başqaları da "Hümmət" Partiyasının tapşırığı ilə bu təşkilata göndərilmişdi. **"M.Nərimanov partiyanın tapşırığını yerinə yetirərək müsavat ordusu, əks-kəşfiyyatın işləri və planları barədə partiyaya mütəmadi olaraq məlumat verirdi"**[86]. Müzəffər Nərimanov öz tərcümeyi-halında göstərirdi ki, **"Mən "Müsavat" əks-kəşfiyyatında işləyərkən müxtəlif tapşırıqları yerinə yetirmişəm, həbs olunan bolşeviklərin azad olunmasına kömək etmişəm. M.Musəvidən başqa, Həmid Sultanov, Viktor Naneyşvili, İ.Dövlətov və başqaları ilə əlaqə saxlamışam"**[87].

85 Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, s. 181.
86 Bağırov M. Müzəffər Nərimanov (biblioqrafik oçerk). Bakı, 1965, s. 6.
87 AR SPİHDA, f.1, siy. 8, v. 3-6.

Deməli, bu, xüsusi xidmət orqanlarının fəaliyyətinin dayandırılması hər şeydən öncə informasiya ötürülməsinin *(sızımının),* ƏMT-də çalışan sosial demokratların və hümmətçilərin bilərəkdən işə qeyri-ciddi yanaşmalarının qarşısını almaq üçün atılmış məcburi, həm də çox zəruri bir addım idi.

Yeri gəlmişkən onu da qeyd edək ki, 1918-ci ilin iyun ayında Bakı Xalq Komissarları Sovetinin qərarı ilə Bakıda bolşeviklərə məxsus olan Fövqəladə Komissiya yaradılmışdı. Həmin xüsusi xidmət orqanının başında milliyyətcə erməni olan S.Şaumyanın silahdaşı S.M.Ter-Qabrielyan dayanırdı.[88] Bu qurumun əsas vəzifəsi Bakı Kommunasının maraqlarını müdafiə etmək, onun düşmənlərinə qarşı mübarizə aparmaq, Azərbaycandakı hərbi-siyasi prosesləri izləmək idi. Maraqlıdır ki, həmin dövrdə Bakı Kommunası Fövqəladə Komissiyasının üzvləri tərəfindən müsavatçılar, ittihadçılar, hətta hümmətçilər, milli düşüncə sahibləri və AXC-nin tərəfdarları təqib olunurdular. Təqib olunanlar arasında 1918-ci ilin Mart qırğınlarından salamat çıxmış azərbaycanlılar da az deyildi. S.M.Ter-Qabrielyanın göstərişi ilə onlar araşdırılmış və guya ermənilərə, eləcə də bolşeviklərə qarşı çıxdıqlarından həbs edilmişdilər.[89] Başqa sözlə desək, S.Şaumyanın təşkilatçılığı ilə Bakıda törədilən Mart soyqırımından yaxa qurtaranlar Ter-Qabrielyanın fitnəkar, qərəzli ittihamları ilə üzləşmişdilər. Ona görə də, bu cinayətkar təşkilatı ermənilərin *(bolşeviklərin əli ilə –* **C.Q.**) Azərbaycanda yaratdığı “təhlükəsizlik orqanı” da adlandırmaq olar.

Türkiyənin və Azərbaycanın milli ordularının Bakıya yaxınlaşmasını görən bolşeviklər Bakı Kommunasının Fövqəladə Komissiyası (FK) 1918-ci ilin avqustunda öz cinayətkar fəaliyyətini dayandırmış və bu təşkilatın əməkdaşlarının bir çoxunu Həştərxan şəhərinə göndərmişdilər. Yuxarıda deyildiyi kimi, sonralar FK tərəfindən ƏMT-yə müəyyən kadrlar yerləşdirilmiş və onlardan müvafiq, lazımi informasiyalar alınmışdır. Fikrimizcə, ƏMT-nin vaxtından əvvəl fəaliyyətini dayandırmasına səbəb olan amillərdən biri də bu olmuşdur.

Nazirlər Şurasının martın 6-da keçirilən iclasında daxili işlər nazirinin nitqi dinlənilmiş və həmin nitqdə Əks-kəşfiyyat idarəsinin ləğv

88 Петров Н.В., Скоркин К.Б. Органы ВЧК-ГПУ-ОГПУ в Закавказе (1918-1934 гг.).
89 Azərbaycan Respublikası MAİ, f.1059, siy. 2.

edilməsi, İnformasiya şöbəsinin yaradılması barədə məlumat verilmişdi. Bakı General-qubernatorluğunun tərkibində yaradılan İnformasiya şöbəsi ƏMT buraxıldıqdan sonra demək olar ki, əks-kəşfiyyatla məşğul olmuşdu. Bu şöbənin rəisi sonralar bolşevik repressiyalarına məruz qalan Ələkbər Şahsuvarov idi. Şöbənin funksiyaları əsasən aşağıdakılardan ibarət olmuşdu:

1. *Təhqiqat.*
2. *Müşahidə.*
3. *Axtarış.*
4. *Həbs.*

Bakı General-qubernatorluğu İnformasiya şöbəsinin fəaliyyətini bolşevik Rusiyasının Azərbaycanı işğal etməsi nəticəsində dayandırmağa məcbur oldu.

Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları arasında mühafizə dəstəsi də özünəməxsus yer tuturdu. Bu məqsədlə Azərbaycan parlamenti onun rəhbərlərinin və digər dövlət əhəmiyyətli obyektlərin mühafizəsinin təşkili üçün 1919-cu il fevralın 18-də "Azərbaycan parlamentinin mühafizə dəstəsinin yaradılması haqqında" qanun qəbul etdi.[90] Parlamentin Rəyasət Heyətinə tabe olan mühafizə dəstəsi 200 nəfərdən ibarət idi.

Bütün bunlara baxmayaraq, bolşevik çevrilişi AXC-nin özü kimi onun güc strukturlarını, eləcə də vətənpərvər əməkdaşlarını da məhv etdi.

90 Qoca E. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920). Bakı, 2000, s. 103-110.

# IV FƏSİL.
## Azərbaycan Xalq Cümhuriyyəti təhlükəsizlik orqanlarının əməkdaşlarının taleyi

1919-cu il mayın 28-də Nəsib bəy Yusifbəyli Azərbaycan vətəndaşlarına müraciətində bildirirdi: "**Təhlükə və təhdid hələ dəf olunmamışdır. Bizim üzərimizə qara buludlar gəlməkdədir. Bizim daxildəki hərəkatımız, nizam və asayişimiz təmin edilərsə, istiqlaliyyətimizi təhdid edən qüvvələrə yol verməz, rahat və azad yaşamağa malik olarız**"[91]. Nəsib bəyin dediyi qara bulud isə kommunizm kabusu idi. AXC bu təhlükəni aradan qaldırmağa çalışsa da, o, getdikcə güclənirdi.

Həmin ilin axırlarında beynəlxalq aləmdə baş vermiş dəyişikliklər Azərbaycandakı ictimai-siyasi mühitə də ciddi təsir göstərməyə başladı. XI Ordunun müvəffəqiyyətlərindən sonra Antantanın Kolçak, Denikin və digər çar generallarına hərtərəfli yardım siyasəti Sovet Rusiyası ilə ümumi dil tapmaq meyli ilə əvəz olunmağa başladı. Əgər əvvəllər Antanta dövlətləri "vahid, bölünməz Rusiyanın" bərpasına ümid bəsləyirdilərsə, artıq ağ generalların məğlubiyyətini hiss edərək, öncə onlara hərbi köməyi məhdudlaşdırdılar, sonra isə tam mənada köməkdən imtina etdilər. Noyabrdan başlayaraq isə Avropa ölkələrinin mətbuatında Rusiyanın təklif etdiyi barışığın şərtləri müzakirə edilməyə başlandı. Digər tərəfdən, Paris Sülh Konfransı bildirdi ki, o, Rusiyanın təklifini bolşevik hakimiyyəti yeni yaranmış dövlətlərin suverenliyini tanıdığı halda qəbul edə bilər. 1920-ci il yanvarın 11-də lord Kerzonun təklifi ilə Paris Sülh Konfransının Ali Şurası Azərbaycan və Gürcüstanın suverenliyini "de-fakto" tanıdığı haqda qərar qəbul etdi.

Lakin Azərbaycanın müstəqilliyinin beynəlxalq aləmdə tanınmasına baxmayaraq, respublikanın şimal sərhədlərində vəziyyət hələ gərgin olaraq qalırdı. Bu zaman RSFSR-in xarici işlər komissarı G.V.Çiçerin Azərbaycan hökumətinə aşağıdakı məzmunda nota göndərdi: "**Şimalda Rusiya fəhlələri və kəndlilərinin Denikinə vurduqları zərbəyə gürcü və Azərbaycan fəhlə və kəndlilərinin hərbi zərbələrini də birləşdirmək lazımdır...**".[92] Azərbaycan hökuməti yaxşı başa düşürdü ki, Azərbaycanın suverenliyini qəbul etmək istəməyən sovet hökuməti bununla da ölkəni Denikin ordusu

91 "Azərbaycan" qəzeti, 28 may 1919-cu il
92 Çıraqzadə V. İstiqlal yollarında. Bakı, 1992, s. 70.

kimi güclü bir ordu ilə qarşıdurmaya cəlb edir və beləliklə, dövlət müstəqilliyimizi tam mənası ilə yox etmək istəyir. Azərbaycanın xarici işlər naziri F.Xoyski öz cavab notasında bildirirdi: **"...Azərbaycan hökuməti çar generalı Denikinin Azərbaycan xalqının müstəqilliyinə xəyanətinə qarşı gərgin mübarizə aparmışdır... Azərbaycan hökuməti hər iki tərəfin suverenlik prinsipi əsasında danışıqlar yolu ilə Azərbaycan və rus xalqları arasında mehriban qonşuluq əlaqələri yaratmağa hazırdır"**.[93]

Lakin RSFSR-in xarici işlər komissarı G.V.Çiçerin 23 yanvar 1920-ci il tarixli ikinci notasında Azərbaycanın müstəqilliyinə konkret münasibət bildirməkdən boyun qaçıraraq Azərbaycan hökumətini beynəlxalq hüquq normalarına uyğun olmayan, hədələyici tərzdə Denikin əksinqilabına qarşı mübarizə aparmaqdan boyun qaçırmaqda təqsirləndirirdi. Çiçerinin notasında daha sonra deyilirdi: **"Rusiyanın sovet hökuməti böyük təəssüf hissi ilə etiraf etməyə məcburdur ki, Azərbaycan Respublikasının xarici işlər naziri F.Xoyskinin radio-teleqramında Rusiya-Azərbaycan hərbi komandanları arasında Denikin ordularına qarşı birgə hərbi əməliyyatlara başlamaq üçün saziş bağlanması təklifinə bilavasitə cavab verilmir... nazir Fətəli xan Xoyskinin radio-teleqramında Rusiyada gedən mübarizəyə qarışmamaq prinsipinə işarəni isə Denikinin Bakı üzərinə hücum etmədiyi halda ona qarşı bir mübarizə təklifinə rədd cavabı kimi qəbul etmək olar..."**.[94]

F.Xoyski öz cavab notasında sovet hökumətinin notasının çox nəzakətsiz tonda olmasını qeyd edərək bildirirdi: "**Rusiyanın xalq xarici işlər komissarı Çiçerinin gətirdiyi faktların bir neçəsi, ümumiyyətlə, yoxdur. Azərbaycan hökuməti Rusiyada gedən mübarizəyə neytral münasibətini bildirsə də, general Prjevalskini öz qərargahı ilə birgə Bakıdan qovmuş və nəinki Azərbaycan torpağındakı rus zabitlərinin Denikin ordusuna daxil olmasına imkan verməmiş, hətta general Prjevalskinin rus zabitlərinin Petrovskdə çağırışı haqqında qəzetlərdə elan verməsini qadağan etmişdir. Prjevalski ƏMT tərəfindən AXC dövründə**

93 "Azərbaycan" qəzeti, 23 may 1991-ci il.

94 Çıraqzadə V. İstiqlal yollarında. Bakı, 1992, s. 72.

**ifşa edilmişdir. Azərbaycan hökuməti heç vaxt Dağıstan və Şimali Qafqaz dağlılarının general Denikinlə öz azadlıqları və istiqlaliyyətləri uğrunda apardıqları mübarizəyə qarşı heç bir addım atmamış, əksinə bütün mümkün vasitələrdən istifadə edərək dağlıların mübarizəsinə kömək göstərmiş və göstərir. Hər vasitə ilə Denikin ordularının onların ərazisindən çıxarılmasına nail olmağa çalışır... Denikin ideologiyası və onun əsl məqsədi Azərbaycan hökumətinə yaxşı bəllidir. Azərbaycan hökuməti dərin təəssüf hissi ilə qeyd edir ki, xalq xarici işlər komissarı Çiçerinin heç bir radio-teleqramında aydın və qəti şəkildə sovet hökumətinin Azərbaycanın istiqlaliyyətini tanımaq fikri ifadə edilmir, baxmayaraq sovet hökuməti, Polşa, Finlandiya, Estoniya və s. dövlətlərə öz münasibətini açıq bildirib... Bu və ya digər bir məsələ haqqında danışıqlar, yalnız sovet hökumətinin Azərbaycanın suverenliyini və istiqlaliyyətini qeydsiz–şərtsiz tanıdığı halda aparıla bilər...".**[95]

G.Çiçerin mübahisələri davam etdirərək F.Xoyskinin tələbinə cavabında bildirirdi: "**Azərbaycanın istiqlaliyyətini tanımaq yalnız sovet hökuməti ilə Azərbaycanın qarşılıqlı münasibətlərinə aid bir çox məsələləri əhatə edən mürəkkəb danışıqlar nəticəsində əldə edilə bilər**"[96]. Bütün bunlardan aydın olur ki, Sovet Rusiyası Azərbaycanın suverenliyini tanımır və onun ərazisinə Çar Rusiyasının ərazisi kimi baxırdı. Bu fikir V.İ.Leninin İ.Smilqa və Q.Orconikidzeyə 1920-ci il 17 mart tarixli teleqramında daha aydın görünür: **"Bakını almaq bizə olduqca və olduqca zəruridir. Bütün səyinizi buna verin. Həm də bəyanatlarda son dərəcə diplomatik olmaq və möhkəm yerli sovet hakimiyyəti hazırlandığını tamamilə yəqin etmək lazımdır".**[97]

Mənbələr təsdiq edir ki, çevrilişin baş tutması üçün V.İ.Leninin tapşırığı ilə Bakı bolşevik komitəsinin sərəncamına 15 milyon manat pul göndərilmişdi.[98]

Azərbaycanda soyqırımların təşkilatçılarından olan A.Vikoyan

95 Yenə orada, s. 73
96 Yenə orada
97 Lenin V.İ. Əsərlərin tam külliyyatı. 5-ci nəşr, 51-ci cild, s. 191
98 Köçərli X. Azərbaycan 1920-1940-cı illərdə. Bakı, 2003, s. 17

yazırdı: **“Biz artıq Azərbaycanın müxtəlif guşələrində hərbi dayaq bazaları yaratmışıq. Biz Qarabağda işi gücləndiririk”.**[99]

Göründüyü kimi, Azərbaycanın işğalı bilavasitə V.İ.Leninin iştirakı ilə xeyli əvvəlcədən hazırlanmışdı. Qafqaz cəbhəsinin komandanlığı XI Ordunun Volqa–Xəzər donanmasının komandanlığına Bakıya hücum edilməsi barədə hələ 1920-ci il aprelin 21-də Petrovsk şəhərində verilən 490 saylı direktivində aprelin 27-də Azərbaycan sərhədlərini keçmək, qəti hücumla Bakı quberniyasını tutmaq, Zaqafqaziya dəmir yolunun Kürdəmirdəki hissəsini, XI Ordu hissələrinin Abşerona yaxınlaşdığı vaxt Ələt stansiyası rayonuna desant çıxararaq neft daşıyan donanmanı ələ keçirmək əmri verirdi. Daha sonra isə yalnız Bakı quberniyasının deyil, Azərbaycanın bütün ərazisinin işğal edilməsi XI Ordunun son vəzifəsi kimi qarşıya qoyulurdu.

Bu, suveren dövlətə qarşı onu zorla ilhaq məqsədi güdən işğalçılıq aktı idi. Çiçerinin hələ 1919-cu ilin avqustunda Azərbaycan hökumətinə verdiyi **“Sovet Rusiyası heç vaxt Azərbaycana silahlı hərbi yürüş etmək və bu yolla orada öz hakimiyyətini bərpa etmək fikrində olmayacaq”**[100] vədindən nə qədər uzaq olduğunu açıq göstərdi.

Dinc və günahsız əhalinin qırğınına və qan tökülməsinə yol verməmək üçün Azərbaycan parlamentinin fövqəladə iclası çağırıldı. Parlament aprelin 27-də axşam saat 23:00-da aşağıdakı şərtlərlə hakimiyyəti kommunistlərə verməyi qərara aldı:

**1. Rus ordusu Bakıya daxil olmadan, dəmir yolu ilə Türkiyəyə köməyə gedəcəkdir.**

**2. AXC-nin müstəqilliyi və ərazi bütövlüyü hər cür irtica hərəkətindən və ilhaqdan lazımi səviyyədə qorunacaqdır.**

**3. Azərbaycan ordusu saxlanılacaqdır.**

**4. Azərbaycandakı bütün siyasi partiyaların azad fəaliyyəti təmin ediləcəkdir.**

**5. Azərbaycanın keçmiş dövlət xadimləri, hökumətin və parlamentin inzibati üzvləri təqib edilməyəcək, hökumət idarələrinin xidmətçiləri öz vəzifələrində saxlanılacaqlar. Yalnız**

---

99 “Dirçəliş XXI əsr” jurnalı. Bakı, 1998, № 5

100 Azərbaycan Respublikası MAİ, fond 130, iş 4, siy. 496, v. 25

**məsul vəzifələrdə olan şəxslər öz vəzifələrindən azad ediləcəklər.**

**6. Azərbaycanın qəti idarə forması azad demokratik yolla seçilən fəhlə, kəndli və əsgər deputatları sovetindən ibarət ali qanunvericilik müəssisəsi tərəfindən təyin ediləcəkdir.**

**7. Yeni hökumət Azərbaycanın istiqlaliyyətini boğmağa çalışan hər cür xarici qüvvələrə qarşı öz ixtiyarında olan bütün tədbir və vasitələrdən istifadə edəcəkdir.**

Bolşevik ultimatumunun müddətinin qurtarmasına bir saat qalmış AXC hökuməti hakimiyyətdən əl çəkdi. Beləliklə də, Azərbaycanın istiqlaliyyətinə, suverenliyinə son qoyuldu.

Azərbaycanın işğal olunmasından sevincini gizlədə bilməyən V.İ.Lenin deyirdi: **"Dünən Bakıdan aldığımız xəbərə görə artıq Bakı proletariatı Azərbaycan hökumətini yıxaraq hakimiyyəti öz əlinə almışdır. Bu o deməkdir ki, biz bütün sənayemizi canlandıra biləcək bir iqtisadi baza ələ keçirmişik".**[101]

Azərbaycanda baş tutan bolşevik işğalı onun milli hissə və duyğuya malik olan şəxslərini bolşeviklərin, xüsusilə də qəddarlıqda ad çıxaran A.S.Pankratovun irticası ilə üz-üzə qoydu. Demokratik cəmiyyətdən çıxmış azərbaycanlılar diktator idarə üsulunun qurbanlarına çevrildilər. Verdikləri vədlərə əməl etməyən bolşeviklər tərəfindən siyasi xadimlər, generallar, mütəfəkkir ziyalılar, hətta imza yerinə barmaq basanlar güllələndi və sürgün edildi.

Bu cür idarə üsulu nəticəsində 1920-ci illərin əvvəllərində Azərbaycanda minlərlə insan qətlə yetirildi. Maraqlıdır ki, bolşevik çevrilişinin ilk aylarında həbs olunanların və qətlə yetirilənlərin heç bir yerdə qeydiyyatı aparılmamışdır. Azərbaycan SSR Fövqəladə Komissiyasının Məlumat və siyasi bürosunun fəaliyyəti ilə bağlı hesabatında göstərilirdi ki, burada işlər bərbad haldadır. Yerlərdən məlumat və xəbərlər natamam və qeyri-dəqiq verilir. Buna görə də Azərbaycan FK rəhbərləri respublika üzrə əksinqilabla mübarizə işi barədə dəqiq məlumat ala bilmir.[102]

Sonradan aparılmış bərpa işləri nəticəsində müəyyən edilmişdir ki, 1920-ci il aprelin 29-dan sentyabrın 1-nə kimi Azərbaycan FK-

101 Lenin V.İ. Azərbaycan haqqında. Bakı, 1970, s. 168
102 Azərbaycan Respublikası MAİ, fond 1, siy.1, iş 86, v. 162.

nın həbs etdiyi 1308 nəfər məhbusdan 1261-i kişi, 47-si qadın və uşaq olmuşdur. Onlardan 450 nəfəri azad edilmiş, 122 nəfəri sürgün edilmiş, 240 nəfəri başqa idarələrə, 2 nəfəri cəbhəyə göndərilmiş, 10 nəfəri ölmüş, 23 nəfəri başqa quberniyalara sürgün edilmişdir. 1 sentyabr tarixinə olan məlumata görə, Azərbaycan FK-nın hesabında 461 nəfər qalmışdır.[103]

Həmin illərdə qətl və qarətlərin icraçıları yalnız Azərbaycan FK deyil, həm də Hərbi İnqilab Komitəsi, prokurorluq orqanları, Xüsusi şöbə və Xalq Daxili İşlər Komissarlığı idi. Sovetləşmə illərində bu orqanların bir-birindən xəbərsiz həyata keçirdikləri cinayətlər nəticəsində nə qədər günahsız insanın fiziki-mənəvi işgəncələrə məruz qaldığını, eləcə də cinayət məsuliyyətinə cəlb edildiyini üzə çıxarmaq olduqca çətindir. Çünki həmin illərdə günahsız insanları qətlə yetirən müstəntiqlər qeydiyyat aparmadıqlarına görə cinayət məsuliyyətinə cəlb edilmək əvəzinə mükafatlandırılırdılar.

1920-ci illərin əvvəlində Azərbaycandakı ümumsiyasi mənzərəni öyrənmək baxımından N.Nərimanovun Leninə, Stalinə və öz oğluna yazdığı məktublar daha xarakterikdir. N.Nərimanov bolşevik idi və bolşeviklərin hakimiyyətə gəlməsini arzulayır, özü də bu istiqamətdə mübarizə aparırdı. O, bolşevik olsa da, milli əxlaqa və düşüncəyə malik türk oğlu idi. N.Nərimanovun milliliyi və türklüyü, ayıq və oyaq düşüncəsi müstəqil siyasət yürütmək bacarığı onu Bakıdakı ruspərəst qüvvələrin, xüsusilə də ermənilərin gözündən salırdı. Həmin qüvvələr çalışırdı ki, V.İ.Lenin-N.Nərimanov münasibətləri korlansın. Bu xüsusda Azərbaycan K(b)P MK-nın və Bakı Komitəsinin rəhbərlərindən olan A.Mikoyan deyirdi: **“Biz N.Nərimanovu elə əhatəyə almalıyıq ki, o, bizim təsirimiz altında olsun və öz nüfuzundan istifadə edə bilməsin”.**[104]

Lakin bolşeviklər hakimiyyəti ələ aldıqdan və romantik bolşevik təbliğatı ilə bolşevik gerçəkliyi arasında fərq aşkar olandan sonra onun dünyagörüşündə müəyyən dəyişiklik yarandı. Bu vaxta qədər N.Nərimanova elə gəlirdi ki, bolşeviklər hakimiyyətə gəlməklə yalnız Azərbaycanı deyil, bütövlükdə Şərqi xilas edəcəklər. O, Stalinə yazırdı:

103 Yenə orada

104 “Dirçəliş XXI əsr” jurnalı. Bakı, 1999, № 15, s. 37

**"Bizim məzlum Şərqi xarici zülmkarlardan azad etmək və Şərqə öz həyatı ilə azad yaşamaq imkanı vermək vədimiz hamını Sovet Rusiyası ətrafında birləşdirdi".**[105]

Lakin aparılan siyasət nəticəsində Şərq öz azadlığını əldə etmədi və bolşeviklərə inam itdi. Nərimanov qeyd edirdi ki, Şərq daha bizə inanmır, o, məzlum kütlə simasında bizdən üz döndərmişdir. Nərimanov bunu aradan qaldırmağın da yolunu göstərirdi: "**Azərbaycanı sovetləşdirərkən Rusiyada etdiyimiz səhvlərə yol verməməli, yerli şəraitlə hesablaşmalı, müstəqil nümunəvi sovet respublikası yaratmalıyıq ki, Şərq zəhmətkeşləri, birincisi, bizim işğalçı imperialist məqsədlərimizin olmadığını bilsinlər və ikincisi, onlar görsünlər və hiss etsinlər ki, öz həyatlarını xanlarsız, bəylərsiz və başqaları olmadan qura bilərlər".**[106]



*XI Qızıl Ordunun Bakıya daxil olması*

Azərbaycan K(b)P Siyasi Büro üzvlərinin, Fövqəladə Komissiya nümayəndələri və rəhbərlərinin 1920-ci il sentyabrın 11-də Bakı şəhərində keçirilmiş konfransında respublikada ümumi vəziyyət xarakterizə edilərkən belə qərara alınmışdı: "**Əvvəldən Azərbaycanda sovet hökumətinin düşmənlərinə qarşı mübarizədə düz kurs götürülmədiyi üçün indi buraxılmış səhvlərə görə cavab vermək lazımdır. Sovet Azərbaycanından neft və başqa məhsulları ala bilməyən Gürcüstan çətin vəziyyətə düşdüyündən sovet hökumətinə müəyyən zərbə vurmağa çalışır. Daşnak Ermənistanı həmçinin düşmən mövqeyindədir. Bu iki ölkə Azərbaycana casus və kəşfiyyatçılar göndərərək öz qara əməllərini törədirlər. Daxili və xarici əksinqilab müştərək fəaliyyət göstərir. Bu, Azərbaycanın**

105 Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 1992, s. 62-63.
106 Yenə orada

**bütün kənd və şəhərlərində sezilir".**[107]

Rusiyada buraxılan səhv Azərbaycanda da təkrarlandı: talançılıq, irtica, ruslaşdırma siyasəti get-gedə gücləndi. Bunlar yalnız N.Nərimanovun deyil, Azərbaycanda yüksək vəzifədə çalışan digər milli düşüncəli şəxslərin də qəzəbinə səbəb oldu. Azərbaycanın ictimai-siyasi xadimlərindən olan Eyyub Şirin oğlu Xanbudaqov haqsızlıqlara dözməyərək 1924-cü ildə etdiyi çıxışında deyirdi: "**1. Bundan sonra Moskva Azərbaycanın daxili işlərinə qarışmayacaq. 2. Yerli kommunistləri sadəcə yuxarıdan təyin olunan katiblərlə rəhbərlərin idarəsində və yalnız onların müşavirləri rolunda görmək fikri və adətindən vaz keçiləcək. 3. Azərbaycan milləti öz-özünü idarə etmək çağına çatmış ikən, moskvalı idarəçilər yerlilərin müstəqil olaraq çalışmalarına əngəl olur və bu çalışmaya "yerli millətçilik" damğası vurur. Buna qəti olaraq son qoyulacaq. 4. İşçi birlikləri, kooperativləri və digər dövlət müəssisələri sözdə deyil, gerçəkdən türkləşdiriləcək. 5. Azərbaycanı Rusiyadan gətirilmiş köçkünlərlə məskun etmək istəyən sovet hökumətinin məskunlaşdırma siyasətinə son qoyulacaq. 6. Cənubi Qafqaz respublikalarında milli mədəniyyətlərin inkişafını saxlamaq üçün Cənubi Qafqaz Sovet Sosialist Respublikaları Federasiyasının təşkilati əsası ilə qanunu dəyişəcək".**[108]



*Nəriman Nərimanov*

Milli məsələ əvvəlki illərdə olduğu kimi 20-ci illərdə (hətta sonrakı illərdə) də aktual bir problem olaraq qalırdı. E.Xanbudaqov milli məsələ ilə əlaqədar çıxışlarında və 1924-cü ildə yazdığı "Milli məsələ" adlı məqaləsində Azərbaycanda aparılan siyasətlə razılaşmadığını

107 AR SPİHDA, f. 1, siy. 1, iş 86, v. 119.
108 Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, 1992, s. 63.

bildirirdi. Bu da məqalənin nəşrindən sonra ona qarşı hücumların başlanmasına səbəb oldu.

1924-cü ildə AK(b)P-nın XIII Ümumbakı Partiya konfransında *(aprel-may)* və VI qurultayında *(may)* E.Xanbudaqovun baxışları tənqid edildi. Çıxış edənlər onu təmayülçülükdə suçlayır, E.Xanbudaqovla M.Rəsulzadə arasında bərabərlik işarəsi qoymağa çalışırdılar. H.Sultanov deyirdi: **"Mənim Xanbudaqovla heç bir ziddiyyətim yoxdur, o, mənə yaxşılıqdan başqa heç nə etməyib... Əgər onun sözünü M.Rəsulzadənin "Yeni Qafqaziyya" qəzetində çıxan sözü ilə müqayisə etsək, belə çıxır ki, Mirzoyan, Qarayev və Kirov Azərbaycanın diktatorlarıdır. Xanbudaqov istəyir ki, Azərbaycanın diktatoru özü olsun. Mən qurultaya bildirirəm ki, o, buna layiq deyil, Azərbaycanın Stalini olmaq üçün yetişməyib. Mən hesab edirəm ki, VI qurultay Xanbudaqova deyəcək ki, milli ədavət yaratmaq üçün bizim təşkilatda sənə yer yoxdur".**[109] Hətta qurultayda mirzoyanların Azərbaycanda gördüyü işləri alqışlayan, ona əhsən deyənlər də var idi: **"Xanbudaqov deyir ki, Mirzoyan heç bir iş görmür, mən isə deyirəm: Mirzoyan və hər hansı bir rus milli məsələdə bizim hamımızın gördüyü işdən çox iş görmüşlər".**[110] Ermənilərə bu cür havadarlar tapıldıqca milli ruhlu adamlar da Xanbudaqov kimi işdən uzaqlaşdırılır, həbs edilir, güllələnir, yadlar və etnik siyasətçilər isə Azərbaycanda ağalıq edirdilər. Rus-erməni ittifaqı Azərbaycanın ictimai-siyasi həyatında olduqca ciddi faciələrə yol açdı. Bütün bunları görən N.Nərimanov İ.V.Stalinə yazırdı: **"Erməni yoldaşların görkəmli məsul vəzifələrə təyin edilməsini dayandırmaq vacibdir".**[111]

Az bir müddət içərisində bolşevizm bütün ailələrə, bütün nəsillərə və tayfalara göz yaşı, kədər, dərd, ölüm taunu gətirdi. Hüquq-mühafizə orqanları istədikləri adamı istədikləri vaxt məhv edə və ya bağışlaya bilərdi. Onlardan birinin Əbdülvahab Yurdsevərə dediyi sözlərə diqqət yetirək: **"Biz istəsək, 58-ci maddəyə istinad etməklə eyni məhbusu, cinayət dərəcəsi nə qədər ağır və ya yüngül olmasına baxmayaraq, edam etdirir, sürgünə və məcburi əmək**

109 Azərbaycan Respublikası MAİ, f. 1, siy. 74, iş 8, v. 81-82.

110 Yenə orada

111 Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 1991, s. 31

**koloniyalarına göndərir, yaxud büsbütün sərbəst buraxırıq! Biz burjua hakimləri kimi qanunun mahiyyətinə görə yox, inqilabçı vicdanımıza və duyğumuza görə hökm veririk"**[112].

Həqiqətən də, burjua hakimlərindən fərqli olaraq duyğusu sönük bolşevik hakimləri qanuna yox, tarixən qisasçılıq eşqi ilə yaşayan ermənilərin yalan və böhtandan yoğrulmuş fikirlərinə söykənirdilər. Ona görə də, imza yerinə barmaq basandan mütəfəkkir şəxsiyyətlərə qədər, hamısı təqib və təzyiqlərə məruz qalırdı. Əslində totalitar rejimdən bundan başqa heç nə gözləmək olmazdı. Çünki totalitar rejimin idarə və iş üsulu repressiyadır. O da qanunlara yox, diktaturaya söykənir. Diktaturalar zamanı qanun qanunsuzluğun yox, qanunsuzluq qanunun hakimi olur. Ümumittifaq Mərkəzi İcraiyyə Komitəsinin (ÜİMİK) 1922-ci il 10 avqust tarixli dekretində göstərilir ki, əksinqilabi çıxış edənlər həbsə alınıb sürgün edilməlidir.

ÜİMİK-in 1922-ci il 16 oktyabr tarixli dekreti daha amansız idi. Həmin dekretdə göstərilirdi ki, müəyyən kateqoriyalı şəxslər məhkəməsiz məhkum edilə və hətta güllələnə bilər. Maraqlıdır ki, 16 oktyabr dekretinə qədər də bu tipli güllələnmələr olmuşdu. Hətta güllələnmədən bir neçə gün sonra hökmün oxunması faktları da az deyildi. Həsən bəy Ağayev Azərbaycandakı total tədbirlərə münasibətini bildirərək deyirdi: **"...Öz istiqlaliyyəti naminə böyük qurbanlar verən, qazandığı azadlığı iki il ərzində bütün qüvvəsilə qoruyan və əziz bilən Azərbaycan xalqı ona zorakı yolla qəbul etdirilən yeni qayda-qanun ilə barışa bilməz".**[113] Barışmayanları, yeni idarə üsulunu qəbul etməyənləri isə yeni total tədbirlər gözləyirdi. Bu tədbirlərin əsasını həbslər, güllələnmələr, sürgünlər, ən yaxşı halda isə mühacirət təşkil edirdi.

SSRİ MİK Rəyasət Heyətinin 1929-cu il 21 noyabr tarixli qərarında mühacirət həyatı yaşayan şəxslər də unudulmurdu. Həmin qərarda göstərilirdi ki, xaricdə yaşayan sovet vətəndaşı dövlət orqanlarının təklifi ilə vətənə qayıtmasa, o, vətən xaini elan edilsin və şəxsiyyəti aşkar edildikdə güllələnsin. Bu qərarda göstərilməsə də xaricdə yaşayan sovet vətəndaşlarının yaxın və uzaq qohumları həmin mühacirlərin

112 "Müsavat" bülleteni, 1962, № 4, s. 9.
113 AR SPİHDA, f. 1, ciy. 1, iş 121, v. 231-238.

ağrılarını daha çox yaşayırdılar.

Azərbaycanın işğalından sonra vətəni tərk etməyə məcbur olan azadlıq mücahidlərinin qohumları, hətta xaricdəki hər hansı bir insanla qohumluq əlaqəsi olan ailələr də təqiblərə, həbs və sürgünlərə məruz qoyulurdu. Belə ailələr bolşevik diktaturasının 16 oktyabr 1922-ci il tarixli dekretinə uyğun olaraq kütləvi surətdə güllələnirdi. Hətta xaricdəki qohumu ilə adi məktub əlaqəsi üstündə insanlar zorakılıqla ittiham olunurdu. Xalqın iradəsini qırmağa cəhd edən hakimiyyət hüquq-mühafizə orqanları qarşısında əhalinin deportasiyası ilə bağlı direktiv vəzifə qoyurdu. Məsələn, Baş Dövlət Siyasi İdarəsinin 2 fevral 1930-cu il tarixli 44/21 saylı əmri ilə Qafqazdan Urala 23 min, Qazaxıstana isə 5 min adamın sürgün edilməsi qərara alınmışdı.

Repressiyalar, təqib və təzyiqlər gücləndikcə total cəmiyyətə qarşı etiraz aksiyaları və müqavimət hərəkatı da artırdı. Qarabağda Nuru Paşanın, Zaqatalada Mola Hafiz Əfəndiyevin, Qarabulaqda Camməd bəyin, Qaradağlıda Xan Şirvanskinin və başqalarının rəhbərliyi altında müqavimət hərəkatı genişləndi.

Bakı Komitəsində təşəbbüsü ələ alan erməni qaniçənləri bolşevik-rus dayaqlarına istinad edərək Azərbaycanın müstəqilliyi və AXC-nin bərpası uğrunda mübarizə aparan qeyrətli vətən oğullarına, onların ailələrinə, qohumlarına qara yaxır, onları millətçilikdə, burjuaziyanı müdafiə etməkdə ittiham edir, müxtəlif böhtanlar atır və məhv edirdi. Xalqa deyil, silahlı başkəsənlərə, milisə, Fövqəladə Komissiya üzvlərinə - bir sözlə, zora arxalanan hakimiyyət niyyətini açıq bəyan edərək deyirdi: **"Burjuaziya və mülkədarların ağ terroruna biz amansız kütləvi qırmızı terrorla cavab verəcəyik. Siz yüzlərlə fəhləni öldürə bilərsiniz, onların əvəzində biz bütün ağ terrorçular sinfini məhv edəcəyik!".**[114] Beləliklə, dövlətçiliyini bərpa etməyə çalışan xalqın nümayəndələrinə sinfi damğa vurulur, müstəqillik ideyalarını qırmaq, istiqlal mübarizəsini dayandırmaq istəyirdilər. Artıq 1922-ci ilin fevralında nəinki Cümhuriyyət fədailəri, hətta bolşevik partiyasının üzvü olmasına baxmayaraq, Azərbaycanın siyasi taleyi üçün narahat olan, milli maraqları çəkinmədən müdafiə

114 Борьба за победу Советской власти в Азербайджане. 1918-1920 гг. Документы и материалы. Баку, 1967, с. 495.

edən Bakı Partiya Təşkilatının azərbaycanlılardan ibarət 761, Göyçay təşkilatının 404 və s. üzvü partiyadan xaric edildi və təqiblərə məruz qaldı.[115]

Kəndlilərə, milli xırda burjuaziyaya, ziyalılara, ruhanilərə amansız divan tutuldu. Aprel işğalından sonra AXC-ni quranlar, mütəfəkkir şəxsiyyətlər, ziyalılar, xüsusi xidmət orqanlarının əməkdaşları, milli orduda xidmət etmiş zabitlər və hərbçilərin bir çoxu, eləcə də digər müstəqillik tərəfdarları məhv edildi. Belə ki, 1921-ci ilə qədər ancaq hərbçilərdən 12 general, 27 polkovnik və podpolkovnik, 46 kapitan, ştabs-kapitan, poruçik və podporuçik, 146 praporşik, 266 nəfər başqa işçilər (hamısı müsəlman) güllələndi. Bunlardan M.Sulkeviç, İ.Usubov, Haşımbəyov, şahzadələr İanulla Mirzə Qacar və Kazım Mirzə Qacar, Həmid bəy Qaytabaşı, Həbib bəy Səlimov, Murad Gəray bəy Tlexas, Makayev, Rüstəm bəy Şıxlinski, Əliyev, İsgəndər bəy Seyfulin və başqa tanınmış hərbçiləri göstərmək olar.[116]

XI Qızıl Ordu Azərbaycanı işğal edəndən bir gün sonra 1920-ci il aprelin 29-da Azərbaycanda Fövqəladə Komissiya (Az.ÇK) yaradıldı və ona rəhbərlik Azərbaycan xalqının qanına susamış Pankratova həvalə olundu. Az. ÇK-nın kifayət qədər qüvvəsi olmadığından kütləvi həbslər zamanı Qızıl Ordunun qüvvələrindən də istifadə edilirdi. Daha doğrusu, onlar birgə fəaliyyət göstərirdilər. Bu məqsədlə bir çox rayonda diviziyaların xüsusi şöbələri də yaradıldı. Həmin şöbələrin nümayəndələri yerlərdə "Müsavat" tərəfdarlarına, sovetləşməni qəbul etməyənlərə, ziyalılara – bir sözlə, imza yerinə barmaq basandan tutmuş, Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan görkəmli və mütəfəkkir şəxsiyyətlərə qədər divan tutmağa başladılar.

Bolşeviklər yerlərdə inqilabi qayda-qanun yaratmaq adı ilə ÇK-nın köməkçi orqanı olan siyasi bürolar təşkil etdilər. Bu siyasi bürolar ÇK-nın tabeliyində olmaqla həm də yaradıldığı yerlərdə fəhlə-kəndli milisinin siyasi şöbələri sayılırdı. 1921-ci il mayın 30-da Xalq Komissarları Sovetinin qərarı ilə başda Azərbaycan ÇK-nın sədri olmaqla qaçaqlara *(bolşeviklər Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə qoşulanlara "qolçomaq, qaçaq-quldur, bandit"*

115 "Kommunist" qəzeti, 10 mart 1990-cı il
116 "Xəzər" jurnalı, 1990, № 3.

*adı qoymuşdular)* divan tutmaq və onları məhv etmək üçün Mərkəzi fövqəladə üçlüklər təşkil edilirdi.

Mərkəzi fövqəladə üçlüyə ixtiyar verilirdi ki, cinayəti təsdiq edilmiş bütün qaçaqlar, xüsusilə də onların başçıları dərhal güllələnsin. Qəzalardakı fövqəladə üçlüklərə *(buna UÇTRO – Uyezdnaya Çerezvıçaynaya Troyka ("Qəza Fövqəladə Üçlüyü") deyirdilər)* isə qaçaqları bütün istintaqdan keçirib Qəza və Ali İnqilab tribunalarına, yaxud da işləri məhbusların özləri ilə birlikdə Az.ÇK-ya çatdırmaq səlahiyyəti verildi. Bu səlahiyyətlərdən sonra yerlərdə qorxulu bir varlığa çevrilən Az.ÇK üzvlərinin nüfuzu birə-beş artdı. Çünki onlar təkcə qaçaq hərəkatına və ayrı-ayrı qaçaqlara deyil, eyni zamanda dinc əhaliyə də də divan tuturdular. Bəhs etdiyimiz "nüfuz" da bu qorxu hesabına yaranmışdı. Çekaçıların yaratmaq istədikləri sabitlik ölkədə anarxiyaya səbəb oldu. Azərbaycana "kommunist cənnəti" vəd edənlər bir çox ailələri başsız qoydular. Bolşeviklərə inananların da inamı qırıldı. N.Nərimanov Stalinə 1923-cü ildə yazdığı "Ucqarlarda inqilabımızın tarixinə dair" adlı məxfi məktubunda da ölkədəki bu inamsızlığı, özbaşınalığı xüsusilə vurğulayır və üçlüklərin qeyri-qanuni hərəkətlərini pisləyirdi.

O illərdə ÇK-nın qorxunc fəaliyyətini əks etdirən şeir nümunələri də yaranmışdı. Görkəmli Azərbaycan şairi Səməd Mənsur "İki aşığın deyişməsi" adlı şeirində yazırdı:

**Qoca aşıq:**
*O nədir ki, surətləri soldurur?*
*O nədir ki, cibişdanı doldurur?*
*O nədir ki, toyuqları güldürür?*
*Buna cavab verən aşıq var olsun!*

**Cavab:**
*O, ÇEKAdır surətləri soldurur,*
*O, rüşvətdir cibişdanı doldurur,*
*Təriflərdir toyuqları güldürür,*
*Söz soran aşığa Allah yar olsun.*

Bu illərdə böyük səlahiyyətlərə malik olan ÇEKAÇILARIN

qarşısında duran əsas vəzifələrdən biri də AXC dövründə müxtəlif siyasi partiyalarda, ayrı-ayrı təşkilatlarda fəaliyyət göstərən şəxslərin işi ilə maraqlanmaq, bolşeviklərə, eləcə də sovetləşməyə münasibətini müəyyənləşdirmək və ölkədə "sabitlik" yaratmaq idi. Bu sabitlik isə ayrı-ayrı vəzifəli şəxslərin, eləcə də onların ailə üzvlərinin həbs edilməsi yolu ilə həyata keçirilirdi. Həmin illərdə təqib və təzyiqlərə məruz qalanlar arasında Cümhuriyyətin qurucularından biri olan S.Mehmandarov da var idi.

1855-ci il oktyabrın 16-da Lənkəranda doğulan Səməd bəy Sadıx bəy oğlu Mehmandarov Bakıda gimnaziyanı bitirdikdən sonra Peterburqda yerləşən II Konstantinovka artilleriya məktəbinə daxil olmuşdur.

1875-ci ilin dekabrında podporuçik rütbəsi alan S.Mehmandarova göstərdiyi uğurlu xidmətlərinə və əldə etdiyi nailiyyətlərə görə 1904-cü ildə general-mayor, 1908-ci ildə isə tam artilleriya generalı rütbəsi verilmişdir.

S.Mehmandarov 1917-ci ildə Qafqaza gəlmiş və həmin ilin aprel ayında istefaya çıxmışdır. Bir müddət Vladiqafqaz şəhərində yaşadıqdan sonra Azərbaycana qayıtmışdır.

1918-ci il dekabrın 25-də hərbi nazir vəzifəsinə təyin olunan S.Mehmandarov qısa müddətdə Azərbaycanın milli ordusunu yaratmağa nail olmuşdur.

Sovet hakimiyyəti qurulduqdan sonra Nəriman Nərimanovun şəxsi zəmanəti əsasında o, hərbi fəaliyyətini davam etdirmiş və Azərbaycanda yaradılmış hərbi komandirlər məktəbində 1921-1928-ci illərdə müəllimlik etmişdir.[117]

1928-ci ildə S.Mehmandarov səhhəti ilə əlaqədar olaraq xidmətdən tərxis olunmuş və ona fərdi dövlət təqaüdü verilmişdir.

Səməd bəy Mehmandarov 12 fevral 1931-ci ildə Bakıda vəfat etmişdir.

Azərbaycan hərbçilərinə rəhbərlik edən S.Mehmandarov, eləcə də Ə.Şıxlinski sovetləşmə illərində həbs edilərkən olmazın müsibətlərlə üz-üzə qalmışdı. General S.Mehmandarovu təhqir etmək üçün ona

117 Səməd bəy Mehmandarov. - https://az.wikipedia.org/wiki/Səməd_bəy_Mehmandarov#H%C9%99yat%C4%B1

əhalinin gur yerlərində küçə və tualet süpürtdürürdülər. N.Nərimanov 1920-ci il avqustun 1-də V.İ.Leninə yazırdı:

**"Əziz Vladimir İliç!**

**Gəncə üsyanı zamanı köhnə Azərbaycan ordusunun bütün zabitləri həbsə alınmışdır. Məşhur general Mehmandarov və general Şıxlinski də onların içərisində idi. Diqqətli yoxlama nəticəsində məlum oldu ki, generalların üsyanla əlaqəsi olmamışdır. Lakin mövqeyimiz sakitləşənə qədər və ümumi işimizə kömək məqsədi ilə biz hər halda bu qərara gəldik ki, onları qərargahda işləmək üçün Sizin sərəncamınıza göndərək. Çünki onlar hərbi mütəxəssislər olmaq etibarilə əvəzsizdirlər. Onlardan biri Şıxlinski Nikolay ordusunda "artilleriyanın allahı" sayılırdı. Polşa cəbhəsi qurtarana qədər qoy onlar Moskvada işləsinlər, sonra Sizdən xahiş edəcəyəm ki, bizim əsgəri hissələrimizi təşkil etmək üçün onları buraya göndərəsiniz. Bu müddətdə onların qayğısına qalmaq lazımdır. Kommunist salamı ilə N.Nərimanov".**[118]

Nərimanovun bu müraciəti Mehmandarovu və Şıxlinskini repressiyadan xilas etsə də, cümhuriyyətin təhlükəsizliyinin keşiyində dayanan bir çox generallar bolşevikləşmənin ilk günlərində qətlə yetirildilər. Belə generallardan biri də Azərbaycanın ordu quruculuğunda və ƏMT-nin formalaşmasında önəmli rol oynamış Murad Gəray bəy Tlexas idi. O, 1874-cü il oktyabrın 21-də Kuban vilayətində hərbçi ailəsində anadan olmuş və Sankt-Peterburqdakı Mixaylovsk artilleriya məktəbini bitirmişdi.[119]

Port-Artur və Birinci Dünya müharibələrində iştirak edən general-mayor Tlexas iki dəfə "Müqəddəs Georgi" ordeni ilə təltif olunmuşdu.

1918-ci ildə könüllü olaraq Azərbaycana gələn Tlexas Əliağa Şıxlinskinin dəstəyi ilə Əlahiddə Azərbaycan Korpusunun tərkibində olan ikinci nişançı topçu briqadasının komandiri, bir qədər sonra isə Baş Qərargahda Baş Artilleriya İdarəsinin rəisi təyin olunmuşdur. Heç təsadüfi deyildir ki, hərbiyyə naziri Səməd bəy Mehmandarov onu "doğma ordumuzun təşkil edilməsi işlərində özünün ən yaxın

118 Nəzirli Ş. Azərbaycan generalları. Bakı, 1991, s. 96.
119 Murad Gəray bəy Tlexas. - https://az.wikipedia.org/wiki/Murad_Gəray_bəy_Tlexas

əməkdaşlarından" biri adlandırırdı.[120]

1919-cu il dekabrın 4-dən Bakı Möhkəmləndirilmiş Rayonunun general-qubernatoru olan Murad Gəray bəy Tlexas deyirdi: **"Mənə göstərilən etimadı və ümidi həqiqətə çıxarmaqdan ötəri mən bütün var qüvvəmi ədalətli və bitərəfanə bir surətdə işə şüru edirəm".**

Azərbaycanın hərb tarixinin sədaqətli araşdırıcısı Şəmistan Nəzərli Murad Gəray bəy Tlexasın 1920-ci il yanvarın 25-də "Azərbaycan" qəzetinə verdiyi müsahibəsindəki bir məqamı xüsusilə diqqətə çəkir. Həmin müsahibədə oxuyuruq: "Son günlərdə şəhərdə şaiyələr yayılır ki, bolşeviklər çıxış edib bazar-dükanı talan edəcəklər. Əhali həyacana gəlmişdi. Boş laqqırtılar böyük meydan alır. Belə hərəkətlər olmayacaqdır. Əgər baş verərsə, rəhimsizcəsinə basılacaq, hökumətin lazımi miqdarda qüvvəsi vardır. Heç kəsə şəhərə daxil olmağa müsaidə edilmir. Körpülərə vaporlar vürud edir. Sərnişinlərin yalnız bəzilərinə şəhərə girməyə icazə verilir. Üç gündə Ənzəli, Petrovski və Təzə şəhərdən (Krasnovodski) yeddi vaporda beş yüz nəfər gəlmişdir. Qismən şəhərə buraxılıblar. Lakin tezliklə də şəhərdən çıxarılıblar. Bəziləri Tiflisə gedir. Ermənilər Ermənistana, iranlılar isə İrana qaytarılır. Əcnəbilər mümasillərinə verilir. Vaporlarda səpmə yatalaq və sair misri xəstəlikləri müşahidə olunur. Onlar tez təcrid olunub. Radio ilə vaporlarda bildirilir ki, Bakıya gəlsələr, dərhal qaytarılacaqlar. Lakin əcnəbi heyətlərə, siyasi nümayəndələrə və dövləti işlər üçün gələnlərə icazə veriləcək. Köhnə rus pasportları etibardan saqiət edilir, bir aya bütün vətəndaşlar türk pasportu almalıdırlar".[121]

Bu, adi müsahibə deyildi. Müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda barışmaz mövqe nümayiş etdirən bir türk oğlunun qeyrətlə apardığı mücadilənin ifadəsi idi. Bu mücadilə bolşevik işğalından sonra idarə və iş üsulu repressiya olan totalitar rejimin təhlükəsizlik orqanlarının diqqətindən kənarda qalmadı. General Murad Gəray bəy Tlexas 1920-ci ildə bolşeviklərin istilasından sonra inqilabçı Əli Bayramovun qatillərindən biri kimi müttəhimlər kürsüsündə əyləşdirildi.

Mayın 21-dən 29-dək Ali İnqilab Tribunalının məhkəməsində

120 Yenə orada

121 Nəzirli Ş. Güllələnmiş Azərbaycan generalları. Bakı, 2006, s. 16.

şahid qismində dindirilən M.Tlexasın dindirilmə protokolunu geniş oxucu kütlələrinə təqdim edirik:

**Sədr Viktor Naneyşvili:** *General Murad Gəray bəy Tlexas! Siz özünüzü Əli Bayramovun qətli haqqında işdə müqəssir bilirsinizmi? Siz Bakı Möhkəmləndirilmiş Rayonunun general-qubernatoru olanda cinayətkar fəaliyyətsizlik göstərmisiniz, nəticədə belə dəhşətli cinayət baş verib.*

**General Tlexas:** *Qətiyyən yox! Hərbi vəzifəmə gəldikdə isə həmişə hər yerdə vicdanla xidmət etmişəm. Cinayətkarlığa yol verməmişəm.*

**Sədr:** *Tribunala deyin görək, Denikin könüllülərinin komandanlığı ilə siz Bakıda nə danışmısınız?*

**Tlexas:** *Könüllülərin komandanlığı ilə heç bir danışığım olmayıb.*

**Naneyşvili:** *Bizə çatan məlumata görə sizin ağqvardiyaçı könüllülərinin nümayəndələri ilə danışığınız olub.*

**Tlexas:** *Könüllülərin ayrı-ayrı nümayəndələri ilə də mənim heç bir gizli danışığım olmayıb.*

*Könüllülər və başqaları haqqında isə "soldat" kimi deməliyəm ki, yıxılana balta çalmazlar. Mən heç vaxt, müharibədə bir-birimizin üstünə qışqıranda da, silahı tullayanda da hərbi kampaniyada - rus - yapon və alman cəbhəsində də olmuşam. Onlar silahı təhvil verəndə mən sonuncu çörək tikəmi və qəndi vermişəm.*

**Sədr:** *Tribunala son sözünüz?*

**Tlexas:** *Ali tribunal, burada deyəcəyim sözlər özümü müdafiə etmək xatirinə deyilməyəcək. Mən ucadan elan edirəm ki, bolşevik Əli Bayramovun qətlində qətiyyən iştirak etməmişəm. Məni müttəhimlər kürsüsünə gətirən qətiyyən tanış olmayan mühitə düşməyim və rəislərimin əmrlərini yerinə yetirməkdə "soldat" mənəviyyatı ilə tərbiyə olmağım oldu. Mən kasıb praporşik oğluyam, demək olar ki, yoxsul təbəqədən çıxmışam. İndi mənə elə gəlir ki, burjuaziya rütbəsi olan general-qubernatorluq mənim üçün rüsvayçılıq idi.*

*Əgər məndən soruşsanız ki, Bakıdakı fəaliyyətim dövründə kimləri özümə düşmən hesab edirdim. Cavab verərdim: ancaq və ancaq Azərbaycanın müstəqilliyinə qəsd etmək istəyən könüllülər mənim qatı düşmənimdir. Mən heç vaxt siyasi partiyaların işinə qoşulmazdım. Mənim məqsədim milli ordu yaratmaq, milli qırğının qarşısını almaq idi.*

*Qırx altı yaşım var. Ömrümün yarıdan çoxunu hərbi xidmətdə keçirmişəm. Atam evdəki yeganə samovarı satıb məni atın sağrısında Yekaterinardan oxumağa göndərib...*

*O ki qaldı ağqvardiyaçı general Denikinə qoşulmağım, onun könüllüləri ilə işləməyim bu, heç cür mümkün deyil. Çünki bütün il boyu mən denikinçilərə qarşı mübarizə aparmışam. Onun kəşfiyyatçıları mənim əməkdaşlarımdan və şəxsən məndən oddan qorxan kimi qorxurlar. Əgər siz bolşeviklər yox, Denikin Bakıya girməli olsaydı, birinci məni güllələyərdi. Boynuma alıram ki, Azərbaycanda caynağımıza keçən Denikin kəşfiyyatçılarına qarşı çox amansız olmuşam.*[122]

Göründüyü kimi, Tlexas uca səslə bəyan edir ki, Əli Bayramovun qətlində mənim günahım yoxdu və buna görə məni müttəhimlər kürsüsünə əyləşdirmək qətiyyən doğru deyil. Bu məsələdə Tlexas ittiham olunandan daha çox ittiham edənə oxşayır. Qətiyyəti və casarəti ilə səngərdə və döyüş meydanında olduğu kimi müttəhimlər kürsüsündə də Vətənin sədaqətli əsgəri kimi yadda qalır. O bəyan edir ki, mən Azərbaycanın müstəqilliyinə qəsd edən hər bir kəsi ittiham edirdim və ittiham edərdim. Burada nə bolşevik, nə Denikin, nə erməni, nə də ingilis istisnası var. Konkret "hər kəs" təsnifatı var. Ali İnqilab Tribunalı qarşısında deyilən bu sözlər yalnız bir generalın nitqi olaraq qalmır, eyni zamanda onun general və həqiqi bir Vətən əsgəri xarakterini də üzə çıxarır. Nə düşmən, nə də hakim hüzurunda dəyişən və bütövlüyünü itirməyən xarakter.

Tlexasın tərcümeyi-hal materialları ilə tanışlıq bizi bir başqa tiplə də tanış edir. Belə ki, Murad Gəray bəy Tlexasın həyat yoldaşı Əminət xanım Tlexas Azərbaycan Sovet Sosialist Respublikasının Ali İnqilab Tribunalının sədrinə ərizə ilə müraciət edərək yazırdı: **"1920-ci il mayın 29-da Ali İnqilab Məhkəməsinin qərarı ilə ərim Murad Gəray bəy Tlexas güllələnmişdir. Ərim həbs olunan günü evimizdən sizin əməkdaşlar ailəmizə məxsus olan qızıl və gümüş əşyalarını da aparmışlar. Acizanə surətdə xahiş edirəm, həmin qızıl və gümüş əşyalarının qaytarılması barədə sərəncam verəsiniz. Həmin əşyalar yenicə həddi-bulağa çatmış iki qızıma və şəxsən mənə məxsusdur.**

122 Nəzirli Ş. Güllələnmiş Azərbaycan generalları. Bakı, 2006, s. 1-17.

**İmza: Əminət xanım Tlexas. 6 iyun 1920-ci il".**

Əminət xanımın bu müraciətinə Ali İnqilab Tribunalının sədrinin verdiyi "vətəndaş Əminət xanım Tlexasa məlumat verin ki, sizə heç nə qaytarılmayacaqdır" cavabı bolşevizmin - bolşevik idarə üsulunun və bütövlükdə bolşeviklərin irticaçı və talançı simalarını ortaya qoyur.

Həmin illərdə repressiyalara məruz qalanlardan biri də **Məmməd bəy Sulkeviç (1865-1920)** idi.

Təəccüblüdür ki, repressiyalara məruz qalanların yalnız özləri deyil, bioqrafik göstəriciləri də məhv və ya təhrif edilmişdir. Sorğusuz-sualsız güllələnən bu generalın istintaq qovluğunu və həyat yolu ilə bağlı faktik materialları əldə edə bilmədiyimizdən internet materiallarına üstünlük verməli olduq.

Məmməd bəy Sulkeviç 1865-ci il iyulun 20-də Kemeyşı, Lida qəzası, Vilna quberniyasında doğulmuşdur. Litva tatarlarından olan M.Sulkeviç Voronejdə Mixaylovski kadet korpusunu və Peterburqda Mixaylovski artilleriya məktəbini bitirmiş, poruçik rütbəsində ikən 1888-ci il oktyabrın 3-də Rusiyanın Baş Qərargah Akademiyasına daxil olmuşdur.

1899-cu ildə Sulkeviç həm podpolkovnik rütbəsi, həm də Müqəddəs Stanislav ordeninə layiq görülmüş, Odessa hərbi dairəsi qərargahının baş yavəri vəzifəsinə təyin olunmuşdur. 1904-1905-ci illər Rus-Yapon müharibəsində iştirak etmiş, xidmətlərinə görə 2-ci dərəcəli Müqəddəs Anna və 4-cü dərəcəli Müqəddəs Vladimir ordenləri ilə təltif edilmişdir.

1910-cu ildə general-mayor rütbəsinə layiq görülərək İrkutsk hərbi dairəsinin general-kvartirmeysteri vəzifəsinə irəli çəkilmişdir. 1912-ci ildə ona 7-ci ordu korpusunun qərargah rəisi vəzifəsi həvalə olunmuşdur. 1915-ci il aprelin 26-da ona növbəti general-leytenant rütbəsi verilmişdi. Birinci Dünya müharibəsi illərində yaradılmış ilk Müsəlman Korpusunun komandiri olmuşdur.

1918-ci ildə Sulkeviç Krıma gəlmiş və 1918-ci il iyunun 25-də burada yaradılan Krım diyar hökumətinin sədri, daxili və hərbi işlər naziri seçilmişdir. Krımda hakimiyyət devrildikdən bir qədər sonra - 1919-cu ilin martında Azərbaycana gəlmişdir.

M.Sulkeviç 1919-cu il martın 19-da AXC ordusunun Baş Qərargah

rəisi təyin edilmişdir. Onun rəhbərliyi ilə hissə və birləşmələrdə çavuş məktəbləri yaradılmış, döyüş hazırlığının proqram və cədvəlləri tərtib edilmiş, qoşun və agentura kəşfiyyatı işinin təşkilinə diqqət artırılmışdır.[123]

1920-ci il fevralın 17-də öz xahişi ilə ordu sıralarından tərxis edilən Sulkeviç az sonra Nazirlər Şurasının qərarı ilə Bakıdan keçərək Rusiyaya gedən könüllü ordu qalıqlarından silah və təchizatı qəbul edən İdarələrarası Komissiyanın sədri təyin olunmuşdu. 1920-ci il Aprel işğalından sonra Sulkeviç bolşeviklər tərəfindən həbs olunaraq, ölüm cəzasına məhkum edilmiş və 1920-ci il iyulun 15-də Bayıl həbsxanasında güllələnmişdir.

Belə təqib və həbslərə məruz qalanlar arasında ƏMT-nin əməkdaşları və onların yaxın qohumları da az deyildi.

ƏMT-nin ilk rəisi, görkəmli siyasi xadim Nəsib bəy Yusifbəylinin yaxın dostu və silahdaşı **Məmmədbağır Şeyxzamanov** da belə repressiyalara məruz qalanlardan biri olmuşdu. M.Şeyxzamanov 1880-ci ildə Azərbaycanın qədim şəhərlərindən olan Gəncədə dünyaya göz açmış və uşaqlığını orada keçirmişdir. O, "Müsavat" partiyasına daxil olmuş və Azərbaycanın azadlığı uğrunda yorulmadan mübarizə aparmışdır. M.Şeyxzamanov AXC dövründə parlamentin üzvü kimi bir sıra dövlət məsələlərinin həllində də yaxından iştirak etmişdir. Bolşeviklər hakimiyyəti ələ aldıqdan sonra 1920-ci ildə onu güllələmişlər. Türkiyədə nəşr olunan aylıq "Azərbaycan" dərgisində 1967-ci ildə Nağı bəy Şeyxzamanovun ölümü ilə bağlı çap olunmuş nekroloqda M.Şeyxzamanov barəsində aşağıdakıları oxuyuruq: **"Nağı bəyin şəxsiyyəti üzərində bolşeviklər tərəfindən 1920 sənəsində şəhid edilən mərhum ağabəyisi Məhəmmədbağır Şeyxzamanovun çox qüvvətli bir təsiri olmuşdur. İnanılmış, vəfalı bir müsavatçı olan Məmmədbağır bəy gərək millət vəkili bulunduğu Azərbaycan parlamentində, gərəksə ümumi ictimaarda vətən xaini kommunist ünsürlərə qarşı geniş mücadilə açmış bir zat idi. Bunun üçündür ki, rus istila ordusu Azərbaycana ayaq basar-basmaz arxa-arxaya kütlə halında yaxalanan və sorğusuz-sualsız**

123 Сулькевич, Матвей Александрович. - *https://ru.wikipedia.org/wiki/Сулькевич,_Матвей_Александрович*

**qurşuna düzülən münəvvərlərin ön sırasında yer alanların biri də o olmuşdu".**[124]

Dərginin verdiyi məlumatdan da göründüyü kimi, Məmmədbağır Şeyxzamanov XI Qızıl Ordu tərəfindən sorğusuz-sualsız güllələnmiş, Nağı bəy isə vətən xaini elan edilmişdir. Vətən xaini elan edildikdən sonra Nağı bəy Bakıdan Gəncəyə, sonra Tiflisə, Tiflisdən isə Türkiyəyə getməyə məcbur olmuşdur. Nağı bəy Türkiyədə mühacirətdəki azərbaycanlılarla sıx əlaqədə olmuş və onların yaratdığı "Azərbaycan" kültür dərnəyinin işində fəal iştirak etmişdir.

1883-cü ildə Gəncə şəhərində anadan olan **Nağı bəy Şeyxzamanov** Azərbaycanın ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. O, əvvəlcə Gəncədə əsası 1905-ci ildə Bakı şəhərində Əhməd bəy Ağayev tərəfindən qoyulan "Difai" Partiyasının, sonralar isə Nəsib bəy Yusifbəyli tərəfindən yaradılan "Türk Ədəbi-Mərkəziyyət Firqəsi"nin üzvü olmuşdur. 1917-ci ildə "Türk Ədəbi-Mərkəziyyət Firqəsi" ilə "Müsavat" partiyasının ən fəal üzvlərindən birinə çevrilmişdir.

Nağı bəy 1918–1920-ci illərdə yaranan və yaşayan AXC dövründə Dövlət Təhlükəsizliyi Xidmətinin sələfi olan ƏMT-nin rəisi olmuş (1919-cu ilin avqustundan 1920-ci ilin martınadək) və Azərbaycanın müstəqilliyi və dövlətçiliyi uğrunda yorulmadan mübarizə aparmışdır.

Sonralar o, qısa müddətlərdə olsa da, Almaniyada və Amerikada yaşamışdır. 1967-ci ildə Amerikada olarkən onun səhhəti pisləşmiş və orada vəfat etmişdir. Övladlarının səyi nəticəsində Nağı bəyin cənazəsi Amerikadan Türkiyəyə gətirilmiş və İstanbulun Qaracaəhməd qəbiristanlığında dəfn edilmişdir. Mərhumun ölümü ilə əlaqədar Türkiyədə çıxan aylıq "Azərbaycan" kültür dərgisində böyük bir nekroloq verilmişdir. Nekroloqda Nağı bəy Azərbaycanın istiqlal savaşının mücahidlərindən biri və fikrən, ruhən millətə bağlı olan bir sima kimi anılır.

Nağı bəy mühacirətdə olarkən Azərbaycanda baş verən ictimai-siyasi hadisələri bir daha təhlil etmiş, bu hadisələrlə bağlı fikir və düşüncələrini məqalə, eləcə də kitab halında çap etdirmişdir. Onun çap etdirdiyi "Böyük bir xeyirsevər Hacı Zeynalabdin Tağızadə"

124 "Azərbaycan" aylıq kültür dərgisi, Türkiyə, 1967, s. 21-22.

(1957), "Dərdləşmə" (1963), "Biz və onlar" və "Azərbaycanın istiqlal mücadiləsinin xatirələri" (1964) adlı əsərlərə Azərbaycanda baş vermiş və baş verən hadisələrin bir az uzaqdan - Türkiyədən seyri və qiymətləndirilməsi kimi baxmaq olar. Həmin əsərlər Azərbaycan xalqının tarixini, istiqlal mücadiləsini və müstəqil dövlətini qorumaq uğrunda mübarizəsini öyrənmək baxımından çox qiymətlidir.

Nağı bəy Türkiyəyə gedərkən yenicə ailə qurduğu həyat yoldaşı Səlimə xanımı özü ilə aparmamışdı. Bizcə, bu, aşağıdakı səbəblərdən ola bilərdi.

Birincisi, Nağı bəy ilk olaraq gizli yolla üsyanda iştirak etmək üçün Gəncə şəhərinə gedirdi və belə bir qarışıq zamanda Səlimə xanımın Gəncəyə getməsini artıq hesab edirdi.

İkincisi, Səlimə xanımı Bakıda saxlayan Nağı bəy belə qərara gəlmişdi ki, Azərbaycana azadlıq gətirəcəklərini vəd edən bolşeviklər evdar və günahsız qadına toxunmazlar.

Üçüncüsü, onun həyat yoldaşını aparmağa imkanı olmamış və ya fikirləşmişdir ki, sərhədi keçərkən onun xanımını da həbs edərək sərhədpozucusu kimi cinayət məsuliyyətinə cəlb edərlər.

Dördüncüsü, onlar bütün varlıqları ilə inanırdılar ki, bolşeviklərin hakimiyyəti uzun sürməyəcək və dalğalandırdıqları üçrəngli milli bayraq xalqın iradəsi ilə tezliklə yenidən göylərə yüksələcəkdir.

ƏMT-nin hər iki rəisinin sovetləşmə dövründəki taleyini az da olsa əks etdirdiyini və müəyyən məlumat verdiyini nəzərə alaraq Nağı bəy Şeyxzamanovun həyat yoldaşı Səlimə xanım haqqında açılmış istintaq işində olan materialları da tədqiq etməyi lazım bildik. Səlimə xanımın qaynı, ƏMT-nin ilk rəisi Məmmədbağır Şeyxzamanov bolşeviklər tərəfindən öldürüldüyündən və həyat yoldaşı Nağı bəy Türkiyəyə getmək məcburiyyətində qaldığından o da Azərbaycan Fövqəladə Komissiyasının əməkdaşlarının əlinə keçməmək üçün Mərdəkandakı bağlarında gizlənmişdi.

Səlimə xanım barəsində cinayət-axtarış işi qaldırıldığından Azərbaycan Fövqəladə Komissiyasının əməkdaşlarına onun tapılması əmri verilmişdi. Onu axtarmaqda əsas məqsəd həyat yoldaşının vaxtilə guya kommunistlərdən götürdüyü qiymətli əşyaların və

pulların tapılması idi. Şahidlərdən Reznikova ifadəsində bildirmişdi ki, "Müsavat" dövründə rəis işləmiş N.Şeyxzamanovun həyat yoldaşı hardasa qalada yaşayır. Onun yerini Bakı şəhəri, Mixaylovskaya küçəsi, ev 11, mənzil 22-də yaşayan qohumu Tutu Hacıyeva bilir.

Reznikovanın qısa məzmununu təqdim etdiyimiz bu ifadəsindən sonra çekistlər Hacıyeva Tutu Ağadadaş qızının ünvanını tapmış və 1921-ci il sentyabrın 17-də onu dindirərək guya məsələləri aydınlaşdırmağa çalışmışdılar:

"**Sual:** *Bakıda qohumlarınızdan kimlər yaşayır?*

**Cavab:** *Mənim valideynlərimdən tutmuş uzaq qohumlarıma qədər hamısı Bakı şəhərində yaşayır.*

**Sual:** *Hazırda bibiniz (biz Tutu xanımla Səlimə xanım arasındakı qohumluq əlaqəsini dəqiqləşdirə bilmədiyimizdən rus dilində "bibi", "xala", eləcə də "əmi və ya dayı arvadı" mənalarında işlədilən "tyotya" sözünü bibi kimi tərcümə etdik) Şeyxzamanova harada yaşayır?*

**Cavab:** *Bibim Şeyxzamanova Bakıda Arxangelsk küçəsi, 6 saylı evdə yaşayır. Hazırda Mərdəkandakı bağlarındadır.*

**Sual:** *Onun həyat yoldaşı haqqında siz nə bilirsiniz və indi o, haradadır?*

**Cavab:** *Onun həyat yoldaşı "Müsavat" dövründə əks-kəşfiyyatın xidmətindən azad edilmişdi. Müsavatın devrilməsindən 4 ay əvvəl onlar ailə qurmuşdular. Çevriliş vaxtı Səlimə Şeyxzamanovanın həyat yoldaşı Nağı bəy Şeyxzamanov harasa yoxa çıxdı. Onun haqqında nəinki mən, mənə elə gəlir ki, bibim Şeyxzamanova da heç nə bilmir.*

**Sual:** *Onun həyat yoldaşı qaçarkən S.Şeyxzamanova saxladığı brilyant və qızıllar barədə sizə bir söz demişdimi?*

**Cavab:** *Xeyr, onlar haqqında o, mənə heç nə deməmişdi. Əksinə o, mənə şikayətlənirdi ki, bolşeviklərin hücumu zamanı evindəki əşyalar götürüldüyündən onun üçün yaşamaq çətinləşmişdi. Həyat yoldaşının qiymətli əşyaları barədə isə o, mənə heç nə deməmişdi...*

**Sual:** *Nağı bəy Şeyxzamanovun qardaşı Məmmədbağır Şeyxzamanov hazırda harada yaşayır?*

**Cavab:** *Azərbaycanda sovet hakimiyyəti qurulanda həbs edilmişdi.*

*Sonra yadımda deyil, kimdənsə eşitdim ki, onu güllələyiblər".*[125]

Tutu xanım M.Şeyxzamanovun güllələndiyi xəbərini kimdən eşitdiyini, yəqin ki, bilərəkdən gizlədirdi və bilirdi ki, onun adını çəksə həmin adamı da ağır cəza gözləyir. Tutu xanımın ifadəsindəki bir məqam xüsusi maraq doğurur. Səlimə xanım şikayətlənirmiş ki, bolşeviklərin hücumu zamanı evindəki əşyalar götürülmüşdür. Bu, bir daha göstərir ki, bolşeviklər Azərbaycanı işğal edərkən soyğunçuluq və talançılıqla məşğul olmuşlar.

Həmin gün Tutu xanımdan başqa Hacıyev İsfəndiyar Salam oğlu da dindirilmiş və onların verdikləri ifadələrə əsasən Az.ÇK-nın müvəkkilinin köməkçisi Novitski 1921-ci il sentyabrın 20-də aşağıdakı məzmunda bir sənəd hazırlamışdı. Həmin sənəddə göstərilirdi ki, dindirilən şahidlərin göstərdiyi kimi, S.Şeyxzamanovada qiymətli əşyalar hələ ərə getməmişdən əvvəl də olmuşdur. N.Şeyxzamanov Bakıdan gedərkən özü ilə qiymətli əşyalar aparmışdır. Sənəddə bildirilirdi ki, ittiham olunanın cinayəti sübut olunmadığından bu iş ləğv edilmiş hesab olunsun və bütün materiallar Azərbaycan Fövqəladə Komissiyasının arxivinə təhvil verilsin.

Göründüyü kimi, istintaq heç nəyi sübut edə bilməmişdi, əslində sübut ediləsi bir şey də yox idi. Ümumiyyətlə, siyasi repressiyaya məruz qalanların, demək olar ki, hamısı gözdən, nüfuzdan salınmaq, təqib olunmaq üçün bu və digər böhtanlara məruz qalmışdılar. Arxiv materiallarından aydın olur ki, sonralar S.Şeyxzamanova da fürsət tapıb Türkiyəyə - həyat yoldaşının yanına gedə bilmişdir.

Bu arxiv materiallarının tədqiqində məqsədimiz gümandan həqiqətə aparan yolu az da olsa işıqlandırmaq, tarixin bizə ən yaxın olan və bolşeviklər tərəfindən "ustalıqla dəfn edilən" dövrü ilə bağlı ümumi təsəvvürləri bir qədər də genişləndirməkdir. Lakin inanırıq ki, tədqiqatçıların bu sahədə gələcəkdə aparacaqları tədqiqatlar indiyədək deyilməmiş bir çox mətləblərə aydınlıq gətirəcək və Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan şəxsiyyətlərin fəaliyyətlərinin açıqlanmasında, eləcə də elmi tərcümeyi-hallarının yazılmasında müəyyən rol oynayacaqdır.

125 DTX-nin arxivi, S.Şeyxzamanovun istintaq qovluğu, N PR-247.

## IV. 1. Mahmud Səfikürdiskiyə qarşı ittihamlar

Mahmud Balabəy oğlu Səfikürdiski 1898-ci ildə Gəncə qəzasının *(indiki Goranboy bölgəsində yerləşən)* Səfikürd *(Safyurd)* kəndində bəy ailəsində doğulmuşdu. Bəy nəslindən çıxmasına baxmayaraq Səfikürdiski ailəsi bir o qədər də varlı olmamışdı.

Uşaqlığını Səfikürd kəndində keçirən Mahmud kiçik yaşlarından elmə, təhsilə xüsusi maraq göstərmişdir. Bunu nəzərə alan atası Balabəy kişi onu 1909-cu ildə Gəncə gimnaziyasına gətirmişdir. Mahmud Səfikürdiskinin bu gimnaziyaya gətirilməsinə səbəb olan amillərdən biri də AXC dövründə əvvəl poçt-teleqraf və əmək, sonra isə ədliyyə və əmək naziri işləmiş əmisi oğlu Aslan bəy Səfikürdiskinin *(1881-1937)* vaxtilə həmin gimnaziyanı bitirməsi və bəzi qohumlarının Gəncədə yaşaması olmuşdur.

Əsrin əvvəllərində Gəncə şəhəri də Azərbaycanın ictimai-siyasi həyatının qaynar nöqtələrindən birinə çevrilmişdi. Ona görə də Gəncədə, eləcə də Azərbaycanın digər bölgələrində baş verən ictimai-siyasi hadisələr M.Səfikürdiskinin dünyagörüşünün formalaşmasında müəyyən rol oynamışdı. Daha dəqiq desək, Azərbaycanda baş verən hadisələri gənc Mahmud Gəncədən müşahidə etməyə və qiymətləndirməyə başlamışdı.

Səfikürdiskilər nəsli Gəncə quberniyasında bir çox nəsillərdən bəylikləri ilə yanaşı, həm də müəyyən elmi dünyagörüşə malik olmaları ilə fərqlənirdi. Bu nəslin nümayəndələri elmə, təhsilə xüsusi fikir verir və övladlarının maarifləndirilməsində əllərindən gələni əsirgəmirdilər. Həmin nəslin nümayəndələrindən olan Aslan bəy, Bəhram bəy, Rza bəy və başqaları da ayrı-ayrı sahələr üzrə müəyyən təhsil almış, Azərbaycanın ictimai-siyasi həyatında müəyyən rol oynamışlar.

1918-ci ildə atası Balabəy kişinin vəfatından sonra Mahmudun anası Əsmət, qardaşları Həmid, Bəhram, Cahangir, bacıları Sara və Ziba başsız qaldı. Gənc Mahmud təhsil aldığından ailəni və təsərrüfatı idarə etmək yükü o biri qardaşlarının üzərinə düşdü.

Bu illərdə o, Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin müşahidəçisindən tədricən iştirakçısına çevrildi. Belə ki, o, Gəncədə yaranan "Yaşıl qvardiya"nın fəal üzvlərindən biri oldu.

M.Səfikürdiskinin istintaq işindən məlum olur ki, (tərkibində çoxlu gimnaziya tələbələrini birləşdirən "Yaşıl qvardiya" təşkilatının üzvləri) 1917-ci ilin sonu və 1918-ci ilin əvvəllərində Rusiyadan Azərbaycana göndərilən silah dolu qatarları tərk-silah etmək, Gəncədəki gərginliyi yatırmaq və əhalinin təhlükəsizliyini təmin etməklə məşğul olmuşlar. 1918-ci ildə Gəncə, Şamaxı və Qarabağda ermənilərin törətdiyi qırğınları da nəzərə alsaq onda qatarlardakı silahların kimə göndərildiyi və bu təşkilatın gördüyü işin böyüklüyü daha aydın şəkildə görünər.

Səfikürdiski bu məsələ ilə bağlı 1921-ci il yanvarın 12-də müstəntiqə verdiyi ifadəsində bildirmişdi:

"**Sual:** *1915-1919-cu illərdə siz harada və hansı vəzifələrdə çalışmısınız?*

**Cavab:** *1915-1916 və 1917-ci ilin mayına qədər Gəncə gimnaziyasında oxumuş, 17-ci ilin may-iyul aylarında rumın cəbhəsində olmuş, iyul ayından Gəncə quberniyasında anarxiya başlanana qədər təhsilimi davam etdirmişəm. Gəncə quberniyasında anarxiya başlandığına görə müsəlman əhalisi əziyyət çəkirdi. Buna görə də Gəncə əhalisi tərəfindən mühafizə olunmaq üçün "Yaşıl qvardiya" yaradılmışdı ki, o da əsasən tələbələrdən ibarət idi. Mən həmin təşkilatda sədr müavini idim. Bu vəzifədə mən xəstələnənə qədər, yəni 1918-ci ilin təxminən fevral ayınadək fəaliyyət göstərdim...".*[126]

M.Səfikürdiski 1919-cu ildə Gəncə gimnaziyasını bitirdikdən sonra ay yarım Gəncə dairə məhkəməsində müstəntiqliyə namizəd vəzifəsində işləmişdir. O, vaxt və zaman etibarilə az olan müddətdə hüquqşünaslığın bəzi məsələlərini öyrənə bilmişdir.

M.Səfikürdiski 1919-cu ildə gimnaziyanı bitirdikdən sonra da təhsilini davam etdirmək fikrindən çəkinməmiş, elə həmin il Bakı Dövlət Universitetinin tibb fakültəsinə daxil olmuşdur. Mahmud Səfikürdiskinin ailə vəziyyəti o qədər də yaxşı olmadığından təhsil almaqla yanaşı, həm də işləmək məcburiyyətində qalmışdı. Belə olduğu halda o, Azərbaycan dövlətçiliyinə xidmət etməyin mümkün ola biləcəyi bir iş yeri aramış və bu məqsədlə ƏMT-nin rəisi Nağı bəy

126 DTX-nin arxivi, M.Səfikürdiskinin istintaq qovluğu, № PR -1752.

Şeyxzamanova müraciət edərək həmin təşkilatda işə götürülməsini xahiş etmişdir. Fikrimizcə, Nağı bəy Mahmud Səfikürdiskini yaxından tanıdığından böyük etimad göstərmiş, Azərbaycan dövlətçiliyinin keşiyində dayanan bir təşkilatın rəis köməkçisi kimi mühüm bir vəzifəni ona tapşırmışdır. O da unudulmamalıdır ki, M.Səfikürdiski bolşevik idi və "Hümmət" təşkilatının təqdimatına əsasən işə götürülmüşdü.

1919-cu ilin noyabr ayından 1920-ci ilin əvvəllərinə qədər ƏMT-də rəis köməkçisi vəzifəsində çalışan M.Səfikürdiski bir sıra mühüm dövlət işləri ilə məşğul olmuşdur. Məlumdur ki, həmin illərdə bəzi xarici dövlətlər müstəqil Azərbaycanı məhv etməyə və öz təsiri altına salmağa səy göstərir, bu çirkin niyyətlərini həyata keçirmək məqsədi ilə müxtəlif təxribatlar törətməyə çalışırdılar. Bu işdə ermənilər daha fəal iştirak edirdilər. Bütün bunlardan xəbərdar olan Səfikürdiski də ermənilərlə mübarizə aparmış, onların təxribatlarının qarşısını almağa çalışmışdır. Bu faktdan istifadə edən ermənilər Səfikürdiskinin həbsi zamanı onun üzünə duraraq millətçilik etdiyini sübuta yetirməyə çalışmışdılar. Ermənilərdən biri ifadə verərək bildirmişdi ki, M.Səfikürdiski mənim qardaşımdan 300 min manat rüşvət istəmiş, lakin həmin məbləğ ödənilmədiyindən onu güllələtdirmişdir.[127]

İstintaq işində bu tipli böhtan və yalanlar az deyildir. Həmin uydurmalardan biri də 1920-ci il dekabrın 4-də Fövqəladə Komissiyanın sədri *(o, həmin vəzifədə 19.10.1920-ci ildən 19.02.1921-ci ilədək işləmişdir)* Eyyub Xanbudaqova göndərilən məxfi yarlıqlı sənəddir. Həmin sənəddə göstərilir ki, AXC dövründə M.Səfikürdiski əks-kəşfiyyat rəisinin köməkçisi olarkən təxminən 1922-ci il noyabrın 12-13-də əks-kəşfiyyatın rəisinin cangüdəni Allahqulu Tarverdi oğluna və Seyid Həsənova bir nəfər bolşeviki öldürmək tapşırığı vermişdir (maraqlıdır ki, məlumatı verən şəxs həmin bolşevikin adını bilmir). Tapşırığa əsasən həmin kommunist Bayıl türməsinə aparılmalı idi. Lakin onlar onu dəniz kənarında öldürərək meyiti ora atıb getmişdilər. Bunu etməkdə məqsəd o idi ki, guya həmin kommunisti bunlar deyil, kənar adamlar öldürüblər.

Fikrimizcə, bu böhtan və uydurmaları geniş şərh etməyə ehtiyac yoxdur.

---

127 Yenə orada

ƏMT-də işlədiyi zaman ermənilər və bolşeviklərlə apardığı mübarizəyə görə M.Səfikürdiski sovetləşmə dövründə hesabat verməli olmuşdur. Belə ki, Qızıl Ordunun Azərbaycanı işğal etməsindən sonra yaradılan Azərbaycan Fövqəladə Komissiyasında kadr çatışmadığından ƏMT-nin əməkdaşlarını və bəzi hümmətçiləri də işlə təmin etdilər. Belə əməkdaşlardan biri də ayda 5 min manat maaş verməklə işə götürülən Mahmud Səfikürdiski idi.

Bir müddətdən sonra, 9 noyabr 1920-ci ildə M.Səfikürdiskini işləmək üçün Gəncə qəzasına göndərirlər. Elə həmin gün onun barəsində Az. ÇK-ya bir raport daxil olur. Raportda göstərilirdi ki, M.Səfikürdiski "Müsavat" hökuməti dövründə ƏMT rəisinin köməkçisi işləmiş və Nikoloyevski küçəsində yerləşən fəhlə klubunu dağıtmış, kommunistlərə qarşı pis münasibətdə olmuşdur.

Göründüyü kimi, bolşeviklər hakimiyyəti ələ alandan dərhal sonra heç bir demokratik prinsipə əməl etmədən kommunist olmayanlara qarşı çox amansız olmuş, "Kommunist deyilsənsə, bu millətin düşmənisən" devizini əldə rəhbər tutaraq başqa partiyaya mənsub olanları *(hətta bitərəfləri, bir qədər sonra isə kommunistlərin özlərini)* müxtəlif vasitələrlə məhv etməyə çalışmışlar. Ona görə də insanların bir çoxu bolşevik təhlükəsindən yaxa qurtarmaq üçün bəzən yalan danışmaq məcburiyyətində qalmışdır. Kommunistləri incitməkdə ittiham olunan M.Səfikürdiski yazdığı izahatında bildirirdi ki, mən bolşevikləri incitməmişəm, əksinə həbs olunan kommunistlərə köməklik göstərmişəm. Mənim bu dediklərimi Qasım İsmayılov da təsdiq edə bilər. M.Səfikürdiskinin güvəndiyi və kömək umduğu Qasım İsmayılov isə 1920-ci il noyabrın 22-də verdiyi ifadəsində bildirmişdi ki, Səfikürdiski kommunistləri sevmir və onları həbs edirdi.

Bu araşdırmalardan sonra 1920-ci il noyabrın 22-də onun mənzilində axtarış aparmaq və həbs etmək barədə 1096 saylı order imzalanmışdı. Həmin orderə əsasən M.Səfikürdiskini 1920-ci il noyabrın 23-də Qubada həbs edib, tərtib olunan sənədlərlə birlikdə Bakı şəhərinə göndərmişdilər. Şahid sifəti ilə dindirilən Solomon Yakovleviç Qeftler 1920-ci il dekabrın 7-də verdiyi ifadəsində bildirmişdi ki, M.Səfikürdiskini 7-8 ildir - Gəncədə gimnaziyada

oxuduğu vaxtdan yaxşı və təmiz bir insan kimi tanıyır. Qeftlerin bu sözlərini ƏMT-də işlədiyi zaman evində kirayəçi kimi qaldığı Mariya İvanovna Melinin dediyi “Səfikürdiski gəzəyən və içən adam deyildi” fikri də təsdiq edir.

Qeyd etməliyik ki, bəzi şahidlər ifadələrində Səfikürdiskinin kommunistlərə münasibətinin pis olmadığını bildirsələr də, təəssüf ki, bir çoxları onun əksinə ifadə vermişlər. Şahid Aleksandr Jarikov 1920-ci il dekabrın 7-də verdiyi ifadəsində bildirmişdi ki, M.Səfikürdiski Kommunist Partiyasının və Vilayət Komitəsinin üzvü Çikaryova demişdir: **“Kommunistlər necə ki fəal deyildirlər, bizim onlarla işimiz yoxdur, lakin fəallaşsalar, onda biz də onlarla mübarizə aparacağıq”.**

Dindirilən şahidlərin ifadələrində gah kommunistləri incidən, gah da kömək edən kimi göstərilən M.Səfikürdiski barəsində 14 yanvar 1921-ci ildə qərar çıxarılmışdır ki, Səfikürdiski tutduğu vəzifəsində qala bilməz, onu işdən azad etmək lazımdır. Bu qərarı və Səfikürdiskilər nəslindən olan bir neçə nəfərin bolşevik təqibinə məruz qaldığını, güllələndiyini, eləcə də Sibirə sürgün edildiyini nəzərə alsaq, onda M.Səfikürdiskinin özünün də təmsil olunduğu bolşevizmin siması aydınlığı ilə görünər. Lakin bu məsələyə aydınlıq gətirə biləcək bir cəhətə xüsusilə fikir vermək lazımdır. Bu da ondan ibarətdir ki, Nağı bəy Şeyxzamanlının dediyi kimi, ƏMT-nin rəis köməkçisi “Hümmət” Partiyasından olmalı idi. Arxiv materiallarının, ifadələrinin təhlili və onun tərcümeyi-hal materialları göstərir ki, M.Səfikürdiski hansı partiyaya mənsub olmasından asılı olmayaraq, Azərbaycanın müstəqilliyinə xələl gətirə biləcək işlər görməmiş, əksinə müstəqilliyin qorunub-saxlanılması üçün əlindən gələni etmişdir. M.Səfikürdiskinin Azərbaycanın müstəqilliyinə və dövlətçiliyinə sədaqətini onun Nağı bəylə bərabər Türkiyədə keçirdiyi mühacirət həyatı da təsdiq edir.

İstintaq zamanı “cinayətləri” sübuta yetmədiyindən azadlığa buraxılan M.Səfikürdiskini bolşeviklər sonralar yenidən təqib etdiklərindən o da Türkiyəyə getmək məcburiyyətində qalmışdır.

Biz onun sonrakı taleyini öyrənmək üçün hazırda Amerikada yaşayan və Azərbaycanla əlaqəsini üzməyən Züleyxa Əsədullayeva *(Veber)* ilə görüşdük. O bildirdi ki, **“biz Türkiyədə yaşayarkən evimizə**

**gələnlər arasında Əksinqilabla Mübarizə Təşkilatının rəisi Nağı bəy Şeyxzamanov və rəis müavini Mahmud Səfikürdiski də var idi. Onlar yaxın dost idilər. Mahmud orada soyadını dəyişdirərək Safyurdlu etmişdi. Əslində, Səfikürdiski Safyurdun ruslaşmış variantı idi. Çox xeyirxah və alicənab insandır. Azərbaycanda olarkən Tamara adlı bir qadınla evlənmiş, ondan Mələk adlı bir qızı da olmuşdu. Lakin nədənsə sonralar ayrılmışdılar. Azərbaycanın sovetləşməsi zamanı Yuqoslaviyaya getmişdi** *(Azərbaycanda həbs olunub buraxıldıqdan sonra).* **Burada ticarət işləri ilə məşğul idi. Sonra Mahmud bəy mənim yaxın qohumum, hazırda böyük adada yaşayan Gülnar xanımla ailə qurdu. Onun Bilqeys və Leyla adlı iki qızı və Əli adlı bir oğlu var idi. Mahmud bəy hər üç övladının təhsil almasına nail olmuşdu. Onun oğlu Əli Safyurdlu Ümumdünya Bankında yüksək müşavirdir. Leylanın həyat yoldaşı Türkiyənin tanınmış arxitektorlarından biridir. Bilqeys xanım isə Amerikada yaşayır. Mahmud bəy 79 yaşında İstanbulda vəfat etmişdir**".

M.Səfikürdiski 1972-ci il iyul ayının 14-də İstanbulda, Böyük adada vəfat etmiş və ada qəbiristanlığında dəfn olunmuşdur.

### IV. 2. Əli Razi Şamçızadəyə qarşı ittihamlar

Keçən əsrin 20-ci illərindən Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri, Mirzə Ələkbər Sabirin davamçısı, mollanəsrəddinçi şair Əli Razi Şamçızadəni də tənqid hədəfinə çevirmişdilər. 1920-ci illərdəki kiçik tənqidləri və bir neçə dəfə həbs olunması, eləcə də ayrı-ayrı qəzet məqalələrini nəzərə almasaq, onun haqqında ilk və ən amansız xarakterli kampaniya 1937-ci il yanvar ayının 16-da Azərbaycan Sovet Yazıçılarının Kirovabad *(o zaman Gəncə belə adlanırdı)* filialının maarif şöbəsi və partiya üzvləri ilə birlikdə keçirdiyi fövqəladə yığıncaqda olmuşdur. Həmin yığıncaqda partiya komitəsinin katibi Petrosyan, bir nəfər həmkarlar ittifaqından, on səkkiz nəfər yazıçı və yeddi nəfər partiya üzvü iştirak etmişdir. Yığıncağın gündəliyində yalnız bir məsələ dururdu: "Əli Razinin müsavatçı kontrrevolyusioner işləri haqqında".[128]

128 DTX-nin arxivi, Ə.R. Şamçızadənin istintaq qovluğu, 1937-ci il № PR- 29861.

Gündəliyə yalnız bir məsələnin çıxarılmasından və məsələnin qoyuluşundan görünür ki, məqsəd Əli Razini ləkələmək, onu Azərbaycanın ictimai-siyasi səhnəsindən silmək olmuşdur. Aydınlıq üçün yığıncaq iştirakçılarının bəzilərinin çıxışlarına müraciət edək: **"...Əli Razi sovet yazıçılarına qarşı çox amansız olmuşdur. Onları qismən təşkilatdan uzaqlaşdıraraq qərəzçilik etmişdir. 4 yerdə işləyərək heç bir lazımi produksiya verə bilməmişdir. Özünü Azərbaycanının şairi Sabirə qarşı qoymuş, onun tərcümeyi-halını, yaradıcılığını təhriflərlə vermişdir"**.[129]

Ə.Razi haqqında deyilən bu sözlər iftira və böhtandan savayı bir şey deyildir. Ədəbiyyata az-çox bələd olanlar yaxşı bilirlər ki, Əli Razi Azərbaycan ədəbiyyatında özünəməxsus deyim və yozum tərzi ilə seçilən sənətkarlardandır. O ki qaldı özünü Sabirə qarşı qoymağa (*yəqin ki, burada Sabiri təqlid nəzərdə tutulur -* **C.Q.**), bu, bir həqiqətdir ki, mollanəsrəddinçi şairlər bir-birindən qarşılıqlı şəkildə faydalanmışlar. Bu təsirlənmə həmişə yaradıcı xarakter daşımış və həmin şəxslər təkcə ədəbi əlaqədə olmamış, eyni zamanda yaxından dostluq da etmişlər. Mərhum professor A.Zamanovun 1962-ci ildə çap etdirdiyi "Müasirləri Sabir haqqında" kitabının 184-cü səhifəsində Əli Razi Şamçızadənin Sabirlə ilk görüşü haqqında yazılır: **"...gülümsəyərək məni redaksiya heyətinə apardı və oturmaqda olan üç nəfərlə tanış etdi. Bunlardan biri Sabir, ikincisi Əliqulu Qəmküsar və üçüncüsü Qurbanəli Şərifov idi"**.

Göründüyü kimi, "Molla Nəsrəddin" jurnalı nəşrə başlayan ildən onlar birgə əməkdaşlıq etmiş və dostlaşmışlar. "Mola Nəsrəddin"in "müsəlman bacı və qardaşlarını, bütün müsəlman dünyasını oyatmaq, elm və ürfan sahibi etmək, dünyanın tərəqqi etmiş dövlətləri səviyyəsinə qaldırmaq" ideyası onların da məram və məqsədinə çevrilmişdi. Maraqlıdır ki, onlar milləti cəhalət yuxusundan ayıltmağa səy göstərərkən, bu mütərəqqi ideyalara mane olan, əngəl törədən adamların təqiblərinə məruz qalanda da "Molla Nəsrəddin"ə pənah aparmış, ondan bir sığınacaq kimi istifadə etmişlər. Ə.Razinin 1933-cü ildə "Hücum" jurnalında nəşr edilən məqaləsində oxuyuruq: "1907-ci ilin payızında hücumlar böyüdü, təhlükə artdı. Tiflisə qaçıb "Molla

129 Yenə orada

Nəsrəddin"ə pənahlanmağa məcbur oldum".[130]

Bu illərdə o, Sabirlə daha yaxından tanış olur, onların arasındakı dostluq və yaradıcılıq əlaqələri daha da genişlənir. Konkret olaraq təsirlənmək məsələsinə gəldikdə isə Əli Razi yazırdı ki, "mən Sabirin şirvanlılara yazdığı "Əşhədü bil-lahü Əliyül-əzim, Qayili-Quranam, a şirvanlılar!." misralarından təsirlənərək gəncəlilərə müraciətlə satira yazdım".[131] Budur, o özü də böyük satirik şair M.Ə.Sabirdən təsirləndiyini təsdiqləyir. M.Ə.Sabir də "Yuxu" adlı şeirini heyvərəyə (*"Heyvərə" Əli Razinin işlətdiyi gizli imzalardan biridir -* **C.Q.**) müraciətlə qələmə almışdır. Fikrimizcə, təsir məsələsini daha genişliyi ilə burada aydınlaşdırmağa ehtiyac duyulmur və bu, ayrıca bir tədqiqatın mövzusudur.



***Müttəhim Əli Razi Şamçızadə***

Yığıncaq iştirakçılarının demək olar ki, hamısı Əli Razi Şamçızadənin gənclərin inkişafına mane olduğuna, şovinistlik, millətçilik etdiyinə, yazıçılar və şairlər, eləcə də redaksiya ilə cəmiyyət arasında intriqa yaratdığına, gününü nərd-taxta oynamaqla keçirdiyinə, pul əsiri və vaxtilə molla olduğuna görə sinfi düşmən kimi ifşa olunmasını tələb edirdilər.

Natiqlərdən biri çıxış edərək deyirdi: "Ədəbiyyat və sənətdən xəbəri olmayan, böylə küt və düşmən Ə.Razi sıralarımızda qalmamalıdır".[132]

Qərəzlə deyilmiş bu sözlərə laqeyd qala və öz münasibətimizi bildirməyə bilmərik. Məlumdur ki, bu illərdə Əli Razinin özünün təbliğə ehtiyacı yox idi. O, çoxdan özünütəbliğdən özünütəsdiqə keçmişdi və Gəncə kimi böyük bir şəhərdə yazıçılar ordusuna başçılıq edirdi. Bu illərdə o, artıq bir neçə kitabın müəllifi idi və həmin kitablarda ideya-sənətkarlıq, ictimai-siyasi məndəricat baxımından

130 "Hücum" jurnalı. 1933, № 34.

131 Yenə orada

132 Ə.R.Şamçızadənin istintaq qovluğu, 1937-ci il , № PR-29861.

kifayət qədər bitkin poetik nümunələr vardı. Onun əsərlərinin böyük əksəriyyətinin əsas ideyasını və leytmotivini millətin ayılması, elm, ürfan sahibi olması təşkil edirdi:

*Ayıl, ey millət, əski zamanlar keçdi,*
*Millətin bəxtini cəhl ilə qazanlar keçdi,*
*Əsrimiz elm deyir, elmi dananlar keçdi,*
*Vəqtimiz həqq deyir, həqqi atanlar keçdi!*

Onun bir şair kimi şöhrət və nüfuzu XX əsrin əvvəllərində Azərbaycanın hüdudlarını aşaraq çox-çox uzaqlara gedib çıxmışdı. Fikrimizcə, bir faktla kifayətlənmək olar ki, Əli Razi 1908-1912-ci illərdə "Eşq və məhəbbət", "İslam qiraətxanası", "Yaman qardaş", "Nalələrim", "Fəğanlarım", eləcə də "Dabanıçatdaq xala" və "Heyvərə" adlı 6 kitab nəşr etdirmişdir. Bu da onun bir mollanəsrəddinçi şair kimi tanınmasına və sevilməsinə səbəb olmuşdur. Bu kitabların çoxu M.Ə.Sabirin sağlığında çap edilmiş və böyük Sabir həmin kitablara görə müəllifi alqışlamışdır.

Təsadüfü deyildir ki, "Molla Nəsrəddin" jurnalının redaktoru Cəlil Məmmədquluzadə jurnal Təbrizdə nəşr edilərkən Əli Razini aramış və onun satirik şeirlərini çap etmişdir. Cəlil Məmmədquluzadə kimi böyük bir şəxsiyyətin Əli Razinin şeirlərindən istifadə etməsi artıq onun bir sənətkar kimi yetişməsindən soraq verirdi. Bütün bunlar bir daha göstərir ki, Əli Razi "ədəbiyyat və sənətdən xəbəri olmayan böylə küt sənətkar" deyil, əksinə fars və Azərbaycan dillərini mükəmməl bilən, bu dillərdə lirik-satirik şeirlər yazan, sənətin sirlərinə yaxından bələd olan və onların gözəl nümunələrini yaradan görkəmli sənətkar olmuşdur. Belə bir sənətkarı "küt, yaxud da ədəbiyyat və sənətdən xəbəri olmayan" adlandırmaq ən azı nadanlıqdır.

Həmin iclasda çıxış edən həmkarlar ittifaqının nümayəndəsi demişdir: **"Ə.Razi şəxsi tənqidlə heç də maraqlanmayaraq onu həmişə boğmuşdur. Partiyadan istifadə etmişdir. O, heç bir rəhbərlik etməyərək bir çox hallarda partiya tarixi dərsini mollalara oxutmuşdur".**

Nəhayət, iclasda son sözü partiya komitəsinin katibi Petrosyan

söyləmişdir: *(təəssüf ki, siyasi repressiyalar zamanı Azərbaycanda ilk və son sözü çox vaxt ermənilər deyib)* **"Əksinqilabçı Əli Razinin partiyadan kənar olunması haqqında şəhər partiya komitəsinin qərarını təsvib etməliyik, eyni zamanda bu gündən vəzifədən rədd etməli, sovet yazıçıları sıralarından çıxarılması haqda ciddi iş aparmalıyıq. Onu maarif evi müdiriyyətindən bu gündən qovmalıyıq".** Yığıncaq yuxarıda deyilənləri nəzərə alaraq aşağıdakı qərarı qəbul etmişdir:

**"1919-cu ildən partiya üzvü Ə.Razi indiyə kimi özünün murdar surətini partiyadan gizlətmiş, ikiüzlülük edərək öz əksinqilabçı müsavatçılığını pərdələmiş, partiya və sovet hökumətinə düşmən olduğu halda bir sıra məsul vəzifələrdə işləmişdir. Ə.Razinin indiyə qədər ifşa olunmaması onun çalışdığı kültür cəbhədə bizim kafi qədər sayıq olmadığımızı göstərir. Ə.Razi bu sayqısızlıqdan istifadə edərək düşmən fəaliyyətini davam etdirmiş, Azərbaycanın böyük şairi Sabirin 25 illiyini şüurlu surətdə pozmuşdur. Dörd yerdə işləməklə qənimətçilik etmişdir. Ə.Razi apardığı vəzifələrinin heç birinin öhdəsindən gələ bilməmiş, xüsusən yaradıcılıq işi tələb edən Azərbaycan Sovet Yazıçılarının Kirovabad filialının işlərini dözülməz vəziyyətə salmışdır.**

**Ə.Razi küçə söhbətləri ilə məşğul olaraq gənc yazıçıları təşkilatdan uzaqlaşdırmışdır. Bütün bu faktar haqqında maarif şöbə və partiya üzvləri ilə birlikdə keçirilən partiya iclası qərara alır:**

1. **Şəhər partiya komitəsi Ə.Razinin partiyadan çıxarılması haqqındakı qərarını təqdir və təsvib etmək.**
2. **Ə.Razinin Sovet Yazıçıları İttifaqından çıxarılması məsələsini Azərbaycan Sovet Yazıçıları İttifaqının qarşısında qoymaq.**
3. **Ə.Razinin filial katibliyindən götürülməsini şəhər partiya komitəsindən xahiş etmək.**
4. **Filialın idarə heyətinin yenidən seçilməsini lazım bilmək.**
5. **Yanvarın 12-də şəhər yazıçılarının ümumi iclasını çağırmağı Cəfər Bağır yoldaşa tapşırmaq.**
6. **Filialın işlərini gücləndirmək, yazıçıları səfərbərliyə almaq,**

**yaradıcılıq işlərini günün tələbləri səviyyəsinə qaldırmaq məqsədilə bu işlərin öhdəsindən gələ bilən bir adamın ezam edilməsini şəhər partiya komitəsinin qarşısında qoymaq.**

7. **Filial üçün yararlı bina ayrılmasını şəhər sovetindən xahiş etmək məsələlərini qaldırır.**
8. **Kirovabad filialı maskalanmış düşmən Ə.Razinin ifşasından dərs alacaq, bu mühüm sahədə öz bolşevik sayıqlığını artıracaq, yazıçıları Stalin epoxasının böyük vəzifələri ətrafında toplayacaq və bununla partiya və hökumətimizin, şəxsən ulu Stalinin qayğısını doğruldacaqdır".**

Araşdırmalar göstərir ki, yığıncağın yanvarın 16-da keçirilməsinə baxmayaraq, Ə.R.Şamçızadə 1937-ci il yanvarın 2-də partiya sıralarından çıxarılmışdır. 1937-ci il yanvarın 6-da Kirovabad şəhər komitəsi bürosuna, 1937-ci il yanvarın 8-də isə şəhər komitəsi bürosunun məsul katibi Mustafayevaya yazdığı ərizəsində o, *(özünün iştirakı olmadan - həmin vaxt Şamçızadə həbs edilmişdi -* **C.Q.***)* keçirilən iclasda partiyadan çıxarılmasının əsas səbəbini Petrosyanla olan şəxsi münasibətlərində görmüşdü.

Beləliklə, Şamçızadə Əli Razi Azərbaycan Sovet Yazıçıları və partiya sıralarından kənarlaşdırıldı. Bu qərar çox kiçik bir auditoriyada qəbul olunmuşdu və Şamçızadəni tamamilə məhv etmək üçün, görünür, bunlar kifayət deyildi. Ona görə də ikinci addımı atmalı, çıxışlarda səsləndiyi kimi "onu tamamilə ifşa etməli idilər". Yuxarıların diktəsi ilə Kirovabadda çıxan "Kirovabad bolşeviki" qəzetinin 1937-ci il 19 fevral tarixli 42(1624)-ci sayında "düşmən axıradək ifşa edilməlidir" adlı məqalə çap edildi və həmin məqalədə iclasda səslənən məsələlər bir az genişliyi ilə öz əksini tapdı: "**Düşmən maskalanmışdır. O, əlaltı hərəkət edir. O, müxtəlif yollarla partiya və hökumət siyasəti əleyhinə çıxır. O, öz murdar sifətini gizlətməyi bacarır. Budur, Kirovabad kombinatında, dəmir yolunda və MTS-də kontrevalisyon, trostskiçi ünsürlərin ifşası ilə bərabər, kültür cəbhədə çalışaraq öz murdar sifətini maskalamış Əli Razi kibiləri dəxi ifşa edilmişdir. Bu alçaq düşmən mollalıqdan başlamış dəllallığa qədər enmiş, özünün "Müsavat" xəfiyyəçisi olduğunu partiyadan gizlətmiş, partiya**

**üzvü kimi şərəfli bir ad altında gizlənərək düşmən ideolojisini yürütmüşdür. Əli Razi son zamanlar Azərbaycan Sovet Yazıçılarının Kirovabad filialının katibi idi. O, burada özünün bütün düşmən fikirlərini yürütməyə var qüvvəsi ilə çalışmışdır. Təşkilatın bütün yaradıcılıq işləri unudularaq iş dedi-qoduya, küçə söhbətinə çevrilmişdir. Bu "Müsavat" xəfiyyəsi, qara müsavatın bu yaramaz bayquşu, gənc kadrların yetişməsinə, inkişaf etməsinə böyük zərbə endirmişdir. O, gənc və talantlı yazıçıları təşkilatdan uzaqlaşdırmış, ümid verən yazıçılardan Əhməd Cəmili, Zeynal Xəlili və başqalarını nüfuzdan salmış, onların yaradıcılıq inkişafına imkan verməmişdir".**[133]

Maraqlıdır ki, iclasda çıxış edənlərin və diktə ilə məqalə yazanların bir çoxu da "sədaqətinə inandığı bir ölkənin" vətən xaininə çevrilərək həbs və sürgünlərə məhkum edilmişdir.

Məlumdur ki, Əli Razi sovet hakimiyyəti illərində cəmi 1 kitab çap etdirmişdir. Haqqında danışdığımız böhtan dolu cızmaqarada bu kitabı da ona çox görür və kitabın çıxmasına köməklik göstərən Ə.Triniçi də ittiham edirdilər: "Azərnəşr" özünün keçmiş düşmən rəhbəri Ə.Triniçin simasında Ə.Razinin "Dabanıçatdaq xala" kitabını buraxmışdır. Tənqid bu kitaba qarşı susmuşdur. Ə.Razi 1930-cu ildə yazdığı şeirlərinin altına 1900-1915-ci illərin tarixini qoyaraq çapa vermiş, Ə.Triniçin rəhbərlik etdiyi Azərnəşr isə bu yalan kitabın buraxılmasına razı olmuşdur".[134]

Müəlliflərdən biri "Ədəbiyyatda bolşevizm" adlı məqaləsində[135] bir az da "qabağa gedərək" yazırdı: **"Əli Razi** *(həqiqətdə isə Molla Əli)* **1919-cu ildə kontrazvedkada çalışmış, vaxtilə müsavat orqanı "Azərbaycan" qəzetində daimi müxbirlik etmiş, kontrazvedkanın naçalniki Şeyxzamanovun ən yaxını, dostu, məşvərətçisi olub, Azərbaycan xalqını soymaq işində milli qırğını qızışdırmaqla bu murdar quldurlara, müsavat juliklərinə vaizlik etmişdir. Bu düşkün və xalq düşməni yazıçı maskası altında xeyli müddət Yazıçılar İttifaqının Kirovabad filialına rəhbərlik etməyə müvəffəq olmuşdur"**.

133 Düşmən axıradək ifşa edilməlidir. // "Kirovabad bilşeviki" qəzeti, 1937, 19 fevral, № 42 (1624)

134 Yenə orada

135 "Kommunist" qəzeti, 17 mart 1937-ci il, № 64.

Bunlar Şamçızadəni məhv etmək üçün hazırlıq rolunu oynayırdı və bu Xalq Daxili İşlər Komissarlığının *(NKVD)* əsas məhvetmə üsullarından biri idi. Əli Razi Şamçızadə AXC dövründə müsavat əks-kəşfiyyatındakı xidmətlərini Azərbaycan K(b)P-nin sıralarına keçərkən gizlətdiyinə görə Azərbaycan SSR Cinayət Məcəlləsinin (CM) 75-ci maddəsi ilə təqsirkar bilinərək, 1937-ci il yanvarın 2-də imzalanan 67 saylı orderə əsasən, Kirovabad şəhərində həbs edildi. Bu, onun Azərbaycanın sovetləşməsindən sonra ilk həbsi idi və istintaq işindəki sənədlərdən məlum olur ki, o, sovetləşmədən əvvəl də iki dəfə (1906-cı ildə İran inqilabında iştirakına və 1914-cü ildə müharibə əleyhinə yazdığı şeirlərə görə) həbs olunaraq sürgün olunmuşdur.

Maraqlıdır ki, Ə.R.Şamçızadə iki dəfə də 1920-ci illərdə həbs edilmişdi. O, həbsxanada olarkən həyat yoldaşı Zümrüd Şamçızadə M.C.Bağırova məktub yazaraq ərinin həbsxanadan azad olunmasını xahiş etsə də, onun məktubdan görünən göz yaşlarına əhəmiyyət verən tapılmamışdı.

1937-ci il yanvarın 2-si, 13-ü və fevralın 2-də dindirilərkən müstəntiq Ə.R.Şamçızadəni daha çox ƏMT-dəki xidmətlərini kommunist partiyasına keçərkən gizlətdiyinə görə ittiham etmişdi. Müstəntiqin bu məsələ ilə əlaqədar olaraq verdiyi suallara cavabında o bildirmişdi ki, mən partiyadan "Müsavat" əks-kəşfiyyatındakı xidmətimi danmamış və kommunist partiyasının sıralarına daxil olarkən ƏMT-də xidmət etdiyimi partiyadan gizlətməmişəm.[136] Bundan sonra gətirilmiş sitatlar Şamçızadənin bu istintaq işindən götürülmüşdür.

Doğrudan da, o, həmin təşkilatda iştirakını gizlətməmişdir. Sənədlərdən məlum olur ki, Əli Razi Şamçızadə 1919-cu ilin yanvar ayında İranın Qəzvin şəhərindən *(o, Qəzvinə 1918-ci ilin mayında getmiş və bir müddət orada işləmişdir -* **C.Q.**) Bakıya qayıtmış və Xalq Təhsil Nazirliyinə dəfələrlə müraciət etməsinə baxmayaraq, ona ixtisasına uyğun iş verməmişlər. Təxminən 4 ay işsiz qalan Şamçızadə qohumu Nağı bəy Şeyxzamanova müraciət edir. Yeni yaranan təşkilatın (ƏMT) milli kadrlara böyük ehtiyacı olduğundan 1919-cu ildən onu həmin təşkilata kargüzar köməkçisi vəzifəsinə qəbul edirlər. O, kargüzarlıq

136 DTX-nin arxivi, Ə.R.Şamçızadənin istintaq qovluğu, 1937-ci il, № PR-291861.

işləri ilə məşğul olmaqla bərabər, həm də bir neçə uğurlu əməliyyatda da iştirak etmişdir. O zaman Ə.R.Şamçızadə Nağı bəy Şeyxzamanov, Mahmud Səfikürdiski, Məmməd Hacıyev, Miraslan Ağalarov, Mirzağa Nəsirov, Süleyman Bağırov, Ağəli Sadıqov, Ağəli Zeynalabdınzadə, Rza Fəttahov və başqaları ilə birikdə bolşeviklərə, denikinçilərə qarşı mübarizə apararaq AXC-nin müstəqiliyini müdafiə etmişdir.

Ə.R.Şamçızadə 1937-ci il yanvarın 2-də verdiyi ifadəsində bildirmişdi ki, 1920-ci ildə həmin təşkilat dağıdıldı. ƏMT dağıldıqdan sonra çoxumuzu işdən çıxartdılar. Yeri gəlmişkən qeyd edək ki, həmin təşkilatın bir neçə əməkdaşı Azərbaycan FK-da işlə təmin edilmiş və sonradan repressiyaya məruz qalmışdır. İşdən çxarıldıqdan sonra Ə.R.Şamçızadə bir müddət işsiz qalmışdır. Şairin tədqiqatçılarından filologiya elmləri doktoru İslam Ağayevin 1992-ci ildə tərtib etdiyi "Nalələrim, fəğanlarım" kitabına yazdığı müqəddimədə *(səh. 16)* oxuyuruq: **"Ə.Razi 1917-ci ilin ortalarında Gəncəyə dönür** *(Dağıstandan* **- C.Q.), ta 1920-ci ilin may ayına kimi orada yaşayır".**

Bu gün şairin həmin tarixdən sonrakı həyatını geniş aça bilən nə bir dövri məlumat, nə bir xatirə, nə də ki arxiv sənədi əldə etmək mümkün olmadığı bir vaxtda ancaq iki kiçicik faktın üzərində durmaq lazım gəlir. Əvvəla, Şamçızadə **"1917-ci ilin ortlarından 1920-ci ilin may ayına kimi Gəncədə yaşamamışdır".** İstintaq işində qorunub saxlanılan, 1936-cı il avqustun 3-də doldurulan anketdə göstərilir ki, o, 1918-ci ilin may ayında Dağıstanın Petrovski vilayətinə qayıtmış, İranın Qəzvin şəhərində yaşayan qohumunun yanına gedərək 1919-cu ilin yanvarına qədər orada işləmişdir. Yanvar ayında Bakı şəhərinə gəlmiş və 4 ay işsiz qaldıqdan sonra 1919-cu ilin sentyabrından 1919-cu ilin dekabrına qədər Bakı şəhərində ƏMT-də kargüzar köməkçisi, bir qədər sonra isə rəisi vəzifəsində çalışmışdır.

İkincisi isə Şamçızadənin həyatının 20-ci ildən sonrakı dövrü deyil, ondan əvvəlki dövrü də az öyrənilmişdir.

Ə.Razinin 1937-ci il yanvarın 13-də verdiyi ifadəsindən aydın olur ki, o, 1920-ci ildə Azərbaycan İnqilabi Hərbi Şurasının "İzvestiya" qəzeti redaksiyasında işləməyə başlamış və orada "Aşıq dambılı" imzası ilə "Eşqim qopanda" başlıqlı felyetonlar yazaraq çap etdirmişdir.

1920-ci ildə Ədalət Partiyasının tapşırığı ilə Tehrana gedən

Şamçızadə 1922-ci ilin iyun ayında Gəncəyə qayıtmış və 1925-ci ilə kimi orada partiya komitəsində çalışmışdır.

O, 1925-ci ildən 1927-ci ilə kimi Gəncə Pedaqoji Texnikumunda müəllim işləmiş və gənc nəslin maariflənməsi istiqamətində bir sıra işlər görmüşdür. 1929-cu ildə bir müddət Gəncədəki Mərkəzi Kitabxananın müdiri işlədikdən sonra Bakı şəhərinə gələrək qəzet redaksiyasında (1929-1931-ci illərdə) təlimatçı vəzifəsində çalışmışdır. 1931-ci ildə Lənkəranda qəzet redaktoru, sonrakı illərdə isə müxtəlif yerlərdə maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmişdir. Belə ki, 1932-ci ildə Şuşada Xalq təhsili şöbəsində, 1935-ci ildə isə "Kirovabad bolşeviki" qəzetində işləmişdir.

İlk həbsi zamanı müstəntiqin Şamçızadəni ittiham etdiyi əsas məsələlərdən biri də onun Şah Abbas məscidində dini təhsil alması, lakin molla işləməməsidir.

Bir neçə ay XDİK-in Kirovabaddakı həbsxanasında saxlanıldıqdan sonra 1937-ci il martın 2-də belə bir qərar qəbul edildi ki, Azərbaycan SSR CM-in 75-ci maddəsi ilə ittiham edilən Şamçızadə Əli Razinin əməllərində cinayət tərkibi olmadığından o, həbsdən azad edilsin. Beləliklə, 1937-ci il martın 7-də imzalanan 50 nömrəli azadetmə talonuna əsasən Ə.R.Şamçızadə mart ayının 10-da həbsxanadan azad edilmişdir.

Üstündən bir neçə ay keçdikdən sonra XDİK rəhbərliyi Şamçızadəni azad etdiyinə görə sanki peşiman olmuş və tabeliyindəki buyruq qullarına onun haqqında ciddi ölçü götürülməsi barədə tapşırıq vermişdir. 1937-ci il iyulun 29-da əməliyyat müvəkkili Azərbaycan SSR XDİK-in Kirovabad şəhər şöbəsinin DT serjantı Lixaçov onun barəsində aşağıdakı məzmunda bir qərardad hazırlamışdır: "**Vətəndaş Şamçızadə Əli Razi Yahya oğlu Azərbaycan SSR CM-in 72-ci maddəsi ilə istintaqa cəlb edilsin. İstintaqdan və məhkəmədən yayınmaması üçün həbs edilsin və Azərbaycan XDİK-in Kirovabad şəhərindəki həbsxanasında keşikçi nəzarəti altında saxlanılsın**" *(29 iyul 1937-ci ildə Kirovabad şəhər şöbəsinin rəisi Qamrelekeli tərəfindən təsdiq edilən bu qərar 30.07.1937-ci ildə Şamçızadəyə elan olunmuşdur).* Elə həmin gün *(29.07.1937)* Əli Razi Şamçızadənin evində axtarış aparılması və

həbs edilməsi üçün 155 nömrəli order imzalanmış və Şamçızadə həbs edilmişdi. Onun həbsindən sonra 80 yaşlı anası Məsmə Əlibaba qızı, 16 yaşlı oğlu Nadir, 3 yaşlı oğlu Ayaz və yoldaşı Zümrüd Şamçızadə başsız qalmışdı.

Yeri gəlmişkən qeyd edək ki, şairin həyat yoldaşı Şamçızadə də Xalq Daxili İşlər Komissarlığının əməkdaşları tərəfindən həbs edilərək 3 il müddətinə azadlıqdan məhrum edilmişdir. *(Bu barədə "Sərhəd" qəzetinin 10-u və 17-si avqust 1995-ci il tarixli, 15 (121);16 122) saylarında bu sətirlərin müəllifi tərəfindən geniş məlumat verilmişdir).*

XDİK əməkdaşları axtarış zamanı Ə.R.Şamçızadənin evində olan bir çox qiymətli əlyazma və kitabları da götürmüşdülər. Sənədlərdə göstərilir ki, Şamçızadə Əli Razidən götürülmüş əlyazmalar əksinqilabi millətçi ideyalar təbliğ etdiyinə görə əşyayi-dəlil kimi 6542 nömrəli istintaq işinə daxil edilsin. Çox təəssüf ki, həmin əlyazmalar və kitablar barədə istintaq işində heç bir məlumat yoxdur.

Şamçızadə ilə ilk dindirmə 1937-ci il iyulun 29-da aparılmışdı. Müstəntiq onun əksinqilabçı olduğunu təkidlə iddia etməsinə baxmayaraq, o, özünün əksinqilabi millətçi təşkilatının üzvü olmadığını bildirmişdi.

1937-ci il avqustun 2-də aparılan ikinci dindirmə zamanı isə artıq onun yaradıcılığında Stalinlə bağlı məsələlərə toxunur və sübut etməyə çalışırdılar ki, o, Stalinin psevdonimi olan "Koba" sözünü işlətməklə "ellər atasını" ələ salmış və beləliklə də, əksinqilabi millətçi işə qoşulmuşdur:

**Sual:** *Siz yoldaş Stalinlə bağlı 1936-cı ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunda (AKTİ) oxuduğunuz şeiri nə zaman yazmısınız?*

**Cavab:** *Heç bir gecədə, heç bir AKTİ-də, yoldaş Stalinlə əlaqəsi olan şeirlə çıxış etməmişəm. Mən maarif işçilərinin evində AKTİ-nin tələbəsi Şirzad Əliyevə demişəm ki, "mən Şamçızadə özümün şəxsi köhnə şeirlərimin birində "Koba" və ya "Kuba" sözü tapmışam, lakin həmin şeirin kimə həsr edildiyini xatırlamıram. Bu şeir imperialist müharibəsindən, yəni 1914-cü ildən əvvəl yazılmışdır. Onlardan biri, bilmirəm Şirzad Əliyev, ya Cəfər Bağır "Bolşevik Kirovabadı" redaksiyasında dedi ki, "Koba" sözü yoldaş Stalinin psevdonomidir. Mən bunu heç vaxt bilmirdim ki, yoldaş Stalinin gizli "Koba" təxəllüsü vardır, heç indi də bilmirəm.*

**Sual:** *Daha sonra quraşdırdığınız şeiri harada demisiniz və ya oxumusunuz?*

**Cavab:** *Heç harada mən oxumamışam və deməmişəm.*

**Sual:** *"Koba" və ya "Kuba" sözü necə yazılır onu göstərin. Hazırda o şeir hardadır və kimə həsr edilmişdir?*

**Cavab:** *Şeirdə həmin söz belə yazılmışdır (istintaq işində "Koba" sözü əski əlifba ilə Şamçızadənin dəsti-xətti ilə yazılıb göstərilmiş və imza ilə təsdiq edilmişdir -* **C.Q.**). *Həqiqətən onun kimə ithaf edildiyini bilmirəm və harada olduğunu xatırlamıram".*

Dindirmə zamanı da Əli Razi əksinqilabi millətçi təşkilatla əlaqəsini boynuna almır. Bu isə onun vəziyyətini daha da ağırlaşdırırdı. XDİK əməkdaşları Şamçızadəni ifşa etmək üçün müxtəlif şahidlərdən ifadə alır və onun özünü qohumları və dostları ilə üzləşdirir, əksinqilabi millətçi fəaliyyətdə olduğunu boynuna qoymağa çalışırdılar.

Bəzi şahidlər verdiyi ifadələrində onun həqiqətən millətçi olduğunu qeyd etsələr də, o, bunları rədd edir, heç bir əksinqilabi millətçi işlə məşğul olmadığını bildirirdi. Şahidlərdən biri 11.08.1937-ci ildə verdiyi ifadəsində Əli Razini erməniləri sıxışdırdığına və Yazıçılar İttifaqının Kirovabad filialında onlara qayğı ilə yanaşmadığına görə, başqa sözlə, millətçilikdə ittiham edirdi:

**Sual:** *Əli Razi Şamçızadənin Yazıçılar İttifaqının rəhbəri işlədiyi zaman millətçi baxışlarını hiss edirdinizmi?*

**Cavab:** *Bu suala mən belə cavab verə bilərəm ki, Əli Razinin Yazıçılar İttifaqına rəhbərliyi dövründə Kirovabad şəhərində çoxlu gənc erməni olmasına baxmayaraq, bizim ittifaqda yalnız bir erməni var idi. Əli Razi erməni yazıçıları ilə heç vaxt maraqlanmırdı və onların hazırlanması barədə məsələ qaldırmırdı. Lakin Əli Razi Yazıçılar İttifaqından gedəndən sonra onlarla erməni gənci ittifaqa daxil oldu".*

Bu idi Azərbaycan ziyalısının düşdüyü vəziyyət. Özündən öncə özgəni sevmə dərsini keçirdilər onlara. Azərbaycan ziyalısı o günə salınmışdı ki, Yazıçılar İttifaqında say etibarilə özündən çox ermənini görmək istəyirdi. Ona görə də Şamçızadənin atmadığı bu addımları millətçi baxış kimi pisləyirdilər. Hansı ki, həmin illərdə ermənilər bütün sahələr üzrə müxtəlif vəzifələrdə, xüsusilə də hüquq-mühafizə orqanlarında kifayət qədər yerləşdirilmişdi və çörəyini yediyi

azərbaycanlıları kütləvi surətdə məhv edirdilər. Təsadüfi deyildir ki, M.C.Bağırov da vaxtilə ermənilərə inandığını, Azərbaycan xalqının taleyini onlara etibar etdiyini gec də olsa etiraf edirdi: **"Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan və onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşev, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam. Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır".**[137]

XDİK əməkdaşları fiziki güc işlətməklə bir neçə şahidi onun əksinqilabi millətçi təşkilatda fəaliyyəti ilə bağlı ifadə verməyə məcbur etdilər. Əli Razi özünü müqəssir bilməsə də, şahidlərin verdiyi ifadələrlə kifayətlənən XDİK Kirovabad şəhər şöbəsinin əməliyyat müvəkkili DT serjantı 1937-ci il noyabrın 10-da belə bir qərar hazırladı. Qərar Kirovabad şəhər şöbəsinin rəisi Qamrekeli ilə razılaşdırıldı:

1. ***Behbudov Musa Abasqulu oğlu***
2. ***Məmmədov Qara Haqverdi oğlu***
3. ***Babayev Məmməd Əhməd oğlu***
4. ***Mir Cəfər Mir Abdülhəsən Mir Məmməd oğlu***
5. ***Şamçızadə Əli Razi Yəhya oğlu***
6. ***İsmayılov Məmməd Hüseyn oğlu***
7. ***Abramov Nikolay Yakovleviç***
8. ***Məmmədzadə Əyyub Məmmədəli oğlu.***

Xüsusi konvoyla Bakı şəhərinə Azərbaycan SSR XDİK-in sərəncamına göndərildi. Beləliklə, adları çəkilən şəxslər Gəncə şəhərindən Bakıya gətirildi.

Ə.R.Şamçızadə burjua-millətçi təşkilatın üzvü olduğunu boynuna almadığından istintaq zamanı bu məsələyə yenidən qayıtdılar. Gəncədən Bakı şəhərinə gətirilmiş Şamçızadə 1937-ci il noyabrın 13-də verdiyi ifadəsində yenə də əksinqilabi millətçi təşkilatın üzvü olmadığını bildirdi:

"**Sual**: *İstintaqa məlumdur ki, siz Kirovabad şəhərindəki əksinqilabi*

137 Mir Cəfər Bağırovun məhkəməsi. Bakı,1993, s.115.

*millətçi, üsyançı təşkilatın üzvüsünüz. Bunu boynunuza alırsınızmı?*

**Cavab:** *Xeyr, boynuma almıram. Mən əksinqilabi millətçi, üsyançı təşkilatın üzvü olmamışam.*

**Sual:** *Siz həqiqəti demirsiniz. İstintaqa dəqiq məlumdur ki, Siz əksinqilabi millətçi, üsyançı təşkilata daxilsiniz. İstintaq sizdən tələb edir ki, düzgün ifadə verəsiniz.*

**Cavab:** *Təkrar edirəm, mən – Əli Razi Şamçızadə əksinqilabi millətçi, üsyançı təşkilata daxil olmamışam.*

**Sual:** *Həqiqəti inkar etməklə siz istintaqı azdırmağa çalışırsınız. İstintaq sizə təklif edir ki, inadınızdan əl çəkib düzgün ifadə verəsiniz.*

**Cavab:** *Mən həqiqəti deyirəm. Mən əksinqilabi millətçi, üsyançı təşkilatın üzvü olmamışam və bu əksinqilabi təşkilatın fəaliyyəti barədə heç nə bilmirəm.*

**Sual:** *Sizi necə bir əksinqilabi millətçi, üsyançı təşkilatın üzvü kimi öz həmfikirləriniz ifşa edir. Nə üçün siz inad edirsiniz?*

**Cavab:** *Bir daha təkrar edirəm, mən əksinqilabi millətçi, üsyançı təşkilatın üzvü olmamışam.* İmza".

Bu dindirmədən düz on gün sonra Əli Razini yenidən sorğu-suala tutdular. Həmişə olduğu kimi yenə də müstəntiq onun əksinqilabi millətçi təşkilatda iştirakını təkidlə soruşurdu. Bu dindirmə zamanı o özünün əksinqilabi millətçi təşkilatda iştirakını boynuna aldı. Bundan sonra Əli Razi bir neçə dəfə dindirildi və nəhayət, Bakı şəhərində 1937-ci il noyabrın 29-da istintaqın başa çatdığı Şamçızadəyə elan olundu. O, istintaqa əlavə heç nə deməyəcəyini bildirdi.

Beləliklə, Şamçızadənin işi SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyasının sərəncamına göndərildi.

Əli Razi Şamçızadənin işi üzrə Bakı şəhərində yanvar ayının 5-də hazırlıq iclası keçirildi. Hazırlıq iclasında qərara alındı ki, Şamçızadə Əli Razi Yəhya oğlu Azərbaycan SSR CM-in 64, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilsin, işinə şahidsiz, ittihamçısız və müdafiəçisiz bağlı məhkəmə iclasında baxılsın.

1938-ci il yanvarın 7-də, Bakı şəhərində, sədr İ.T.Nikitçenko, üzvlər V.İ.İyevlov və P.E.İşenko, katib L.H.Kuduryavçev olmaqla SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının Səyyar Sessiyası ilə bağlı iclası öz

işinə başladı. İclas saat 20.20-də başlamış, 20.40-da öz işini bitmiş hesab etmişdir.

Bağlı məhkəmə iclasında onu ən ağır cəzaya - güllələnməyə məhkum etmişdilər. Hökmün icrası yanvar ayının 8-nə keçən gecə həyata keçirilmişdi. (Bu haqda işdə arayış vardır).

1938-ci ildə güllələnməsinə baxmayaraq, onun ailə üzvləri şairin harada olması barədə uzun müddət məlumat əldə edə bilməmişdilər. Azərbaycan SSR prokurorunun müavini Hacıyevə Kirovabad şəhəri Qasım İsmayılov küçəsi 8 nömrəli evdə yaşayan Musayev Ayaz Əli oğlu tərəfindən yazılmış ərizədə biz bunun bir daha şahidi oluruq:

***Ərizə***

**Bununla yazıb məlum edirəm ki, Sizin 30 iyul 1956-cı il tarixli 10/1150-56 saylı cavab təliqənizi aldım.**

**Mən atamın kim olması haqqında azca da olsa sizə məlumat vermişəm. Məncə, o, bütün həyatını və yaradıcılığını məzlum xalqların azadlığa çıxmasına və bütün millətlərin xoşbəxt və dinc, bir-biri ilə mehriban yaşaması uğrundakı mübarizəyə - bir sözlə, sovet hökumətinin qurulmasına və sosializm qalasının möhkəmləndirilməsinə qurban vermişdir. Mənə məlum olduğuna görə atamın familiyası Şamçızadə, adı Əli, atasının adı Yəhyadır. 1888-ci ildə Kirovabad şəhərində yoxsul bir sənətkar ailəsində anadan olmuşdur...**

**Atam 1937-ci ildə Azərbaycan SSR Kirovabad DİH-in orqanı tərəfindən tutulmuşdur. Həbs olunan zaman yazmış olduğu bir neçə əsərini və Zaqafqaziya inqilabçılarının ona yazmış olduğu məktubları** *(Hansı ki, bir çox tarixi məlumat əldə etmək olar)* **orqan işçiləri tərəfindən aparılmışdır. İndi yalnız: 1. "Tarixi Nadir", 2. "Nabi külliyyatı", 3. "Hafiz Şirazi", 4. "Şəmsül Həqaiq" (iki cilddən ibarət qəzəlləri), 5. "Məsnəvi Cəlaləddin", 6. "Ataşkədə təzkirəsi", 7. "Mərifətnamə" və 2 cild dini əsər qalmışdır.**

**Həbs olunan zaman atam Azərbaycan Sovet Yazıçıları İttifaqının Kirovabad şöbəsinin məsul katibi və Kirovabad Müəllimlər Evinin müdiri vəzifəsində işləmişdir. Eyni zamanda**

**"Kommunist" qəzetində "Unudulmuş" təxəllüsü ilə əsərlər çap etmişdir.**

**Yoldaş Hacıyev, atam həbs olunan zaman mən 2 yaşlı uşaq olmuşam. Bir çox məlumatlardan xəbərdar deyiləm. Mən artıq 3 ildir ki, orta məktəbi bitirmişəm. Kiçik qardaşım isə keçən il bitirib. Biz özümüzə tərcümeyi-hal yaza bilmirik. Daha doğrusu, yaza bilmirik ki, bizim atamız kim olub. Bəlkə, bu məsələ barəsində bizə köməklik edəsiniz.**

**Yoldaş Hacıyev, bizim atamız öz həyatını gələcək nəslin xoşbəxtliyi uğrundakı mübarizədən əsirgəməmişdir. Bəs biz nə üçün ali təhsildən məhrum olaq? Öz atasının kimliyini bilməyən bir insan həyatda necə yaşamaq lazım olduğunu bilərmi?**

**Mən Sizdən xahiş edirəm ki, biz iki gəncin gələcək taleyini nəzərə alıb artıq öz həyatını tamamlamaqda olan ağsaçlı qoca anamın dırnaqları ilə yer eşə-eşə, iki atasız uşaq saxlayıb böyüdərək orta təhsili tamamlatdığı uşaqlarının "Bəs bizim atamız kimdir?" sualına cavab verməsinə kömək etmək üçün "Molla Məsrəddin" jurnalının səhifələrini, Azərbaycan Sovet Yazıçıları İttifaqının arxivini və MK-nın arxivini vərəqləyəsiniz.**

**Yoldaş Hacıyev, Siz mənə cavab verirsiniz ki, sizin atanız həbs olunmayıb. Mən də Sizə belə bir sual verirəm.**

**Bəs mənim atam haradadır və necə olub? 16 avqust 1956-cı il".**[138] Həyəcansız oxunması mümkün olmayan bu məktubdan həmin illərdə "Vətən xaini"nin övladlarına olan münasibət də aydınlığı ilə görünür.

Şamçızadənin övladlarının yazdığı bu təsirli məktubdan xeyli sonra Əli Razi Şamçızadənin bəraəti məsələsinə baxılmağa başladı. Belə ki, Hərbi Prokurorluq tərəfindən Azərbaycan K(b)P MK yanında Marksizm-Leninizm İnstitutunun filialının Partiya Arxivinin müdiri Q.Mehdiyevə belə bir tapşırıq verildi:

**"Sizdən xahiş edirəm ki, Şamçızadə Əli Razinin fəaliyyətini aşağıdakı istiqamətlərdə yoxlayasınız:**

**a) Nə zaman və harada AK(b)P sıralarına daxil edilmişdir?**

**b) Nə zaman və nə ilə əlaqədar olaraq o partiya sıralarından xaric edilmişdir?**

---

138 DTX-nin arxivi. Ə.R.Şamçızadənin istintaq qovluğu, 1937, № PR-291861

**v) Onun barəsində nüfuzdan salan materiallar varsa, bizə məlumat verin".**

Partiya arxivi tərəfindən hərbi prokurorluğa 1958-ci il fevralın 16-da aşağıdakı məzmunda bir arayış tərtib edilib göndərildi. Partiya arxivindən göndərilmiş O57 saylı arayışda göstərilirdi ki, **Şamçızadə Əli Razi Yəhya oğlu 1886-cı ildə anadan olmuşdur. O, 1921-ci ilin sentyabrından Gəncə qəzasında AK(b)P-nin üzvüdür.**

**O, 1925-ci il yanvar ayının 5-də AK(b)P-nin üzvlüyündən "mənəvi cəhətdən korlandığına və tərbiyə olunması mümkün olmayan adam" kimi çıxarılmışdır.**

**AK(b)P Partiya Kollegiyasının Nəzarət Komissiyasının partiya üçlüyünün 23 sentyabr 1928-ci il** *(protokol N 70)* **qərarına əsasən, stajı 1921-ci ildən götürülməklə o, AK(b)P-yə yenidən bərpa edilmişdir.**

**11 fevral 1935-ci ildə** *(protokol N 10)* **partiya təşkilatından əksinqilabi fəaliyyətini gizlətdiyinə və iki siyasi səhv buraxdığına görə partiya sıralarından xaric edilmişdir. Lakin AK(b)P MK-nın qərarı ilə 7 mart 1937-ci ildə ona şiddətli töhmət elan edilmişdir, hansı ki, 1936-cı ildə Kirovabad şəhər Topoqrafiya Təşkilatının ilkin xotattaystvası və AK(b)P MK-nın Kirovabad şəhər Komitəsi Bürosunun 4 iyul 1936-cı il tarixli qərarı ilə Şamçızadə partiyadan azad edilmişdir".**

Qeyd edək ki, 16 yanvar 1957-ci ildə Azərbaycan Yazıçılar İttifaqı Rəyasət Heyəti üzvlərindən S.Rəhimov, S.Rüstəm, Ə.Vəliyev, İ.Əfəndiyev, Mir Cəlal və Məmməd Arif Əli Razi Şamçızadə haqqında müsbət yaradıcılıq xasiyyətnaməsi yazaraq imza atmışlar.

Şamçızadə haqqında bu kimi sənədlər toplamaqla yanaşı "KQB" əməkdaşları 1958-ci ildə onun ailə üzvlərini və tanışlarını yenidən sorğu-suala tutdular. Həmin dindirmə zamanı müstəntiqlər 1937-ci ildə olduğu kimi şairin əksinqilabi millətçi təşkilatla əlaqəsi ilə maraqlanır və suallarını əsasən bu istiqamətdə verirdilər.

Şairin böyük oğlu, Kirovabad şəhər 8 N-li məktəbin müəllimi Şamçızadə Ziyəddin Əli oğlu *(1912-ci il təvəllüdlü)* 30 yanvar 1958-ci ildə müstəntiqin sualına cavab olaraq bildirmişdi ki, mən Əli Razi Şamçızadənin böyük oğluyam. O, səhv etmirəmsə, 1924-cü ildə

mənim anam Məryəm Məmmədəli qızı ilə ayrıldığından biz ayrıca yaşadıq. Bundan sonra Şamçızadə başqası ilə ailə qurdu, hazırda 2 uşağı var. Müstəntiqin sonrakı sualına cavabında o bildirmişdi ki, atasının əksinqilabi təşkilatla əlaqəsi barədə heç nə deyə bilməz. Şamçızadənin dindirilən digər qohumları da onun əksinqilabı millətçi təşkilatla əlaqəsi barədə suala "bu barədə heç nə deyə bilmərik" cavabını vermişlər.

Üzücü yoxlama və süründürməçilikdən sonra 1958-ci il mayın 13-də Şamçızadə Əli Razi oğluna tam bəraət verilmişdir. Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan Ə.R.Şamçızadə əsl bəraətini 90-cı illərdə almışdır.

### IV. 3. Məmmədtağı Dadaşova qarşı ittihamlar

1919-cu ilin axırlarında Azərbaycanda, eləcə də onun paytaxtı Bakı şəhərində vəziyyət gündən-günə daha da gərginləşirdi. Bundan məharətlə istifadə edən xarici və daxili qüvvələr əhalinin sıx yerləşdiyi yerlərə gələrək maddi vəziyyətləri o qədər də yaxşı olmayan savadsız və azsavadlı fəhlələr arasında təbliğat aparır, onların vasitəsilə müstəqil Azərbaycanı zəiflətmək və hakimiyyəti ələ almaq istəyirdilər. Ona görə də ƏMT bir neçə yerdə özünün bölmələrini yaratmışdı.

Həmin bölmələrdən biri də Balaxanı-Sabunçu rayon bölməsi idi. Neft rayonu olduğundan bu ərazilərdə təxribatların törədilməsi, fəhlələrin sosial vəziyyəti ilə əlaqədar bolşeviklər tərəfindən gizli iclasların keçirilməsi hallarına daha çox təsadüf edilirdi. Belə olduğu halda həmin rayona göndərilən hər hansı bir şəxsdən yüksək peşəkarlıq və böyük təcrübə tələb olunurdu.

1919-cu il noyabrın 23-də ƏMT-nin rəisi Nağı bəy Şeyxzamanova müraciətlə yazılmış ərizədə xahiş olunurdu ki, **"Məni Azərbaycan Respublikası Əksinqilabla Mübarizə Təşkilatında hər hansı bir vəzifəyə qəbul edəsiniz. İmza: Dadaşov Məmmədtağı Teymur oğlu".**[139] Nağı bəy Şeyxzamanov tərəfindən imzalanmış əmrlə Dadaşov Məmmədtağı Teymur oğlu 1919-cu il noyabrın 25-dən Balaxanı-Sabunçu bölməsinin rəisi vəzifəsinə təyin edilmişdi.

Sual doğur: M.Dadaşov kim idi və nə üçün onu gətirib belə bir

139 DTX-nin arxivi, Dadaşov Məmmədtağının istintaq qovluğu, N PR-38062.

mühüm vəzifəyə qoyurdular? Dadaşov Məmmədtağı Teymur oğlu 1899-cu ildə Bakı şəhərində anadan olmuşdu. Uşaq yaşlarından çevikliyi və ciddiliyi ilə seçilən Məmmədtağı müstəqil Azərbaycan Respublikası dövründə fəaliyyətə başlamış, hərbi yunkerlər məktəbinə daxil olmuş və həmin məktəbi praporşik rütbəsi ilə başa vurduqdan sonra bir müddət milli ordu sıralarında xidmət etmişdi. Dadaşov 1932-ci il yanvarın 1-də verdiyi ifadəsində bildirirdi ki, "1918-ci ildə "Müsavat" yunker məktəbini bitirərək 1-ci Azərbaycan Alayına alay yunkeri vəzifəsinə göndərilmişəm və orada 5-6 ay işləmişəm".

Haqqında bəhs etdiyimiz məsələ ilə əlaqədar 1932-ci il yanvarın 16-da verilmiş bir şahid ifadəsindən aşağıdakıları öyrənirik: "**Dadaşov Məmmədtağı hərbi yunker məktəbini bitirdikdən sonra "Müsavat"ın "Dikiy" diviziyasında hansısa komandir vəzifəsində işləmişdir. Onun "Dikiy" diviziyasından nə üçün getdiyi mənə məlum deyil. 1919-cu il noyabr ayının axırında Dadaşov ərizə ilə Şeyxzamanova müraciət edərək bildirdi ki, onu "Müsavat" əks-kəşfiyyatında hər hansı bir vəzifəyə götürsün. Şeyxzamanov onu həmin dəqiqə Balaxanı-Sabunçu bölməsinə rəis təyin etdi və o, həmin vəzifədə 1920-ci ilin fevral ayının axırına kimi işlədi. Dadaşov özünü fəal antikommunist kimi aparmış və karyer qazanmaq üçün bolşevikləri həbs etmişdir**".[140]

Dadaşov 1932-ci ildə verdiyi ifadələrindən birində milli ordudan azad olunmasının səbəbini belə izah edirdi: **"1918-ci ildə hərbi məktəbi bitirib polka göndərilmişəm və xəstəliyimlə əlaqədar olaraq əks-kəşfiyyata keçirilmişəm"**.[141]

Arxiv materiallarından aydın olur ki, o, işlədiyi müddətdə həqiqətən AXC-nin müstəqilliyi uğrunda yorulmadan mübarizə aparmışdır.

Məlumdur ki, Balaxanı-Sabunçu rayonunda işləmək olduqca çətin idi. Burada əhali təkcə say etibarilə deyil, həm də milli tərkibinə və siyasi baxışlarına görə çox idi. Həmin adamlar arasında yağlı vədlərlə hakimiyyəti ələ almaq və Azərbaycana "kommunist cənnəti gətirmək istəyən" bolşeviklər, xarici müdaxiləçilər, hər cür fitnə-fəsad törətməyə hazır olan erməni daşnakları, böyük ümidlə Çar Rusiyasını yenidən

140 Yenə orada
141 Yenə orada

bərpa etmək istəyən denikinçilər də var idi. Bunlar bir daha göstərir ki, Nağı bəy Şeyxzamanov ƏMT-nin Balaxanı-Sabunçu rayon bölməsinə M.Dadaşovu rəis təyin etməkdə səhv etməmişdi.

M.Dadaşov işlədiyi müddətdə həm denikinçilərə, həm əhali arasında Azərbaycan Respublikasının və onun rəhbərlərinin əleyhinə yönəldilmiş bolşevik təbliğatına, həm erməni daşnaklarına, həm də xarici müdaxiləçilərə qarşı inadla mübarizə aparmışdır. Bu mənada M. Dadaşov tərəfindən ƏMT-nin rəisinin adına yazılmış 3 sənəd xüsusilə maraqlıdır. Sənədlərdən birində oxuyuruq: **"1920-ci il yanvarın 24-də mən - Əksinqilabla Mübarizə Təşkilatı Balaxanı-Sabunçu rayonunun rəisi Dadaşov bu protokolu aşağıdakı səbəblərdən tərtib etmişəm: Mən müəyyənləşdirmişəm ki, Bakı şəhərində** *(Borzikovski)* **Stanislovski küçəsi ev 79/203-də yaşayan milliyyətcə erməni David Akopoviç Abramyans Bakı şəhərində məlumat yığmaqla məşğuldur və onları Denikinin dəstəsində zabit kimi xidmət edən qardaşına göndərir. Bundan əlavə, Azərbaycan hökumətinin əleyhinə təbliğat aparır və şaiyələr yayır ki, Denikinin qoşunu, eləcə də zabitləri İran istiqamətində gediblər və oradan tezliklə Azərbaycana hücum edəcəklər. Bu cür şaiyələrlə o, əhalini həyəcanlandırır. Bunları nəzərə alaraq qərara gəldim ki, Abramyansı saxlayım və Sizin sərəncamınıza göndərim. İmza: M.Dadaşov 27 yanvar 1920"**.[142]



***Müttəhim Dadaşov Məmmədtağı***

M.Dadaşov tərəfindən yazılmış digər sənəd də maraq doğurur: **"1920-ci il fevralın 24-də Sabunçudakı fəhlə kulubunda fəhlələrin gizli yığıncağı olarkən bildirilmişdir ki, bolşeviklərin 3 istiqamətdən - Krasnovodsk, Həştərxan və Rostov**

142 Yenə orada

**istiqamətlərindən gəlməsi gözlənilir. Ona görə də yatmamalı, ayıq olmalı hakimiyyəti ələ almalıyıq. İmza: M.Dadaşov, 26 fevral 1920-ci il.**"[143]

M.Dadaşovun Balaxanı-Sabunçu rayon bölməsindəki fəaliyyətini az da olsa əks etdirən bu sənədlərdən çıxış edərək demək olar ki, o, bir əməliyyat işçisi kimi üzərinə düşən vəzifənin öhdəsindən bacarıqla gəlmişdir. Elə ona görə də sovet hakimiyyəti illərində 4 dəfə həbs edilmişdir.

İlk dəfə onu AXC devrildikdən bir qədər sonra - 1920-ci ildə həbs etmiş və əməllərində cinayət tərkibi olmadığından azadlığa buraxılmışdı. Hər şeyə və hər kəsə şübhə ilə yanaşan Azərbaycan Fövqəladə Komissiyası onun 1921-ci ildə yenidən həbs edilməsi barədə qərar çıxarmışdı. Oktyabr ayının 2-də M.Dadaşovun həbs edilməsi və yaşadığı Aşağı Təzəpir küçəsi, dalan 5, ev 1-də axtarış aparılması haqda 1706 saylı order imzalanmışdı. Elə həmin gün aparılan axtarış nəticəsində M.Dadaşovdan 1 ədəd tapança və 1 ədəd qılınc götürülmüşdü. (*Axtarış zamanı ondan silah tapılması qoy oxucuya qəribə görünməsin, həmin vaxt o, sovet hərbi ordusu sıralarında xidmət edirdi. M.Dadaşovun yazdığı məktublardan da aydın olur ki, sovetləşmədən sonra 7 il hərbçi olmuşdur*).

İstintaq nəticəsində M.Dadaşovun "cinayəti" yenə də sübut olunmadığından 6 noyabr 1921-ci ildə Azərbaycan ÇK-nın Kollegiyasının iclasında belə bir qərar qəbul olundu ki, 1899-cu ildə Bakı şəhərində doğulan, milliyyətcə türk Dadaşov Məmmədtağı Teymur oğlu həbsdən azad edilsin, ondan götürülən tapança və qılınc qaytarılsın, iş arxivə təhvil verilsin. Azadlığa buraxıldıqdan sonra o, bir müddət özünün təbirincə desək, 1923-cü ilə kimi Salyan şəhərində işləmiş və 1923-cü ildə 3-cü dəfə həbs olunmuş, istintaq bir nəticə vermədiyindən yenə də azad edilmişdi.

Sovetləşmənin ilk illərində ƏMT-də işlədiyinə görə həbs olunan M.Dadaşov 1932-ci il yanvarın 25-də verdiyi ifadəsində bu məsələləri belə izah edirdi:

**"1) 1920-ci ildə, sovetləşmədən bir neçə gün sonra məni küçədə həbs etdilər və 2 aya yaxın Azərbaycan ÇK-da saxladılar.**

143 Yenə orada

**İstintaq Azərbaycan ÇK-nın əməliyyat müvəkkili tərəfindən aparılırdı. Mənim barəmdə iş bağlandıqdan sonra azad olundum. Daha doğrusu, sovet hökumətinin yaradılmasının 3 illiyi ilə əlaqədar olaraq amnistiya verildi.**

**2) 1921-ci ildə məni yenidən Əksinqilabla Mübarizə Təşkilatında işlədiyimə görə həbs etdilər və 4 ay Azərbaycan ÇK-da saxlanıldım, yenə də amnistiya ilə əlaqədar olaraq azad edildim.**

**3) 1922-ci ildə yenə də həmin işə görə 3 ay Azərbaycan ÇK tərəfindən həbsə məruz qaldım. 3-cü dəfə məni yenə də azad etdilər. Mənə bu həbslərlə əlaqədar olaraq heç bir ittiham hökmü oxumadılar."**

Göründüyü kimi, Məmmədtağı Dadaşov 3 ildə 3 dəfə həbs edilmişdir. Lakin bundan sonra sovet hökumətinin birdən-birə ona "məhəbbəti və inamı" artmışdır. Belə ki, bir müddətdən sonra onu Lənkərana milis rəisi vəzifəsinə irəli çəkmişdilər. Lakin az keçməmiş onu işdən azad edərək 2 saylı islah evinə *(ispravdom)* rəis müavini qoymuşdular. Dadaşov bundan sonra da bir neçə iş yeri dəyişməyə məcbur olmuşdur.

1925-ci ildə o, Həbibə xanım adlı bir qadınla ailə qurmuş və demək olar ki, bir müddət təhlükəsizlik orqanları onu incitməmişdir. Dadaşovun Həbibə xanımdan İsmət və Şövkət adlı iki qızı, Məmməd adlı bir oğlu olmuşdur. Həbibə xanım Azərbaycan Dövlət Siyasi İdarəsinə *(Azərbaycan DSİ)* göndərdiyi məktubların birində bildirirdi ki, Məmmədtağı həbs olunanda kiçik uşaqları Məmməd 5 aylıq idi.

Dördüncü dəfə onu 1931-ci il dekabrın 21-də 1972 saylı orderə əsasən həbs etmişdilər. Əvvəlki həbslər zamanı dediyi kimi, bu dəfə də özünün müqəssir olmadığını bildirmişdi. Lakin bu istintaq əvvəlkilərdən xeyli fərqlənirdi. Çünki ÇK-çılardan fərqli olaraq DSİ-nin əməkdaşları xeyli təcrübə toplamışdılar, necə deyərlər, "adam tutmaq elminin sirlərinə" dərindən yiyələnmişdilər. İndi artıq onun həqiqətən "cinayətkar" olduğuna şahid duranlar da tapılmışdı. Ona görə də, bir neçə şahid dindirməsi və bir üzləşmədən sonra M.Dadaşovun cinayətkar olduğu sübut edildi. İş o yerə çatdırılmışdı ki, o özü də bunu etiraf etməli olmuşdu.

Beləliklə Azərbaycan SSR CM-in 75-ci maddəsi ilə ittiham olunan M.Dadaşova 1932-ci il yanvarın 27-də istintaqın başa çatdığı elan edildi. 3-cü şöbənin əməliyyat müvəkkili Brinkman istintaq materialları ilə tanış olduqdan sonra bildirdi ki, M.Dadaşov əsasən aşağıdakılarda ittiham edilir:

**a) Dadaşov Məmmədtağı 3 dəfə bolşevik Sumbat Fətəlizadəni həbs edərək onu Əksinqilabla Mübarizə Təşkilatının idarəsinə gətirmişdir. Dadaşov 8-12 nəfərlik dəstə ilə onun evini mühasirəyə almış, o zaman özünü kobud aparmış və qışqıraraq: "Siz bizim millətimizi və vətənimizi bolşeviklərə satırsınız. Sizinlə qurtarmaq lazımdır", - demişdir.**

**b) Mütəmadi olaraq Balaxanı-Sabunçu rayonundakı fəhlələrin vəziyyəti barədə əks-kəşfiyyatın rəisinə şəxsən məruzə etmişdir.**

**v) "Müsavat" hökuməti əleyhinə çıxış edənləri və yaxud müsavatçıları tənqid edən fəhlələri kütləvi surətdə həbs etmişdir.**

**q) Heç bir səbəb olmadan rüşvət almaq məqsədi ilə fəhlələri həbs etmişdir.**

Yuxarıda sadalananları əldə rəhbər tutan Azərbaycan Dövlət Siyasi İdarəsinin məhkəmə kollegiyası 1932-ci il martın 20-də belə bir qərar qəbul etmişdi: **"Dadaşov Məmmədtağı Teymur oğlu müddəti 22 dekabr 1931-ci ildən hesablanmaqla 10 il müddətinə azadlıqdan məhrum edilsin".**[144]

Onun 3 uşaqla baş-başa qalmış həyat yoldaşı Həbibə Dadaşova bir neçə dəfə məktubla müxtəlif təşkilatlara müraciət edir. Həmin məktublardan birində taleyin ümidinə qalan 3 uşaq anasının keçirdiyi hiss və həyəcanları, ağır həyat tərzini tam aydınlığı ilə görmək olar: **"Mən heç harda xidmət edə bilmərəm. Birincisi, heç bir iş bilmirəm, ikincisi isə mənim himayəmdə 3 azyaşlı uşaq vardır. Onlar başa düşmürlər ki, nə var, nə yoxdur, elə "deyirlər ki, ver". Mən hardan alım. Mənim ana kimi ürəyim ağrıyır, uşaqlarıma və ərimə görə ikiqat əzab çəkirəm.**

**Buna görə də mən Sizdən xahiş edirəm, onun işinə baxarkən sovet hökuməti dövründəki 12 illik fəaliyyətini öyrənəsiniz, kiçik yaşlı uşaqlarına və taleyin ümidinə qalmış arvadına yazığınız gələ,**

144 DTX-nin arxivi. Dadaşov Məmmədtağının istintaq qovluğu, № PR-38062

**onu həbsdən azad edəsiniz”** (9 may 1932). Yeri gəlmişkən qeyd edək ki, bu məzmunda bir məktubu da Məmmədtağı Dadaşov yazmışdı. Həmin məktubla tanış olan təhlükəsizlik orqanlarının rəhbərləri ona rədd cavabı vermişdir.

Uzun illər keçdikdən sonra Azərbaycan SSR prokurorluğu tərəfindən 1990-cı il iyulun 18-də Azərbaycan SSR Ali Məhkəməsinə göndərilmiş nəzarət qaydası ilə protestdə göstərilir ki, Azərbaycan DSİ-nin Məhkəmə Kollegiyasının 20 mart 1932-ci il və Zaqafqaziya DSİ Məhkəmə Kollegiyasının 21 iyul 1932-ci il tarixli qərarları əsassız olduğundan ləğv edilməlidir.

Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə Məhkəmə Kollegiyası 14 avqust 1990-cı il tarixli qərarında bildirirdi ki, Azərbaycan DSİ-nin Məhkəmə Kollegiyasının 1932-ci il martın 20-də və Zaqafqaziya DSİ-nin Məhkəmə Kollegiyasının 1932-ci il iyulun 21-də Dadaşov Məmmədtağı Teymur oğlu haqqında çıxardığı qərarlar ləğv edilsin. Onun əməlində cinayət tərkibi olmadığına görə işin icraatına xitam verilsin. Çox təəssüf ki, M.Dadaşov nə bəraət aldığını, nə də Azərbaycanın başı üzərində dalğalanan üçrəngli milli bayrağımızı gördü.

## IV.4. Eyni gündə oxunmuş üç hökm

1932-ci il aprel ayının 27-də ƏMT-nin əməkdaşlarından 3 nəfər barəsində həbsetmə və evində axtarış aparma orderi imzalandı. Aprelin 27-28-də keçirilən axtarış zamanı onlardan istintaqın nəzər-diqqətini cəlb edə biləcək (şəxsi sənədləri istisna olunmaqla) əşya və sənəd tapılmadı.

Haqqında bəhs etdiyimiz bu 3 nəfər AXC dövründə ƏMT-nin əməkdaşları – 1888-ci ildə Bakı şəhərində doğulmuş, milliyyətcə türk Sadıqov Mirzəbaba Kəlbəli oğlu, 1888-ci ildə Bakı şəhərində doğulmuş, milliyyətcə türk Rzayev Məmmədibrahim Məmmədqasım oğlu, 1895-ci ildə Bakı şəhərində doğulmuş, milliyyətcə türk olan Hüseynov Hüseynqulu Nurməmməd oğludur. Onların Azərbaycan DSİ-nin təcridxanasına gətirilməsinə səbəb 1919-1920-ci illərdə ƏMT-də agent işləmələri olmuşdur.

Dindirmə protokollarından aydın olur ki, bu üç nəfər həmin təşkilatın agenti olarkən bolşeviklərlə mübarizə aparmış və guya fəhlələri incitmişlər. Nə qədər məntiqsiz mühakimə olsa da Azərbaycan DSİ-nin çekist ruhlu müstəntiqləri buna hüquqi don geydirmək istəmiş və müstəqil bir dövlətin onun məhvinə hazırlaşanlarla mübarizəsində cinayət elementləri axtarıb tapmağa çalışmışlar. Ona görə də istər şahid dindirmələri, istərsə də mühakimə olunanlardan alınan ifadələr zamanı müstəntiqlərin verdiyi suallar, yalnız bir məqsədə - onların məhvinə yönəldilmişdi. Bunu açıq aydın hiss edən "müttəhimlər" verdikləri ifadələrlə (cavablarla), təbii ki, həm də müdafiə olunurdular.

1932-ci il mayın 11-də Rzayev Məmmədibrahim Məmmədqasım oğlu verdiyi ifadəsində bildirirdi ki, **Əksinqilabla Mübarizə Təşkilatına 1919-cu il iyulun 20-də daxil olmuşam və 1920-ci il martın 6-na qədər orada işləmişəm. Məni 15, 16, 22 və 25 nömrəli körpülərdə agent işləməyə təyin etmişdilər. Əks-kəşfiyyatda xidmət etdiyim dövr ərzində üzərimə aşağıdakı vəzifələr qoyulmuşdu:**

**1. Bakı şəhərinin göstərilən körpülərində Petrovkadan gündəlik gələn sərnişin gəmilərinin sərnişinlərindən bütün poçt korrespondensiyasını – məktubları almaq. Bu belə olurdu: gəmilərin gəlməsi anına yaxın hər bir körpüdə müxtəlif vaxtlarda gəmiyə çıxaraq sərnişinlərə məktubları təhvil vermələrini elan edirdim ki, əgər kim məktubu təhvil verməsə və gömrük axtarışında aşkar edilsə, onda sərnişin üçün xoşagəlməz hal baş verə bilər. Hər gəmidən 30 məktub, gün ərzində gəmilərdən orta hesabla 70 məktub yığılırdı. Məktublar əks-kəşfiyyatın Senzura şöbəsinə aparılırdı, orada onlar açılıb oxunurdu. Əgər məktub məzmununa görə qaytarıla bilərdisə, onda sərnişin məktubu geri alırdı. "Müsavat" hökuməti əleyhinə olan məktublar isə qaytarılmırdı.**

**2. Mən şübhəli şəxsləri həbs etməli idim, lakin əks-kəşfiyyatda işlədiyim müddət ərzində heç kəsi həbs etməmişəm.**

**Bununla da mənim əks-kəşfiyyatdakı işim tamamlanırdı.**

**Körpülərdə mən hər gün səhər saat 7-dən axşam saat 7-8-ə kimi işləyirdim.**

**Əks-kəşfiyyatın, yəni Bakı şəhəri Naberejni küşəsindəki Baş İdarənin işinə gəldikdə isə onu deməliyəm ki, əks-kəşfiyyat bütün inqilabi təşkilatlarla, eləcə də bolşeviklərlə mübarizə aparırdı."**

Sadıqov Mirzəbaba Kəlbəli oğlu 1932-ci il iyulun 5-də verdiyi ifadəsində üzərinə düşən vəzifəni belə xarakterizə edirdi: **"Müsavat əks-kəşfiyyatına hazırda Tərtərdə işləyən qohumum Məmmədəli Fətəliyevin məsləhəti ilə 1919-cu ildə daxil olmuşam. Məni kiçik agent vəzifəsinə təyin etdilər. Mənim vəzifəmə sərnişin gəmilərinin qəbul edilməsi, sənədlərin yoxlanılması, qaçaqmalın müsadirə edilməsi, məktubların alınması, şübhəli şəxslərin saxlanılması və s. daxil idi. Mən baş agent Mahmudov Əlağaya tabe idim. Əks-kəşfiyyatçılardan Rzayev Məmmədibrahim Məmmədqasım oğlu, Hüseynov Hüseynqulu Nurməmməd oğlu və başqaları ilə işləyirdim. İşlədiyim müddətdə yalnız qaçaqmalı olan bir nəfəri tutmuşam. Başqa heç kimi tutmamışam. "Müsavat" əks-kəşfiyyatı 1919-1920-ci illərdə bolşeviklərə qarşı mübarizə aparırdı, ancaq bolşeviklərdən kimi həbs etdiklərini xatırlamıram. Əks-kəşfiyyatda döyülmək faktlarının şahidi olmamışam və heç kimdən də bu haqda eşitməmişəm."**[145]

Hüseynov Hüseynqulu Nurməmməd oğlu isə bu məsələyə münasibətini 1932-ci il mayın 14-də verdiyi ifadəsində belə açıqlayırdı: **"Mənim atamın 1915-ci ildə Bakı şəhərində bərbərxanası var idi. Sonralar o, ticarətlə məşğul olmuşdur. Eyni zamanda mülk sahibi idi. Bakı şəhərində üçmərtəbəli daş evi vardı. Atamın vəfatından sonra bütün bunlar onun ailəsinə miras qalmışdı. Şəxsən mən evin 1/8 hissəsinin sahibiyəm. Evdə 3 kirayənişin var. Evin illik gəliri 900 rubldur. Biz Bakı maliyyə şöbəsinə vergi veririk. 1920-ci il yanvarın 8-də mən xidmət sahəsi axtarmaq məqsədilə "Müsavat" əks-kəşfiyyatının rəisinə ərizə verdim və yanvarın 10-da əks-kəşfiyyatın agenti təyin edildim, bu vəzifədə 1920-ci il martın 6-na kimi, cəmi 1 ay 26 gün işlədim.**

**"Müsavat" əks-kəşfiyyatında xidmət etdiyim dövrdə mənə bu təşkilatın fəaliyyəti haqqında aşağıdakılar məlumdur:**

**"Müsavat" hökuməti "müsavat" əks-kəşfiyyatını 1919-**

145 DTX-nin arxivi, Sadıqov Mirzəbabanın istintaq qovluğu, № PR-39509.

**cu ilin əvvəllərində onlara qarşı çıxan bütün elementlərlə mübarizə aparmaq üçün yaratmışdı. "Müsavat" hökumətinə qarşı çıxmaqla şübhəli olan bütün şəxslər həbs edilirdilər. Mənə körpülər, yəni İrandan və Petrovskdan gələn gəmilərə nəzarət etmək tapşırılmışdı. İşə daxil olanda baş agentlərdən kimsə mənə təlimat keçmişdi. Mənim vəzifəm Bakıya gələn sərnişinlərin yüklərinə və əşyalarına baxmaqdan ibarət idi. Bundan başqa, tapşırılmışdı ki, silah aşkar edildikdə müsadirə olunmalıdır. Eyni zamanda təlimatlar verilirdi ki, şübhəli adama rast gəldikdə onu tutmaq lazımdır. Mənim əks-kəşfiyyatda işlədiyim dövrdə heç kim həbs olunmayıb və heç bir silah aşkar edilməyib".**[146]

Bolşeviklərin mübarizəsinə mane olan başqa əməkdaşları da tapıb üzə çıxarmaq və onları ittiham etmək məqsədilə müstəntiqlər tez-tez "ƏMT-nin üzvlərindən daha kimləri tanıyırsınız?" sualını verirdilər. 1932-ci il mayın 11-də verilmiş bir ifadədə həmin təşkilatın bir neçə əməkdaşının adı çəkilmişdir. ƏMT-nin, onun yerləşdiyi yer, əməkdaşlarının fəaliyyəti və tərcümeyi-hallarının öyrənilməsi baxımından xüsusi maraq kəsb etdiyini nəzərə alaraq həmin ifadəni kiçik ixtisarla təqdim edirik. *(Təkrar olsa da, qeyd edirik ki, "agent" ifadəsi bugünkü "əməkdaş" mənasında işlədilmişdir).*

**"Mən "Müsavat" əks-kəşfiyyat agentlərindən aşağıdakı şəxsləri tanıyıram:**

**1. Dadaşov Məmmədtağı Teymur oğlu, Balaxanı əks-kəşfiyyat bölməsinin rəisi. Naberejniy küçəsində yerləşən əks-kəşfiyyata tez-tez gəlirdi.**

**2. Tahirov Qəmbər əks-kəşfiyyatın agenti, müsavatçı, hazırda harada olduğunu bilmirəm. 1931-ci ildə onu Bakı şəhərində tramvayda görmüşəm. Şəhər üzrə agent işləyirdi, agent kimi, "Müsavat" əks-kəşfiyyatının fikrincə, şübhəli olan müxtəlif adamların həbsində və axtarışında iştirak edib. Əsasnaməyə əsasən, "Müsavat" əks-kəşfiyyatının agenti "Müsavat" hökumətinin əleyhinə çıxan hər hansı bir adamı həbs edə bilərdi. Aydındır ki, Tahirov bu hüququndan istifadə edirdi. Tahirovun**

146 DTX-nin arxivi, Sadıqov Mirzəbabanın istintaq qovluğu, № PR-39509.

dəqiq olaraq kimi həbs etməsini hal-hazırda deyə bilmərəm, belə ki, o vaxtdan xeyli müddət keçib, həm də ki mən Bakı şəhəri Xəzər dənizinin 15, 16, 22 və 25 nömrəli körpülərində işləmişəm, Tahirov isə şəhərdə işləyirdi.

3. Agent Mirzəbaba Sadıqov yadımdadır, ancaq xeyli vaxt keçdiyindən qarışdırıram.

4. Seyfulla Əzimov – şəhərdəki "Müsavat" əks-kəşfiyyatının şöbə müdiri, hal-hazırda həbsxanadadır.

5. Xeyrulla Əzimov – "Müsavat" əks-kəşfiyyatının agenti, 2-3 ildir ki, onu görmürəm.

6. Rzayev Kazım Hacı oğlu – "Müsavat" əks-kəşfiyyatının agenti, bolşevik, "Müsavat" əks-kəşfiyyatına gizli AK(b)P MK tərəfindən işləməyə göndərilmişdi, onu Bakıda bir neçə il bundan əvvəl görmüşəm.

7. Qasım İsmayılov – bolşevik, "Müsavat" əks-kəşfiyyatının əməkdaşı, "Müsavat" əks-kəşfiyyatına AK(b)P MK tərəfindən gizli şəkildə işləməyə göndərilmişdi, Əksinqilabçılar tərəfindən sovet hakimiyyəti dövründə öldürülmüşdür.

8. Heydərbala Həsənov – "Müsavat" əks-kəşfiyyatının agenti, müsavatçı, şəhər üzrə işləyirdi. Əks-kəşfiyyatda "Müsavat" hökumətinə qarşı çıxan adamların həbsi və axtarışı hüququna malik idi. Şəxsən mən onun həbs etdiyi adamları görməmişəm, ancaq güman edirəm ki, o həbslər aparmışdır.

9. Fətəliyev - "Müsavat" əks-kəşfiyyatının agenti, hal-hazırda harada olduğunu bilmirəm.

10. Əliyev Qulam Hüseyn Hacı oğlu - "Müsavat" əks-kəşfiyyatının agenti, müsavatçı, Bakı şəhərində hakimiyyət çevrilişindən sonra ölüb.

11. Hüseynov Hüseynqulu Nurməmməd oğlu – müsavatçı, "Müsavat" əks-kəşfiyyatının agenti. "Müsavat" əks-kəşfiyyatının təqib etdiyi adamların həbsi və axtarışı hüququna malik idi. Onun fəaliyyəti haqqında demək olar ki, heç nə məlum deyil, ancaq, mənim fikrimcə, o, öz hüquqlarından istifadə edirdi.

12. Bağırzadə Süleyman – "Müsavat" əks-kəşfiyyatının agenti, Gəncə şəhərində anadan olub, 6 il bundan əvvəl Bakı şəhərində

**olmuşdur. Əks-kəşfiyyat agentinin bütün hüquqlarından istifadə edirdi.**

**13. Həsənov Seyid Həsən oğlu – "Müsavat" əks-kəşfiyyatının agenti, müsavatçı.**

**14. Nəsirov Mirzəağa – "Müsavat" əks-kəşfiyyatının agenti, müsavatçı, 2-3 il bundan əvvəl Bakı şəhərində vəfat edib.**

**15. Şeyxzamanov Nağı bəy – 1919-cu ilin ikinci yarısında əks-kəşfiyyatın rəisi, "Müsavat" əks-kəşfiyyatının əvvəlki rəisi Şeyxzamanov Məmmədbağırın qardaşı, müsavatçı, bolşeviklərin qatı düşməni.**

**16. Yusifxanov Müslimbəy – "Müsavat" əks-kəşfiyyatının agenti, əks-kəşfiyyat agentinin bütün hüquqlarından istifadə edirdi.**

**17. Hacıyev Məmməd – "Müsavat" əks-kəşfiyyatının baş agenti, gəncəli, əks-kəşfiyyat rəhbərliyi yanında nüfuza malik idi".**

Təqdim olunmuş siyahıdan da göründüyü kimi, ƏMT-nin tərkibində bolşeviklər də var idi. Həmin bolşeviklər gələcəkdə hakimiyyəti ələ keçirmək üçün, şübhəsiz ki, bildikləri məlumatları digər kommunistlərlə bölüşürdülər.

Bu bolşeviklər nəinki AXC dövründə, həmçinin sovetləşmədən sonra da Vətəninin müstəqilliyi uğrunda mübarizə aparanları məhv etmək üçün onlara iftira və böhtanlar ataraq, bolşevikləri incitmələri barədə müstəntiqlərə siyahılar təqdim edirdilər ki, bu da müttəhimlər haqqında ağır qərar çıxarmağa imkan verirdi. Belə qərəzli və çirkin məqsədlə 1932-ci il iyunun 4-də verilmiş bir şahid ifadəsində oxuyuruq:

**"Əks-kəşfiyyatda xidmət etdiyim dövrdə bolşeviklərə və fəhlələrə qarşı repressiya siyasəti yürüdən "Müsavat" əks-kəşfiyyatçılarından aşağıdakıları tanıyıram:**

**1. Sadıqov Mirzəbaba Kəlbəli oğlu – inqilabdan əvvəl və sonra ev sahibi olub. Hal-hazırda Bakı şəhəri Mixaylov xəstəxanası ilə üzbəüz şəxsi evi vardır. Məncə, "Müsavat" Partiyasının üzvü idi. "Müsavat" əks-kəşfiyyatında Sadıqov teatrlarda, körpülərdə və küçələrdə agent idi. Əks-kəşfiyatda onun yarandığı gündən**

**"Müsavat"ın dağılan gününə qədər işləmişdir. Sadıqov Mirzəbaba mürtəce müsavatçılar qrupuna daxil idi. Buraya aşağıdakılar da daxil idilər:**

**a) Əks-kəşfiyyat rəisinin köməkçisi Səfikürdiski Mahmud. Hal-hazırda xaricə qaçıb.**

**b) Fətəliyev Məmmədəli – əks-kəşfiyyatın agenti, hal-hazırda gizlənir.**

**v) Heydərbala Həsənov - əks-kəşfiyyatın agenti, hal-hazırda Bakıdadır.**

**Bu qrup, o cümlədən Sadıqov Mirzəbaba dəfələrlə "Müsavat" hökumətinin əleyhinə bolşevik təbliğatı aparmaqda şübhəli bilinən fəhlə və qulluqçuları həbs etmiş, onları əks-kəşfiyyata gətirib orada döymüş və soyğunçuluqla məşğul olmuşlar. Bu qrup mauzerlə silahlanmışdı. Mənə məlumdur ki, inqilaba qədər Mirzəbaba Sadıqov "qoçu" idi və 2-3 nəfəri öldürmüşdü. Belə ki, o, Quliyev İbrahim Baba oğlunu və s. öldürmüşdü. Sadıqov işləyərkən ayrı-ayrı şəxsləri bolşevik adı ilə gəmidən çıxarmış və əks-kəşfiyyata göndərmişdir. Onların əks-kəşfiyyata qorodovoyların Sadıqovun göstərişi ilə gətirdiklərinin və bəzən də Sadıqovun özünün gətirdiyinin mən şahidiyəm. Bütövlükdə Sadıqova gəldikdə, onu deməliyəm ki, əks-kəşfiyyatda işləyərkən, o, bolşeviklərin düşməni idi və kommunistlərə heç bir köməklik göstərmirdi.**

**2. Ə.Rzayev İbrahim Məmmədqasım oğlu – müsavatçı, 1919-cu ildən "Müsavat" Partiyasınının üzvüdür, "Müsavat" əks-kəşfiyyatının agenti, Sadıqov Mirzəbabanın etdiklərini o da edirdi. "Müsavat" əks-kəşfiyyatının agenturasının rəisi Mahmudov Əlağanın qrupuna daxil olarkən o, axtarış və həbslərdə iştirak edirdi.**

**Ə.Rzayev həmçinin körpülərdə əks-kəşfiyyatın agentləri Seyid Həsənov və Dəmirovla birlikdə bolşevikləri həbs edirdilər. Rzayev də bolşeviklərin və sovet hakimiyyətinin düşməni idi.**

**3. Hüseynov Hüseynqulu Nurməmməd oğlu – ev sahibi, "Müsavat" əks-kəşfiyyatının agenti, əks-kəşfiyyatda az müddətdə**

**- 2-3 ay xidmət etmişdir. O, Sadıqov Mirzəbaba və Rzayev İbrahimdən az irticaçı olmağı ilə fərqlənirdi...".**

Bu kimi ifadələrin təhlilindən sonra 10195 №-li istintaq işinin Azərbaycan DSİ Kollegiyasına göndərilməsi məqsədi ilə hazırlanmış ittihamnaməni Azərbaycan DSİ-nin sədri Frinovski imzaladı. İşlə tanışlıqdan sonra DSİ Məhkəmə Kollegiyasının iclası 1932-ci il avqustun 15-də hökm çıxarmışdı. Həmin hökmə əsasən, Azərbaycan SSR CM-in 75-ci maddəsi ilə ittiham olunan Rzayev Məmmədibrahim Məmmədqasım oğlu və Sadıqov Mirzəbaba Kəlbəli oğlu 10 il, Hüseynov Hüseynqulu Nurməmməd oğlu 3 il müddətinə azadlıqdan məhrum edilmişdi. H.Hüseynovun cəzası 1933-cü il mayın 31-də icbari işə çevrildi. 1933-cü il noyabrın 26-da yaşlı anası kimsəsiz qaldığı üçün bağışlanmasını xahiş edən M.Rzayevə 1934-cü il martın 16-da rədd cavabı verildi.

Göründüyü kimi, bu insanlar heç bir günahı olmadan azadlıqdan məhrum edilmişdilər. Bütün bunlarla dünyanın bir çox dövlətləri tərəfindən tanınan Azərbaycanı zorla Rusiyaya ilhaq edənlər öz haqsız əməllərinə haqq qazandırmağa çalışsalar da, zamanın mühakiməsindən yan keçə bilmədilər. Əgər o illərdə bolşeviklər AXC-çiləri mühakimə edirdilərsə, indi də zaman bolşevikləri ittiham edir. Dünən haqsız mühakimə edənin bu gün haqlı ittihamı tamamilə təbii və gözlənilən idi.

AXC dövründə ƏMT-də işlədiyinə görə azadlıqdan məhrum olunmuş bu şəxslərə 1990-cı ildə bəraət verilmişdir.

## IV.5. Həbsxanada ölən adam

Yusifxanov Müslüm Ömər oğlu 1889-cu ildə Dağıstan Respublikasının Yuxarı Yaraqlar kəndində anadan olmuşdur. Onun ata babası Yusif bəy Tahir oğlu Yusifxanov XIX yüzillikdə bir müddət Kürinsk vilayətinin xanı olmuşdur. O həm də hərbçi kimi dağıstanlılara məxsus çevikliyi ilə Çar Rusiyasının nəzər-diqqətini cəlb etmişdir. Təsadüfi deyildir ki, Yusif bəy hərbi xidmətlərinə görə çar hökuməti dövründə general rütbəsinə qədər yüksəlmişdir. Mənbələrin

məlumatına əsasən, onun təxminən 3.500 desyatin torpaq sahəsi olmuşdur. Yusif bəyin vəfatından sonra bu torpaq sahələri oğlanları arasında bölüşdürülmüşdür. Həmin paydan təxminən 400 desyatinə qədər torpaq sahəsi oğlu Ömər bəyə, yəni Müslümün atasına çatmışdı. Ömər bəy 1891-ci ildə vəfat etmiş və bu torpaq sahələri yeganə oğul övladı olan Müslümə qalmışdı.

Atasını itirən kiçik yaşlı Ömər bir müddət anası ilə birlikdə torpaqdan gələn gəlirin hesabına yaşamışdır. 1906-cı ildə anasını itirən M.Yusifxanov Dağıstanda qalmaq və mülkədar olmaq fikrindən vaz keçmişdir. Ona görə də evini, ev əşyalarını və torpaq sahəsini ucuz qiymətə satmışdır. Torpağın kəndlilərə ucuz qiymətə satılması Ömərlə qohumları, ümumiyyətlə, zadəganlar arasında ciddi narazılığa səbəb olmuşdur. Buna baxmayaraq o, torpağı satıb əvvəl Peterburqa, sonra isə Moskvaya getmişdir. Müslümün iri şəhərlərə can atmaqda əsas məqsədi təhsil almaq, müəyyən elmi dünyagörüşə yiyələnmək olsa da, o, bu arzusuna çata bilməmiş, Qars vilayətində yaşayan dayısının yanına getmişdir. Bu məsələ ilə bağlı o, 1941-ci il mayın 7-də verdiyi ifadəsində deyirdi: "**1907-ci ilin axırlarında kömək üçün dayım – Qars vilayətinin rəisi, general Haşımbəyov Əliyar bəyin yanına getdim, ancaq rədd cavabı aldım**".[147]

Dayısının rədd cavabından sonra o, yenidən Moskva şəhərinə qayıtmış və azad dinləyici kimi müxtəlif kurslarda iştirak etmişdir. O, eyni zamanda imtahan verərək ali təhsil almağa səy göstərmişdir. M.Yusifxanovun təhsillə bağlı ikinci cəhdi baş tutmasa da, dinləyici kimi yüksək səviyyəli elm adamlarının mühazirələrinə qulaq asması və Moskva mühiti onun dünyagörüşünün, eləcə də baxışlar sisteminin formalaşmasında böyük rol oynamışdır.

1909-cu ildə M.Yusifxanov satdığı torpaqdan əldə etdiyi pullar tükəndiyindən doğma yurduna qayıtmış və Dağıstan vilayətinin qubernatoru knyaz Nuxu bəy Usmiyevdən onu hər hansı bir işlə təmin etməyi xahiş etmişdir. Lakin N.Usmiyev onu torpağı satarkən zadəganların əsasnaməsini pozmaqda günahlandıraraq ona kömək etməmişdir. M.Yusifxanov özü bu haqda qeyd edirdi: **"O, məni**

147 DTX-nin arxivi, Müslüm Yusifxanovun istintaq qovluğu, № PR-30834.

**"inqilabçı" adlandırdı və köməklik göstərmədi".**[148]

Qeyd edək ki, Usmiyevləri Azərbaycanla bağlayan bəzi cəhətlər də vardır. Belə ki, knyaz Nuxu bəy Usmiyev, fikrimizcə, hamının xan qızı kimi tanıdığı, XIX əsrin böyük şairələrindən biri Xurşid banu Natəvanın həyat yoldaşı Xasayxan Usmiyevin xələflərindəndir. Bu faktın gələcəkdə tədqiqatçıların marağına səbəb olacağını nəzərə alaraq, N.Usmiyevlə bağlı dindirmə protokolundakı parçanı oxuculara təqdim edirik:

"**Sual:** *Usmiyevlərdən kimləri tanıyırsınız, Bakı şəhərində onlardan kimlər yaşayır?*

**Cavab:** *Usmiyevlər Dağıstanda iri zadəgan mülkədarlarından idilər. Bu nəslin nümayəndələrinin bəziləri 1919-cu ildə Dağıstandakı burjua-millətçi "Qafqaz dağlıları" hökumətinin başında dururdular. Bakıda onlardan aşağıdakıları tanıyıram:*

*1. Usmiyeva Raziyə xanım – Böyük dəniz küçəsi 5, 45 nömrəli mənzildə yaşayır, evdar qadındır.*

*2. Usmiyev – adı və atasının adı yadımda deyil, daha doğrusu, Məhəmməd bəy oğlu, güman ki, onlar başqa familiya daşıyırlar".*[149]

Dağıstanda Nuxu bəy Usmiyev tərəfindən müsbət qarşılanmayan Müslüm Tiflis şəhərində qubernatorun mühafizə xidmətində çalışan dayısı Məmmədbəy Həşimbəyovun yanına gedir. Çox az bir müddətdən sonra isə gizli yolla Türkiyəyə keçir. Orada Sevask qubernatoru Ələddin Paşanın vasitəsilə Konstantinopol canişininin yanına gedir. Canişinin köməkliyi ilə bir müddət top zavodunda usta işləyir. Beləliklə də, uzun müddət işsiz və pulsuz qalan M.Yusifxanov iş tapmaqla müvəqqəti də olsa, ehtiyaclarını ödəyə bilir.

O, 1910-1912-ci illərdə Balkan-Türk müharibəsinə silah ustası kimi səfərbər edilir. 1912-ci ilin əvvəllərində rəsmi vizaya əsasən Türkiyədən Moskvaya qayıdır və 1914-cü ilə kimi orada yaşayır. M.Yusifxanov Dağıstana gəlişini və burada baş vermiş hadisələri belə xatırlayır: **"1914-cü ildə, imperialist müharibəsinin əvvəllərində Dağıstana qayıtdım. Orada dayım Həşimbəyov Məmməd bəyə mənə kömək etməsi üçün müraciət etdim və ondan köhnə borclarımı tələb et-**

148 Yenə orada

149 DTX-nin arxivi, Müslüm Yusifxanovun istintaq qovluğu, № PR-30834.

**dim. O, Dağıstanda Qubin vilayətinin rəisi polkovnik Pepelyayevin köməkçisi idi. Burada məni tutub, yatabla hərbi qubernator knyaz Dadeşkianinin yanına göndərdilər. Teymur-Xan-Şurada məni həbsxanada nəzarət altında saxladılar. Sonra Petrovsk-Port şəhər həbsxanasına gətirdilər. Buradan məni yatabla polis nəzarəti altında Ryazana göndərdilər. Yatab olunmamışdan əvvəl məni jandarm idarəsində dindirdilər. Orada məni Türkiyənin xeyrinə casusluqda və ora icazəsiz getməkdə günahlandırdılar. 1917-ci ilin fevral inqilabından sonra sürgündən azad edildim, ancaq vətənə qayıtmadım, Yekaterinoslava getdim. 1918-ci ildə Xarkov şəhərinə köçdüm. Orada milliyyətcə qabardin olan həkim Caur bəy Urusovun silahlı dəstəsinə qoşuldum. Qafqaza keçməyi nəzərdə tutan və orada türklərlə birləşərək o vaxtlar Qafqaza gəlmiş ingilislərə qarşı mübarizə aparmaq məqsədilə Urusov öz dəstəsinə Ukraynadan, Şimali Qafqazdan və digər yerlərdən olan dağlıları toplayırdı. Bizim dəstəmiz hansısa kreyserə dolduruldu, o da bizi Sevastopoldan Poçiyə apardı. Orada gürcü hakim dairələrinin icazəsi ilə kreyserdən düşdük və Tiflis şəhərinə yollandıq, oradan da Kürdəmirə kimi getdik. Burada mən dəstədən ayrıldım və piyada Axtidən keçərək Dərbəndə, sonra isə Teymur-Xan-Şuraya gəldim".**




*Müttəhim Yusifxanov Müslüm*

M.Yusifxanov 1919-cu ildə Azərbaycana gələrək Gəncə dəmir yolu DEPO-sunda bir müddət çilingər işləmiş, sonra isə Bakıda – ƏMT-də fəaliyyət göstərməyə başlamışdır. O, 1920-ci ildə Azərbaycan ÇK tərəfindən həbs edilmiş, 40 günə qədər nəzarət altında həbsdə saxlanıldıqdan sonra İnqilabi Tribunal Məhkəməsi tərəfindən

əməllərində cinayət tərkibi olmadığından azad edilmişdir. Azad edildikdən sonra bir müddət silah ustası, milis şöbəsində gözətçi və s. yerlərdə işləmişdir.

ƏMT-də işlədiyinə görə o, hökumətin gözündə suçlu bir adam kimi daim nəzarətdə olmuşdur. Dediklərimizi 1941-ci il aprelin 7-də onun barəsində çıxarılan qərar da təsdiq edir. Qərarda göstərilirdi ki, əks-kəşfiyyatın *(ƏMT nəzərdə tutulur -* **C.Q.**) əməkdaşı Yusifxanov Müslüm Ömər oğlu bir neçə dəfə Türkiyədə olmuş və türkpərəstlik edərək ətrafdakılar arasında antisovet təbliğatı aparmışdır. ÜK(b)P-nin və sovet dövlətinin rəhbərləri haqqında böhtanlar yaymış, eləcə də AK(b)P-nin katiblərindən birinə qarşı terror aktı hazırlamaq niyyətində olmuşdur.

Bunlara əsasən qərara alınmışdır ki, Ağamalı oğlu küşəsi, 5 nömrəli evdə yaşayan Yusifxanov Müslüm Ömər oğlu həbsə alınmalı və evində axtarış aparılmalıdır. *(Dövlət Təhlükəsizliyinin kiçik leytenantı Arutyunov tərəfindən hazırlanmış bu qərarı Azərbaycan SSR Xalq Dövlət Təhlükəsizlik Komissarı (XDTK) Yemelyanov təsdiq etmişdir).*

Elə həmin gün imzalanmış 115 nömrəli orderə əsasən Yusifxanov Müslüm Ömər oğlunun evində axtarış aparılmış və onu həbs etmişlər. İstintaq zamanı müstəntiqlər onu daha çox ƏMT-də işlədiyinə görə sorğu-suala tutmuşdular. 1941-ci il mayın 13-də aparılan dindirmə zamanı o, ƏMT-yə necə gəlməsini və orada hansı işlərlə məşğul olduğunu XDTK-nın leytenantı Polqunova belə izah etmişdir:

**Sual:** *"Müsavat" əks-kəşfiyyatına nə vaxt və necə daxil olmusunuz?*

**Cavab:** *"Müsavat" əks-kəşfiyyatına təxminən 1919-cu ilin sentyabrında daxil olmuşam. Daxil olarkən əks-kəşfiyyatın rəisi Şeyxzamanovun adına rəsmi ərizə vermişəm.*

**Sual:** *"Müsavat" əks-kəşfiyyatına kimin zəmanəti ilə daxil olmusunuz?*

**Cavab:** *"Müsavat" əks-kəşfiyyatına orada işləyən görkəmli kommunist Qasım İsmayılovun zəmanəti ilə daxil oldum. O, məni bu işə getməyə inandırdı və bu işə gedərkən dayım, general Haşımbəyov ilə qohumluq əlaqələrimdən də istifadə etməyi məsləhət gördü. Mən də istifadə etdim. Əks-kəşfiyyata daxil olmağıma bir səbəb də o vaxtlar mənim işsiz olmağım idi.*

**Sual:** *Hansı şəraitdə siz Azərbaycanın kommunist xadimi Qasım İsmayılov ilə əlaqə yaratmış və tanış olmusunuz?*

**Cavab:** *"Müsavat" əks-kəşfiyyatına daxil olmazdan bir az əvvəl dənizkənarı parkda mənim yanımda mənə tanış olmayan bir vətəndaş əyləşdi. O, mənim şəxsi vəziyyətimlə tanış olduqdan sonra (onda mən işsiz idim), "Müsavat" əks-kəşfiyyatına işə daxil olmağımı məsləhət gördü və bu işin xüsusiyyətlərini başa saldı. Bu vaxta qədər mən o idarəni tanımırdım və onun haqqında təsəvvürüm də yox idi. Həmin şəxs özünü mənə Qasım İsmayılov kimi təqdim etdi. Mən sonralar bildim ki, o, Azərbaycan Kommunist Partiyasının görkəmli xadimidir. Bu haqda sonralar "Müsavat" əks-kəşfiyyatında işləyərkən o, özü mənə danışmışdı. Beləliklə də mən onu tanıdım.*

**Sual:** *"Müsavat" əks-kəşfiyyatında hansı işləri (funksiyaları) yerinə yetirirdiniz?*

**Cavab:** *"Müsavat" əks-kəşfiyyatında agent (oxu "əməliyyat işçisi" –* **C.Q.**) *işləyərkən mənim funksiyama hərbi geyimdə olan şəxslərin tutulub saxlanılması və nəzarəti daxil idi. Bu şəxsləri mən tutub saxlayır, onlarda axtarış edir, lazım gəldikdə isə əks-kəşfiyyatın yerləşdiyi yerə aparırdım. Sonralar mən Bakıya gəmi ilə gələn şəxslərin axtarış edilməsində və tutulub saxlanılmasında iştirak etmişəm. Bu axtarışlarda məqsəd Mahaçqaladan, Dərbənddən, Həştərxandan Bakıya gələn denikinçilərin və bolşeviklərin aşkar edilməsi idi. Mən evlərdə aparılan axtarışlarda da iştitrak etmişəm, lakin şəxsən kimin evində yadımda deyil. Axtarışlarda məqsəd silah və ya hər hansı yazışmaların (məktublaşmaların) aşkar edilməsi idi"*

XDTK-nın müstəntiqi başqa bir dindirmə zamanı Yusifxanovu antisovet təbliğatı aparmaqda təqsirkar sayırdı. Bu məsələ ilə bağlı 9 iyun 1941-ci il tarixli dindirmə protokolundan oxuyuruq:

**Sual:** *İstintaqa məlumdur ki, siz zəhmətkeşlərin maddi-məişət vəziyyətləri haqqında böhtanlar danışırsınız. Siz kiminlə və nə vaxt bu mövzuda danışmısınız?*

**Cavab:** *Mən bunları inkar edirəm. Mən bu mövzuda heç vaxt, heç kimə, heç nə deməmişəm. Mən belə hesab edirəm ki, bu, mənə böhtan atmaqdır.*

**Sual:** *Siz sovet hakimiyyətinə qarşı böhtanlar atmısınız. Bu haqda*

*kiminlə danışmısınız?*

**Cavab:** *Mən sovet hakimiyyətinə heç yerdə böhtan atmamışam. Kim ki, bunu mənim haqqımda deyir, yəqin ki, o, özü böhtan atır. Mən bu ittihamı təsdiq etmirəm.*

**Sual:** *İstintaqa məlum olduğu kimi, siz sovet hakimiyyətinin dağılmasının mümkün olması haqqında fikirlər söyləmisiniz. Hansı səbəblərə görə sizdə belə bir əqidə (fikir) yaranmışdır?*

**Cavab:** *Məğlubiyyətçilik fikirləri və əhvali-ruhiyyə məndə heç vaxt olmayıb və bu haqda mən heç nə danışmamışam.*

**Sual:** *İstintaqda məlumat var ki, siz sovet hökuməti və ÜK(b)P-nin bəzi rəhbərləri əleyhinə yönəldilmiş qəzəbli əksinqilabi çıxışlar etmisiniz. Bu barədə kiminlə danışmısınız?*

**Cavab:** *Mən heç vaxt hökumət üzvləri ÜK(b)P-nin rəhbərləri əleyhinə əksinqilabi çıxışlara yol verməmişəm və buna görə də mənə qarşı yönəldilən ittihamı inkar edirəm.*

**Sual:** *İstintaq materiallarından görünür ki, siz bir neçə dəfə Azərbaycan K(b)P MK-nın rəhbərləri əleyhinə yönəldilmiş terrorçu fikirlər söyləmisiniz. Niyə və hansı səbəbdən sizdə belə fikirlər yaranmışdır?*

**Cavab:** *Qəti surətdə bildirirəm ki, mənim heç vaxt, heç bir terrorçuluq niyyətim olmayıb və yoxdur. Bu ittihamı qəti surətdə inkar edirəm və özümü günahkar hesab etmirəm.*

**Sual:** *Əsassız olaraq inkar etmək sizə məsuliyyətdən kənarda qalmağa imkan vermir. Sizi əksinqilabi antisovet təbliğatı aparmağa nə vadar etmişdir?*

**Cavab:** *Bir daha bildirirəm ki, mən antisovet təbliğatı aparmamışam və terrorçuluq niyyətində olmamışam. Deyilənləri rədd edirəm və özümü müqəssir hesab etmirəm".*

Azərbaycan SSR CM 18/70 və 72-ci maddəsinin birinci hissəsi ilə məsuliyyətə cəlb edilən M.Yusifxanova 15 iyun 1941-ci il tarixində istintaqın başa çatdığı elan edildi. M.Yusifxanov Azərbaycan SSR XDTK-nın istintaq rəisinə 1941-ci il sentyabrın 4-də yazdığı ərizəsində göstərirdi ki, 1941-ci il mayın 7-dən həbs olunmuşam, lakin həbs olunmağımın səbəbini hələ də bilmirəm. O, yazdığı bir neçə ərizəsində tuperkulyoz xəstəliyinə tutulduğundan, eləcə də günahsız olduğundan azadlığa buraxılmasını acizanə

surətdə xahiş etmiş və bildirmişdir ki, orada verilən yemək az və keyfiyyətsizdir. Ona görə də, o, bütün qüvvəsini itirmişdir. Elə bir vəziyyət yaranmışdır ki, 20 dəqiqəlik gəzintiyə belə çıxmağa taqəti qalmamışdır.

Özünün və həyat yoldaşının etdiyi xahiş və yalvarışlara baxmayaraq onu həbsxanadan azad etmədilər. Əvəzində Xalq Dövlət Təhlükəsizlik Komitəsi (NKQB) yanında Xüsusi Müşavirənin iclasını keçirtdilər. 3 oktyabr 1941-ci il tarixli 72 saylı iclas protokolundan çıxarışda oxuyuruq:

"**EŞİDİLDİ:** *Azərbaycan SSR XDTK 989 nömrəli iş. İttiham olunan 1889-cu il təvəllüdlü, Yuxarı Yaraqlar kəndində anadan olmuş Yusifxanov Müslüm bəy Ömər oğlu.*

**QƏRARA ALINDI:** *Antisovet təbliğatı apardığına görə Yusifxanov Müslüm bəy Ömər oğlunun müddəti 7 may 1941-ci ildən hesablanmaqla 8 il müddətinə islah əmək düşərgəsinə göndərilsin".*

Bu hökmdən təxminən 2 ay sonra M.Yusifxanov həbsxanada vəfat etmişdir. Sovet həbs düşərgəsində belə inləyərək ölənlər az olmamışdır. Onun ölümü ilə bağlı 1941-ci il dekabrın 27-də növbətçi həkim İsrailyan belə bir akt tərtib etmişdir ki, Bakı şəhəri XDTK-nın 1 nömrəli həbsxanasında saxlanılan məhbus Yusifxanov Müslüm Ömər oğlu xəstəxanada 58 yaşında 1941-ci il dekabrın 4-də, gündüz saat 11.40 dəqiqədə ağ ciyərlərin və onurğa sütununun vərəmi xəstəliyindən vəfat etmişdir.

1959-cu il iyunun 18-də Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə Məhkəmə Kollegiyası Müslüm Ömər oğlu Yusifxanovun istintaq işinə yenidən baxaraq ona bəraət vermişdir.

## IV.6. L.Beriya Əksinqilabla Mübarizə Təşkilatında

Lavrenti Pavloviç Beriyanı Baş Dövlət Təhlükəsizliyi Komissarı (1941), Sosialist Əməyi Qəhrəmanı (1943), SSRİ Dövət Müdafiə Komitəsi sədrinin müavini (1944-1945), Sovet İttifaqı Marşalı (1945), SSRİ Nazirlər Soveti Sədrinin müavini (1946-1953), SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini (1953), VII çağırış SSRİ Mərkəzi

İcraiyyə Komitəsinin üzvü, I-III çağırış SSRİ Ali Sovetinin deputatı, MK Siyasi Bürosu üzvlüyünə namizəd (1939-1946), Siyasi Büronun üzvü[150] (1946-1953) kimi şöhrət kürsüsünə aparan yol öz başlanğıcını AXC-nin təhlükəsizlik orqanlarından alır.

AXC-nin təhlükəsizlik orqanlarından biri kimi fəaliyyət göstərən ƏMT-nin kadr tərkibinə fikir verdikdə məlum olur ki, həmin təşkilatda müsavatçılar, hümmətçilər və digər partiyaların üzvləri, hətta bitərəflər də çalışmışlar.

Biz burada ƏMT-nin kadr tərkibini və əməkdaşlarının siyasi mənsubiyyətini araşdırmağı qarşımıza məqsəd qoymamışıq. Məqsədimiz həmin təşkilatın rəisi Nağı bəy Şeyxzamanovun xatirələri və Mir Cəfər Bağırovun istintaq materialları əsasında 1899-cu ildə Suxumi yaxınlığındakı Merxouli kəndində doğulmuş Lavrenti Pavloviçin həmin təşkilata gəlişi və fəaliyyəti ilə bağlı bəzi məqamları araşdırmaqdan ibarətdir.

Qeyd etdiyimiz kimi, N.Şeyxzamanov Türkiyədə mühacirətdə olarkən Azərbaycanda baş verən ictimai-siyasi hadisələri bir daha təhlil etmiş, bu hadisələrlə bağlı fikir və düşüncələrini, kitab halında çap etdirmişdir. Bu əsərlər içərisində "Azərbaycan istiqlal xatirələri" kitabı xüsusi ilə maraqlıdır. Bəhs etdiyimiz kitabda bizim üçün maraq doğuran həm də Beriya ilə bağlı xatirələrdir. Sovet dövründə (xüsusilə 50-ci illərə qədər) böyük ehtiyatla adı çəkilən Beriyanın ƏMT-də işləməsi özü tərəfindən uzun müddət gizlədilmişdir. Yalnız Beriyanın və Bağırovun məhkəməsi zamanı bu məsələlər istintaq materialları və şahid ifadələrinə əsasən açıqlanmışdır. Məlumdur ki, Beriyanın mühakiməsi zamanı onun ƏMT-dəki fəaliyyəti də ittiham kimi irəli sürülmüşdür. Təəccüblüdür ki, yüzlərlə insanın qanının axıdılmasında əli olan Beriya məhkəmə prosesində ƏMT barədə demişdir: **"Mənim ən ağır cinayətlərimdən biri "Müsavat" əks-kəşfiyyatında iştirakımdır. Bu günahı mən tamamilə boynuma alıram"**.[151]

ƏMT-də işləməkdə özünü günahkar hesab edən Beriya rəhbər vəzifələrdə olan zaman öz fəaliyyəti ilə bağlı bir çox sənədi məhv etdirmiş və ya əlaltıları vasitəsilə Moskvaya apartdırmışdır. Sənədlərin

150 Берия, Лаврентий Павлович. - https://ru.wikipedia.org/wiki/Берия,_Лаврентий_Павлович
151 Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, 1993, s. 21.

Azərbaycandan aparılması müxtəlif dairələrdə onun bolşevik deyil, müsavatçı olması kimi səciyyələndirilmişdir. Hətta 1953-cü il dekabr ayının 23-də güllələnməyə məhkum edilən Beriyanı istintaq zamanı fəhlə hərəkatına qarşı mübarizə aparmaqda ittiham etmişdilər. Mir Cəfər Bağırovun istintaq işindəki ittihamnamədən oxuyuruq: **"M.C.Bağırovun işi üzrə istintaqdan məlum olmuşdur ki, 1921–ci ildən** (*M.C.Bağırov 1921-ci il fevralın 19-da Azərbaycan ÇK-nın sədri təyin edilmiş, 1927-ci il mayın 22-də həmin vəzifədən uzaqlaşdırılmışdır. 2-ci dəfə 1929-cu il dekabrın 7-də Azərbaycan DSİ-yə sədr seçilmiş və 1930-cu il avqustun 6-nadək həmin vəzifədə işləmişdir –* **C.Q.**). **Bağırov Bakı şəhərində Azərbaycan Fövqəladə Komissiyasının sədri olduğu vaxtdan etibarən Beriyanın "Müsavat" əks-kəşfiyyatı ilə bağlı cinayətkar fəaliyyətindən tam xəbərdar imiş və cinayətkar keçmişini ört-basdır etməkdə ona yaxından köməklik göstərmişdir. Bağırov bilirdi ki, "Müsavat" əks-kəşfiyyatına Kommunist Partiyası və ya digər inqilabi təşkilatlar tərəfindən göndərilməyib. İngilis kəşfiyyatının nəzarəti altında fəaliyyət göstərən "Müsavat" əks-kəşfiyyat xidmətinə** (*bu təşkilatın ingilis kəşfiyyatının nəzarəti altında fəaliyyət göstərməsi fikri bolşeviklərin AXC hökumətinə atdığı böhtanlardan biri idi -* **C.Q.**) **öz xoşu ilə daxil olub və inqilab hərəkatına qarşı fəal mübarizə aparıb. Bağırov bütün bunları bilə-bilə Beriyanı ifşa edəcək adamların aradan götürülməsində, sənədlərin oğurlanıb məhv edilməsində, Beriyaya ötürülməsində fəal iştirak edərək Beriyanın məsuliyyətdən kənar olmasına köməklik göstərmişdir".**[152]



***Lavrenti Beriya XX əsrin 20-ci illərinin əvvəlində***

Maraqlıdır ki, Beriya Azərbaycanda olarkən Azərbaycan ÇK

152 Yenə orada

əməkdaşları tərəfindən də həbs edilmişdir. DTX-nin arxivində Beriyanın PR 21842 saylı istintaq qovluğu qorunub saxlanılır. Təəssüf ki, həmin qovluqda cəmi 2 sənəd qalmışdır. Bu sənədlərdən birində göstərilir ki, Beriya 1920-ci il sentyabrın 8-də həbs olunmuşdur. İkinci sənəddə isə Beriyanın 1920-ci ildəki istintaqı ilə bağlı materiallar 1932-ci ildə Beriyanın göstərişi ilə ona göndərildiyi açıqlanır. Bütün bunlar göstərir ki, Beriya ələ keçməsin deyə özü ilə bağlı sənədləri və istintaq materiallarını toplamışdır. O, həqiqətən müsavatçı idimi, əgər müsavatçı deyildisə, onda bu təşkilata necə gəlib düşmüşdü? Nağı bəyin xatirələrində bu suala cavab tapdıq: **"Beriyanı "Hümmət" Partiyasının tapşırığı ilə işə qəbul etmişdim... Beriya hər sosialist kimi çar rejiminin əleyhdarı idi. İşimə yarayacağını bildiyimdən qəbul etmişdim".**

Eyni fikri vaxtilə Tbilisi şəhərində Beriyanın köməkçisi işləmiş Merkulov da təsdiqləyir: **"Hələ Tiflisdə olarkən Beriya məni yanına çağırdı və dedi ki, onun düşmənləri belə bir şaiyə yayırlar ki, guya o, "Müsavat" əks-kəşfiyyatında xidmət edib".** Əslində isə o, bolşeviklərə ruhən yaxın olan "Hümmət" Bakı təşkilatının üzvü olub. Göründüyü kimi, Beriya həmin təşkilata istintaq zamanı ayrı-ayrı şəxslərdən hədə-qorxu ilə aldıqları ifadələrdə göstərildiyi kimi öz xoşu ilə deyil, ruhən bolşeviklərə yaxın olan "Hümmət" Partiyasının zəmanətinə əsasən gəlmişdi.

Beriya agent kimi işə götürüldükdən sonra rəhbərliyin diqqətini ciddiliyi, işgüzarlığı ilə cəlb etmiş, buna görə də az müddətdən sonra onu işlədiyi yerin rəisi təyin etmişdilər. Nağı bəy bildirir ki, Beriyanın son dərəcə ciddi olduğunu duydum və onu senzor şöbəsinə işə götürdüm. Az zamanda onun çalışqan olduğunu gördüm və onu şöbənin rəisi təyin etdim. O, mənə bir anası olduğunu və çox ağır vəziyyətdə yaşadığını söyləmişdi. Belə ki, 17 yaşlı bir oğlanın anasına yazdığı məktuba görə bolşeviklərin Azərbaycana gəlməsindən bəhs edilirdi. Beriya onun 13 yaşlı bacısının və anasının yalvarışını nəzərə alaraq üç gün müddətində Azərbaycanı tərk etmək şərti ilə bağışlayan Nağı bəyə deyir: **"Nağı bəy, sizin ruslarla düşmənçiliyinizin çox zəif olduğunu gördüm. Necə oldu ki, siz o ilan balasını cəzasız buraxdınız?"** Nağı bəy isə cavabında: **"Beriya, mən isə səni bu qədər xunxar və qəddar bilməzdim. Sənin haqqında əldə etdiyim**

**məlumata görə sən məktəbdə oxuyarkən yoldaşlarına Amerikaya gedib qanqister olcağını söyləmişdin. Demək, sən belə ruh sahibisən. İnanmazdım. Beriya, o, bir uşaqdır”,** - demişdir.

Məlumdur ki, keçən əsrin 20-ci illərinin əvvəllərində bolşeviklər denikinçiləri məhv etdilər. Azərbaycan üçün Denikin təhlükəsi sovuşdu, lakin hələ ondan da qorxulu bolşevik təhlükəsi qalırdı. Ona görə də ƏMT öz işini bolşeviklərlə mübarizə istiqamətində daha da gücləndirdi. Bu təşkilat bolşeviklər tərəfindən AXC əleyhinə yönəldilmiş təbliğatların, təxribatların qarşısını almaq və s. istiqamətdə xeyli iş görmüş və onların bu sahədəki fəallığını çox zəiflətmişdir. Nağı bəy yazırdı: **“Bu arada da** (*bolşeviklərə qarşı mübarizənin gücləndiyi vaxt* - **C.Q.**) **Beriya ortalıqda qeyb oldu. Sordum, araşdırdım, axırda Azərbaycandan getdiyi qənaətinə gəldim. İki ay müddətinə maaşını anasına göndərdim”.** Təşkilatdan bixəbər çıxıb gedən adamın 2 ay maaşını onun anasına vermək hüquqi baxımdan doğru deyildir. Görünür, Nağı bəydəki humanizm hüquq normalarını üstələmiş, kimsəsiz qalmış qoca qadını pulsuz qoymaq istəmədiyindən belə bir cinayətə əl atmışdır. Lakin sonralar Beriya çoxlarının anasını ağlar qoymuşdur...



*Gənc Mircəfər Bağırov*

Nağı bəy Beriyanın sonrakı taleyini belə xatırlayırdı: **“Azərbaycanın bolşeviklər tərəfindən işğalı zamanı Gürcüstana getdim. Bir postda təsadüfən Beriya ilə qarşılaşdım. Beriya ilə əl verib görüşdük. Ancaq hiss etdim ki, mənimlə qarşılaşmasına məmnun olmamış və bir az da qorxmuşdu. “Beriya, nə üçün mənə heç nə demədən Gürcüstana keçdin?” - deyə soruşdum. Beriya mənə cavab verdi: “Kommunist arkadaşlarım sizin tərəfinizdən təqib olunurdu. Mən o təşkilatda qala bilməzdim”.**

Beriya bu təşkilatdan getməsini “kommunist arkadaşlarının” təqib

olunması ilə izah edir. Əgər həqiqətən belədirsə, onda Beriya 1920-1950-ci illərdə Kommunist Partiyasına, kommunist ideyalarına, bütün varlığı ilə inanan və ona sədaqətlə qulluq edən yüzlərlə arkadaşlarının ölümünə necə fitva vermişdir ?

Gürcüstanda olarkən Beriya: "Nağı bəy, siz yanılırsınız, bu gün siz bolşeviklərdən qaçırsınız... Bolşeviklər Qafqaza hürriyyət və səadət gətirirlər. Sabah sizin sevdiyiniz Türk, Şərq, İslam dünyası kapitalistlərdən bolşeviklər sayəsində azad olacaqdır", - deyir.



*Lavrenti Beriya və Mircəfər Bağırov*

Qafqaza hürriyyət və səadət gətirən bolşeviklərin Gürcüstanda ictimai-siyasi vəziyyəti gərginləşdirdiyini görən Beriya Nağı bəyə oradan getməsini məsləhət görürdü: **"Nağı bəy, inanın mənə yaxında bolşeviklər bura gələcəklər. Sizin buradan uzaqlaşmağınızı tövsiyə edirəm".** Beriya Nağı bəyin: **"Deməli, burada qalsam və məni yaxalasalar, qurtara bilməzsən, eləmi?"** sualına: **"Xeyr, qurtara bilmərəm",** - cavabını vermişdir. Beriyanın Nağı bəyə verdiyi bu məsləhət, bəlkə də, onun ömrü boyu etdiyi yeganə yaxşılıq idi.

Nəticə olaraq demək olar ki, Beriya həqiqətən AXC-nin xüsusi xidmət orqanlarından biri olan ƏMT-də çalışmış, lakin Azərbaycanın istiqlaliyyəti və müstəqilliyi uğrunda heç bir mübarizə aparmamışdır.

# ƏLAVƏLƏR

## Əksinqilabla Mübarizə Təşkilatının şəxsi heyəti

1. Məmmədtağı Şeyxzamanov (rəis)
2. Mirfəttah Musəvi (rəis köməkçisi)
3. Nağı bəy Şeyxzamanov (rəis)
4. Mahmud Səfikürdiski (rəis köməkçisi)
5. Abdulqafar Mahmudov
6. Ağa Tağı oğlu Əliyev (əməkdaş)
7. Aleksandır Kobaxidze (əməkdaş)
8. Ağəli Sadıqov (əməkdaş)
9. Allahqulu Tarverdi oğlu (cangüdən)
10. Ağababa Sadıqov (əməkdaş)
11. Ağarza Abbasov (əməkdaş)
12. Ağaəli Abdinzadə (əməkdaş)
13. Abbasağa Rzayev
14. Anaida Fatalov (əməkdaş)
15. Abdulla Axundov (əməkdaş)
16. Aleksandr Şengeliya (əməkdaş)
17. Aleksandr Şepelev (əməkdaş)
18. A.V.Sultanov (əməkdaş)
19. Allahqulu Emin (əməkdaş)
20. Baba Rzabəyov (əməkdaş)
21. Bayram Məmmədov (əməkdaş)
22. Vera Kuzmina (əməkdaş)
23. Vasili Qrest (əməkdaş)
24. Qulu İbrahimov (əməkdaş)
25. Qulamhüseyn Əliyev
26. Qeybulla Quliyev
27. Qəhrəmanbəy Cavanbəyov (əməkdaş)
28. Qəmbər Tahirov (əməkdaş)
29. Qasım İsmayılov (əməkdaş)
30. Qulam Tarverdiyev (kargüzar köməkçisi)
31. Dəmirov (əməkdaş)

32. Əli Razi Şamçızadə (kargüzar köməkçisi)
33. Əkbər Məmmədzadə
34. Əziz Bala oğlu Əzizov (kargüzar)
35. Əli Bayramov (əməkdaş)
36. Əlağa Mahmudov (əməkdaş)
37. Əsgər Rzabəyov (gözətçi)
38. Əhədulla Əzimzadə
39. Zərifəxanım Əhmədbəyova
40. Zeynalabdul Sultanov
41. Kazım Rzayev (əməkdaş)
42. İslam Əliyev (əməkdaş)
43. İsay Domyi (əməkdaş)
44. İsgəndər Hüseynzadə (əməkdaş)
45. İsa Məlikov
46. Lavrenti Beriya (əməkdaş)
47. Müzəffər Hərimanov (mühasib)
48. Müslüm bəy Yusifxanov (əməkdaş)
49. Mirzəbaba Sadıqov (əməkdaş)
50. Məryam Məmmədova (əməkdaş)
51. Mirzəməmməd Hüseynqulu oğlu
52. Mirzəağa Nəsirov
53. Məmmədəli Fətəliyev (əməkdaş)
54. Mixail Kantanov
55. Məmmədibrahim Rzayev (əməkdaş)
56. Məmməd bəy Mahmudbəyov
57. Məmməd Hacıyev (əməkdaş)
58. Miraslan Ağalarov
59. Muxtar Mirzəyev
60. Məmmədhüseyn İsmayıl (əməkdaş)
61. Məmməd Fətəliyev (əməkdaş)
62. Məmmədtağı Dadaşov (əməkdaş)
63. Məmməd Rzayev (əməkdaş)
64. Rzaməşədi Hüseyn Qulu oğlu (əməkdaş)
65. Rza Məmməd oğlu (gözətçi)
66. Seyidhəsən Həsənov (əməkdaş)

67. Seyfulla Əzimov (əməkdaş)
68. Səfər Qurbanov
69. Seyid Hüseyn (əməkdaş)
70. Süleyman Bağırzadə
71. Taisiya Şipelyova (əməkdaş)
72. Fətəli Sumbatov
73. Fətəliyev
74. Fatalova Liza
75. Fəxrəddin Rzayev (əməkdaş)
76. Xeyrulla Əzimov (əməkdaş)
77. Heydərbala Həsənov (əməkdaş)
78. Həşim Sultanov (əməkdaş)
79. Həbubulla Musayev (əməkdaş)
80. Hüseynqulu Hüseynov (əməkdaş)
81. Hüseynqulu Muxtaroğlu
82. Həbib Huriyev
83. Hadı Qurban oğlu (əməkdaş)
84. Hüseyn Mansurski (əməkdaş)
85. Hüseyn Mahmudov
86. Həsən Əliverdiyev (əməkdaş)
87. Cabbar Aqamarov (əməkdaş)
88. Camal Dadaşov (əməkdaş)

## Azərbaycan Respublikası Əks-kəşfiyyat Xidməti əməkdaşlarının hüquq və vəzifələri haqqında Əsasnamə

Əks-kəşfiyyat xidmətinin əməkdaşları aşağıdakı istiqamətlərdə fəaliyyət göstərirlər:

1. Casusların və onların təşkilatlarının, eləcə də Azərbaycana və onun müttəfiqlərinə qarşı düşmən qüvvələrə dəstək ola biləcək şəxslərin aşkarlanması.
2. Aşağıda göstərilən cinayətlərə meyilli şəxslərin aşkarlanması:

a. *Azərbaycan Respublikasına qarşı qiyam;*
b. *Dövlətə xəyanət;*
c. *Azərbaycan Respublikasının parlamentinin sədri, Azərbaycan hökumətinin sədri və digər vəzifəli şəxslərin həyat və azadlığına qəsd;*
d. *Hərbi vəzifəlilərə, hərbi qurumlara, hərbi hissələrə hücum;*
e. *Hakimiyyətə qarşı hərbi müqavimət;*
f. *Dəmir yollarına, körpülərə, bənzər tikililərə, eləcə də su qurğularına və digər dövlət əhəmiyyətli qurğulara, teleqraf və telefonlara ziyanın vurulması;*
g. *Dövlət anbarlarının yandırılması və partladılması.*

3. Əks-kəşfiyyat xidmətinin əməkdaşları hərbi qulluqçuları öz vəzifələrini icra etməkdən yayındıra biləcək cərəyanların və yazıların aşkarlanması və yayılmasının qarşısının alınması ilə bağlı tədbirlər həyata keçirir.
4. Əks-kəşfiyyat xidmətinin əməkdaşları aşağıdakı şəxslərin aşkarlanması ilə bağlı tədbirlər həyata keçirirlər:

a. *Əhali arasında mövcud dövlət quruluşunun devrilməsinə yönəlmiş şifahi və ya yazılı təbliğat aparan şəxslər;*
b. *Hökumətin fəaliyyəti və sərəncamları, hərbi hissələrin əməliyyatları və fövqəladə hadisələr barədə yalan məlumatları yayan şəxslər;*
c. *Əhalinin ayrı-ayrı hissələri və ya sinifləri arasında milli düşmənçiliyi qızışdırmağa yönəlmiş məlumatları yayan şəxslər.*

5. Əks-kəşfiyyat xidmətinin əməkdaşları siyasi xarakter daşıyan və hakimiyyət orqanlarının icazəsi olmadan keçirilən yığıncaqların

aşkarlanması ilə bağlı tədbirlər həyata keçirirlər.

6. Əks-kəşfiyyat xidmətinin əməkdaşları odlu silah, patron, silah-sursat və partlayıcı maddə anbarları və gizli saxlanc yerlərinin aşkarlanması ilə bağlı tədbirlər həyata keçirirlər.
7. Əks-kəşfiyyat bölməsinin rəisləri öz rəislərinin və onların köməkçilərinin tapşırığı əsasında yuxarıda göstərilən əməllərdə şübhəli bilinən şəxslərlə bağlı axtarışlar və götürmələr həyata keçirmək, eləcə də bu şəxsləri ilkin qaydada həbs etmək hüququna malikdirlər.
8. Əks-kəşfiyyat bölməsinin rəisləri öz rəislərinin və onların köməkçilərinin tapşırığı əsasında yuxarıda göstərilən əməllərdə şübhəli bilinən şəxslərin, eləcə də işin hallarının araşdırılmasına kömək edə biləcək şəxslərin dindirilməsini həyata keçirə bilərlər.
9. Qeyd: Əks-kəşfiyyat məntəqələrinin rəisləri eyni hüquqa malikdirlər.
10. Götürmə, axtarış və həbs üçün əsaslar xüsusi sərəncamlarda əks olunmalıdır
11. Götürmə, axtarış və həbsin icrasının təmin olunması məqsədi ilə yerli polis və digər müvafiq orqanların əməkdaşları dəvət olunurlar
12. Həbs olunanlar müvafiq əks-kəşfiyyat bölməsinin sərəncamında hesab olunurlar.
13. Əks-kəşfiyyat bölməsinin rəisi və ya onun köməkçisinin sərəncamı ilə həbs olunmuş və barəsində istintaq aparılan şəxslər 1 aydan çox olmayaraq həbsdə saxlanıla bilərlər. Ehtiyac yarandıqda bu müddət hərbi general-qubernatorun sərəncamı ilə 3 aya qədər uzadıla bilər.
14. Dindirilmələr, götürmələr, axtarışlar, maddi sübutların əldə olunması, toplanması və onlara baxışın keçirilməsi zamanı ibtidai istintaq qaydalarına tam şəkildə əməl olunmalıdır.
15. Əks-kəşfiyyat xidməti əməkdaşlarının şifahi və ya yazılı tələbi əsasında bu Əsasnamənin 1-7 bəndlərində göstərilən əməllərdə şübhəli bilinən şəxslər aşağıdakı hallarda dərhal saxlanıla bilər: bu Əsasnamənin 1-7 bəndlərində göstərilən əməllərin törədilməsi

zamanı yaxalanan şəxslər, bu cür əməlin törədilməsini şahidlər təsdiq etdikdə, əldə olunmuş maddi sübutlar şübhəli şəxsin əməlini təsdiq etdikdə və ya ona məxsus olduqda, şübhəli şəxsin bəlli yaşayış yeri olmadıqda, şübhəli şəxs qacmağa cəhd etdikdə, şübhəli şəxsin gizlənməsinin mümkünlüyü barədə tutarlı sübutlar olduqda.

16. Saxlanılma haqqında tələbin icrası polis və digər müvafiq qurumlara yönəldilməlidir. Belə tələb olmadığı halda saxlanılma əks-kəşfiyyat bölmələri və ya təşkilatın özü tərəfindən həyata keçirilə bilər.
17. Əvvəlki maddəyə müvafiq saxlanılan şəxslər 24 saat ərzində əks-kəşfiyyat bölməsinin rəisi və ya onun köməkçisinin sərəncamına çatdırılmalıdırlar. Məsafənin uzaqlığı ilə bağlı bu müddət uzadıla bilər
18. Əks-kəşfiyyat bölməsinin rəisi və ya onun köməkçisi məntəqəyə çatdırılan şübhəli şəxsin 24 saat ərzində dindirilməsi və onun buraxılması və ya nəzarətdə saxlanılması barədə qərar qəbul etməlidir.
19. Digər rayonun ərazisində götürmə, axtarış və ya həbs hərəkətinin həyata keçirilməsi tələb olunduqda bunu həmin rayonun bölməsi həyata keçirir.
20. İstintaq zamanı bu Əsasnamənin 1-7 bəndlərində göstərilən əməllər aşkar olunduqda əks-kəşfiyyat bölməsinin rəisi dərhal məhkəmə orqanları və hərbi general-qubernatora bu barədə xəbər verir.
21. İstintaq tamamlandıqda onun nəticələri barədə məhkəmə orqanlarına məlumat vermə ehtiyacı yaranmadıqda bu barədə Cinayət İcraatı Nizamnaməsinin 253-cü maddəsinə müvafiq hərbi general-qubernatora və dairə məhkəməsinin prokuroruna xəbər verilir. Lakin hətta belə hallarda hərbi vəziyyətin elan olunduğu ərazilərlə bağlı qaydalara uyğun olaraq general-qubernator şübhəli şəxs barəsində müvafiq tədbir görmək hüququna malikdir.
22. Əks-kəşfiyyat bölməsinin rəisi tərəfindən aparılan istintaq

tədbirləri barədə general-qubernatorun adına şikayət verilə bilər. Bu hüququn mövcudluğu barədə axtarışa və ya həbsə məruz qalmış şəxsə dərhal məlumat verilməlidir.

23. Bu Əsasnamənin 1-7 bəndlərində göstərilən əməllərə dair polisin başladığı istintaq barəsində dərhal müvafiq əks-kəşfiyyat bölməsinə xəbər verilməlidir. Bu bölmənin rəhbəri belə işlərlə bağlı müvafiq sənədləri tələb etmək və istintaqı öz üzərinə götürmək hüququna malikdir. Belə hallar barəsində dərhal general-qubernatora və prokurorluq qurumlarına xəbər verilməlidir.

## Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik orqanlarına dair bəzi sənədlərin surətləri



ВЪ МИНИСТЕРСТВО ИНОСТРАННЫХЪ ДѢЛЪ.

8 Ноября 19 г.

№ 5719

Въ цѣляхъ сосредоточенія свѣдѣній о возможныхъ противникахъ/армянахъ, добровольцахъ и другихъ /а также о различныхъ политическихъ теченіяхъ /большевикамъ/ прошу не отказать всѣ получающіеся свѣдѣнія сообщать въ Генеральный Штабъ.

При этомъ увѣдомляю, что наиболѣе интересующими Генеральный Штабъ вопросами являются вопросы о сосредоточеніи, передвиженіи, количествѣ, командномъ составѣ, питаніи, снабженіи, настроеніи и санитарномъ состояніи войскъ пограничныхъ съ нами государствъ.

Въ свою очередь и Генеральный Штабъ будетъ пересылать всѣ имѣющіеся

*General Sulkeviçin sərhədyanı dövlətlərdə sərhəd qoşunlarının vəziyyəti ilə bağlı Müdafiə Nazirliyi və Xarici İşlər Nazirliyi arasında məlumat mübadiləsinin təmin olunması ilə bağlı məktubu*



***"Müdafieyi milliyə komitəsi cənabına. Həmin ərizənin 13-cü günündən etibarən bu anadək ƏMT-də çalışmış olan yoldaşımız Əli Bayramzadənin vocudi-təşkilatda ezam olunmasına nəzərən moğeye məmuriyyəti kəndi öhdəsində qalmaq nəzarətindən almaq şərtilə təşkilatda çalışmaq üçün ezam edilməsi xüsusunda tədabir edilməsini rica ediyorum. Müdriyyət"***



***"Azərbaycan Cümhuriyyəti baş müdafiəye milliyə müdriyyətinə … ƏMT məmurlarına iyul ayının 20-nədək (100 min rubl) vermək üçün ehtiram ilə rica ediyorum. ƏMT-nin müdiri: Şeyxzamanlı. 20 iyul 1919-cu il"***



ПРИКАЗЪ
По Военному Вѣдомству Азербайджанской Республики
(По Военно-Судной части).
№ 408.
16 сентября 1919 года; гор. Баку.

Приказываю всѣмъ квартирующимъ воинскимъ частямъ, учрежденіямъ и управленіямъ, коимъ по закону не положено имѣть полковыхъ судовъ, передавать дѣла, подсудныя полковому суду, въ г. Ганджѣ— командиру 3-го пѣхотн. Гянджинскаго полка въ Закаталахъ—командиру 2-го пѣхотнаго Закатальскаго полка, въ Уроч. Кусарахъ—командиру 4-го пѣхотн. Кубинскаго полка въ Ханкендахъ—командиру 2-го коннаго Карабахскаго полка и въ Ленкорани—командиру Ленкоранскаго резервнаго батальона.

Военный Министръ,
Генералъ-отъ-Артиллеріи Мехмандаровъ

Начальникъ Главнаго Штаба,
Генеральнаго Штаба, Генералъ-Маіоръ Салимовъ.

***Alay məhkəmələrinin mövcud olmadığı hərbi hissələr və müəssisələrin müvafiq cinayət işlərinin Gəncə, Zaqatala, Qusar, Qarabağ və Lənkəranda yerləşən hərbi hissələrin alaylarının məhkəmələrinə təqdim etmələri barədə hərbi nazir general Mehmandarov və Baş Qərargah rəisi Səlimovun 16 sentyabr 1919-cu il tarixli əmri***



Его высокопревосходительству
Господину Председателю Комитета Государственной Обороны.

[illegible]

***Bakıdakı Litva konsulluğu əməkdaşının dindirilməsi zamanı beynəlxalq hüquq normalarının pozulması barədə yayılan xəbərlərin reallığa uyğun olmaması barədə ƏMT rəisinin DMK sədrinə 16 avqust 1919-cu il tarixli məlumatı***



Исх. №605 К делу 68. 26
19 Сентября 19г.

Его высокопревосходительству 1919г. Сентября
Господину председателю Комитета Государственной Обороны.

РАПОРТЪ.

Честь имѣю донести до свѣдѣнія Вашего Высокопревосходительства, что 31 Августа задержалъ студента Саратовскаго университета Александра Николаевича Данилова и заключилъ въ тюрьму впредь до особаго распоряженія Вашего Высокопревосходительства.

Препровождая при семъ протоколъ и задержанныхъ у Данилова писемъ, честь имѣю обратить вниманіе Вашего Высокопревосходительства на то обстоятельство, что задержанный Даниловъ, какъ молодой человѣкъ призывного возраста изъ Добрармии ни въ коемъ случаѣ не могъ быть освобожденнымъ, а если онъ очутился въ Баку, то по моему мнѣнію, не иначе, какъ съ особыми порученіями Добровольческой Арміей, тѣмъ болѣе онъ будучи въ Грозномъ [illegible]

*Çuprin və Proradenin saxlanılması və sonradan azadlığa buraxılması haqqında ƏMT rəisinin DMK-nın sədrinə göndərdiyi 15 avqust 1919-cu il tarixli arayış*



Его Высокопревосходительству 1919г. Августа 16
Господину Председателю Комитета Государственной Обороны.

Вследствіе отношенія отъ 4 сего Августа [illegible]

*Xarici diplomatik nümayəndəliklərin saxlanılan təmsilçilərinə qarşı ƏMT nümayəndələrinin guya qeyri-konkret davranışları və bununla bağlı intizam tədbirlərinin görülməsi ilə bağlı ƏMT rəisinin DMK sədrinə 16 avqust 1919-cu il tarixli müraciəti*



СЕКРЕТНО.

Генералъ-квартирмейстеру.-

Представляя при семъ штаты контръ-разведывательнаго отделенія докладываю, что я полагалъ-бы учредить пока пункты въ следующихъ городахъ, станціяхъ железной дороги и местечкахъ: Баку – 2 агента; Куба – I; Агдамъ – I; Казахъ – I; Елисаветполь – 4; Нуха – I; Закаталы – I; Агдашъ – I; Келадкары I; Пойлы – I; Тифлисъ – 2; Шаргани – I; Евлахъ – I; Кюрдамиръ – I.

...ною назначено самое ограниченное количество

***ƏMT-nin yerlərdə agentura şəbəkəsinin ştat tərkibi haqqında 1919-cu ilin yanvar ayına dair sənəd***



Господину Директору Тагіевской Фабрики.

Следующіе рабочіе изъ ввѣренной Вамъ фабрики: Сафаръ Курбановъ, Мирза Астанъ Агаларовъ, Мухтаръ Мирзоевъ и Гусейнъ Кули Мухтаръ оглы вследствіе доклада Комитета Государственной Обороны работали въ моей организаціи отъ 13 Іюня по первое Іюля. Сообщая Вамъ объ этомъ прошу выдать упомянутымъ рабочимъ содержаніе за эти дни.

Начальникъ организаціи по борьбе съ контръ революціей

***ƏMT rəisinin Tağıyev fabrikinin bəzi fəhlələrinə ƏMT ilə əməkdaşlığa cəlb olunduqları günlərə görə maaşın ödənilməsi ilə bağlı fabrik müdirinə məktubu. 1 iyul 1919-cu il***


f. 1052, siy. 1, iş 2

№25

Господину начальнику депо перваго участка

20/VI-19

**ƏMT rəisinin köməkçisinin 1-ci sahə üzrə dəmir yolu deposunda çalışan maşinist köməkçisi Əhədulla Qasımzadənin 13 iyun 1919-cu il tarixindən ƏMT-də işlədiyinə görə Depo rəisinin həmin işçinin Depo işçilərinin siyahısından çıxarılmasına dair müraciəti.**
**20 iyun 1919-cu il.**

# İstifadə olunmuş ədəbiyyat

*Azərbaycan dilində:*


1. "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // "Azərbaycan" qəzeti, 01 fevral 1998-ci il
2. "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş əsərlərin nəşr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // "Azərbaycan" qəzeti, 24 fevral 1998-ci il
3. "Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyinə həsr olunmuş ümumrespublika mərasiminin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // "Azərbaycan" qəzeti, 26 may 1998-ci il
4. "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // "Azərbaycan" qəzeti, 17 may 2017-ci il
5. "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. // "Azərbaycan" qəzeti, 11 yanvar 2018-c il
6. Azərbaycan Respublikası Milli Arxivlər İdarəsi (MAİ), f. 1, siy. 74, iş 8, v. 81-82.
7. Azərbaycan Respublikası MAİ, f. 1046, siy. 2, iş 38, v. 22.
8. Azərbaycan Respublikası MAİ, f. 1051, siy. 1, iş 2, v. 39-40.
9. Azərbaycan Respublikası MAİ, f. 1052, siy. 1, iş 2, v. 1-3.
10. Azərbaycan Respublikası MAİ, f. 1052, siy. 2, iş 4, v. 8.
11. Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 21, v. 53.
12. Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 26, v. 31.
13. Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 26, v. 3-5.
14. Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 26, v. 4.
15. Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 35, v. 32.
16. Azərbaycan Respublikası MAİ, f. 2894, siy. 1, iş 39, v. 109-112.
17. Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 1, iş 1, v. 43.
18. Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 1, iş 3, v. 10.
19. Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 1, iş. 1, v. 7.
20. Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 2, iş 38, v. 20.
21. Azərbaycan Respublikası MAİ, f. 2898, siy. 2, iş 49, v. 23.
22. Azərbaycan Respublikası MAİ, f. 894, iş 148, v. 10.
23. Azərbaycan Respublikası MAİ, f. 894, siy. 1, iş 3, v. 31.
24. Azərbaycan Respublikası MAİ, f. 894, siy. 1, iş. 26, v. 3.
25. Azərbaycan Respublikası MAİ, f. 894, siy. 1, iş. 4, v. 12.
26. Azərbaycan Respublikası MAİ, f. 894, siy. 10, iş 96, v. 30.
27. Azərbaycan Respublikası MAİ, f. 894, siy. 7, iş 18, v. 11.
28. Azərbaycan Respublikası MAİ, f. 898, siy. 2, iş. 5, v. 101
29. Azərbaycan Respublikası MAİ, f. 970, siy. 1, iş 166, v. 24.
30. Azərbaycan Respublikası MAİ, f. 970, siy. 1, iş 4, v. 1-2.
31. Azərbaycan Respublikası MAİ, f. 970, siy. 1, iş 96, v. 37.

32. Azərbaycan Respublikası MAİ, f.1059, siy. 2.
33. Azərbaycan Respublikası MAİ, fond 1, siy.1, iş 86, v. 162.
34. Azərbaycan Respublikası MAİ, fond 130, iş 4, siy. 496, v. 25
35. AR SPİHDA, f.1, siy. 1, iş 121, v. 231-238.
36. AR SPİHDA, f.1, siy. 1, iş 86, v. 119.
37. AR SPİHDA, f.1, siy. 8, v. 3-6.
38. ASE. 10 cilddə. 5-ci cild. Bakı, 1981.
39. "Azərbaycan" aylıq kültür dərgisi, Türkiyə, 1967
40. "Azərbaycan" qəzeti (rus dilində), 1918, 18 noyabr
41. "Azərbaycan" qəzeti, 3 oktyabr 1918-ci il
42. "Azərbaycan" qəzeti, 5 dekabr 1918-ci il
43. "Azərbaycan" qəzeti, 28 may 1919-cu il
44. "Azərbaycan" qəzeti, 30 oktyabr 1919-cu il
45. "Azərbaycan" qəzeti, 23 may 1991-ci il
46. "Azərbaycan" qəzeti, 4 fevral 1997-ci il
47. Azərbaycan SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). Bakı, 1966, № 4.
48. Azərbaycan Yeni Tarix MDA, f. 2900, siy. 7, v.1, 7.
49. Bağırov M. Müzəffər Nərimanov (biblioqrafik oçerk). Bakı, 1965.
50. Cəfərov M. Azərbaycan Demokratik Respublikasının xüsusi xidmət orqanları. Bakı, 1997.
51. Çıraqzadə V. İstiqlal yollarında. Bakı, 1992.
52. DTX-nin arxivi, Ə.R.Şamçızadənin istintaq qovluğu, 1937-ci il, № PR-291861.
53. DTX-nin arxivi, M.Sadıqovun istintaq qovluğu, № PR-39509.
54. DTX-nin arxivi, M.Səfikürdiskinin istintaq qovluğu, № PR -1752.
55. DTX-nin arxivi, M.Yusifxanovun istintaq qovluğu, № PR-30834.
56. DTX-nin arxivi, S.Şeyxzamanovun istintaq qovluğu, N PR-247.
57. DTX-nin arxivi. M. Dadaşovun istintaq qovluğu, № PR-38062.
58. "Dirçəliş XXI əsr" jurnalı. Bakı, 1998, № 5
59. "Dirçəliş XXI əsr" jurnalı. Bakı, 1999, № 15
60. Düşmən axıradək ifşa edilməlidir. // "Kirovabad bilşeviki" qəzeti, 19 fevral 1937-c il.
61. Əbu Əli Həsən İbn Əli Xacə Nizamülmülk. Siyasətnamə. Bakı, 1987.
62. Əliyev H. Müstəqilliyimiz əbədidir. XV kitab
63. Əmir Teymurun vəsiyyətləri. Bakı, 1991.
64. "Hücum" jurnalı. 1933, № 34.
65. "Xəzər" jurnalı, 1990, № 3.
66. Xuluflu V. Səlcuq dövlətinin daxili quruluşuna dair. Bakı, 1930.
67. "İstiqlal" qəzeti, 31 mart 1919-cu il.
68. "Kommunist" qəzeti, 17 mart 1937-ci il.
69. "Kommunist" qəzeti, 10 mart 1990-ci il.
70. Köçərli X. Azərbaycan 1920-1940-cı illərdə. Bakı, 2003
71. Qasımov C. Əksinqilab ilə mübarizə təşkilatı və siyasi repressiya. Bakı, 1997.
72. Qasımov C. Azərbaycanın təhlükəsizlik orqanları: tarix və müasirlik. // "Xalq qəzeti", 18 mart 2016-cı il.
73. Qasımov M. Birinci Dünya müharibəsi illərində böyük dövlətlərin Azərbaycan siyasəti. 3 hissədə. II hissə (1917-ci il noyabr – 1918-ci il noyabr). Bakı, 2001.

74. Qoca E. Azərbaycanın təhlükəsizlik və xüsusi xidmət orqanları (1918-1920). Bakı, 2000.
75. Lenin V.İ. Azərbaycan haqqında. Bakı, 1970
76. Lenin V.İ. Əsərlərin tam külliyyatı. 5-ci nəşr, 51-ci cild
77. Məmmədova Ş. "Xülasət ət-təvarix" Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 1991.
78. Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, 1993.
79. Musəvi T. Orta əsr Azərbaycan tarixinə dair fars dilində yazılmış sənədlər. Bakı, 1965.
80. "Müsavat" bülleteni, 1962, № 4.
81. Nağı Şeyxzamanlının xatirələri. Bakı 1997.
82. Nərimanov N. Məqalələr və məktublar. M., 1925.
83. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair. Bakı, 1991
84. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
85. Nəsrəddin T. Əxlaqi-nasiri. Bakı, 1989.
86. Nəzirli Ş. Güllələnmiş Azərbaycan generalları. Bakı, 2006.
87. Nəzirli Ş. Azərbaycan generalları. Bakı, 1991.
88. Paşayev A. Açılmamış səhifələrin izi ilə. Bakı, 2001.
89. Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Ankara, 1989.
90. Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.
91. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, 1992.
92. Solak-zadə M. Tarix. Bakı, 1992.
93. Süleymanov M. Azərbaycan ordusu (1918-1920). Bakı, 1998.
94. Şeyxzamanlı N. Azərbaycanın istiqlal mücadiləsinin xatirələri. İstanbul, 1964.

*Rus dilində:*

95. Адрес-календар Азербайджанской Республики. Баку, 1920
96. Борьба за победу Советской власти в Азербайджане. 1918-1920 гг. Документы и материалы. Баку, 1967
97. Воронцов С.А. Спецслужбы России. Ростов-на-Дону, 2006.
98. Гордиевский Э. КГБ история внешнеполитических операций от Ленина до Горбачева. Нота Бене, 1992.
99. Петров Н.В., Скоркин К.Б. Органы ВЧК-ГПУ-ОГПУ в Закавказе (1918-1934 гг.).
100. Полмер Н., Аллен Т. Энциклопедия шпионажа. М., 1997.
101. Черняк Е.Б. Пять столетий тайной войны. М., 1991.

*İnternet mənbələri:*

102. https://az.wikipedia.org/wiki/Murad_Gəray_bəy_Tlexas
103. https://az.wikipedia.org/wiki/Səməd_bəy_Mehmandarov#H%C9%99yat%C4%B1
104. https://ru.wikipedia.org/wiki/Берия,_Лаврентий_Павлович
105. https://ru.wikipedia.org/wiki/Сулькевич,_Матвей_Александрович

**Cəlal Qasımov**

# CÜMHURİYYƏTİN TƏHLÜKƏSİZLİK ORQANLARI

(1918-1920)

Bakı-2018